AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

İLKİN RÜSTƏMZADƏ

# AZƏRBAYCAN NAĞILLARININ SÜJET GÖSTƏRİCİSİ

## (Aarne-Tompson sistemi əsasında)

BAKI – 2013

**Azərbaycan Milli Elmlər Akademiyası
Folklor İnstitutunun Elmi Şurasının
qərarı ilə çap olunur.**

**Elmi redaktor:** **Əfzələddin Əsgər**
Filologiya üzrə fəlsəfə doktoru

**Rəyçilər:** **Muxtar Kazımoğlu (İmanov)**
Filologiya üzrə elmlər doktoru
**Oruc Əliyev**
Filologiya üzrə fəlsəfə doktoru

**Nəşrinə məsul:** **Əziz Ələkbərli**
Filologiya üzrə fəlsəfə doktoru

**İlkin Rüstəmzadə. Azərbaycan nağıllarının süjet göstəricisi.** Bakı, «Elm və təhsil», 2013, 368 səh.

Kitabda folklorşünaslıq tarixində ilk dəfə olaraq Azərbaycan nağıl süjetlərinin sistemli göstəricisi verilib. Göstərici beynəlxalq aləmdə geniş tətbiq olunan Aarne-Tompson sistemi əsasında hazırlanıb. Süjetlərin bölgələr üzrə yayılmasını əks etdirən coğrafi göstərici, Azərbaycan və Türkiyə nağıllarının müqayisəli cədvəli verilməklə nağıl süjetləri haqqında dolğun təsəvvür yaradılıb.

folklorinstitutu.com

R $\frac{3202050000}{098 - 2013}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2013
© İlkin Rüstəmzadə, 2013

## BAŞLIQLAR

**Ön söz** ........................................................................ **6**

**AZƏRBAYCAN NAĞILLARININ SİSTEMLƏŞDİRİLMƏSİ**
**1. Nağılların sistemləşdirilməsi tarixi** ...................................... **9**
**2. Nağılların sistemləşdirilməsi problemləri** ......................... **20**
2.1. Dini nağıllar .................................................................... 20
2.2. Axmaq div (şeytan) haqqında nağıllar ............................ 29
2.3. Zəncirvari nağıllar ........................................................... 31
2.4. Bahadırlıq nağılları .......................................................... 36
2.5. Kontaminasiya hadisəsi .................................................. 51
**3. Azərbaycan nağıllarının süjet tərkibi** ................................ **57**
**Şərti ixtisarlar** ......................................................................... **79**

**I. HEYVANLAR HAQQINDA NAĞILLAR (1-299)**
1-99. Vəhşi heyvanlar ............................................................. 85
1-69. Tülkü ........................................................................... 85
70-99. Başqa vəhşi heyvanlar ............................................... 91
100-149. Vəhşi heyvanlar və ev heyvanları ............................. 93
150-199. İnsan və vəhşi heyvanlar .......................................... 97
200-219. Ev heyvanları .......................................................... 102
220-274. Quşlar və balıqlar .................................................... 104
275-299. Digər heyvanlar (əşyalar, bitkilər və təbiət hadisələri) .106

**II. SEHRLİ NAĞILLAR (300-749)**
300-399. Qeyri-adi düşmən .................................................... 110
400-459. Sehrli ər (arvad, yaxud başqa qohum) ..................... 124
460-499. Qeyri-adi tapşırıq .................................................... 140
500-559. Qeyri-adi köməkçi ................................................... 146
560-649. Qeyri-adi əşya ......................................................... 163

650-699. Qeyri-adi güc, yaxud bilik (bacarıq)....................... 171
700-749. Başqa qəribə hadisələr ............................................ 179

## III. DİNİ NAĞILLAR (750-849)

750-779. Allah mükafatlandırır və ya cəzalandırır ................ 185
780-799. Həqiqət üzə çıxır..................................................... 199
800-809. İnsan o dünyada ...................................................... 203
810-814. Əzrayıl və əcəli çatmış insanlar .................................... 205
815-826. Şeytan ................................................................. 206

## IV. NOVELLAVARİ NAĞILLAR (850-999)

850-869. Şahzadə qızla evlənmə............................................ 220
870-879. Şahzadə oğlana (padşaha) ərə getmə ...................... 225
880-899. Sədaqət və günahsızlıq ........................................... 231
900-909. İnadkar arvad və ya qızın yumuşalması ................. 240
910-919. Xeyirxah məsləhətlər.............................................. 242
920-929. Ağıllı iş və hikmətamiz söz .................................... 247
930-949. Tale ........................................................................ 263
950-973. Oğrular və quldurlar .............................................. 271
974-999. Başqa novellavari nağıl süjetləri............................ 275

## V. AXMAQ DİV (ŞEYTAN) HAQQINDA NAĞILLAR (1000-1199)

1000-1029. Nökər ağa ilə (şeytanla) haqq-hesab çəkir.......... 287
1030-1059. İnsanın şeytanla şərikli işi: insan şeytanı aldadır...... 288
1060-1114. Divlə (şeytanla) yarış .......................................... 289
1115-1144. İnsanı öldürmək üçün divin (şeytanın) uğursuz cəhdi ................................................................ 290
1145-1169. Hürküdülmüş div (şeytan, ilan) .......................... 292
1170-1199. İnsan hiylə ilə şeytandan (Əzrayıldan) xilas olur. .... 293

**VI. LƏTİFƏVARİ NAĞILLAR (1200-2400)**


1200-1349. Axmaq və sadəlövh adamlar................................295
1350-1379. Ər-arvad............................................................296
1380-1404. Axmaq arvad və onun əri...................................299
1405-1429. Qəddar, tənbəl, hiyləgər arvadlar və onların ərləri .301
1430-1439. Axmaq arvad və axmaq ər..................................303
1440-1449. Qadınlar (qızlar) ................................................304
1450-1474. Gəlin axtarışında..................................................305
1475-1499. Qarımış qızlar .....................................................305
1500-1524. Başqa qadınlar ....................................................305
1525-1639. Hiyləgər və zirək adamlar...................................306
1640-1674. Təsadüfi xoşbəxtlik.............................................323
1675-1724. Axmaqlar ............................................................327
1725-1849. Mollalar (darğalar, qazılar).................................329
1850-1874. Digər zümrələr....................................................333
1875-1999. Uydurmalar..........................................................336


**VII. ZƏNCİRVARİ NAĞILLAR**


2000-2199. Formulvari zəncirləmələr ....................................340
2200-2249. Epik zəncirləmələr..............................................343
2300-2399. Başqa zəncirvari nağıllar ....................................343

**VIII. BAHADIRLIQ NAĞILLARI....................................344**
**IX. COĞRAFİ GÖSTƏRİCİ ................................................353**
**X. KONTAMİNASİYALARIN SİYAHISI .......................360**
**XI. AZƏRBAYCAN VƏ TÜRKİYƏ NAĞIL SÜJETLƏRİNİN MÜQAYİSƏLİ CƏDVƏLİ ..................363**

## ÖN SÖZ

Bu və ya digər xalqın folklor mətnlərinin kataloqlaşdırılması toplama materiallarının sayının artması ilə birbaşa bağlıdır. Çünki folklor örnəklərinin və onların çap olunduğu topluların sayının artması həm onlardan istifadəni çətinləşdirir, həm də lazımi materialın axtarılmasına günlərlə vaxt sərf edilməsinə səbəb olur. Sistemləşdirmə isə mövcud materiallar arasındakı pərakəndəliyi aradan qaldırmaqla həm vaxt itkisinin qarşısını alır, həm də tədqiqatçılar axtardıqları süjetin kataloqdakı nömrəsini tapmaqla onun hansı mənbələrdə çap olunması, nə kimi variantlarının olması, hansı süjetlərlə kontaminasiyaya girməsi və hansı bölgələrdən qeydə alınması haqqında məlumat əldə etmiş olurlar.

Sistemləşdirmənin üstünlükləri təkcə bununla qurtarmır. Sistemləşdirmə olmadan epik janrların süjet tərkibini üzə çıxartmaq, süjet və motivlərin qarşılıqlı əlaqəsini öyrənmək, nağıl repertuarının formalaşmasında yad təsirləri aşkar etmək mümkün deyil. Folklor nümunələrinin təsnifatı həm də müxtəlif toplulardakı materialların dəqiq qeydiyyatını aparmağa, onların mənbələri haqqında dəqiq məlumat verməyə imkan verir. Bu kimi xüsusiyyətlərinə görə, sistemləşdirmə bütün dövrlərdə aktual məsələlərdən biri olmuş və bir çox konfranslar məhz bu sahədə mövcud problemlərin həllinə həsr olunmuşdur.

Azərbaycanda nağıllarının kataloqlaşdırılması fikrinin XXI əsrin əvvəlində yaranması səbəbsiz deyil. Sovet İmperiyasının son illərindən başlayaraq Azərbaycanda şifahi irsin toplanmasına maraq xeyli artır və bir-birinin ardınca "Şah Abbasın arvadı", "Vətən qürbətdə qaldı", "Allah yıxan evi qızlar tikər", "Bu yurd bayquşa qalmaz" topluları çap olunur. Folklor İnstitutunun

təşkilindən sonra bu iş daha da vüsət alır, folklor nümunələrinin regionlar üzrə toplanmasının əsası qoyulur və bunun nəticəsi olaraq Azərbaycan folkloru antologiyası seriyasından buraxılan kitabların nəşrinə başlanır. Toplanan materialların sayının artması isə öz növbəsində, onların sistemləşdirilməsi zərurətini yaradır.

Bununla əlaqədar, 2001-ci ildə Azərbaycan nağıllarının süjet kataloqunun yaradılması bizə həvalə olunmuşdur. Bu işin reallaşdırılması üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

– Nağılların süjetlərə görə sistemləşdirilməsi təcrübəsi elmə ilk dəfə fin məktəbi tərəfindən gətirildiyi üçün bu məktəbin, onun nəzəri və praktik görüşlərinin, Aarne göstəricisinin yaranma səbəblərinin öyrənilməsi;

– Aarne-Tompson göstəricisi və bu göstərici əsasında tərtib olunmuş milli kataloqların öyrənilməsi, kataloqlaşdırma sahəsində mövcud beynəlxalq təcrübənin mənimsənilməsi;

– Aarne-Tompson sisteminin Azərbaycan nağıllarına tətbiqinin mümkünlüyünün müəyyənləşdirilməsi və həmin sistem əsasında Azərbaycan nağıl süjetlərinin kataloqunun hazırlanması;

– Bu sistemdən kənarda qalan bahadırlıq nağıllarının janr xüsusiyyətlərinin öyrənilməsi və onların kataloqda müstəqil qrup şəklində təmsil olunmasının səbəblərinin izah edilməsi;

– Azərbaycanın coğrafi sərhədlərindən kənardakı tarixi torpaqlardan toplanmış nümunələri göstəriciyə daxil etməklə Azərbaycan folklor coğrafiyasının tam əhatə olunması;

– Kontaminasiya olunmuş süjetlərin siyahısının və süjetlərin bölgələr üzrə yayılmasını əks etdirən göstəricilərin tərtib edilməsi.

Təəssüflər olsun ki, dissertasiya üzərində işləyərkən Aarne-Tompson kataloqunu Azərbaycana gətirtmək mümkün olmadı.

Ona görə biz dissertasiya işində birbaşa kataloqun özünə deyil, həmin sistem əsasında yaranan kataloqlara – Aarne-Andreyev və Şərqi slavyan nağıllarının müqayisəli süjet göstəricisinə (qısa adı SUS) istinad etmişdik. Həmçinin T.D.Kurdovanidzenin "Gürcü sehrli nağıllarının süjet və motivləri (Aarne-Tompson üzrə sistemli göstərici)", K.Arays və A.Mednenin "Latış nağıllarının süjet göstəricisi"ndən də istifadə etmiş və bir çox süjetlərin qarşılığını həmin kataloqlar əsasında müəyyənləşdirmişdik.

Yalnız 2008-ci ildə türkiyəli tədqiqatçı Ali Berat Alptəkinin köməyi ilə Aarne-Tompson kataloqunun 1964-cü ildəki nəşrini əldə edə bildik və bu kitab çapa hazırlanarkən süjet nömrələrini həmin kataloq əsasında bir daha dəqiqləşdirdik.

Milli kataloqların hazırlanmasını həm də türk xalqlarının müqayisəli süjet kataloqunun yaradılması yolunda atılan bir addım saymaq olar. Şərqi Slavyan xalqları üçün belə bir işin görülməsi və bu sahədə müəyyən təcrübənin olması gələcəkdə türk xalqları üçün də belə bir kataloqu tərtib etməyə imkan verir. Bu tip kataloqlar qohum xalqların nağıl repertuarındakı oxşar və fərqlilikləri üzə çıxartmaqla yanaşı, onların müqayisəli öyrənilməsinə də təkan vermiş olacaq.

Sonda bu işdə bizə kömək etmiş hər bir şəxsə, xüsusən də elmi rəhbərim fil.ü.f.d. Əfzələddin Əsgərə, Aarne-Tompson kataloqunu əldə etməkdə göstərdiyi köməyə görə Ali Berat Alptəkinə dərin minnətdarlığımı bildirirəm.

# AZƏRBAYCAN NAĞILLARININ SİSTEMLƏŞDİRİLMƏSİ

## §1. Nağılların sistemləşdirilməsi tarixi

Fin məktəbinin nümayəndələri folklor nümunələrinin araşdırılması zamanı coğrafi-tarixi metoddan istifadə edirdilər. Həmin metodun köməyilə onlar süjet və motivlərin coğrafi istiqamətdə inkişafını izləyir, onun əmələ gəldiyi məkan və zamanı tapmağa, forma xüsusiyyətlərini müəyyənləşdirməyə çalışırdılar. Bunun üçün ilk növbədə süjet və motivlərin bütün bölgələri və regionları təmsil edən variantlarının əldə edilməsi, onlar üzərində müqayisələrin aparılması tələb olunurdu. Arxiv materiallarının dağınıqlığı folklor örnəklərinin toplanması zamanı vaxt itkisinə səbəb olurdu ki, bu da istər-istəməz nağılların sistemləşdirilməsinə ehtiyac yaradırdı. Bunu nəzərə alan Beynəlxalq Folklorşünaslar Federasiyası bu işi nağıl janrı üzərində araşdırmaları ilə tanınan Antti Amatus Aarneyə həvalə edir.

A.Aarne, əsasən, fin, qismən də Qrimm qardaşlarının Almaniya, S.Qrundviqin Danimarkadan topladığı nağıllardan istifadə etməklə nağıl süjetlərinin kataloqunu hazırlayır və onu 1910-cu ildə Federasiyanın mətbu orqanı olan FFC (Folklore Fellow Communications) jurnalının III sayında alman dilində nəşr etdirir. "Göstərici"də nağıllar üç əsas qrupa bölünüb:

I. Heyvanlar haqqında nağıllar

II. Əsl nağıllar

III. Zarafat və lətifələr

Əsl nağıllar isə dörd yerə ayrılıb:

A. Sehrli nağıllar

B. Dini nağıllar

C. Novellavari nağıllar

D. Axmaq şeytan haqqında nağıllar

Qrupların özləri isə baş rolun ifaçısına və mövzularına görə yarımqruplara ayrılıb. Məsələn, heyvanlar haqqında nağıllar vəhşi heyvanlar (1-99), vəhşi heyvanlar və ev heyvanları (100-149), insan və vəhşi heyvanlar (150-199), ev heyvanları (200-219), quşlar (220-249), balıqlar (250-274), digər heyvanlar (275-299) olmaqla yeddi yarımqrupa bölünüb. Sehrli nağıllar isə tərkibində iştirak edən fantastik elementlərə görə yarımqruplara ayrılıb. Əgər eyni nağılın tərkibində bir neçə fantastik element iştirak edirsə, bu zaman onlardan hansının aktiv olması əsas götürülüb.

Aarne kataloqunda sistemləşdirmə süjetlər üzrə aparılıb. Nağıllar süjetlərə bölünüb, hər süjet üçün müstəqil nömrə ayrılıb. Nömrənin qarşısında süjetin təsviri, təsvirin altında isə onun yerləşdiyi mənbələr göstərilib. Süjetlərin variant fərqlərini göstərmək üçün isə latın əlifbasına məxsus hərflərdən istifadə olunub. Aarne "Göstərici"ni tərtib edərkən onun bütün nağıl süjetlərini əhatə etmədiyini başa düşürdü. Ona görə də yeni tapılmış süjetləri ora daxil edə bilmək üçün hər qrup daxilində müəyyən sayda boş nömrələr buraxmışdır ki, bu da "Göstərici"nin strukturunu qoruyub saxlamaqla gələcəkdə yeni tapılan süjetlər hesabına onu daha da genişləndirməyə imkan verirdi.

"Göstərici"yə diqqətlə nəzər yetirsək, lətifələrə digər qruplarla müqayisədə daha çox nömrənin ayrıldığını görərik. Təkcə onu xatırlamaq kifayət edər ki, lətifələr üçün nəzərdə tutulmuş nömrələr digər qruplar üçün ayrılmış nömrələrin toplam sayına bərabərdir. Bunun da əsas səbəbi nağıllardan

fərqli olaraq, lətifələrin daha asan əmələ gəlməsi və bu baxımdan lətifə süjetlərinin daha çox ola biləcəyi ehtimalı ilə əlaqədardır.

A.Aarne sistemləşdirmə sahəsində gördüyü işləri sonralar da davam etdirərək 1918 və 1920-ci illərdə FFC jurnalının 23 və 33-cü saylarında daha iki kataloq çap edir. Əsas "Göstərici"yə əlavə olan bu kataloqlarda o, əvvəlki sistemi saxlamaqla yanaşı, daxil etdiyi yeni süjetlər hesabına onu daha da genişləndirir.

A.Aarne göstəricisi, əsasən, Şimali Avropa nağıl süjetlərini əhatə edirdi. 1928-ci ildə Stis Tompson Cənubi Avropadan toplanmış nağıl süjetlərini daxil etməklə onu genişləndirilmiş şəkildə yenidən nəşr etsə də, tədqiqatçıların fikrincə, bir çox xalqlar hələ də göstəricidən kənarda qalmışdır. Bu məsələ 1935-ci ildə Lundda keçirilən beynəlxalq konfransda da müzakirə edilir. Konfrans iştirakçıları bu fikirdə idilər ki, bir çox Asiya xalqlarının nağıl süjetlərini daxil etməklə "Göstərici"nin əhatə dairəsini Hindistana qədər genişləndirmək mümkündür. Bunun üçün lazımi zəmin də yaranmışdır. Aarne "Göstərici"si meydana çıxandan sonra həmin sistem əsasında rus, ispan, island, latış, litva, isveç, alman, italyan, fransız, hind, çex, slovak, macar, rumın nağıl kataloqları nəşr olunmuş, yunan, Kanada, şotland və irland nağıl göstəriciləri çapa hazır vəziyyətə gətirilmişdir. Folklor arxivlərindəki duruma gəldikdə isə, keçən müddət ərzində toplanan yeni nümunələr hesabına arxivlərdəki materialların sayı xeyli artmışdır. Həmin materiallardan istifadə etməklə "Göstərici"nin genişləndirilməsi Amerika folklorşünası Stis Tompsona həvalə olunur.

S.Tompson milli kataloqlardan, ayrı-ayrı nağıl toplularındakı, arxivlərdəki materiallardan istifadə etməklə A.Aarne gös-

təricisini genişlənmiş şəkildə 1961-ci ildə FFC jurnalının 184-cü sayında "The types of the folktale" adı altında çap edir. Müqayisə üçün deyək ki, əgər A.Aarne variantı 66 səhifədən ibarət idisə, S.Tompson variantının həcmi əlavə olunmuş süjetlər hesabına 588 səhifəyə çatmışdır.

S.Tompson Aarne sistemini genişləndirməklə yanaşı, həm də onu təkmilləşdirməyə çalışır. İlk növbədə o, nağılların təsvir sistemində müəyyən dəyişikliklər edir. Çünki Aarne sistemindəki süjetlərin qısa təsviri bəzən onlar haqqında daha dolğun məlumat əldə etməyə imkan vermirdi. Bunu nəzərə alan S.Tompson tərtib etdiyi göstəricidə süjetləri tərkib hissələrinə ayıraraq hər bir hissənin təsviri zamanı latın əlifbasındakı hərflərdən istifadə etməklə onların variant fərqlərini göstərir. Belə təsvirlər nəinki süjet haqqında dolğun informasiya verir, həm də variant fərqlərini göstərmək üçün geniş imkanlar yaradır. Bundan başqa, S.Tompson bəzi süjetlərin təsviri zamanı özünün altı cildlik "Motif İndex" kataloquna istinad etməklə onların motiv göstəricisini də verir. Amma o, bu kimi yeniliklərdən bütün süjetlərdə deyil, daha uzun və mürəkkəb quruluşlu süjetlərin təsviri zamanı istifadə edir.

S.Tompsonun Aarne sisteminə gətirdiyi yeniliklər yuxarıda deyilənlərlə məhdudlaşmır. O, zəncirvari nağılları və təsnifata gəlməyən nağılları ayrıca qrup şəklində verməklə Aarne sistemindəki bölgünü bir qədər genişləndirir. Bu kimi dəyişikliklərdən sonra həmin kataloq beynəlxalq aləmdə Aarne-Tompson göstəricisi (bundan sonra AT) kimi tanınmağa başlayır.

Unutmaq olmaz ki, bu sistemin tətbiq dairəsi müəyyən ərazi ilə məhdudlaşır. S.Tompson "Motif İndex"ə yazdığı ön sözdə bu sistemin Avropa, Şimali Afrika və Hindistanda yaşayan xalqların nağıl süjetlərini kataloqlaşdırmağa imkan

verdiyini, bu arealdan kənarda qalan Mərkəzi Afrika, Okean və Amerika xalqlarının nağıllarına tətbiqinin qeyri-mümkün olduğunu yazır[1]. O zaman belə bir sual yaranır: bir çox xalqların AT-dən kənarda qalmasının səbəbi nədir? Y.Hautala bunu ibtidai xalqlarda mif, nağıl və rəvayətlər arasında sərhədlərin qeyri-müəyyən olması, bu səbəbdən onları sivil xalqların nağılları ilə eyni sistemə uyğunlaşdırmağın mümkün olmaması ilə əlaqələndirir[2]. V.M.Jirmunski isə belə hesab edir ki, Avropa, Asiya və Şimali Afrika xalqları arasında tarixi mədəni-iqtisadi əlaqələr nəticəsində ümumi xüsusiyyətləri olan mədəni areal formalaşmışdır. Bu areal daxilində yerləşən xalqların nağıl repertuarının eyni süjetlərdən təşkil olunması Aarne-Tompson sisteminin onlara tətbiqini mümkün edir. V.M.Jirmunski hətta bu arealın sərhədlərini müəyyənləşdirməyə çalışır, onun şərqdən İndoneziyanın Sulavesi rayonuna, cənubdan isə Sudana qədər uzandığı qənaətinə gəlir. Onun fikrincə, mədəni arealın sərhəddinə doğru yönəldikcə fərqlər artır, sərhəddən kənara çıxdıqda isə bu sistem tamamilə faydasız olur[3].

AT kataloqu nağılların süjetlər üzrə ilk sistemləşdirmə təcrübəsi olduğundan, şübhəsiz ki, qüsurlardan xali deyildir. “Göstərici”də yarımqruplara bölgü zamanı vahid prinsip gözlənilməyib və təsnifat bir-birini inkar etməyən əlamətlər əsasında aparıldığı üçün kəsişən bölgü yaranıb. Məsələn, AT

[1] Thompson S. Motiv-index of folk literature. vol. I, Copenhagen, 1955, p.3
[2] Hautala J. Finnish folklore research. 1828-1918. Helsinki, 1968, p.149
[3] Жирмунский В.М. К вопросу международных сказочных сюжетах / Историко-филологические исследования. Сб. статей к 70-летию академика Н.И Конрада. М.: Наука, 1967, с.289

kataloqunda sehrli nağıllar 7 yarımqrupa bölünüb: qeyri-adi düşmən (300-399), qeyri-adi ər və yaxud arvad (400-459), qeyri-adi tapşırıq (460-499), qeyri-adi köməkçi (500-559), qeyri-adi əşya (560-649), qeyri-adi güc və bilik (650-699), başqa möcüzəli motivlər (700-749). İlk baxışdan belə bir təəssürat yaranır ki, bölgü bir-birini inkar edən əlamətlər əsasında aparılıb. Əslində belə deyildir. Sehrli nağıllarla tanış olan hər bir şəxs çox gözəl bilir ki, qəhrəman qeyri-adi düşmən üzərində sehrli əşya və ya köməkçinin köməyi ilə qələbə çalır, çətin tapşırıqları onların köməyi ilə yerinə yetirir. Bu cür şərtiliklər süjetlərin göstəricidəki yerini dəqiq təyin etməyə imkan vermir və tədqiqatçılar axtardıqları süjeti tapa bilmək üçün bütün yarımqrupları nəzərdən keçirmək məcburiyyətində qalırlar.

"Göstərici"də yarımqruplara bölgü, əsasən, baş rolun ifaçısına görə aparılıb. Baş rolun ifaçısının variantdan asılı olaraq dəyişməsi bəzən eyni süjetin müxtəlif kataloqlarda ayrı-ayrı yarımqrupların tərkibində verilməsinə səbəb olub. Nümunə üçün "Pişiyin yeganə bacarığı" (AT 105) süjetinə diqqət yetirək. Süjetin AT kataloqundakı təsviri belədir: *Pişik yeganə bacarığını işlədərək kənddəki təhlükədən xilas olur; tülkü (dovşan) yüz hiylə bilir, lakin yenə də ələ keçir.* Bu süjetin Azərbaycan variantında əsas iştirakçılar Sovet və İran tülküsüdür. İran tülküsü yüz fənd bilir, amma bu, onun karına gəlmir. Sovet tülküsündən öyrəndiyi bir fəndi işlədib təhlükədən xilas olur. AT kataloqundakı variant baş rolun ifaçısına görə "Vəhşi heyvanlar və ev heyvanları" yarımqrupuna uyğun gəlirsə, bizdəki variant "Vəhşi heyvanlar" yarımqrupuna uyğun gəlir.

Nağıl janrının əlamətlərinin dəqiq bəlli olmaması, bəzən qeyri-nağıl nümunələrinin də "Göstərici"yə daxil edilməsinə

səbəb olmuşdur. "Qurd, keçi və kələmin çaydan keçirilməsi" süjeti buna misal ola bilər: *Qayıqçı qurdu, keçini və kələmi bir-bir çayın o biri sahilinə keçirməlidir; amma bunu elə etməlidir ki, nə qurd keçini yesin, nə də keçi kələmi.* AT kataloqunda lətifələr bölməsində verilən bu süjet əslində tapmaca nümunəsidir. Verilən nümunədən başqa "Göstərici"də lətifə, mif, rəvayət və epik növün digər janrlarına dair süjetlərə də təsadüf etmək mümkündür.

"Göstərici"nin əsas qüsurlarından biri də süjetlərə görə təsnifat prinsipinin axıra qədər gözlənilməməsidir. «Axmaq şeytan haqqında nağıllar» qrupunda, "Sadəlövh adamlar" və "Uydurmalar" yarımqrupunda təsnifat süjetlər üzrə deyil, ayrı-ayrı epizodlara və motivlərə görə aparılıb. Rus nağıllarının süjet götəricisini hazırlamış N.P.Andreyev bunu həmin qruplara daxil olan nağılların dəyişkən elementlərdən təşkil olunması ilə izah edir. Onun fikrincə, bu tip nağıllarda bütün kombinasiyanı deyil, onun ayrı-ayrı elementlərini vermək praktik baxımdan daha faydalıdır[4].

Bu kimi qüsurlara görə "Göstərici" 1969-cu ildə antropologiya və etnoqrafiya elmlərinin VII beynəlxalq konfransında da ciddi tənqidlərə məruz qalır. Konfrans iştirakçıları bu fikirdə idilər ki, "Göstərici" müasir elmi tələblərə cavab vermədiyi üçün elmi auditoriyanı təmin edəcək daha mükəmməl bir sistemin yaradılmasına ehtiyac vardır. V.P.Anikinin konfransdakı çıxışı bu baxımdan xüsusi maraq doğurur. Aarne-Tompson sistemi haqqında o, bunları demişdir: "Öz dövründə o, müxtəlif nağıl materiallarını şərti təsnifat sistemi daxilində yerləşdirməyə kömək etmişdir. Bu sistem paralellik, oxşarlıq

[4] Андреев Н.П. Указатель сказочных сюжетов по системе Аарне. Л. 1929, с.8

və bənzərlik axtarmağa yardım etmiş, nağılların beynəlxalq aspektdə öyrənilməsini asanlaşdırmışdır. Nəzərə alsaq ki, ona qədər heç bir sistem olmamışdır, onda bu təsnifatın müvəffəqiyyətini başa düşmək olar. Aarne sistemi ilk elmi təsnifat təcrübəsi kimi elmin inkişafına müsbət təsir göstərmişdir. Hamı bu sistemin qüsurlarını qeyd etsə də, onu ciddi şəkildə təkmilləşdirmək və dəyişdirmək üçün demək olar ki, heç kim heç nə etmir. Bu cür yanaşma dözülməzdir. Afrika və Asiya xalqlarının yeni-yeni nağıl folkloru ildən-ilə elmi axtarışlar müstəvisinə cəlb olunur, amma Avropa nağıl materialının təhlili əsasında yaranmış təsnifat sistemi daha çox prokrust yatağına (hər şeyi bir əndazəyə salmaq – İ.R.) bənzəyir[5]".

Belə bir ehtiyac üzündən hələ konfransdan əvvəl yeni təsnifat prinsipləri verilməyə başlayır, konfransdan sonra isə bu iş daha da vüsət alır və V.Y.Propp[6], V.M.Meletinski[7], B.P.Kerbelite[8] tərəfindən müxtəlif təsnifat prinsipləri irəli sürülür. Lakin həmin təsnifat prinsipləri ya praktik tətbiqini tapmadığı, ya da bütün materialı əhatə etmədiyi üçün geniş yayıla bilmirlər.

Türk xalqları içərisində ilk milli kataloqun tərtibi Türkiyə türklərinin adı ilə bağlıdır. 1953-cü ildə Almanıyada P.N.Boratavla alman alimi V.Eberhardın birgə hazırladığı Türkiyə nağıl-

---

[5] Аникин В.П. Классификация сказок / Труды VII международного конгресса антропологических и этнографических наук. Москва, 3-10 августа 1964г., т. VI, 1969, с.411

[6] Пропп В.Я. Морфология сказка. Изд. 2-е, М.: Наука, 1969, 168 с.

[7] Мелетинский Е.М. Семантическая организация мифологического повествования и проблема семиотического указателя мотивов и сюжетов / Труды по знаковым системам. Т. 16, Тарту: ТГУ, 1983, с.115-126

[8] Кербелите Б.П. Методика описания структур и смысла сказок и некоторое ее возможности / Типология и взаимосвязи фольклора народов ССР. Поэтика и стилистика. М.: Наука, 1980, с.48-100

larının süjet kataloqu çap olunur. Burada 2600-ə yaxın nağıl mətni incələnir, onlara məxsus 378 süjet təsbit edilir. "Göstərici"nin tərtibi zamanı araşdırıcılar AT sistemindən imtina edir və kataloqlaşdırmanı fərqli prinsiplər əsasında aparırlar. Burada nağıllar baş rolun iştirakçısı və mövzusuna görə 23 qrupa bölünür, hər bir qrup əlifba sırasına uyğun bir hərflə işarələnir. Lakin təklif olunan yeni bölgü nəinki nağıl süjetləri arasındakı yaxınlığı izləməyə imkan vermir, həm də fərqli kompozisiyalı süjetlərin baş rolun ifaçısına və mövzu oxşarlığına görə eyni qrupda verilməsinə səbəb olur. Məsələn, "Armudan bəy" (545B), "Heyvanların qız qaçırması" (546*) kimi sehrli nağıl süjetləri heyvanlar haqqında nağıllarla eyni qrupda, "Divin canı göyərçindədir" (302), "O dünyadan xəbər gətirmək" (465C), "Kürəkən div" (532A), "Əhmədi Çekkaş" (562) kimi sehrli nağıl süjetləri isə novellavari nağıllarla eyni qrupda verilmişdir.

Göstəricinin ən pis tərəflərindən biri də boş nömrələrin nəzərdə tutulmamasıdır. Bu da onu gələcəkdə toplanacaq yeni nağıllar hesabına genişləndirmək imkanından məhrum etmişdir.

Digər türk xalqları arasında başqırd və tatarlar da nağılların sistemləşdirilməsi sahəsində müəyyən işlər görmüşlər, lakin bütün nağıl materialını əhatə edəcək bir göstəriciyə sahib olmaları haqqında bilgimiz yoxdur.

Azərbaycana gəldikdə, burada süjetlərə görə sistemləşdirmə sahəsində indiyə qədər elə bir ciddi araşdırma aparılmayıb. Yalnız ayrı-ayrı nağıl toplularının sonunda nağılların süjet göstəricisinin verilməsinə rast gəlirik. İlk dəfə belə bir göstərici A.B.Baqri və H.Zeynallının tərtib etdiyi "Azərbaycan

türk nağılları” toplusunda verilir[9]. Topluda hər bir nağılın Aarne-Andreyev və Bolte-Polivka göstəricilərinə uyğun süjet nömrəsi verilir. Tərtibçilər nağılların süjet nömrələrini göstərməklə kifayətlənmir, həm də onların söyləyiciləri, toplayıcıları, qeydə alındığı məkan, digər Qafqaz xalqlarındakı variantları haqqında da məlumat verirlər. İlk dəfə çap olunan nağıllarda əlyazmanın saxlandığı yer, təkrar çap olunan nağıllarda isə onların ilkin nəşrləri göstərilir.

Topluya daxil edilmiş 72 nağıldan yalnız 15-nin qarşılığı tapılmayıb, qalan süjetlərin isə Aarne-Andreyev və Bolte-Polivka göstəricilərindəki nömrəsi verilib. Topluda əksər süjetlərin qarşılığı çox uğurlu şəkildə müəyyən edilsə də, qüsurlar və yanlışlıqlar da yox deyildir. Nəzərə çarpan əsas qüsurlardan biri kontaminasiyaların düzgün müəyyənləşdirilməməsidir. Məsələn, həmin topluda çap olunmuş “Fatma və Kiyav” nağılı “Bacı və qardaş” (450), “Analıq və ögey qız” (480) və “Göyçək Fatma” (510A) süjetlərindən təşkil olunduğu halda, ancaq bir süjet (AA 450) qeydə alınıb. Eyni vəziyyət kontaminasiyalardan təşkil olunmuş digər nağıllarda da müşahidə olunur. Məsələn, “Danışmayan qız” (559), “Dülgər, dərzi və molla” (661*), “Üç qardaş” (653A) və “Həmayil üstündə mübahisə” (1406) süjetlərindən təşkil olunmuş “Məlik Məmməd” nağılında 559, “Arvad tayfasına etibar yoxdur” (1426), “Şah Abbasın arvadları qırdırması” (895*), “Tilsimlənmiş şəhər” (410*) və “Dövlət quşu” (567) süjetlərindən təşkil olunmuş “Şəhrəbanu” nağılında isə 895 nömrəli süjet qeydə alınıb, digər süjetlər göstərilməyib.

[9] Азербайджанские тюрские сказки / Перевод, статъ и коммент. А.Багрия и Х.Зейналлы. М.: Akademiya, 1935, 668 с.

1960-64-cü illərdə çap olunmuş beş cildlik "Azərbaycan nağılları" toplusunun I cildində M.H.Təhmasib tərəfindən nağılların Aarne-Andreyev göstəricisinə uyğun süjet nömrəsi verilir. Göstəricidə qarşılığı verilmiş on iki nağıldan ancaq dördünün süjet nömrəsi düzgün müəyyənləşdirilir, digər nağıllarda isə ciddi yanlışlığa yol verilir. Məsələn, “Şirzad” (2530*), “Mürği-xəndan quşu” (550) və “Sirrin açılması” (525*) süjetlərindən təşkil olunmuş “Ağ quş” nağılı göstəricidə 516-cı, “Dərviş və üç bacı” (311), “Qız və bibisi” (533) süjetlərindən təşkil olunmuş “Üç bacı” nağılı isə göstəricidə 403-cü nömrədə verilir.

Bundan başqa, kontaminasiyalardan təşkil olunmuş nağıllarda süjetlərdən ancaq birinin nömrəsi göstərilir, digər süjetlər isə qeydə alınmır. Məsələn, “Qızıl dağ” (936), “Ər itmiş arvadını axtarır” (400) süjetlərindən təşkil olunmuş “Şahzadə Mütalib” nağılı göstəricidə 936-cı, “Beşikkərtmə uşaqlar” (926C**), “Sehrli toqqa” (582*), “Qız könlünü quldurlara verir” (968A*) və “Güclü adam və onun yoldaşları” (301B) süjetlərindən təşkil olunmuş “İbrahim”in nağılı isə 926-cı nömrədə verilir.

Yuxarıda qeyd olunanlardan əlavə, "Pişik və padşah" (880) kimi bəzi nağıl süjetlərinin Aarne-Andreyev göstəricisində qarşılığı olduğu halda, tərtibçi onların qarşılığının olmadığını qeyd edir.

Göründüyü kimi, göstəricidə bir çox süjetlərin qarşılığı düzgün müəyyənləşdirilməmiş, kontaminasiyaların fərqləndirilməsi zamanı ciddi yanlışlığa yol verilmişdir. Görünür, elə bu səbəbdən toplunun sonrakı cildlərində süjet göstəricisinin verilməsi dayandırılmışdır.

## § 2. Nağılların sistemləşdirilməsi problemləri

Kataloqda nağıllar səkkiz qrupa bölünüb. Bunlardan üçü – heyvanlar haqqında nağıllar, sehrli və novellavari (məişət) nağıllar Azərbaycan folklorşünaslığında müxtəlif illərdə aparılmış təsnifatlarda müstəqil qrup kimi qəbul olunub, istər yerli, istərsə də əcnəbi tədqiqatçıların araşdırmalarında onların kompozisiya xüsusiyyətlərindən kifayət qədər bəhs olunub. Digər qruplara gəldikdə isə Azərbaycan folklorşünaslığı üçün yeni olduğundan onlar haqqında əlavə məlumat verməyə ehtiyac vardır.

**2.1. Dini nağıllar.** Dini nağıllar beynəlxalq aləmdə müxtəlif adlar altında təqdim olunur. AT-də bu qrup "religious tales" (dini nağıllar), Aarne-Andreyev və SUS göstəricilərində isə "Əfsanəvi nağıllar" adı altında verilir. "Əfsanəvi nağıllar" termini rus folklorşünaslığının daxili ənənələrindən irəli gəlir. Belə ki, rus folklorşünaslığında xristianlıq dini ilə bağlı mətnlər əfsanə hesab olunur, bu qrupa məxsus mətnlərdə dini məzmun əsas rol oynadığından Aarne-Andreyev və SUS kataloqlarında onlar "Əfsanəvi nağıllar" adı altında təqdim olunur. Azərbaycan folklorşünaslığında isə əfsanə termini tamamilə fərqli mətnlərə şamil olunduğuna görə həmin terminin Azərbaycan nağıllarına tətbiq edilməsi dolaşıqlıq yaradardı. Bunu nəzərə alaraq, biz haqqında bəhs olunan qrupu AT-dəki kimi dini nağıllar adlandırmağı daha məqsədəuyğun sayırıq.

AT-də dini nağıllar 750-850-ci nömrələr arasında verilib. Lakin bu qrup haqqında təsəvvürlərin azlığı, kompozisiya xüsusiyyətlərinin lazımınca öyrənilməməsi onun süjet tərkibinin müəyyənləşməsinə də təsirsiz ötüşməyib. Bununla əlaqədar, adı çəkilən "Göstərici"də bu qrupa məxsus bir çox süjetlərə

sehrli və novellavari nağıllar bölməsində rast gəlirik. Məsələn, həmin "Göstərici"də Süleyman peyğəmbərlə bağlı süjetlər novellavari, Əzrayılla bağlı bir çox süjetlər isə sehrli nağıllar bölməsində verilib.

Rus folklorşünaslığında dini nağıllara bir çox araşdırmalar həsr olunub, onların kompozisiya xüsusiyyətləri, əmələ gəlmə və inkişaf tarixi öyrənilib, yazılı və şifahi qaynaqların bu qrupun süjet tərkibinin formalaşmasında rolu araşdırılıb[10]. Təəssüflər olsun ki, həmin sözləri Azərbaycan folklorşünaslığı haqqında demək mümkün deyildir. İndiyədək aparılmış təsnifatlarda dini nağıllar müstəqil qrup kimi qəbul olunmadığından onlar hansısa bir araşdırmanın mövzusu olmayıb. Bunu nəzərə alaraq, biz bu qrupun kompozisiya xüsusiyyətləri, onun süjet tərkibi, digər qruplarla qarşılıqlı əlaqəsi haqqında müəyyən təəssürat yaratmağa çalışacağıq. Təbii ki, dini nağılların kompozisiya xüsusiyyətlərinin öyrənilməsini bir yarımbaşlığa sığışdırmaq mümkün deyildir. Bu qrupun əlamətlərinin tam öyrənilməsi, dini kitabların onun süjet tərkibinin formalaşmasındakı rolunun üzə çıxarılması ayrıca bir araşdırmanın mövzusudur. Burada yalnız mövzunun sərhədləri daxilində həmin problemi işıqlandırmağa çalışacağıq.

Sovet folklorşünaslığında dini nağıllara münasibətdə tədqiqatçılar müxtəlif mövqedən çıxış edirlər. A.İ.Nikiforov "Nağıl, onun yaşamı və daşıyıcısı" adlı araşdırmasında dini məzmun kəsb edən mətnləri nağıl qruplarından biri kimi səciyyələndirir. Onun fikrincə, həmin mətnlər nağıllarla əfsanələr arasında ortaq mövqe tutsa da, nağıllara məxsus xüsu-

[10] Пропп В.Я. Легенда / Поэтика фольклора. Собрание трудов, М.: Лабиринт, 1998, с.269-300

siyyətlər daşıdığı üçün onları bu janra daxil etmək daha məqsədəuyğundur[11].

V.Y.Propp isə söyləyicinin mətnin gerçəkliyinə inanmasını əsas gətirərək dini nağılları əfsanələrə aid edir[12].

Dini nağıllarda cərəyan edən hadisələrin gerçəkliyinə inam Azərbaycan mətnlərində də müşahidə olunur. Əsas iştirakçıların dini şəxsiyyətlər olması və söyləyicinin bu mətnlərin "Quran"dan gəldiyini güman etməsi bu tip mətnlərin gerçəkliyinə inam yaradan amillərdir. Məsələn, Ağdaş rayonundan qeydə alınmış bir nümunədə söyləyici mətnin gerçəkliyinə münasibətini belə ifadə edir: "Allah-talaya qurban olum, rəvayətlərə baxanda görürsən ki, uyğun gəlir. İndi onun yarısı yalan olsa da, elə qanıram ki, otuz, otuz beş faizi həqiqətdi"[13]. Yaxud, "Bax, bu da gerçəkdi, çünki bunlar Quran kitabındadı"[14]. Bu səbəbdən, söyləyici bu tip mətnləri nağıl deyil, rəvayət kimi təqdim edir və tez-tez "rəvayətdə belə şeylər çoxdu", "hə, belə bir rəvayət eşitmişəm", "bunnan da rəvayət qutardı" və s. kəlmələrini işlədir.

Dini nağılları əfsanələrə yaxınlaşdıran təkcə mətnin gerçəkliyinə inam deyil, həm də bu mətnlərin əfsanələr kimi etioloji xarakter daşımasıdır. Məsələn, Ağdaş rayonundan qeydə alınmış bir nümunədə Həzrət Əli quyuya düşüb qırx gün, qırx gecə divlərlə vuruşur. Mətndə deyilənə görə, o vaxtdan da yer

---

[11] Никифоров А.И. Сказка, ее бытование и носители / Минц С.И. Померанцева Э.В. Русская фольклористика. Хрестоматия. М.: Высш школа, 1971, с.299

[12] Пропп В.Я. Легенда / Поэтика фольклора. Собрание трудов, М.: Лабиринт, 1998, с.283

[13] Azərbaycan folkloru antologiyası, XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s.327

[14] Yenə orada, s.321

üzündə divlərin kökü kəsilir[15]. Həmin bölgədən qeydə alınmış başqa bir nümunədə isə bayquş Süleyman peyğəmbəri quş sümüyündən ev tikdirmək fikrindən daşındırır, bunun qarşılığında peyğəmbər ona gündə üç sərçə ruzu təyin edir[16].

Sadalanan əlamətlər dini nağıllarla əfsanələri bir-birinə yaxınlaşdırsa da, onları fərqləndirən bir sıra ciddi səbəblər də vardır. Əvvəla, dağ, çay adlarının, kosmik fəza cisimlərinin, heyvan və quşların yaranmasından bəhs edən əfsanələr informativ funksiya daşıdığı üçün poetik cəhətdən olduqca zəif olurlar. Dini nağıllar isə didaktiv, ibrətamiz funksiya daşıyır və poetik cəhətdən kifayət qədər zəngin mətnlərdir. Digər tərəfdən, əfsanələrdə hadisələr konkret məkan daxilində, dini nağıllarda isə qeyri-müəyyən məkanda cərəyan edir.

Bundan başqa, dini nağılların formalaşmasında nağıllara məxsus üslubi elementlərdən geniş istifadə olunur. Bunların içərisində ən geniş yayılanı hadisələrin inkişafını ləngitmək məqsədilə fəaliyyət və ya gedişlərin üçlənməsidir. Məsələn, “Sal-sal pəhləvan” nağılında Həzrət Əli qızları oğurlamış pəhləvanı öldürməzdən əvvəl onu üç dəfə islam dininə dəvət edir[17]. “Bərəkət surfası” nağılında isə Həzrət Əli xaçpərəstə borcu olan kişiyə kömək etməyi boynuna götürür. Məhəmməd peyğəmbər Həzrət Əlinin fikrində nə qədər qərarlı olduğunu müəyyən etmək üçün ondan üç dəfə xəbər alır, yalnız bundan sonra ona kömək etməyə icazə verir[18].

[15] Azərbaycan folkloru antologiyası, XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s. 264

[16] Yenə orada, s.303

[17] Yenə orada, s.267

[18] Yenə orada, s.261

Üçləmələrdən əlavə, dini nağıllarda nağıllara məxsus epik formullardan da istifadə olunur. Məsələn, söyləyici yolun uzunluğunu təsvir etmək üçün “az gedib, çox gedib”, təhkiyənin həddən artıq uzandığı zaman isə “nə başızı ağrıdım” formulundan istifadə edir. Nağıllara məxsus üslubi elementlərdən istifadə olunması bu mətnlərin əfsanə olması haqqında söylənilən fikirlərin yanlışlığını bir daha göstərir.

Dini nağıllar islam dini ilə bağlı olub, islam ideologiyasının, bu dindən gələn fikir və müddəaların xalq arasında, kütlə içərisində təbliğinə xidmət edir. Bu tip nağıllarda insanlara əliaçıqlıq, qonaqpərvərlik, böyük sözünə qulaq asmaq, naşükür olmamaq və s. bu kimi yüksək mənəvi keyfiyyətlər aşılanır. Məsələn, “Çörəyin savabı” nağılında ac adamı doydurmağın əhəmiyyətindən bəhs olunur. İbrahimxəlil peyğəmbər ondan dəvə istəyən qocaya üç dəvə hədiyyə edir, amma çörək təklif etməyi unudur. Qoca geri qayıdanda yolda çobana rast gəlir. Çoban qocanın ac olduğunu görüb yanındakı çörəyin hamısını ona verir. İbrahimxəlil peyğəmbər gecə yuxuda görür ki, çobanın verdiyi çörəyin savabı onun dəvələrindən daha ağır gəlir[19]. Başqa bir nağılda isə qürrələnməyin mənfi bir hal olduğu təbliğ olunur. İbrahimxəlil peyğəmbər Məkkəni tikdirdiyinə görə qürrələnir. Həzrət Cəbrayıl Allahın tapşırığı ilə onu gecə yatağından götürüb səhraya atır. Ac və susuz qalmış peyğəmbər Məkkənin savabını bir parça çörəklə bir bardaq suya satır[20].

Dini nağılların əsas iştirakçıları peyğəmbərlər və dini şəxsiyyətlərdir. Bu nağıllarda Süleyman, İbrahimxəlil, Musa,

---

[19] Azərbaycan folkloru antologiyası, XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s.271

[20] Qarabağ: folklor da bir tarixdir, I kitab. Bakı: Elm və təhsil, 2012, s.203

Məhəmməd, Həzrət Əli kimi dini şəxsiyyətlərin fəaliyyətindən, onların möcüzələrindən bəhs olunur. İslam ideologiyasını xalq arasında təbliğ etməklə yanaşı, bu nağıllarda həm də islam dininin qanun-qaydalarına xalqın baxışı, münasibəti də öz əksini tapıb. “Çobanın çarıxlı-patavalı namaz qılması” nağılı buna nümunə ola bilər. Nağılda bəhs olunur ki, çoban namazın surələrini düzgün bilmir, “ağ qoyun, qara qoyun, başımı yerə qoyum” deyib namaz qılır. Gəmi ilə Məkkəyə ziyarətə gedən peyğəmbərlərdən biri ona namazın düzgün surəsini öyrədir. Surənin bir kəlməsini unudan çoban suyun üzü ilə peyğəmbərin dalınca qaçır. Peyğəmbər çobanın kəramətini gördükdən sonra ona namazı özü bildiyi kimi qılmağı məsləhət görür[21]. Qısa məzmununu verdiyimiz bu nağılda belə bir fikir təbliğ olunur ki, düzgün qılınmadıqda belə, sidq-ürəkdən, təmiz niyyətlə qılınan namaz Allah tərəfindən qəbul olunur. İslam dinində isə düzgün qılınmayan namaz batil hesab olunur. Bu faktın özü bir daha onu göstərir ki, dini nağıllarda islam ideologiyası ilə yanaşı, islam dininin qanun-qaydalarına xalqın baxışı da öz əksini tapmışdır.

Dini nağıllar çox vaxt məxsus olduğu xalqın nağıl repertuarı ilə bağlı olur. N.P.Andreyevin rus nağılları əsasında tərtib etdiyi göstəricidə verilmiş 56 dini nağıl süjetindən yalnız 35-nin Aarne göstəricisində qarşılığı tapılmışdır. Eyni vəziyyət Azərbaycan folkloru üçün də xarakterikdir. Azərbaycanda təsbit etdiyimiz 115 dini nağıl süjetindən ancaq 45-inin AT kataloqunda qarşılığına rast gəlirik. Digər nağıl qrupları ilə

[21] Azərbaycan folkloru antologiyası. XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s.325

müqayisədə dini nağıllarda fərqli süjetlərin sayının bu qədər çoxluğunu V.Y.Propp onların milliliyi ilə əlaqələndirir[22].

Dini nağıllar ya söyləyicinin nağılda cərəyan edən hadisələrə öz münasibətini bildirməsi ilə, ya da söyləyicinin nağılın məzmununa uyğun olaraq dediyi atalar sözü və məsəllə tamamlanır. Məsələn, Həzrət Əlinin xeyirxahlığından bəhs edən "Üç manatın misalı" nağılı "Əl tutmaq Əlidən qalıb"[23], zəmiçinin yazını pozmaq üçün etdiyi uğursuz cəhddən bəhs edən "İki sümbülün nağılı" isə "Qismət kimə hardasa, orda da yeməlidi" məsəli ilə tamamlanır[24]. Qonaqpərvərliyin əhəmiyyətindən bəhs olunan "Qəbr əzabı" nağılında isə söyləyici mətni "Qonaxsız ev susuz dəyirmandı", "Qonax yemiyən çörəh artmaz" məsəli ilə bitirir[25]. Söylənilən məsəllərin hər biri nağılın məzmunu ilə bağlı olub orada təbliğ olunan fikri ümumiləşmiş şəkildə ifadə edir.

Bəzən söyləyici nağılın məzmununu öz dövrü, zamanı ilə müqayisə edir və buradan çıxardığı nəticə ilə onu tamamlayır. Məsələn, "İndi həmin zamanadı. Mən özüm-özümə təfsir eliyirəm ha. Babamın sözünü saxlamışam. İndi unu təfsir eliyirəm, görürəm ki, babamın sözdəri düz gəlir"[26]. Yaxud Musa peyğəmbərin allahlıq etməsindən bəhs edən nağılı söyləyici aşağıdakı şəkildə tamamlayır: "İndi, bala, millət gəlif Musa peyğəmbərin döyrünə. Əkən yox, biçən yox, hasil eliyən yox"[27].

---

[22] Пропп В.Я. Легенда / Поэтика фольклора. Собрание трудов, М.: Лабиринт, 1998, с.273

[23] Azərbaycan folkloru antologiyası. XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s.271

[24] Yenə orada, s.268

[25] Yenə orada, s.255

[26] Yenə orada, s. 250

[27] Yenə orada, s.282

Əgər sehrli nağıllarda köməkçi rolunda sehrli əşya və köməkçilər çıxış edirsə, dini nağıllarda həmin funksiyanı peyğəmbərlər və dini şəxsiyyətlər yerinə yetirir. Qəhrəman çətin vəziyyətə düşdükdə peyğəmbərə üz tutur, ondan aldığı məsləhətə uyğun hərəkət edir. Məsələn, "Qazkeçməz körpüsü" nağılında arvadı sözünə baxmayan kişi Musa peyğəmbərə şikayət edir. Onun məsləhəti ilə Qazkeçməz körpüsünə gələn kişi tərsliyi tutmuş qatırın körpüdən keçmək istəmədiyinin şahidi olur. Kişi qatır yiyələrinə məsləhət görür ki, biri qabaqdan dartsın, o biri isə heyvanı arxadan qamçılasın. Qamçı dəyən kimi qatır qaça-qaça körpüdən keçir. Bu hadisənin şahidi olmuş kişi başa düşür ki, Musa peyğəmbər bununla ona arvadını döyməyi məsləhət görüb[28]. Başqa bir nağılda isə gəlin atasının yasında iştirak etmək üçün qayınatasından icazə istəyir. Amma qayınata ərinin icazəsi olmadan onun evi tərk etməsinə razı olmur. Verdiyi qərarın nə qədər düzgün olduğunu müəyyənləşdirmək üçün peyğəmbərə məsləhət edir, peyğəmbər də onu haqlı sayır[29].

Dini nağıllarda ziddiyyətlər islam-kafir, abid-lotu, abid-pozğun qadın, abid-şeytan qarşıdurmaları şəklində verilir. Antoqonist personajlar ya qeyri-islam dinini təmsil edən, ya da öz əməlləri ilə islam dininin ehkamlarına, qanun-qaydalarına qarşı çıxan, onu pozan şəxslər olurlar. Ağdaş rayonundan qeydə alınmış "Abidin arxayınçılığı" nağılında ömrünü Allaha ibadətlə keçirən abidlə pozğun həyat sürən qadının qarşılaşmasını görürük. Allah abidə onun yaratdıqları arasından mundar tapmağı tapşırır. Abid qotur tökmüş itin boynuna ip keçirib Allahın hüzuruna aparanda yolda oynaşı ilə dənizdə

[28] Azərbaycan folkloru antologiyası. XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s.274
[29] Yenə orada, s.275

əylənən qonşusuna rast gəlir. Qonşu iti ondan alır, yaralarını sağaldır. Həmin əməlinə görə Allah pozğun həyat sürən qadını cənnətlə mükafatlandırır, onun yaratdığını mundar hesab edən abidi isə cəhənnəmlik edir[30].

Dini nağılların bir qismini isə Allah – peyğəmbər qarşıdurması əsasında qurulmuş nağıllar təşkil edir. Bu tip nağıllarda peyğəmbər ya allahlıq iddiasına düşür, ya da Allahın bu və ya digər hökmünə qarşı çıxır. "Peyğəmbərin allahlığı" (774D*) süjetində Allah öz yerini bir neçə günlüyə Musa peyğəmbərə verir. Peyğəmbər əvvəl camış yaradır, amma ruzusunu yaratmağı unutduğundan ac heyvan onu yemək istəyir. Peyğəmbər Allahın məsləhəti ilə əlindəki əsanı yerə atır, qamış əmələ gəlir. Camışın üzünü qamışlığa çevirməsi ilə peyğəmbər ondan xilas olur[31]. Başqa bir nümunədə isə Musa peyğəmbər Allahla söhbətləşəndə qismətdən qaçmağın mümkün olduğunu iddia edir. Günorta yayma yeyəcəyini öyrənən peyğəmbər qismətdən qaçmağa çalışır, amma mümkün olmur[32]. Yalnız Musa və Allah arasında deyil, digər peyğəmbərlərlə Allah arasında da bu cür qarşıdurmalara təsadüf etmək mümkündür. Amma həmin oppozisiyalar bir qədər yumuşaq şəkildə təqdim olunur. Allah – peyğəmbər oppozisiyası əsasında qurulan dini nağıllar bir qayda olaraq, Allahın mütləq üstünlüyü, peyğəmbərin öz səhvini anlaması və tutduğu işə peşman olması ilə tamamlanır.

Əsas iştirakçılarının dini şəxsiyyətlər olması, dindən gələn fikir və müddəaların təsdiqinə yönəlmiş olmaları ilk baxışdan bu nağılların kitab mənşəli olması təəssüratını yaradır.

---

[30] Azərbaycan folkloru antologiyası. XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s.245

[31] Yenə orada, s.281

[32] Yenə orada, s.293

Təsadüfi deyil ki, folklorşünaslıqda bir çox tədqiqatçılar həmin zahiri bənzəyişə söykənərək dini nağılların kitab mənşəli olması fikrini irəli sürmüşlər. V.Y.Propp həmin fikirlərə münasibətini bildirərkən yazır ki, xalq əfsanələrində (dini nağıllarda – İ.R.) Əhdi ədid və Əhdi cədidə məxsus personajlar iştirak etsə də, onlar kitab mənşəli deyillər. Bibliya süjeti ilə xalq əfsanələrinin sadə müqayisəsi göstərir ki, xalq nəinki Bibliyanı bilmir, hətta onun haqqında səthi və dolaşıq təsəvvürlərə malikdir[33]. Biz də bu qənaətdəyik ki, dini nağılların formalaşmasında kitabların müəyyən təsiri olsa da, bu süjetlərin böyük əksəriyyəti şifahi ənənədən gəlir, sadəcə xalq həmin süjetlərin əsas iştirakçılarını dini şəxsiyyətlərlə əvəzləməklə onları islam dininə uyğunlaşdırır.

**2.2. Axmaq div (şeytan) haqqında nağıllar.** Sehrli nağıllarda olduğu kimi, axmaq şeytan haqqında nağıllarda da fantastik varlıqlar iştirak edir. Məsələn, "Qorxaq Əhməd" nağılında arvadı tərəfindən evdən qovulmuş qəhrəman yolda divlə qarşılaşır. Əgər sehrli nağıllarda qəhrəman fantastik varlıqlar üzərində köməkçinin və sehrli əşyaların köməyi ilə qələbə çalırsa, burada o, hiylə və kələklə buna nail olur. "Qorxaq Əhməd" (1060) nağılında qəhrəman divlə gücünü sınayır. Daş əvəzinə yumurtanı sıxıb suyunu çıxardır, qoltuğunda gizlətdiyi yumurtanı vəz kimi qələmə verir və s. Div qəhrəmanı özündən güclü hesab edib ondan qorxur. Sehrli nağıllarda da fantastik varlıqların aldadılmasına rast gəlirik. Məsələn, AT 400 nömrəli süjetdə qəhrəman itmiş arvadını axtarmağa gedərkən yolda atalarından miras qalmış əşyalar üstündə mübahisə edən

---

[33] Пропп В.Я. Легенда / Поэтика фольклора. Собрание трудов, М.: Лабиринт, 1998, с.279

divlərə rast gəlir. Daşı dağdan yumarlayır, birinci çatana papağı, ikinci çatana üzüyü, üçüncü çatana isə xalçanı verəcəyini deyir. Divlər daşın arxasınca gedəndə qəhrəman həmin əşyaları götürüb aradan çıxır. Sehrli nağıllarda hiylə və kələk epizodik xarakter kəsb edir və bütün süjet üçün xarakterik deyil. Axmaq şeytan haqqında nağıllarda isə, əksinə, bütöv süjet bunun üzərində qurulur.

Axmaq şeytan haqqında nağılların bir çoxu sehrli nağılların yenidən mənalandırılması hesabına formalaşmışdır. Təbii ki, bu xüsusiyyət bütün sehrli nağıl süjetlərinə şamil edilmir. Onların içərisində yalnız axmaq şeytan haqqında nağılların ideya-estetik tələblərinə cavab verən süjetlər müəyyən struktur dəyişikliyinə uğrayaraq bu qrupa keçmişlər. Belə süjetlərdən biri də 301 nömrəli "Oğurlanmış üç şahzadə qız" süjetidir.

Sehrli nağıl variantında əsilzadə, padşah ailəsindən çıxmış qəhrəman axmaq şeytan haqqında nağıllarda aşağı sosial təbəqəyə məxsus olan, yoxsul ailədən çıxmış şəxslə əvəz olunur. Artıq burada divi öldürüb onun oğurladığı qızı xilas edən şahzadə deyil, keçəl olur. Yalnız əsas qəhrəmanın yox, demonik varlıqların da səciyyəsi dəyişir və onlar axmaq, sadəlövh varlıqlar kimi təsvir olunur. Divin özündən qat-qat zəif qəhrəman tərəfindən aldadılması onu axmaq, gülünc vəziyyətə salır, bu da nağıla yumoristik məzmun verir.

Sehrli nağıllarda divlərin canı onlardan kənarda yerləşir, bu da onlara ölməzlik, məğlubedilməzlik keyfiyyəti verir. Axmaq şeytan haqqında nağıllarda isə divlərin onlardan kənarda canı yoxdur. Qəhrəman hiylə və kələklə onları öldürməyə nail olur. "Keçəl" nağılında qəhrəman divləri aldadıb onları qapı-

nın ağzında durmağa razı salır. Daha sonra damın üstündəki yeddi dəyirman daşını divlərin başına salıb onları öldürür[34].

Bu qrupla heyvanlar haqqında nağıllar arasında struktur yaxınlığı vardır. Təsadüfi deyil ki, folklorşünaslıqda bu qrupların eyni mənşəli olduğu və hər ikisinin trikster mədəni qəhrəman haqqında miflərdən törədiyi qeyd olunur[35]. Bu qruplar bir-birindən yalnız baş rolun ifaçısına görə fərqlənir. Birində əsas iştirakçılar zoomorfik personajlar, digərində isə insanlar və mifoloji varlıqlardır. Bu cür yaxınlıq nəticəsində axmaq şeytan haqqında bir çox nağıl süjetləri müəyyən dəyişikliyə uğramaqla heyvanlar haqqında nağıllara çevrilmişdir. “Qorxaq Əhməd” (1060) belə nağıl süjetlərindən biridir. Həmin süjet heyvanlar haqqında nağıllara çevrildiyi zaman mifoloji varlıqlar vəhşi heyvanlarla əvəzlənir və ziddiyyətlər insan – heyvan qarşıdurması şəklində təqdim olunur. “Özüm” (1135) süjetinə diqqət yetirək. Süjetdə təsvir olunur ki, ovçu adını "Özüm" kimi qələmə verir. Bədənini yağlayır, kösövü götürüb bədəninə sürtür. O nə edirsə, div də onu yamsılayır. Divin bədənini od tutur. Soruşanda ki, səni kim yandırıb, cavab verir: “Özüm”. Həmin süjetin Ağdaş rayonundan qeydə alınmış variantında isə hadisələr heyvanlar haqqında nağıllara xas olan tülkü – ayı qarşıdurması şəklində təqdim olunur. Bundan başqa, “İnsan divi aldadır” (1149A*) süjeti də eyni dəyişikliyə uğramaqla heyvanlar haqqında nağıllara çevrilib.

**2.3. Zəncirvari nağıllar**. Bu başlıq altında biz kumilyativ nağılları nəzərdə tuturuq. *Kumilyasiya* latın sözü olub

[34] Azərbaycan nağılları: 5 cilddə, IV c. / Toplayanı və tərtib edəni N.Seyidov. Bakı: Azərb. SSR EA, 1963, s.192

[35] Костюхин Е.А. Типы и формы животного эпоса. М.: Наука, 1987, 270 с.

“yığmaq”, “toplamaq”, “gücləndirmək” mənasını verir. İngilis dilində bu nağıllar “formula tales”, alman dilində “kettenmarchen”, fransız dilində isə "randounes" adlandırılır. Terminlər müxtəlif olsa da, onlar bir-birinə yaxın mənanı ifadə edir. Tədqiqatçılar bu qrupu adlandırarkən çox vaxt onun struktur xüsusiyyətlərindən çıxış edirlər. Kumilyativ nağılların strukturu müəyyən fəaliyyətin təkrarı üzərində qurulur, bunu nəzərə alıb, biz də onları zəncirvari nağıllar adı altında təqdim etməyi daha münasib hesab edirik.

Aarne-Andreyev göstəricisində zəncirvari nağıllar lətifələr qrupunda “Müxtəlif növ kumilyativ nağıllar” (*2015 I ) adı ilə verilir və bu qrupa məxsus bir neçə süjet müəyyənləşdirilir. Şərqi slavyan xalqlarının müqayisəli süjet göstəricisində isə süjetlərin sayı daha da artırılır, hətta tərtibçilər N.P.Andreyevin heyvanlar haqqında nağılların tərkibində verdiyi bir çox süjetləri bura daxil etməklə onların sırasını daha da genişləndirirlər.

1928-ci ildə S.Tompson Aarne sistemini yenidən nəşrə hazırlayarkən zəncirvari nağılları “göstərici”də ayrıca qrup şəklində verir. Kataloqda bu qrup üçün 200-ə yaxın (2000-2199) nömrə ayırsa da, onlardan ancaq 22-sini doldura bilir. “Göstərici”nin 1964-cü ildəki ikinci nəşri zamanı isə nəzərdə tutulmuş nömrələrin böyük əksəriyyəti doldurulur. Amma bu qrup haqqında aydın təsəvvürün olmaması, kompozisiya xüsusiyyətlərinin tam öyrənilməməsi onun süjet tərkibinin müəyyənləşdirilməsi zamanı bir sıra yanlışlığa yol verilməsinə səbəb olmuşdur. Zəncirvari nağıllara aid bir çox süjetlər digər qrupların tərkibində verilmiş və ya əksinə, bu qrupa aidiyyatı olmayan süjetlər zəncirvari nağıllara daxil edilmişdir.

Rus folklorşünaslığında zəncirvari nağıllar ilk dəfə V.Y.Proppun "Kumilyativ nağıllar" adlı məqaləsində müstəqil qrup kimi araşdırmaya cəlb olunur[36]. Daha sonra E.A.Kostyuxin heyvanlar haqqında nağılların tip və formalarından bəhs edərkən zəncirvari nağıllara da toxunur, onların kompozisiya xüsusiyyətlərindən bəhs edir[37]. Hər iki araşdırıcı məhz struktur xüsusiyyətlərindən çıxış edərək bu qrupu digər nağıllardan fərqləndirməyə çalışır. E.A.Kostyuxinə görə, zəncirvari nağıllar heyvanlar haqqında nağılların sadələşdirilməsi və uşaq auditoriyasına uyğunlaşdırılması nəticəsində yaranmışdır. Süjetlərin təfsilatdan uzaqlaşması, təhkiyə hissəsinin mümkün qədər qısaldılması, statik elementlərin kənarlaşdırılması nağıla dinamiklik gətirmiş və onu dialoqlara çevirmişdir[38].

Zəncirvari nağıllar bu və ya digər bir fəaliyyətin təkrarı üzərində qurulur və bu sıralanma zəncirləməni yaradan səbəbin aradan qaldırılması ilə tamamlanır. Zəncirvari nağıllarda zəncirləməni yaradan əsas səbəblərdən biri əşyaların dəyişdirilməsidir. Dəyişmə ya azalan, ya da artan istiqamətdə aparılır. Artan istiqamətdə aparılan dəyişmə zamanı hər dəfə əldə edilən əşyanın dəyəri bir qədər artır. "Cik-cik xanım" (2021*) nağılında sərçənin ayağına tikan batır. Sərçə tikanı qarıya verib çörək alır, çörəyi çobana verib qoyun alır, qoyunu toy yiyəsinə verib gəlin alır, gəlini aşığa verib saz alır. Digər zəncirvari nağıllarda olduğu kimi, burada da nağıl şən qəza ilə tamamlanır. Sərçə qoz ağacının altında oturub saz çalarkən başına qoz düşməsi nəticəsində ölür. "Dəyişmə" (2008*) nağı-

---

[36] Пропп В.Я. Кумилятивная сказка / Фольклор и действительность. М.: Наука, 1976, с.241-260

[37] Костюхин Е.А. Типы и формы животного эпоса. М.: Наука, 1987, 270 с.

[38] Yenə orada, s. 98

lında isə zəncirləmə azalan istiqamətdə gedir və hər yeni həlqə qoşulduqda əldə edilən əşyanın dəyəri bir qədər azalır. Kəndli bazara satmağa inək aparır. İnəyi keçiyə, keçini qaza, qazı arpaya dəyişir və axırda evə bir torba turşu ilə qayıdır.

Bəzi nağıllarda isə zəncirləmə şikayət üzərində qurulur. “Milçək” (2021C*) nağılında milçəyin qarnı qaratikan koluna ilişib cırılır. O, koldan inəyə, inəkdən qurda, qurddan ovçuya, ovçudan qarıya şikayət edir. Qarının onun xahişini yerinə yetirməsi ilə zəncirləmə bu dəfə əks istiqamətdə inkişaf edir və nağıl kolun milçəyin qarnını tikməsi ilə tamamlanır[39].

Zəncirvari nağıllara məxsus maraqlı nümunələrdən biri də Aarne-Tompson göstəricisində sehrli nağıl kimi təqdim olunan “Xoruz və padşah” nağılıdır. Maraqlıdır ki, V.Y.Propp rus folklorunda təsadüf olunan zəncirvari nağıllardan bəhs edərkən bu nağıldan söhbət açmır. Görünür, N.P.Andreyev kimi o da haqqında bəhs olunan süjeti sehrli nağıl nümunəsi hesab edir. Lakin nağılı diqqətlə nəzərdən keçirdikdə onun sehrli nağılların kompozisiya xüsusiyyətlərinə cavab vermədiyini görmək olar. Digər zəncirvari nağıllar kimi onun da strukturu müəyyən fəaliyyətin təkrarı üzərində qurulur. Nağıl xoruzun yem axtararkən pul tapması ilə başlayır. Padşah pulu onun əlindən alır. Xoruz qışqırır ki, padşah ondan kasıb imiş. Padşah pulu geri qaytarır. Xoruz bu dəfə qışqırır ki, padşah ondan qorxurmuş. Padşah xoruzu kəsdirir. Xoruz iti bıçaq altında, qaynar qazanda, padşahın qarnında da qışqırır. Axırda padşahın qarnı partlayır, xoruz xilas olur.

[39] Allah yıxan evi qızlar tikər / Toplayanı O.Əliyev, R.Xəlılov. Bakı: Yazıçı, 1994, s.298

Beş cildlik nağıllar toplusunda çap olunmuş "Loğmanla şəyird" nağılı da zəncirvari nağıllar nümunəsidir. İndiyə qədər bəhs etdiyimiz nağıllardan fərqli olaraq, burada əsas iştirakçılar insanlardır. Nağılın üç variantı qeydə alınıb. Bu variantların ikisində nağılın əsas iştirakçıları loğmanla şəyird, digər variantda isə Şah Abbasla şəyirdidir. Novellistik nağıllara məxsus personajların iştirak etməsi nağılın funksiyasında da müəyyən dəyişikliyə səbəb olmuşdur. İndiyə qədər təhlilə cəlb etdiyimiz nümunələr auditoriyanı güldürməyə xidmət etdiyi halda, bu nağıl ilkin funksiyasından bir qədər uzaqlaşmış və ibrətamiz məzmun kəsb etməyə başlamışdır.

Oğrunun hasardan yıxılıb ayağını sındırması ilə zəncirləmə başlayır. Oğru bağ sahibindən padşaha şikayət edir. Padşah hasarı hündür tikdirdiyi üçün bağ sahibini dara çəkmək istəyir. Bağ sahibi bənnanı, bənna şəyirdi, şəyird yoldan keçən qadını, qadın isə zərgəri günahlandırır. Zərgərin başı kiçik, boynu yoğun olduğundan kəndirə gəlmir. Onun yerinə şəyirdi dara çəkmək istəyirlər. Loğmanın xahişindən sonra padşah şəyirdi azad edir. Bu nağılın Şəkidən qeydə alınmış variantında isə yeni iştirakçıların nağıla qatılması zəncirləməyə müəyyən fərqliliklər gətirir. Bu variantda bənna şəyirdi deyil, kərpici qalın kəsdiyi üçün kərpickəsəni,  kərpickəsən qəlibi qalın düzəltdiyi üçün xarratı günahlandırır. Nağılın sonluğu da əvvəlki variantdan fərqlənir. Bu nağılda şəyird papağını üç dəfə göyə atıb tutana qədər möhlət alır. Şah Abbas bu müddətdən istifadə edərək paytaxta qayıdır və şəyirdi azad edir. Nağıl Şah Abbasın həmin şəhərdə qayda-qanun yaratması ilə tamamlanır.

Zəncirləmə müəyyən xüsusiyyətlərinə görə nağıllarda tez-tez təsadüf olunan üçləmə hadisəsinə də bənzəyir. Hər ikisi müəyyən fəaliyyətin və ya gedişlərin təkrarı hesabına baş

verir. Fərq ondadır ki, zəncirvari nağıllarda bütün süjet zəncirləmə üzərində qurulur, üçləmə isə süjeti təşkil edən hansısa bir fəaliyyətin və ya gedişin üçlənməsi nəticəsində yaranır. Zəncirvari nağıllarda təkrarların sayında heç bir məhdudiyyət yoxdur, üçləmədə isə fəaliyyətin və ya gedişlərin təkrarı üçdən artıq olmur.

**2.4. Bahadırlıq nağılları.** Aarne-Tompson kataloqunda qruplara bölünmə nağılların qrup tərkibini tam əks etdirmir. "Göstərici"nin sonrakı illərdəki təkmilləşdirilmiş nəşri zamanı S.Tompson "Kumilyativ nağıllar" adlı qrupu əlavə etməklə bu bölgünü bir qədər genişləndirsə də, bahadırlıq nağılları diqqətdən kənarda qalır.

Azərbaycan nağılşünaslığında aparılmış təsnifatlarda da bahadırlıq nağılları müstəqil qrup kimi qəbul olunmayıb. Bunun əsas səbəbi həmin təsnifatlarda bölgünün daxili deyil, zahiri əlamətlər əsasında aparılmasıdır. Məsələn, həmin təsnifatlarda sehrli və fantastik elementlər sehrli nağıllara məxsus xüsusiyyət hesab olunduğu üçün tərkibində belə elementlərə təsadüf olunan bahadırlıq nağılları bu qrupun tərkibinə daxil edilib, sehrli elementlərin iştirak etmədiyi bahadırlıq nağılları isə məişət nağıllarına aid edilib. Əslində nağıllarda sehrli elementin iştirak edib-etməməsi hələ qrupları müəyyənləşdirməyə əsas vermir. Hər bir qrupun özünəməxsus kompozisiya xüsusiyyətləri olduğundan bölgülər də həmin xüsusiyyətlərin müəyyənləşdirilməsi əsasında aparılmalıdır. Nağıl qruplarının tam tərkibini ancaq bu yolla üzə çıxartmaq mümkündür.

Elmi ədəbiyyatda bahadırlıq nağıllarına münasibətdə fikir müxtəlifiyi mövcuddur. Bir qrup tədqiqatçılar onları sehrli nağılların bir növü, digərləri isə müstəqil qrup hesab edirlər. N.P.Andreyevin tərtib etdiyi göstəricidə rus folklorunda təsa-

düf olunan bahadırlıq nağılları sehrli nağılların tərkibində "Qeyri-adi güc və bilik" yarımqrupunda verilir. N.V.Novikov "Şərqi slavyan sehrli nağıl obrazları" adlı əsərində bahadırın zahiri görünüşünə və fəaliyyət üsuluna görə digər nağıl qəhrəmanlarından fərqləndiyini qeyd etsə də, məsələyə janr müstəvisində yanaşmır və bahadırlıq nağıllarından sehrli nağılların bir növü kimi bəhs edir[40].

Onlardan fərqli olaraq, V.M.Jirmunski "Alpamış haqqında dastanlar və bahadırlıq nağılları" adlı əsərində bahadırlıq nağıllarının türk xalqlarının və onunla bağlı olan Cənubi Sibirin və Mərkəzi Asiyanın monqol xalqlarının ən qədim epik janrı olduğunu yazır[41]. E.M.Meletinski[42] və S.Y.Neklyudovun[43] araşdırmalarında da bu nağıllardan müstəqil qrup kimi bəhs olunur.

Baxışların müxtəlifliyi təkcə bu qrupa münasibətdə deyil, həm də onun terminoloji ifadəsində də özünü göstərir. V.M.Jirmunskinin "Bahadırlıq nağılları" adı altında təqdim etdiyi bu nağılları V.Y.Propp "Dövlətəqədərki epos" adlandırır. Hər iki tədqiqatçı müxtəlif terminlərdən istifadə etsə də, bu ad altında eyni məfhumu nəzərdə tutur. E.M.Meletinski bu barədə yazır: "V.M.Jirmunskinin və V.Y.Proppun əsərlərinin diqqətlə öyrənilməsi göstərir ki, Jirmunskinin "Bahadırlıq nağılları" və Proppun "Dövlətəqədərki epos"u mahiyyətcə üst-üstə düşür.

[40] Новиков Н.В. Образы восточнославянской волщебной сказки. Л.: Наука, 1974, с.27

[41] Жирмунский В.М. Сказание об Алпамыше и богатырская сказка / Тюркские героические епос. Избр. Труды. Л.: Наука, 1974, с.222

[42] Мелетинский Е.М. Происхождение героического эпос. Ранние формы и архаические памятник. М.: Изд. вос. лит., 1963, 462 с.

[43] Неклюдов С.Ю. Богатыркская сказака. Тематический диапазон и сюжетная структура / Проблемь фолклора: Сборник статей. М.:Наука, 1975, с.82-88

Müxtəlif termin və müxtəlif mövqe ilə hər iki tədqiqatçı eyni prosesi təsvir edir və alınan nəticələr də çox vaxt bir-birini tamamlayır”[44]. S.Y.Neklyudova görə, arxaik qəhrəmanlıq nağılları (o, bu ad altında bahadırcasına evlənmə mövzulu nağılları nəzərdə tutur – İ.R.) bahadırlıq eposunun daha erkən formasının sələfidir. Onun fikrincə, bu janrlar bir-birinə o qədər yaxındır ki, onları sərhədlərə ayırmaq olduqca çətindir[45]. Fikir müxtəlifliyinin yaranması, şübhəsiz ki, bu qrupun təzə üzə çıxarılmasından, onun kompozisiya xüsusiyyətlərinin hələ tam öyrənilməməsindən irəli gəlirdi.

Bir çox xalqlarda, o cümlədən Avropada bahadırlıq nağıllarına təsadüf olunmur. Ona görə də Avropa nağıl süjetləri əsasında tərtib olunan Aarne-Tompson göstəricisində nə belə bir qrupa, nə də ona məxsus süjetlərə təsadüf etmək mümkündür. Amma türk, eləcə də Afrika xalqları arasında bahadırlıq nağılları geniş yayılıb. Afrika xalqlarının epos yaradıcılığından bəhs edərkən E.S.Kotlyar yazır: “Əmələ gəlməsi inkişafın yüksək səviyyəsi, konsolidasiya prosesi və dövlətin formalaşması ilə şərtləşən eposa bəzi Afrika xalqlarında təsadüf edilirsə, artıq epik növün cizgilərinin verildiyi bahadırlıq nağılları kimi folklor formaları bütün Afrikada yayılıb”[46]. E.M.Meletinskinin yazdığına görə, bəzi xalqların folklorunda bu nağıllar həm də terminoloji baxımdan digər nağıllardan fərqlənir. Məsələn, nivxlər

[44] Мелетинский Е.М. Происхождение героического эпос. Ранние формы и архаические памятник. М.: Изд. вос. лит., 1963, 462 с.

[45] Неклюдов С.Ю. Богатыркская сказака. Тематический диапазон и сюжетная структура / Проблемь фолклора: Сборник статей. М.: Наука, 1975, с.82

[46] Котляр Е.С. Эпос народов Африки Южнее Сахары. М.: Наука, 1985, с.11

onları “nastund”, nanaylar “mnqman”, nenlər “syüdbas”, evenklər isə “ulqur” adlandırırlar[47].

Azərbaycan folklorşünaslığında bahadırlıq nağılları müstəqil qrup kimi qəbul olunmasa da, sehrli nağıl qəhrəmanına həsr olunmuş araşdırmalarda bahadır obrazına və ona məxsus xüsusiyyətlərə geniş yer verilir. Rza Xəlilov “Azərbaycan və ərəb nağıllarında qəhrəman obrazları” adlı dissertasiyasında qeyri-adi doğuluşa, qəhrəmanın şəxsiyyətinin, zahiri görünüşünün və fiziki gücünün daha ətraflı təsvir olunmasına görə bahadırlıq nağıllarının sehrli nağıllardan fərqləndiyini yazır[48]. Əfzələddin Əsgərov da “Azərbaycan sehrli nağıllarında qəhrəman” adlı araşdırmasında həm strukturuna, həm də qəhrəmanın xarakterinə görə bahadırlıq nağıllarının V.Y.Proppun sehrli nağıllar üçün müəyyənləşdirdiyi sxemdən fərqləndiyini qeyd edir. V.Y.Proppun sxemində köməkçinin alınması ilə qəhrəman passivləşir və köməkçi onun əvəzindən fəaliyyət göstərirsə, bahadırlıq nağıllarında köməkçinin möcüzəli doğuluş motivi ilə əvəzlənməsi qəhrəmanın aktivləşməsinə səbəb olur[49]. Hər iki araşdırmada tədqiqatçıların bahadırlıq terminindən qaçmaları və bu nağıllara münasibətdə “sehrli-qəhrəmanlıq” terminindən istifadə etmələri diqqəti cəlb edir. Ə.Əsgərov bunun səbəbini bahadırlıq nağıllarının tərkibində sehrli nağıllara məxsus süjet və motivlərin iştirak

[47] Мелетинский Е.М. Происхождение героического эпос. Ранние формы и архаические памятник. М.: Изд. вос. лит., 1963, с.94

[48] Халилов Р.З. Образы героев азербайджанских и арабских вольшебных сказок (Опыт типологич. исследования): Дис. ... канд.филол.наук. Баку, 1988, с.104

[49] Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman (səciyyəsi və mənşəyi): Filol.elm.nam. ... dis. Bakı, 1993, s.94

etməsi ilə izah edir[50]. Amma sehrli-qəhrəmanlıq termini folklorşünaslıqda daha çox özündə hər iki qrupa məxsus xüsusiyyətləri birləşdirən 300, 301, 550, 551, 590 nömrəli süjetlərə şamil edilir[51]. Aktiv qəhrəman tipini təmsil etmələri, bahadırın qarşıya qoyduğu məqsədə fiziki gücü hesabına çatması, hətta köməkçinin əldə edilməsində də fiziki gücdən istifadə olunması onları bahadırlıq nağıllarına yaxınlaşdırır. Bununla belə, onlar V.Y.Proppun sehrli nağıllar üçün müəyyənləşdirdiyi kompozisiya xüsusiyyətləri əsasında formalaşır. Hər iki qrupa məxsus xüsusiyyətləri özündə birləşdirdiyinə görə həmin nağıllar sehrli-qəhrəmanlıq nağılları kimi tanınır. Bahadırlıq nağılları isə belə aralıq mövqeyə malik deyildir. Həm qəhrəmanın tipinə, həm də kompozisiya xüsusiyyətlərinə görə sehrli nağıllardan fərqləndikləri üçün qeyd olunan termini bu nağıllara şamil etmək məqsədəuyğun deyildir.

Beləliklə, termin müxtəlifliyinə baxmayaraq, bahadırlıq nağıllarının sehrli nağıllardan fərqlənməsi fikri bütün tədqiqatçılar tərəfindən qəbul olunur.

Haqqında danışılan nağıl qrupu rus folklorşünaslığında "Boqatırskaya skazka" adlandırılır. Monqol dilindən rus dilinə keçən "boqatır" termini türk xalqlarında bahadır, batır, nattır və s. fonetik variantlarda işlənməkdədir. Azərbaycan dilində isə bu sözün bahadır variantı işlədilir. Biz də ənənəyə sadiq qalaraq, haqqında danışılan qrupu "bahadırlıq nağılları" adlandıracağıq.

---

[50] Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman (səciyyəsi və mənşəyi): Filol.elm.nam. ... dis. Bakı, 1993, s.94

[51] Мелетинский Е.М., Неклюдов С.Ю., Новиков Е.С., Сегал Д.М. Проблемы структурного описания волшебной сказки / Труды по знаковым системам. вып.4, Тарту: ТГУ, 1969, с.98

Sehrli nağıllarda qəhrəmanın uşaqlıq dövrü elə bir əhəmiyyət kəsb etmədiyi üçün onun ayla, günlə böyüdüyü qeyd olunaraq bu mərhələnin üstündən keçilir. Bahadırlıq nağıllarında isə qəhrəmanın uşaqlıq dövrü epik genişlik qazanır və onu təşkil edən mövzu və motivlərin rəngarəngliyinə görə digər qruplardan seçilir. Qəhrəmanın bahadırlıq cizgiləri ilk dəfə özünü onun uşaqlıq dövründə biruzə verir. Bu mərhələ qeyri-adi mayalanma, qeyri-adi doğuluş, erkən yaşlarından dil açıb yerimə, ad qoyma və erkən qəhrəmanlıq motivlərini özündə ehtiva edir.

Bahadırlıq nağıllarında qəhrəman demonik varlıqlarla birbaşa təmasdan və ya onlara məxsus müəyyən əşyaların qəbulundan doğulur. Məsələn, "Tapdıq" nağılının eyni adlı qəhrəmanı Gün xanımla Tufan div arasındakı izdivacdan doğulur. "Qaraqaş" nağılında dərviş ağzının suyundan bir qaşığa damızdırıb odunçunun arvadına verir. Arvad əvvəlcə onu içməyə cəsarət etmir, amma sonradan özünə ürək-dirək verərək tüpürcəyi içir və ondan uşağa qalır[52]. "Kəl Həsən" nağılında Nisə quşun yumurtasını içdikdən[53], "Ceyran" nağılında isə bağbanın arvadı dərvişin quyudan çıxartdığı ceyranın ətini yedikdən sonra uşağa qalır[54]. Demonik varlıqların təmasda olduğu əşyaların qəbulu da hamiləliyə səbəb olur. Məsələn, "Reyhan" nağılında Gülcahan dərya ayğırının içdiyi gölməçədən su içdikdən sonra uşağa qalır[55].

---

[52] Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.17

[53] Yenə orada, s. 189

[54] Yenə orada, s.13

[55] Azərbaycan nağılları: 5 cilddə, III c. / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Azərb. SSR EA, 1962, s.151

Bahadırı digər nağıl qəhrəmanlarından fərqləndirən xüsusiyyətlərdən biri onun assimmetrik əlamətlərlə doğulmasıdır. Ə.Əsgərov bunun səbəbini bahadırın demonik mənşəyi ilə əlaqələndirir. Daha dəqiq desək, assimmetriya o dünya varlıqlarına məxsus bir xüsusiyyətdir, bahadır da həmin varlıqlardan törədiyi üçün onlara məxsus xüsusiyyətlərin daşıyıcısı olur[56]. Məsələn, Qaraqaş bir cüt qara qaş şəklində, "Ceyran" nağılının eyni adlı qəhrəmanı yarı insan, yarı ceyran şəklində dünyaya gəlir. Bəzən qəhrəman adi izdivacdan doğulduğu halda belə, demonik mənşəli qəhrəmanlar kimi assimmetrik əlamətlərlə doğulur. Məsələn, adi izdivacdan olan Siman tüksüz, bir parça ət şəklində dünyaya gəlir. Belə əlamətlərlə doğulan uşaqlar qüsurlu hesab olunduğuna görə onlar çox vaxt valideynləri tərəfindən qəbul edilmir. "Qaraqaş" nağılında odunçu qaşlarından başqa bədəninin heç bir hissəsi görünməyən bir övlad dünyaya gətirdiyi üçün arvadını öldürmək istəyir. Amma arvad yalvar-yaxarla ərini sakitləşdirməyi bacarır. Qaraqaş evi tərk etdikdən sonra odunçu onu evə buraxmamaq üçün qapıları bağlatdırır[57]. "Siman" nağılında isə bağban doğulacaq uşağını Şah Dəşgüvara verəcəyinə söz verir, amma uşağın tüksüz, bir parça ət şəklində doğulduğunu görüb onu üzə çıxartmaq istəmir[58].

Yalnız "Kəl Həsən" nağılında qəhrəman əvvəldən axıra qədər assimmetrik vəziyyətdə fəaliyyət göstərir, digər nağıllarda isə hadisələrin sonrakı inkişafı zamanı həmin əlamətlər aradan qaldırılır. Məsələn, "Qaraqaş" nağılında Pəri xanım ismi-əzəm

---

[56] Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman (səciyyəsi və mənşəyi): Filol.elm.nam. ... dis. Bakı, 1993, s.102

[57] Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.20

[58] Yenə orada, s.34

oxuyub qəhrəmanın biləyini sıxır, o, qışqırıb on beş yaşında bir oğlana çevrilir[59]. Simurq quşu Simanı Nil çayında çimizdirməklə, Qaradağ daşından əzib bədəninin tük gələn hissələrinə çəkməklə onu assimmetrik vəziyyətdən çıxarır[60]. “Ceyran” nağılında bu məqsədlə sehrli çubuqdan istifadə olunur. Dərviş cibindən çıxartdığı çubuqla Ceyranı vurub «ey çəpəl, bu nə sifətdir» dedikdən sonra o, insan şəklinə düşür[61]. Assimmetrik vəziyyətdən çıxarılmış bahadır həm də epik sosium daxilində yaşamaq hüququ əldə etmiş olur.

Bahadırlıq nağılları üçün xarakterik kompozisiya vahidlərindən biri də qəhrəmanın kiçik yaşlarında ikən mifoloji varlıqların himayəsi altında böyüməsidir. Məsələn, “Siman” nağılında rəmmal rəiyyət içindən doğulacaq bir oğlan uşağının Şah Dəşgüvarı taxtdan salacağını xəbər verir. Şah onu gözləyən təhlükənin qarşısını almaq üçün yeni doğulan oğlan uşaqlarının, o cümlədən bağbanın oğlunun öldürülməsini əmr edir. Amma keşikçilərin uşağa rəhmi gəlir və onu bir ağacın altına atırlar. Simurq quşu uşağı tapıb öz yuvasına gətirir, onu balaları ilə bir yerdə böyüdür[62]. “Ağ quş” nağılında isə qəhrəman şirin himayəsində böyüyür. Nağılda təsvir olunur ki, padşahı öldürüb taxt-tacı ələ keçirən vəzir onun arvadını və yeni doğulmuş uşağını da öldürmək istəyir. Padşahın arvadı övladının ələ keçməməsi üçün onu dərəyə atır. Uşaq sağ qalır və onu tapan şirin himayəsində böyüyür[63]. Bəzi nağıllarda isə qəhrəman kiçik yaşla-

---

[59] Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.22
[60] Yenə orada, s.36
[61] Yenə orada, s.226
[62] Yenə orada, s.35
[63] Yenə orada, s.113

rında ikən demonik varlıqlar tərəfindən oğurlanır. Məsələn, "Kəlləgöz" nağılında bağa gəzməyə çıxan padşahın arvadı uşağı çarhovuzun üstünə qoyub özü gül dərməyə gedir. Bu vaxt bağa bir aslan girir və uşağı götürüb qaçır[64]. "Qəhrəmanla Qaytaran" nağılında isə div alma ağacının keşiyini çəkən kiçik qardaşı oğurlayır[65]. Oğurlanmış uşaqlar həmin varlıqların himayəsi altında böyüyürlər. Bahadırlıq nağıllarında fiziki güc qəhrəmana, adətən, onun demonik mənşəyindən keçir. Belə bir mənşədən məhrum bahadırlar isə sonradan həmin varlıqların himayəsi altında böyüməklə qeyri-adi gücə yiyələnirlər. Bu baxımdan demonik varlıqlardan törəmə ilə onların himayəsi altında böyümə arasında elə bir funksional fərq yoxdur. Hər iki motiv bahadırın fiziki gücünü motivləşdirməyə xidmət edir.

Bahadırlıq nağıllarında qəhrəman qeyri-adiliyi ilə digər personajlardan fərqlənir. Onun qeyri-adiliyi özünü hələ ana bətnində olarkən göstərir. Ağdaş rayonundan qeydə alınmış bir nümunədə qəhrəman anasının bətnində olarkən danışmağa başlayır. Dünyaya gəldikdən sonra isə ona padşaha verilən yeməkdən bişirmələrini tələb edir[66]. "Kəl Həsən" nağılında qəhrəman iki aylığında ayaq tutur, bir yaşında isə artıq böyük adamlar kimi yeriyir[67]. "Naxırçı oğlu Eyvaz" nağılında qəhrəman üçgünlük ikən əlinə yekə bir ağac alıb atası ilə naxıra

---

[64] Azərbaycan nağılları: 5 cilddə, V c. / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Azərb. SSR EA, 1964 , s.227

[65] Şah Abbasın arvadı / Toplayanı F.Bayat. Bakı: Yazıçı, 1996, s.230

[66] Azərbaycan folkloru antologiyası. XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s.213

[67] Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.190

gedir[68]. Yeni doğulan uşağın erkən yaşlarından dil açıb-yeriməsi valideynləri tərəfindən təəccüblə qarşılanır, bəzən də onları qorxuya salır. "Naxırçı oğlu Eyvaz" nağılında naxırçı üçgünlük uşağın dil açıb yeridiyini görüb qorxuya düşür[69].

Bahadırın uşaqlıq dövrü onun erkən qəhrəmanlığı ilə sona çatır. Ə.Əsgərovun adı çəkilən araşdırmasında erkən qəhrəmanlıq və onun təzahür formalarından geniş bəhs olunduğu üçün biz əsas diqqəti bu motivin süjet daxilində oynadığı rola yönəldəcəyik. Erkən qəhrəmanlıq bahadırın fiziki gücünün ilk dəfə nümayiş olunduğu an olmaqla yanaşı, onun sayəsində həm də nağılda gələcək ziddiyyətlərin əsası qoyulur. "Naxırçı oğlu Eyvaz" nağılında qəhrəman üçgünlük ikən sürüyə hücum edən vəhşi heyvanları döyüb ölümcül hala salır. Qəhrəmanın göstərdiyi qoçaqlıqdan xəbər tutan padşah onu öldürməyə çalışır, buna nail olmadıqda onu ölkədən qovur[70]. "Saqqalı bir qarış..." nağılında naxırçının oğlunun sürüyə hücum edən ayını zərərsizləşdirdiyini eşidən padşah uşağın böyüdükdən sonra onun özünü də aradan götürəcəyindən ehtiyat edir və onu öldürməyə calışır. Bunu bacarmadıqda isə uşağın atasını dilə tutub oğlunu qürbətə göndərməyə razı salır[71]. Bu motivin köməyi ilə nağılda padşah – qəhrəman qarşıdurmasının əsası qoyulur, bu da qəhrəmanın gələcək fəaliyyətinə istiqamət verir.

Y.İ.Yudin rus bılinaları üzərində apardığı araşdırmalar zamanı yazır ki, bılina qəhrəmanları yürüş və səfərləri zamanı qeyri-adi predmetlərlə, qeyri-adi varlıqlarla, düşmən ordusu

[68] Azərbaycan nağılları: 5 cilddə, IV c. / Toplayanı və tərtib edəni N.Seyidov. Bakı: Azərb. SSR EA, 1963, s.219
[69] Yenə orada, s.218
[70] Yenə orada, s.218
[71] Şah Abbasın arvadı / Toplayanı F.Bayat. Bakı: Yazıçı, 1996, s.227

və bahadırlarla qarşılaşır. Onlar evi tərk edərkən qarşılarına bu cür varlıqlarla qarşılaşmaq məqsədi qoymadığından bu görüşlər və qarşılaşmalar təsadüfi hadisə kimi təsvir olunur[72]. Y.İ.Yudinin rus bılinalarına aid etdiyi həmin kompozisiya elementlərinə Azərbaycan bahadırlıq nağıllarında da təsadüf olunur. Məsələn, uşaq oğrularını tapmaq məqsədilə şəhəri tərk edən Siman Dəzivar padşahın yaşadığı məkana gəlib çıxır[73]. "Tapdıq" nağılında isə qəhrəman oğurlanmış bacısını xilas etməyə gedərkən Ağ divin yaşadığı məkana gəlir[74]. Qəhrəmanın səfərləri zamanı yolda qardaşı və ya nişanlısı oğurlanmış şəxslə qarşılaşması da təsadüfi yol görüşlərinə nümunədir. Məsələn, Siman şəkildə gördüyü qızın dalınca gedərkən yolda qardaşı tilsimə salınmış qoca ilə qarşılaşır[75]. Eyni struktur vahidinə "Kəl Həsən" nağılında da rast gəlirik. Padşahın oğurlanmış qızını xilas etməyə gedən Kəl Həsən yolda nişanlısı əlindən alınmış şəxslə qarşılaşır[76]. Bəzən zərərə məruz qalmış şəxs qəhrəman haqqında qabaqcadan xəbər tutur. Məsələn, "Soltan İbrahim" nağılında əmisi qızına aşiq olmuş cavan abiddən Soltan İbrahim adlı bir nəfərin onu nişanlısına qovuşduracağını öyrənir və qəhrəmanın yolu üstündə oturub onu gözləyir[77].

---

[72] Юдин Ю.И. Героические былины. М.: Наука, 1975, с.17
[73] Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.42
[74] Azərbaycan nağılları: 5 cilddə, III c. / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Azərb. SSR EA, 1962, s.50
[75] Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.45
[76] Yenə orada, s.196
[77] Azərbaycan nağılları: 5 cilddə, II c. / Tərtib edəni M.Təhmasib. Bakı: Şərq-Qərb, 2005, s.332

Təsadüfi yol görüşlərinin əsas süjet xətti ilə heç bir bağlılığı yoxdur. Onların nağıl strukturuna daxil edilməsi qəhrəmanın fəaliyyətini əsas məqsəddən uzaqlaşdırır ki, bu da gedişlər arasındakı ierarxik əlaqənin pozulmasına və nağılın bir-biri ilə əlaqəsi olmayan müxtəlif gedişlərin yığnağına çevrilməsinə səbəb olur. Bu cür gedişlərdən süjetdə bahadırın fiziki gücünü nümayiş etdirmək, qəhrəmanlıq cizgilərini qabartmaq məqsədi ilə istifadə olunur.

Sehrli nağıllarda zəif şəkildə təzahür edən padşah – qəhrəman qarşıdurması bahadırlıq nağıllarında ayrıca bir struktur vahidinə çevrilir. Padşah ya qızını qəhrəmana vermək istəmir, ya da qəhrəmanın onu öldürəcəyindən ehtiyat etdiyinə görə onu aradan götürməyə çalışır. «Qaraqaş» nağılında padşah bu məqsədlə qəhrəmanın üstünə Bəlğ pəhləvanını, daha sonra onu yeddi ilin bac-xəracını istəyən firəng qoşununun üstünə göndərir. Bundan bir nəticə hasil olmadıqda qəhrəmanın yeməyinə zəhər qatmaqla onu öldürməyə çalışır[78]. Sonuncu motiv "Siman", "Kəl Həsən" və "Ceyran" nağıllarında da özünü göstərir. Padşah Simanın yeməyinə bihuşdarı qatdıqdan sonra onun əl-qolunu bağlayıb bir otağa salır[79], Kəl Həsəni isə palaza bürüyüb yeddi dağın arxasına atdırır[80]. Hər iki halda dara düşmüş qəhrəmanın köməyinə Simurq quşu çatır. Padşah – qəhrəman qarşıdurması ikincinin birinci üzərində qələbəsi ilə başa çatır.

Nağıl qrupları biri-birindən kompozisiya xüsusiyyətləri ilə yanaşı, həm də qəhrəmanın tipinə görə fərqlənir. Tip

[78]Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.22
[79] Yenə orada, s.51
[80] Yenə orada, s.201

qəhrəmanın qarşıya qoyduğu məqsədə necə və hansı yolla çatmasına görə müəyyənləşir. Sehrli nağıllarda qəhrəman qarşıya qoyulan məqsədə sehrli əşya və köməkçinin köməyi ilə, bahadırlıq nağıllarında isə fiziki gücü hesabına çatır. Sehrli nağıllarda köməkçinin qəhrəmanın əvəzindən fəaliyyət göstərməsi onun passivləşməsinə səbəb olur. V.Y.Propp "Nağılların morfologiyası" əsərində bu haqda yazır: «Sehrli vasitə əldə etdikdən sonra və ya qəhrəmanın əlinə ona kömək edən canlı varlıq düşdükdən sonra onun tətbiqi gəlir: qəhrəman heç nə etmir, köməkçi onun əvəzindən hər şeyi yerinə yetirir"[81]. Bahadırlıq nağıllarında isə əksinə, sehrli əşyaların nağıl strukturundan çıxması və köməkçinin funksiyalarını itirməsi qəhrəmanın aktivləşməsinə səbəb olur. Öz funksiyalarının bir hissəsini itirmiş köməkçi bahadırlıq nağıllarında, əsasən, qəhrəmana məsləhət verən, yol göstərən, onu at və silahla təmin edən, dara düşdükdə ona kömək edən və himayəçi rolunda fəaliyyətini davam etdirir.

Sehrli nağıl personajları biri, birisi, padşah, div və s. bu kimi ümumi ad altında təqdim olunan qeyri-müəyyən personajlardır. Hətta baş rolun ifaçısı belə xüsusi inisiala sahib olsa da, bu, onu fərdi obraza çevirmir. Bahadırlıq nağıllarında isə əksinə, nəinki baş rolun ifaçısı, hətta antoqonist personajlar belə xüsusi inisiala sahib fərdi obrazlardır. Söyləyici sehrli nağıllarda istənilən qəhrəmanı Məlikməmməd adı altında təqdim edə bilirsə, bahadırlıq nağıllarında bu, mümkün deyildir. M.V.Novikov bunun səbəbini bahadırın daşıdığı adla onun xarakteri, nağılın məzmunu və poetik strukturu arasında

[81] Пропп В.Я. Морфология сказка. Изд. 2-е, М.: Наука, 1969, с.48

bağlılığın olması ilə izah edir[82]. Doğrudan da, bahadırlıq nağıllarında adla obraz arasında müəyyən bir bağlılıq vardır. Daha dəqiq desək, ad obraza onun hansısa bir əlamətinə görə – ya doğulma vəziyyətinə, ya şəxsi keyfiyyətinə, ya da sosial vəziyyətinə görə verilir. Məsələn, "Tapdıq" nağılında bahadıra yoldan tapıldığına görə[83], "Qaraqaş" nağılında bir cüt qara qaş şəklində doğulduğuna görə[84], "Ağ quş" nağılında isə şirin himayəsində böyüdüyünə görə[85] ad verilir. Adla obraz arasındakı bu cür bağlılıq obrazı fərdiləşdirir, onu fərdi bir personaja çevirir.

Bahadırlıq nağıllarında kişi personajlarla yanaşı, qadın obrazlarının fəaliyyətində də fiziki güc əsas rol oynayır. Qadınlarda zahiri gözəlliklə yanaşı, döyüşkənlik, qorxmazlıq kimi keyfiyyətlər ön plana çıxarılır. Məsələn, "Qaraqaş" nağılında odunçunun arvadı qalaçanın qapısı önündə keşik çəkən əjdahanı öldürüb qızların qalaçadan qaçmasına kömək edir[86]. Qadının fiziki gücünü göstərmək üçün bəzən məqsədsiz qarşılaşmalardan, güləşmələrdən də istifadə olunur. "Siman" nağılında Xan-xani-çin Simanı Ocıbınıx padşahın üstünə göndərir. Simanın gec qayıtmasından narahat olan Pəridux xanım pəhləvan qiyafəsində onu axtarır, Simanla qarşılaşdıqda isə qılınc çəkib ona hücum edir. Qılıncdan bir nəticə hasil olmadıqda qurşaq tutub üç gün, üç gecə güləşirlər, yalnız dördüncü gün

[82] Новиков Н.В. Образы восточнославянской волщебной сказки. Л.: Наука, 1974, с.27

[83] Azərbaycan nağılları: 5 cilddə, III c. / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Azərb. SSR EA, 1962, s.39

[84] Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.17

[85] Yenə orada, s.113

[86] Yenə orada, s.18

Siman onun kürəyini yerə vura bilir[87]. “Nardan xatun”, “Qara vəzir” nağıllarında baş rolun iştirakçısı olan qadınlar bütün süjet boyu pəhləvan qiyafəsində fəaliyyət göstərirlər.

Sehrli nağıllar bahadırlıq nağıllarına çevrildiyi zaman demonik varlıqlar sosial varlıqlarla (dərviş, pəhləvan və s.) əvəzlənir. Adi insanlar yalnız demonik varlıqların funksiyasını yerinə yetirmir, eyni zamanda onlara məxsus atributları daşıyırlar. “Qaraqaş” nağılında dərviş demonik varlıqlar kimi qalaçada yaşayır, oğurladığı qızları daşa döndərir və yaxud saçından asaraq onlara əzab verir, onun yaşadığı qalaçanın qapısı önündə əjdaha, pələng keşik çəkir[88]. “Kəl Həsən” nağılında isə padşahın qızını oğurlayan Kaşkaş pəhləvan çay kənarındakı qalaçada yaşayır[89]. Sehrli nağıllardan da bəllidir ki, həmin zonalar demonik varlıqların yaşadığı məkanlar hesab olunur.

Sehrli nağıllar bahadırlıq nağıllarına çevrilərkən “köməkçinin magik yolla qazanılması onun fiziki gücə tabe edilməsi”[90] ilə əvəzlənir. Sehrli əşyaların nağıl strukturundan çıxması və köməkçilərin funksiyasının daralması qəhrəmanın aktivləşməsinə səbəb olur. Bahadırın fiziki gücünü qabartmaq üçün süjetə əsas məqsədlə heç bir bağlılığı olmayan gedişlər əlavə olunur. Beləliklə, “Qaraqaş”, “Ceyran”, “Kəl Həsən”, “Soltan İbrahim”, “Reyhan”, “Kəlləgöz”, “Naxırçı oğlu Eyvaz”, “Saqqalı bir qarış...” və s. nağıllar qeyd olunan struktur dəyişikliyinə uğradıqdan sonra sehrli nağıllardan bahadırlıq nağıllarına çevrilmişlər.

---

[87] Azərbaycan nağılları: 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA, 1960, s.54

[88] Yenə orada, s.18

[89] Yenə orada, 194

[90] Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman (səciyyəsi və mənşəyi): Filol.elm.nam. ... dis. Bakı, 1993, s.97

**2.5. Kontaminasiya hadisəsi.** Azərbaycan nağıllarının sistemləşdirilməsi zamanı qarşılaşdığımız əsas problemlərdən biri də kontaminasiyaların fərqləndirilməsidir. Aarne-Tompson sistemi və onun əsasında tərtib olunmuş göstəricilərdə kontaminasiyaları müəyyənləşdirmək üçün heç bir prinsip verilməyib. Bu məsələnin həlli zamanı tərtibçilər çox vaxt şəxsi intuisiyadan çıxış ediblər ki, bu da bir çox kontaminasiyaların müstəqil süjet kimi göstərilməsinə səbəb olub.

Kontaminasiya dedikdə folklorşünaslıqda iki və daha artıq süjetin eyni nağıl daxilində birləşməsi nəzərdə tutulur. Kontaminasiya hadisəsi uzun müddət öyrənilməmiş problemlərdən biri olmuşdur. Yalnız keçən əsrin 60-70-ci illərində N.M.Vedernikovanın, daha sonralar isə T.Q.İvanovanın bu problemə həsr olunmuş əsərləri işıq üzü görür. N.M.Vedernikova kontaminasiyanı söyləyicinin nağıllar üzərində gerçəkləşdirdiyi yaradıcılıq hadisəsi hesab edir. Söyləyici hər dəfə eyni auditoriya qarşısında çıxış etdiyindən onun repertuarı dinləyicilərə tanış olur. Bu da onları improvizasiyaya sövq edir. Onlar süjetə yeni elementlər və motivlər daxil etməklə tanış nağılı bir qədər dəyişilmiş şəkildə təqdim etməyə, bu yolla da dinləyicilərdə maraq oyatmağa çalışırlar. Kontaminasiya hadisəsini belə improvizasiya vasitələrindən biri hesab edən araşdırıcı yazır: "Nağılçı müəyyən bir nağılda məlum süjetləri birləşdirməklə tanış nağıl əsasında sanki yeni bir əsər yaradır. Dinləyici sevimli qəhrəmanları, ayrı-ayrı epizodları asanlıqla tanıyır, lakin bütövlükdə fəaliyyətin gözlənilməz inkişafı auditoriyada marağın artmasına səbəb olur"[91].

[91] Ведерникова Н.М. Контаминация как творческий прием в волшебной сказке / Русский фольклор, т. XIII. Русская народная проза. Л.: Наука, 1972, с.160

Fikrimizcə, kontaminasiyanın yaranmasını təkcə qeyd olunan səbəblə əlaqələndirmək bu hadisənin mahiyyətini tam dərk etməyə imkan vermir. Söyləyici kontaminasiya hadisəsindən həm də obrazı açmaq, ona məxsus müəyyən xüsusiyyət və keyfiyyətləri daha qabarıq şəkildə vermək məqsədilə də istifadə edir. Məsələn, "İtmiş dəvə" (925**) süjetinə çox vaxt "Ağıllı qardaşlar" (925*A) süjeti ilə kontaminasiya daxilində rast gəlinir. Birinci süjetdə qardaşlar dəvənin izinə görə onun əlamətlərini, ikinci süjetdə isə onlara verilən ətin it əti, şərabın insan qanı, padşahın isə aşpaz oğlu olduğunu tapırlar. Söyləyici hər iki süjeti eyni nağıl daxilində birləşdirməklə qardaşların bilicilik, uzaqgörənlik qabiliyyətlərini üzə çıxartmağa çalışır. "Tülkünün kələyi" nağılında isə söyləyici "Tülkü həccə gedir" (113B*), "Tülkü gəlinin zinət əşyalarını oğurlayır" (1B*), "Qurdun balıq tutması" (2), "Tülkü pinəçilik edir" (38A) və "Tülkü səbət toxuyur" (38B*) süjetlərini birləşdirməklə tülkünün hiyləgərliyini üzə çıxartmağa çalışır.

Son illər qeydə alınmış nağıllarda kontaminasiya hadisəsinə çox az təsadüf olunur. Sadəcə bir faktı qeyd edək ki, 2000-2003-cü illərdə Ağdaş rayonundan qeydə alınmış 150 nağıldan yalnız bir neçəsində süjet birləşməsinə təsadüf olunur. Kontaminasiya hadisəsinin bu qədər zəifləməsinin əsas səbəbi nağıl məclislərinin (çillə gecələri, dimgə söhbətləri, imam xeyratları və s.) tədricən məişətdən çıxması, radio, televiziya və s. bu kimi əyləncə vasitələrinin məişətə daxil olması nəticəsində söyləyicilik, ifaçılıq prosesinin zəifləməsidir. Artıq keçmişdəki kimi uzun nağıl gecələri olmadığından söyləyici süjetləri birləşdirməklə nağılın həcmini genişləndirməyə ehtiyac hiss etmir.

N.M.Vedernikova nağıllarda iki cür – mexaniki və yaradıcı kontaminasiyaların olduğunu qeyd edir. Mexaniki kontaminasiyalar zamanı süjetlərin birləşməsi mexaniki xarakter daşıyır və bir süjetdən digər süjetə keçid demək olar ki, əsaslandırılmır. Yaradıcı kontaminasiyalar zamanı söyləyici nəinki bu keçidləri əsaslandırır, hətta ona müəyyən məna verir[92]. Yaradıcı kontaminasiyalar çox zaman tərəflərdən birinin zərərə məruz qalması hesabına baş verir. Məsələn, 300 nömrəli süjetin ənənəvi variantlarında qəhrəman suyun qabağını kəsmiş əjdahanı öldürdükdən sonra bir qayda olaraq, xilas etdiyi qızla evlənir. Amma "Oğurlanmış üç şahzadə qız" (301) süjeti ilə kontaminasiya olunmuş variantlarda ənənəvi sonluq dəyişdirilir. Qəhrəman xilas etdiyi qızla evlənməkdən imtina edir, əvəzində padşahdan işıqlı dünyaya çıxmaq üçün qırx tuluq su və qırx şaqqa ət istəyir. “Əsl yoldaş” (516) və “Keçəllə kosa qəbiristanlıqda” (1654) süjetlərindən təşkil olunmuş “İki yoldaş” nağılında da birinci tərəf müəyyən dəyişikliyə məruz qalmışdır. 516 nömrəli süjetdə qəhrəman padşahın qızına aşiq olur. Onu görmək üçün özünü naşılığa qoyur: keçinin qulağını, quyruğunu qatlayır və s. Qız heyvanın səsini eşidib çölə çıxanda qəhrəman onu görür. Ənənəvi variantda süjet qəhrəmanın həmin qızla evlənməsi ilə tamamlanırsa, bu variantda söyləyici “Keçəllə kosa qəbiristanlıqda” süjetini kontaminasiya edə bilmək üçün ənənəvi sonluğu dəyişir. Qız qəhrəmanın və onun yoldaşlarının kələk işlətdiyini başa düşüb onları saraydan qovur. Onların sərdabədə gecələmələri

[92] Ведерникова Н.М. Контаминация как творческий прием в волшебной сказке / Русский фольклор, т. XIII. Русская народная проза. Л.: Наука, 1972, s.161

ilə söyləyici 1654 nömrəli süjetə məxsus gedişlərlə hadisələri davam etdirir.

Azərbaycan nağıllarında kontaminasiyanın müxtəlif forma və üsullarına təsadüf olunur. Bunların içərisində ən geniş yayılanı aşağıdakılardır:

1. Əsas süjetdə ata və ananın, növbəti süjetdə isə onlardan olan uşaqların başına gələn hadisələrdən bəhs olunması;

2. Padşahı hansısa bir hərəkətdən çəkindirmək məqsədi ilə ibrətamiz məzmunlu hekayələrin danışılması;

3. Qəhrəmanın hansısa bir sirri və ya kiminsə əhvalatını öyrənməyə göndərilməsi;

4. Bir neçə adamın bir araya toplaşıb başlarına gələn hadisəni nağıl etməsi.

Kontaminasiyalar çox vaxt eyni qrup daxilindəki süjetlər arasında baş verir. Məsələn, “Ağ atlı oğlan” nağılı (327A+538* +532) sehrli nağıl, “Tülkü və hacıleylək” (60+225+37+181) nağılı heyvanlar haqqında nağıl süjetlərinin birləşməsindən təşkil olunub. Eyni qrup daxilindəki süjetlərin həm forma, həm də məzmun baxımından bir-birinə yaxın olmaları onların eyni nağıl daxilində birləşmə imkanlarını xeyli artırır. Bununla belə, müxtəlif qruplar arasında da kontaminasiyalara təsadüf olunur. Məsələn, “Ağ quş” nağılı (2530*+551+525*) bahadırlıq və sehrli nağıl süjetlərindən, “Qızıl qoç” (516+525*+893*A+893**) nağılı isə sehrli və novellavari nağıl süjetlərindən təşkil olunur.

Kontaminasiyalar fərdi yaradıcılıq hadisəsi olduğu üçün çox vaxt bu və ya digər xalqın şifahi yaradıcılığı ilə bağlı olur. “Özünü əvəz etmə” (327) + “Kürəkənlərin sınanması” (538*), “Qəbir üstündə keşik çəkmə” (530) + “Divin canı şüşədədir” (302), “Özünü başqası ilə əvəz etmə” (327B) + “Caccı” (328) və s. bu kimi süjet birləşmələri yalnız Azərbaycan nağılları

üçün xarakterikdir. Bununla belə, Azərbaycan nağıllarında beynəlxalq kontaminasiyalara da təsadüf etmək mümkündür. "Oğurlanmış üç şahzadə qız" (301) və "Suyun qabağını kəsmiş əjdaha" (300) kimi süjet birləşmələrinə dünyanın müxtəlif xalqlarında təsadüf olunur. Bəzi kontaminasiyalar bizdə daha geniş yayıldığı halda, başqa xaqlarda onlara az-az təsadüf olunur. Məsələn, "Ögey ana və ögey qız" (480) süjeti bizdə qeydə alınmış səkkiz variantdan altısında "Axsaxca ceyran" (510A) süjeti ilə kontaminasiya olunub. Həmin süjet birləşmələri Ukrayna və belorus nağıllarında özünü göstərsə də, onlarda bizdəki qədər geniş yayılmayıb.

Azərbaycan nağıllarında "Min bir gecə" mənşəli kontaminasiyalara da rast gəlirik. "Cəvahirsatan Səlim" (485), "Qızıl dağ" (936) və "Ər itmiş arvadını axtarır" (400), "Qızın saçları arasındakı ləl" (993*) və "Ayrı düşmüş qardaşlar" (567*), "Məhər" (864*) və "Caməs" (672*A) və s. süjet birləşmələri bizə həmin abidədən alınmış nağıllar vasitəsilə keçib.

Aarne-Tompson sistemi və onun əsasında tərtib olunmuş kataloqlarda kontaminasiyaları müəyyənləşdirmək üçün heç bir prinsip verilmədiyinə görə kontaminasiya əsasında təşkil olunmuş bir çox nağıllar müstəqil süjet kimi göstərilib. Konkretlik üçün AT 516 nömrəli süjetə diqqət yetirək: *qəhrəman şəkildə gördüyü qıza aşiq olur; gəmi ilə onu qaçırdır; nökər qəhrəmanı gözləyən təhlükə haqqında eşidib onu xəbərdar edir; buna görə daşa dönür; qəhrəman öz uşağının qanı ilə onu dirildir.* "Göstərici"də vahid nömrə ilə verilmiş bu nağıl, əslində, iki müstəqil süjetin birləşməsindən təşkil olunub. Bunlardan biri qəhrəmanın şəkildə gördüyü qıza aşiq olması və yoldaşının köməyi ilə onu qaçırtması, digəri isə nökərin qəhrəmanı qarşıda gözləyən təhlükə haqqında eşidib onu xəbərdar

etməsi və buna görə daşa dönməsidir. Bizim göstəricidə bu süjetlərdən birincisi 516, ikincisi 525*-ci nömrədə verilib. Eyni səhv bizim göstəricidə 538*-ci nömrədə verilmiş "Kürəkənlərin sınanması" süjetində də buraxılıb. Bu süjet AT-də "Qəbir üstündə keşik çəkmə" (530) süjetinin variantı kimi verilib. Halbuki bunlar tamamilə fərqli süjetlərdir. Sadəcə olaraq, tez-tez kontaminasiya olunduqları üçün tərtibçi onları eyni süjet kimi qiymətləndirib və "Göstərici"də bir nömrə altında verib.

Aarne-Andreyev göstəricisindəki "Ağıllı qardaşlar" (926) süjetinə diqqət yetirək: *Qardaşlar xəyali əlamətlər əsasında atlarını oğurlayan oğrunu tapırlar. Padşaha qonaq olurlar, onlara verilən yeməyin it ətindən, şərabın insan qanından hazırlandığını, padşahın isə qeyri-qanuni doğulduğunu deyirlər. Padşah araşdırır, onların düz dediyi üzə çıxır.* Aarne-Andreyev göstəricisində vahid nömrə ilə verilmiş bu nağıl, əslində, iki müstəqil süjetin birləşməsindən təşkil olunub. Bunlardan biri qardaşların xəyali əlamətlər əsasında atlarını oğurlayan oğrunu tapması, digəri isə qardaşların onlara verilən yeməyin it ətindən, şərabın insan qanından hazırlandığını, padşahın isə qeyri-qanuni doğulduğunu deməələri və bunun həqiqət olduğunun üzə çıxmasıdır. Sonralar S.Tompson Aarne sistemini genişləndirərkən onları fərqli süjet kimi qiymətləndirir və müxtəlif nömrələr altında verir.

Bu cür yanlışlıqları aradan qaldırmaq və süjet göstəricilərinin tərtibində dəqiqliyə nail olmaq üçün müxtəlif tədqiqatçılar tərəfindən zaman-zaman müəyyən prinsiplər irəli sürü–lür. Belə tədqiqatçılardan biri də V.Y.Proppdur. O, kontaminasiyaları süjeti təşkil edən gedişlərə görə fərqləndirməyə

çalışmışdır[93]. Lakin V.Y.Propp yalnız sehrli nağıllardan çıxış etdiyindən onun təklif etdiyi prinsiplər nağıllarda qarşıya çıxan bütün kontaminasiyaları müəyyənləşdirməyə imkan vermir.

N.M.Vedernikovaya görə, süjetlər müxtəlif səviyyəli motivlərin kombinasiyasından təşkil olunur. Süjet daxilində oynadığı roldan asılı olaraq onlar mərkəzi və yardımçı motivlərə ayrılır. Mərkəzi motivlər ziddiyyətli və mürəkkəb mövzulu olur, süjetdəki ən dramatik və gərgin anları təsvir edir. Yardımçı motivlər isə, mərkəzi motiv üçün zəmin hazırlayır, onda təsvir olunan hadisəni aydınlaşdırmağa xidmət edir. Mərkəzi motivlər bir süjetə məxsus olduğu halda, yardımçı motivlər başqa süjetlərdə iştirak edə və ekvivalentləri ilə əvəzlənə bilir. Bundan çıxış edərək N.M.Vedernikova kontaminasiyaları mərkəzi motivə görə fərqləndirməyi təklif edir. Nağılda iki və daha artıq mərkəzi motivin olmasını o, kontaminasiyanın əlaməti sayır[94].

Biz də kontaminasiyaları müəyyənləşdirərkən bu prinsipdən yararlanmağa çalışmışıq.

## § 3. Azərbaycan nağıllarının süjet tərkibi

Azərbaycan nağıllarına məxsus 692 süjet müəyyən etmişik. Bunlardan 119-u heyvanlar haqqında nağıllara, 133-ü sehrli, 105-i dini, 150-si novellavari, 21-i axmaq şeytan haqqında, 132-si lətifəvari, 12-si zəncirvari nağıllara, 20-si isə bahadırlıq nağıllarına məxsus süjetlərdir. Süjetlərin qruplar üzrə sayı aşağıdakı cədvəldə əks olunub:

---

[93] Пропп В.Я. Морфология сказка. Изд. 2-е, М.: Наука, 1969, с.83

[94] Ведерникова Н.М. Контаминация как творческий прием в волшебной сказке / Русский фольклор, т. XIII. Русская народная проза. Л.: Наука, 1972, с.160

**Süjetlərin qruplar üzrə nisbəti**

| Nağıl qrupları | Süjetlərin qruplar üzrə nisbəti | Qarşılığı olan süjetlər | Qarşılığı olmayan süjetlər |
|---|---|---|---|
| I.Heyvanlar haqqında nağıllar............................ | 119 | 81 | 38 |
| II. Əsl nağıllar | | | |
| a) Sehrli nağıllar ……….. | 133 | 95 | 38 |
| b) Dini nağıllar…………. | 105 | 45 | 60 |
| c) Novellavari nağıllar …. | 150 | 63 | 87 |
| d) Axmaq şeytan haqqında nağıllar………………….. | 21 | 17 | 4 |
| III. Lətifəvari nağıllar ...... | 132 | 80 | 52 |
| IV. Zəncirvari nağıllar….. | 12 | 9 | 3 |
| V. Bahadırlıq nağılları….. | 20 | – | 20 |
| Cəmi................................ | 692 | 390 | 302 |

Azərbaycan nağılları arasında beynəlxalq süjetlərin çəkisi nağıl repertuarının yarıdan çoxunu təşkil edir. Belə ki, aşkar etdiyimiz süjetlərin 56 faizi AT göstəricisində qarşılığı olan, 44 faizi isə yeni süjetlərdir. Ən çox fərqliliyə novellavari və dini nağıllar qrupunda rast gəlinir. Qarşılığı tapılmayan süjetlərin demək olar ki, yarısı bu iki qrupun payına düşür. Novellavari nağılların 58 faizini, dini nağılların 60, sehrli nağılların 28, heyvanlar haqqında nağılların 32, axmaq şeytan haqqında nağılların 19, lətifəvari nağılların isə 39 faizini beynəlxalq kataloqda qarşılığı olmayan süjetlər təşkil edir.

Beynəlxalq süjetlərə ən çox axmaq şeytan haqqında nağıllar qrupunda rast gəlirik. Bu qrupun süjet tərkibinin 81,

sehrli nağılların 72, heyvanlar haqqında nağılların 68, lətifəvari nağılların 61, dini nağılların 40, novellavari nağılların isə 42 faizini beynəlxalq süjetlər təşkil edir.

Cədvəldən göründüyü kimi, göstəricidə bütün qruplar eyni səviyyədə təmsil olunmayıb. Ən çox süjetlə novellavari nağıllar, lətifəvari və sehrli nağıllar, ən az süjetlə isə axmaq şeytan haqqında və kumilyativ nağıllar qrupu təmsil olunub. Qruplar arasındakı bu fərq əslində, toplama işinin lazımi şəkildə təşkil olunmamasından, toplama ilə məşğul olan şəxslərin bütün qruplara eyni səviyyədə diqqət ayırmamasından irəli gəlir. Məsələn, heyvanlar haqqında nağıllar süjet tərkibinin zənginliyinə görə seçilən qruplardan biri olduğu halda, bizdə bu qrupa dair təxminən 100-ə yaxın mətn qeydə alınıb. Dini nağıllara münasibətdə də oxşar vəziyyətlə qarşılaşırıq. Dini məzmun kəsb etməsi, əsas iştirakçılarının dini şəxsiyyətlər olması Sovet dövründə bu qrupun lazımi səviyyədə toplanmamasına səbəb olmuşdur. Bu qrupa məxsus nağılların böyük əksəriyyətinə yalnız son illərdə çap olunmuş toplularda rast gəlirik.

"Göstərici"nin Azərbaycan nağıllarının süjet tərkibini tam əks etdirdiyini düşünmək yanlışlıq olardı. Bunu Azərbaycan və rus nağılları arasında apardığımız müqayisədən də görmək olar. Məsələn, ruslarda sehrli nağıllara məxsus 226 süjet, Azərbaycan nağıllarında 133 süjet mövcuddur. Yalnız novellavari nağıllarda bu nisbət bizim xeyrimizə dəyişir. Bizim tərtib etdiyimiz göstəricidə novellavari nağıllar 150, ruslarda isə 137 süjetlə təmsil olunub. Süjetlərin ümumi sayına gəldikdə isə, burada vəziyyət daha acınacaqlıdır. 1226 süjetin qarşılığında bizdə yalnız 692 süjet mövcuddur. Süjetlərin sayları arasındakı bu fərq ilk növbədə toplama işinin zəif aparılmasından irəli gəlir. Bir çox bölgələrə indiyədək folklor

ezamiyyələrinin təşkil olunmaması, toplamaya cəlb olunmuş bölgələrin isə kifayət qədər toplanılmaması qeydə alınan nümunələrin sayına təsir etmişdir. Həm ərazi, həm də əhali baxımından Şimaldan dəfələrlə böyük olan Cənubi Azərbaycan folklorunun toplanılmamasını nəzərə alsaq, onda şifahi ənənədə qeydə alınmamış nə qədər böyük sərvətin olduğunu təsəvvür etmək çətin deyildir. Digər tərəfdən, radio, televiziya və s. bu kimi informasiya vasitələrinin məişətə daxil olması nağılların auditoriyasını xeyli daraltmışdır. Nəticədə bir çox süjetlər yaşlı nəsildən gənc nəslə ötürülmədiyindən ya itib batmış, ya da unudularaq dövriyyədən çıxmışdır. Bu kimi amillər bizə Azərbaycan nağıllarının süjet tərkibini tam əks etdirməyə imkan vermir.

“Göstərici”dən aydın olduğu kimi, lətifələr qrupu bizdə çox az sayda süjetlə təmsil olunub. Bunun da əsas səbəbi lətifələrin bizim tərtib etdiyimiz göstəricidə sistemləşdirməyə cəlb olunmamasıdır.

AT kataloqundakı süjetlərin bizdə qarşılığının tapılmaması həmin süjetlərin bizdə olmaması anlamına gəlmir. Azərbaycan nağıllarının süjet tərkibindən bəhs edərkən biz indiyə qədər qeydə alınmış nağıllardan çıxış etmişik. Şifahi ənənədə isə hələ də toplanılmamış kifayət qədər süjetlər mövcuddur. Yalnız bir faktı qeyd edək ki, Folklor İnstitutunun həyata keçirdiyi “Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması” layihəsi çərçivəsində 2012-ci ildə 20-yə qədər yeni nağıl süjeti qeydə alınmışdır. Bu faktın özü bir daha onu göstərir ki, şifahi ənənədəki mətnlər toplandıqca AT kataloqundakı bir çox süjetlərin qarşılığını tapmaq mümkün olacaqdır.

Azərbaycan nağıllarının süjet tərkibinə diqqət yetirdikdə burada şifahi ənənədən gələn süjetlərlə yanaşı, yazılı mənbə-

lərdən, xüsusən də “Min bir gecə” və “Kəlilə və Dimnə” abidələrindən alınmaların da xüsusi çəkisinin olduğunu görmək olar. Kitab mənşəli nağılların timsalında biz folklor mətninin şifahi ənənədən kitaba, kitabdan isə şifahi ənənəyə qayıtması prosesinin şahidi oluruq. Təbii ki, şifahi ənənəyə qayıdan mətn şifahi mətnin qanunlarına uyğun inkişaf edir: variantlaşır, özünün bir çox motivlərini itirir, yerinə yeniləri cəlb olunur. Ümumiyyətlə, kitab mənşəli nağılların hamısında orijinalla müqayisə etdikdə az və ya çox dərəcədə variantlılıq müşahidə olunur. Nümunə üçün Ə.Axundovun iki cildlik “Azərbaycan nağılları” toplusunda çap olunmuş “Məhərin nağılı”na diqqət yetirək. Həmin nağılın kitab variantı “Min bir gecə”nin VIII cildində “Pinəçi Mərufun nağılı” adı altında verilmişdir. Nağılın qısa məzmunu belədir: *Arvad ərinə şan balı ilə yağda qovrulmuş qara xurma almağı tapşırır; şan balı əvəzinə süzmə bal aldığı üçün ərini evdən qovur; yağışdan qorunmaq üçün uçuq bir binaya sığınan kişi orada ifritəyə rast gəlir; ifritə onu çiyninə alıb Yəmən şəhərinə gətirir; öz həmyerlisi ilə qarşılaşan kişi onun məsləhəti ilə özünü tacir kimi qələmə verir və padşahın qızı ilə evlənir; içərisində sehrli üzük olan xəzinə tapır; vəzir üzüyü ələ keçirib onu və padşahı səhraya atdırır; padşahın qızı onları xilas edir.*

Hər iki nağılda aşağıdakı variant fərqləri müşahidə olunur:

1. Kitab variantından fərqli olaraq, Ə.Axundov variantı təkərləmə ilə başlayır.

2. Kitab variantında arvad ərinə arı balından hazırlanmış kətə, Ə.Axundov variantında isə şan balı ilə yağda qovrulmuş qara xurma almağı tapşırır.

3. Kitab variantında pinəçi ifritəyə yağışdan qorunmaq üçün sığındığı binada, Ə.Axundov variantında isə meşədə gecələdiyi ağacın altında rast gəlir.

4. Ə.Axundov variantında nağıl vəzirin cəzalandırılması ilə tamamlanırsa, kitab variantında hadisələrin inkişafı pinəçinin əvvəlki arvadının onu axtarıb tapması və üzüyü ondan oğurlamaq istəməsi ilə davam edir.

Kitab variantında hadisələrin şifahi varianta nisbətən daha geniş və təfsilatlı olduğunun şahidi oluruq. Bunu yuxarıda müqayisəsini verdiyimiz nağılın timsalında da görmək olar. Həmin nağılın kitab variantının həcmi əlli üç, Ə.Axundov variantının həcmi isə on bir səhifədən ibarətdir. Şübhəsiz ki, bu cür variant fərqləri şifahi ifa prosesində qazanılmış xüsusiyyətlərdir. Amma kitab mənşəli nağıllar şifahi ifa zamanı nə qədər variantlaşmaya məruz qalsa da, orijinala məxsus cizgilərini tam itirmir. Əksər motivlər bir-biri ilə səsləşir, hətta personajlara verilən adlar belə orijinaldan yalnız fonetik fərqlərə görə seçilir. "Məhər" nağılındakı personaj adlarının əsli ilə müqayisəsi bunu aydın şəkildə göstərir: Fatma – Fatimə, Əli – Xacə Əli. Personaj adları arasındakı bu cür oxşarlıq "Seyfəlmülk" nağılında da müşahidə olunur: Seyf-əl-mülk – Seyfəlmülk, Badi-əl-Camal – Bədiəlcamal, Asim ibn Səfvan – Səfqan, Fariz ibn Salih – Saleh, Şahyal padşah – Şahbal padşah.

Həm süjetlər arasındakı tipoloji oxşarlığa, həm də personaj adları, obrazların nitqi və ifadələri arsındakı bənzərlik və yaxınlığa dayanaraq aşağıdakı nağılların "Min bir gecə" mənşəli olduğunu təxmin edirik. "İmam" (863*), "Xacə Fəttah" (900*), "Şəms-Qəmər" (993*+567*), "Seyfəlmülk" (516E*), "Məhərin nağılı" (864*+560*A), "Halallıq" (839**), "Halal ömür" (759**), "İki qardaş" (1426), "İfritə" (410*) və s.

Azərbaycan nağıllarının süjet tərkibinin zənginləşməsində “Kəlilə və Dimnə” abidəsinin də böyük rolu olmuşdur. Azərbaycanda heyvanlar haqqında nağılların zəif toplanılması bu abidənin şifahi ənənəyə təsirinin miqyasını müəyyənləşdirməyi olduqca çətinləşdirir. Bununla belə, toplanmış nümunələr arasında da bu abidədən alınmış kifayət qədər süjet mövcuddur. Onlardan biri də bizim göstəricidə 248A nömrəsində verilmiş “Qırqovulun qisası” süjetidir. Süjetdə deyilir ki, qırqovul dəvənin yolu üstündə yuva qurur. Dəvə su içməyə gedəndə qırqovulun yuvasını tapdalayıb onun yumurtalarını əzir. Qırqovul ondan qarğaya şikayət edir. Qarğa dəvənin gözlərini çıxardır, qurbağalar isə onun korluğundan istifadə edib quyuya salırlar. Süjetin “Kəlilə və Dimnə” variantında əsas personajlar fillə torağaydır, qalan personajlar və fəaliyyətlər isə hər iki variantda üst-üstə düşür[95].

Beləliklə, yuxarıda deyilənlərdən çıxış edərək biz aşağıdakı süjetlərin “Kəlilə və Dimnə” mənşəli olduğunu ehtimal edirik: “Aslan və dovşan” (92), “Yaxşılığa yamanlıq” (155), “Xeyirxah heyvanlar” (160), “Qızılquş və xoruz” (223D*), “Qırqovulun qisası” (248A), “Taylı tayını tapmasa” (278), “Günahsız qızılquş” (178D*).

Alınma süjetlər çox vaxt şifahi ənənədə geniş yayıla bilmir, onlar ya hansısa bir söyləyicinin repertuarı üçün xarakterik olur, ya da dar bir ərazidə yayılmış olurlar. Bunu “Min bir gecə” mənşəli süjetlərin timsalında da görmək olar. Belə ki, bu abidəyə məxsus olduğunu müəyyən etdiyimiz on doqquz süjetdən on üçünə bir və ya iki variantda rast gəlinir.

---

[95] Kəlilə və Dimnə / Farscadan tərcümə edəni, şərh və izahların müəllifi prof. Rəhim Sultanov. IV nəşr, Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1989, s.21

Yeganə olaraq, “Qızıl dağ” (936) süjetinin on iki variantı qeydə alınmışdır ki, bunun yeddisində orijinala uyğun olaraq “Cəvahirsatan Səlim” (485A) və “Ər itmiş arvadını axtarır” (400) süjetləri ilə kontaminasiya olunmuşdur.

AT sisteminin beynəlxalq aləmdəki nüfuzunu və başqa xalqların öz nağıllarını onun əsasında sistemləşdirməsini nəzərə alıb biz də Azərbaycan nağıllarını sistemləşdirərkən ona istinad etmişik. Süjetlərin əsas göstəricidə qarşılığını tapmadığımız zaman yardımçı mənbələrə – Şərqi slavyan xalqlarının süjet göstəricisinə, K.Arays və A.Mednenin latış, T.D.Kurdovanidzenin gürcü nağılları əsasında tərtib etdiyi göstəricilərə istinad etmişik. Bəzi süjetlər həmin kataloqlara uyğun nömrələrlə göstəriciyə daxil edilib, nömrənin qarşısında isə onun məxsus olduğu kataloqun qısaldılmış adı verilib. “Heyvanların qız qaçırtması” (546*) belə süjetlərdən biridir. *Tülkü heyvanlarla danışıb onları qəhrəmana xidmət etməyə razı salır. Padşahın qızını qaçırdırlar, daha sonra padşahın qoşunu ilə döyüşdə qəhrəmana köməklik edirlər.* Əsas göstəricidə qarşılığı olmayan bu süjetə T.D.Kurdovanidzenin tərtib etdiyi göstəricidə 546*-cı nömrədə rast gəlirik. Həmin süjet bizim tərtib etdiyimiz göstəricidə də eyni nömrə ilə verilib.

Kataloqda nağılların qruplara və yarımqruplara bölünməsi əsas göstəriciyə uyğun aparılıb. Yalnız bahadırlıq nağıllarını əlavə etməklə biz bu bölgünü bir qədər genişləndirmişik. Göstəricidə bahadırlıq nağılları üçün 100-ə yaxın nömrə ayrılsa da, əldə olan materiallar əsasında bu nömrələrin ancaq müəyyən bir qismini doldurmaq mümkün olub. Boş qalan nömrələr isə gələcəkdə aşkarlanacaq yeni süjetlər üçün nəzərdə tutulub.

Göstəricidə hər süjet üçün bir nömrə ayrılıb, nömrənin qarşısında süjetin təsviri, təsvirin altında isə onun çap olunduğu mənbələr göstərilib. Təsvirlər süjetdə baş verən hadisələrə görə aparılıb. Qəhrəmanın mənsubiyyəti, zahiri detallar süjetlərin təsvirini verərkən elə bir əhəmiyyət kəsb etmir. Təsvirlər Azərbaycan nağılları əsasında aparılıb. Süjet adlarının böyük əksəriyyəti AT kataloqundan gəlir, yalnız bəzi süjetlərə yerli nağıllardan çıxış edərək ad verilib. Bu zaman şifahi ənənədən gələn nağıl adlarından da istifadə etmişik. Məsələn, 408 nömrəli süjet xalq arasında "Əməmxiyar qızı", 437 nömrəli süjet isə “Ölüyə qismət olan qız” adı ilə tanındığından qeyd olunan süjetlər göstəricidə həmin adla verilib. Əgər nağılın adı xalq arasında populyar deyilsə, bu zaman onun məzmunundan, onu təşkil edən motivlərdən çıxış edərək onları adlandırmağa çalışmışıq.

Göstəricidə mənbələr xronoloji ardıcıllıqla verilib. Əgər eyni nağılın təkrar nəşrinə rast gəlinirsə, bu zaman xronoloji ardıcıllıq pozulur: əvvəl nağılın təkrar nəşri, sonra digər mənbələr göstərilir. Eyni nağıl bir neçə dəfə çap olunubsa, onun ilkin nəşri əsas mənbə kimi götürülüb, digər nəşrlər isə mötərizə içərisində verilib. Amma əsas mənbə kimi ilkin nəşrə istinad etmək heç də hər dəfə uğurlu olmur. Çünki ilkin nəşrlərin köhnə olması və az tirajla çap olunması onların əldə edilməsini xeyli çətinləşdirir. Məsələn, 1941-1949-cu illərdə üç cildlik nağıllar toplusu nəşr olunur. Amma az tirajla çap olunduğuna və nüsxələri yararsız hala düşdüyünə görə ilkin mənbə kimi ona deyil, 1960-64-cü illərdə çıxmış beş cildlik nağıllar toplusuna istinad etmişik. Bu qayda “Bu yurd bayquşa qalmaz” folklor toplusunda çap olunmuş nağıllara da şamil edilir. Bu toplu kütləvi nəşr üçün nəzərdə tutulduğundan

mətnlər dialektdən çıxarılmışdır. Pasportlaşdırma isə ümumi şəkildə verildiyindən söyləyicinin hansı mətni söylədiyi aydın olmur. Sonralar həmin topluya daxil edilən nağılların böyük əksəriyyəti AFA-nın XII cildində dialekt xüsusiyyətləri gözlənilməklə yenidən çap olunur, söyləyicilər siyahısında buraxılmış səhvlər isə düzəldilir. Məhz bu cəhəti nəzərə alaraq, göstəricidə ilkin mənbə kimi AFA-nın XII cildinə istinad olunub, digər mənbə isə mötərizə içərisində göstərilib. Mənbəyə istinad zamanı toplunun cildi, mətnlərin nömrəsi (nömrələnmə yoxdursa nağılın səhifəsi) qeyd edilib. Göstəricidə mənbələrin adı şərti qısaltmalarla verilib. Qısaltmaların siyahısı isə "Şərti ixtisarlar" bölməsində verilib.

Əsas göstəricidə qarşılığını tapmadığımız süjetlər göstəriciyə yeni nömrələr altında daxil edilib. Başqa nömrələrdən fərqləndirmək üçün onların üzərinə * (ulduz) işarəsi qoyulub. Amma fərqli süjetlərin sayının çoxluğu üzündən əsas göstəricidə boş buraxılmış nömrələr bəzən onların yerləşdirilməsinə kifayət etməmişdir. Bu zaman biz əlavə ulduz işarəsindən istifadə etməklə onları göstəriciyə daxil etmişik. Bundan başqa, əsas göstəricidə müəyyən süjetlərdən sonra boş nömrələrin verilməməsi məzmunca bir-birinə yaxın süjetləri yeni nömrələr altında verməyə imkan vermir. Məsələn, Xeyirxah ölü haqqında süjetlər AT-də 507-ci nömrədə verilib. Ondan sonra boş nömrə buraxılmadığından Xeyirxah ölü haqqında qeydə alınmış yeni süjetləri müstəqil nömrələr altında vermək mümkün deyildir. Ona görə də biz 507 nömrəsinin üzərinə bir və daha artıq ulduz işarəsi qoymaqla həmin süjetləri göstəriciyə daxil etmişik. Həmin prinsipdən məzmunca bir-birinə yaxın digər süjetlərin yerləşdirilməsi zamanı da istifadə etmişik.

AT-də nağıllarla lətifələr arasında janr fərqi qoyulmadığı üçün göstəriciyə çoxlu sayda lətifə süjetləri də daxil edilib. M.X.Minqajetdinov başqırd nağıllarının sistemləşdirilməsindən bəhs edərkən başqırd lətifələrinin böyük əksəriyyətinin, təxminən onda doqquzunun (9/10) beynəlxalq kataloqda qarşılığının olmadığını yazır[96]. Eyni vəziyyət Azərbaycan lətifələrində də müşahidə olunur. Azərbaycan lətifələri sistemləşdirməyə cəlb olunmasa da, onlar üzərində apardığımız müşahidələr onu deməyə əsas verir ki, nağıllarla müqayisədə lətifələrdə süjet oxşarlığı olduqca aşağı səviyyədədir. Yuxarıda qeyd etdik ki, AT sisteminin bu və ya digər xalqın nağıl materialına tətbiqi süjet oxşarlığının səviyyəsindən asılıdır. Lətifələrdə süjet oxşarlığının aşağı səviyyədə olması bu sistemin onlara tətbiqinə imkan vermir.

Göstəricinin tərtibi zamanı elmi dəyəri olan bütün mənbələrdən – nağıl toplularından, folklor antologiyalarından, elmi-kütləvi nəşrlərdən, yarı etnoqrafik, yarı folklordan ibarət əsərlərdə çap olunmuş nağıllardan istifadə olunub. SMOMPK məcmuəsində, “Azərbaycanın və qonşu ölkələrin folkloru” adlı üç cildlik topluda, A.B.Baqri və H.Zeynallının tərtib etdiyi “Azərbaycan türk nağılları” kitabında, həmçinin keçən əsrin əvvəllərində uşaqlar üçün yazılmış dərsliklərdə (məsələn, F.Köçərlinin “Balalara hədiyyə” dərsliyində), Folklor İnstitutunun nəzdində çıxan “Dədə Qorqud” jurnalının ayrı-ayrı nömrələrində çap olunmuş nağıllar da kataloqlaşdırmaya cəlb olunub.

Azərbaycan ərazisində yaşayan müxtəlif xalqlardan (erməni, tat, saxur və s.) toplanmış nağıllar da göstəriciyə daxil

---

[96] Мингажетдинов М.Х. Систематизация сюжетов башкирских сказок по международным каталогам // Проблемы фольклористики, истории литературы и методики ее преподавания. Материалы XI научной конференции литературоведов Поволжья. Куйбишев, 1972, с.26

edilib. Bu nağılların böyük əksəriyyəti SMOMPK məcmuəsindən, A.B.Baqrinin tərtib etdiyi üç cildlik «Azərbaycanın və qonşu ölkələrin folkloru» toplusundan, az bir qismi isə həmin xalqların dilinə həsr olunmuş dissertasiyalardan götürülüb. Bu nağıllar müxtəlif milli azlıqlardan qeydə alınsa da, onların böyük əksəriyyəti Azərbaycan nağıllarıdır. Bunu həmin mətnlərdə Azərbaycan nağıllarına məxsus personaj adlarının (kosa, Molla Nəsrəddin və s.) əks olunması da sübut edir. Yalnız Azərbaycan ərazisində yaşayan yəhudilərdən toplanmış nağıllar ciddi fərqlər olduğu üçün kataloqa daxil edilməyib.

Azərbaycan ərazisində qeydə alınmış nağıllardan savayı, bu xalqın yaşadığı tarixi ərazilərdən toplanmış nümunələri göstəriciyə daxil etməklə Azərbaycan folklor coğrafiyasını tam əhatə etməyə çalışmışıq. Belə ərazilərdən biri də Cənubi Azərbaycandır.

Cənubi Azərbaycan folkloruna dair bizə məlum olan qaynaqlardan biri dörd cilddən ibarət Cənubi Azərbaycan ədəbiyyatı antologiyasıdır. Toplunun ayrı-ayrı cildlərində müxtəlif janrlara dair nümunələr, o cümlədən də 7 nağıl çap olunub. B.Abdullayevin tərtib etdiyi “Arazam, Kürə bəndəm” toplusu da Cənubi Azərbaycan folkloruna həsr olunub. Amma burada çap olunan nağıllar bir qədər əvvəl qeyd etdiyimiz topludakı nümunələrin təkrarıdır. S.Behrənginin “Məhəbbət nağılları” kitabında da Cənubi Azərbaycandan toplanmış 38 nağıl çap olunub. Yuxarıda adları çəkilən qaynaqlarda nağılların söyləyiciləri və qeydə alındığı məkan haqqında heç bir məlumat verilməyib, S.Behrənginin kitabındakı nağıllar isə fars dilindən tərcümə olunduğu üçün şifahi dil xüsusiyyətlərini itiriblər. Elmi tələblərə tam cavab verməsələr də, Cənubi Azərbaycan folkloruna dair yeganə qaynaqlar olduğu üçün onları sistemləşdirməyə cəlb etmişik.

Azərbaycanın coğrafi sərhədlərindən kənarda qalmış Qars, Kərkük, Borçalı, Dərbənd, Zəngəzur və s. bölgələrdən toplanmış folklor nümunələri də göstəriciyə daxil edilib.

Göstəricidə istifadə olunmuş əsas mənbələrdən biri də 1881-1929-cu illərdə Qafqaz tədris idarəsi tərəfindən çap olunmuş "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" (qısa adı SMOMPK) məcmuəsidir. Məcmuənin 1881-1915-ci illərdə 44 cildi, 1926 və 1929-cu illərdə isə daha iki cildi işıq üzü görür. Burada Qafqazda yaşayan xalqların tarixi, coğrafiyası, arxeologiyası, mədəniyyəti, adət-ənələri ilə yanaşı, çoxlu sayda folklor nümunələri də çap olunub. Həmin nümunələrin toplanmasında Qori və İrəvan seminariyasını bitirmiş ziyalıların, xüsusən də kənd müəllimlərinin böyük əməyi vardır. Yerli ziyalılarla yanaşı, H.Kalaşev, K.Nikitin, P.Vostrikov, R.Zelinski kimi rus ziyalıları da mətnlərin toplanmasında yaxından iştirak etmişlər. Toplanan nümunələr, eləcə də nağıllar rus dilinə tərcümə edilərək məcmuədə çap olunurdu. Amma tərcümə zamanı milli koloritin gözlənilməməsi, mətnlərin ixtisar edilməsi, çətin tərcümə olunan ifadələrin çıxarılması və biblioqrafik məlumatların azlığı onların elmi dəyərini azaldır. Eyni xüsusiyyətlər L.Q.Lopatinskinin toplama materialları əsasında tərtib olunan "Azərbaycanın və qonşu ölkələrin folkloru" kitabındakı nağıllar üçün də xarakterikdir. Bu kimi qüsurlara baxmayaraq, həmin mətnlər ilkin toplama təcrübəsi kimi əhəmiyyət kəsb etdiyindən onları da sistemləşdirməyə cəlb etməyi məqsədəuyğun hesab etmişik.

Toplularda şifahi ənənədən gələn nağıllarla yanaşı, saxta mətnlərə də təsadüf etmək mümkündür. Məsələn, beş cildlik "Azərbaycan  nağılları" toplusunda çap olunmuş "Daşdəmirin nağılı", Ə.Axundovun iki cildlik nağıllar toplusunda çap olun-

muş “Yaxşılıq”, “Küp qarısı”, 1974-cü ildə işıq üzü görən “Qaravəllilər” toplusunda çap olunmuş “Cənnətsatan molla”, “Keçəl, molla və ögey ana” nağılları göstəriciyə daxil edilməyib. Bu mətnlərin bu günə qədər heç bir variantının aşkarlanmaması onların saxta olduğunu bir daha təsdiqləyir. Belə nağılları təsbit etdikdə biz onları göstəriciyə daxil etməməyə çalışmışıq.

Bundan başqa, toplularda bəzən nağılların adlarının və pasportlarının dəyişdirilərək yeni nağıl adı altında təkrar nəşrinə də təsadüf olunur. Məsələn, beş cildlik nağıllar toplusunda çap olunmuş “Yetim bacılar” nağılı Ə.Axundovun iki cildlik nağıllar toplusunda “Bacılar” adı altında verilib. Birinci mənbədə onun Qubadlıdan, digər mənbədə isə Şamxordan toplandığı qeyd olunub. Yenə beş cildlik nağıllar toplusunda çap olunmuş “Oğlanla nurani kişi” nağılı Ə.Axundovun iki cildlik nağıllar toplusunda “Vaxtın nağılı” adı altında çap olunub. Bir mənbədə onun Qafan, digər mənbədə isə Cəbrayıldan toplandığı qeyd olunub. Ad dəyişikliyinə yenə beş cildlik topluda çap olunmuş “Əvvəli elə, axırı belə” nağılında da rast gəlirik. Eyni nağıl Ə.Axundovun iki cildlik nağıllar toplusunda “Fərsiz oğul” adı altında çap olunub.

Toplularda bəzən şifahi ənənədən gələn nağılların üzərində ciddi şəkildə işləyərək onların dil və üslub xüsusiyyətlərinin dəyişdirilməsinə də təsadüf olunur. Məsələn, M.Həkimovun toplayıb tərtib etdiyi “Xalqımızın deyimləri və duyumları” kitabında çap olunmuş “Al dərviş” nağılı “Yeddi qardaş divin bacısı” (516D*) və “Güclü adam və onun yoldaşları” (301B) süjetlərindən təşkil olunub. Amma tərtibçi nağıl üzərində ciddi şəkildə işləyib, onu bədiiləşdirməklə, personaj adlarını dəyişməklə mətni süni şəkildə arxaikləşdirməyə çalışıb.

Toplularda keçən əsrin 30-cu illərində repressiyaya məruz qalmış folklorşünasların topladığı nağılların mənimsənilməsi hallarına da rast gəlinir. Məsələn, H.Zeynallının topladığı nağılların bir çoxu beş cildlik və 1970-ci ildə çıxan iki cildlik nağıllar toplusunda Ə.Axundovun adı altında çap olunub, nağılların söyləyiciləri və qeydə alındığı məkanlar isə dəyişdirilib. Məsələn, “Quş dili bilən İskəndər” nağılının “Azərbaycan türk nağılları” kitabında Füzuli, beş cildlik “Azərbaycan nağılları” toplusunda isə Cəbrayıl rayonundan toplandığı qeyd olunur. 2005-ci ildə beş cildlik nağıllar toplusu latın əlifbası ilə təkrar nəşrə hazırlanarkən həmin ədalətsizlik aradan qaldırılır və toplunun birinci cildi bötövlükdə H.Zeynallının topladığı nağıllara həsr olunur.

V.Vəliyevin topladığı və tərtib etdiyi “Ayrım bəzəmələri” toplusunda da eyni problemlə qarşılaşırıq. Kitabın ön sözündə topludakı nağılların Gədəbəy, Qazax, Şəmkir, Daşkəsən, Tovuz rayonu, eləcə də Ermənistan və Gürcüstanda yaşayan ayrımlardan toplandığı qeyd olunur[97]. Halbuki həmin mətnlər 1967-ci ildə çap olunmuş “Qaravəllilər” və Ə.Axundovun toplayıb tərtib etdiyi AFA-nın II cildindəki mətnlərlə eynidir. Yeganə fərq ondadır ki, həmin toplularda çap olunan nağıllardakı personajların əvvəlinə “ayrım” ifadəsi artırılıb (məs., ayrım keçəl, ayrım kosa və s.), qeyri-müəyyən məkanlar “ayrım mahalında”, “Ayrımın Aran kəndində”, “ayrım kəndlərinin birində” və s. bu kimi konkret məkanlarla əvəzlənib. Belə halları təsbit etdikdə nağılın ilkin nəşri əsas götürülmüş, ayrımlaşdırılmış mətnlər isə təkrar nəşr kimi qiymətləndirilərək göstəricidə mötərizə içərisində verilmişdir.

[97] Ayrım bəzəmələri / Toplayanı V.Vəliyev. Bakı: Gənclik, 1983, s.3

Azərbaycan nağıllarını sistemləşdirərkən biz AT-nin strukturunu saxlamaqla ona bəzi əlavə və dəyişikliklər də etmişik. İlk növbədə yeni süjetlər və variantlar hesabına AT-ni daha da genişləndirmişik.

AT-də heyvanlar haqqında nağıllar baş rolun ifaçısına görə təsnif edilib. Bunun nəticəsində bəzən baş rolun ifaçısı heyvanlar olan qeyri-nağıl nümunələri də heyvanlar haqqında nağıllara aid edilib. Məsələn, AT 169H* nömrəli süjetə diqqət yetirək: *Yoldaşlardan biri canavarın balasını çıxarmaq üçün yuvaya girir. Yuvanın ağzında keşik çəkən o biri yoldaş ana canavarın quyruğundan tutub içəri girməyə qoymur. Yuvadakı şəxs çöldəki toz-dumanı görüb təəccüb edir.* Azərbaycanda tərtib olunmuş müxtəlif toplularda lətifə kimi təqdim olunan bu süjet AT-də heyvanlar haqqında nağıllar bölməsində verilib.

Bu qrupun tərkibində yalnız lətifələrə deyil, eyni zamanda miflərə məxsus süjetlərə də təsadüf etmək mümkündür. AT 173 nömrəli süjet buna misal ola bilər. Süjetdə təsvir olunur ki, Allah insana əvvəl otuz il ömür verir. İnsan tənhalıqdan və ona verilən ömrün azlığından şikayətlənir. Allah bu səfər iti, atı və meymunu yaradır, onların ömründən alıb insanın ömrünə əlavə edir. Qeyd olunan süjetin Azərbaycanda Ağdaş rayonundan qeydə alınmış bir variantı mövcuddur. Əslində, bu mətnin nağıllara heç bir aidiyyatı yoxdur. Təsvirdən də göründüyü kimi, burada ilk insanın yaranmasından, ona ömrün verilməsindən bəhs olunur. Hadisələrin mifoloji zamanda baş verməsi, mətnin etioloji məzmun kəsb etməsi miflərə məxsus xüsusiyyətdir. Həmin süjet SUS göstəricisində dini nağıllar bölməsində verilib. Görünür, adı çəkilən kataloqun tərtibçiləri həmin süjetin heyvanlar haqqında nağılların tələblərinə cavab vermədiyini nəzərə alaraq, belə bir dəyişiklik ediblər.

Əsas göstəricidə heyvanlar haqqında nağılların tərkibində həm də təmsilvari mətnlərə də təsadüf etmək mümkündür. Məsələn, "Ərincək it" təmsilciyi AT-də 81 (*İt qışda deyir ki, yay olanda özümə çul toxuyaram. Elə ki yay gəlir, deyir: "Eh, kim əyirib, kim toxuyacaq"* [98]), bala leyləyin yeni yuva qurmaq istəyən anasına məsləhətindən bəhs edən təmsilcik isə həmin sistem əsasında hazırlanmış SUS kataloqunda 227** nömrəsində verilib (*Ana leylək balasına yeni yuva qurmağı təklif edir, amma balası oranı da batıracaqlarını əsas gətirib buna razı olmur*[99]*)*. Bundan əlavə, folklor toplularında çox vaxt təqvim miflərinin tərkibində verilən böyük və kiçik çilə haqqındakı mətnlər də AT-də heyvanlar haqqında nağıllar bölməsində 298A nömrəsində verilib. Heyvanlar haqqında nağılların xüsusiyyətlərinə cavab vermədiyi üçün biz həmin süjetləri göstəriciyə daxil etməmişik.

Yuxarıda qeyd olunan dəyişikliklərdən əlavə, heyvanlar haqqında nağıllar bölməsində həm də bir çox süjetlərin göstəricidəki yeri dəqiqləşdirilib. Aşağıda təsvirini verdiyimiz süjetə diqqət yetirək: *Ovçu Pirim qaynatasıgilə qonaq gedir. Heyvanların danışığını eşidir və canavarların axşam tövləyə hücum edəcəyindən xəbər tutur. Onun üçün çəkilmiş aşı köpəyə verir. Köpək tövləyə basqın edən canavarları qırır.* Təsvir olunan süjet SUS göstəricisində heyvanlar haqqında nağıllar bölməsində 101***-ci nömrədə, bizim göstəricidə isə sehrli nağılların tərkibində Ovçu Pirimlə bağlı süjetlərin sırasında verilib.

“İlan uşağın yeməyini zəhərləyir” (AT 285A*) süjetinə diqqət yetirək. Həmin süjetin bizdəki variantında təsvir olunur

[98] Azərbaycan klassik ədəbiyyat kitabxanası: 20 cilddə, I c., Bakı: Elm, 1982, s.249
[99] Azərbaycan folkloru antologiyası, XVI kitab (Ağdaş folkloru), Bakı: Səda, 2006, s.175

ki, ilan evdə yuva qurur. Ev sahibi evi yığışdırarkən onun balalarını çıxarıb çölə atır. İlan balalarını yerində tapmadıqda ev sahibinin qazana tökdüyü südü zəhərləyir. Balaları geri qaytarıldıqdan sonra həmin qazanı aşırır. Hadisələrin yaxın keçmişə aid olması, söyləyicinin mətni babasının və yaxud yaxın adamının başına gələn hadisə kimi nəql etməsi əslində mifoloji rəvayətlərə məxsus bir xüsusiyyətdir. Həmin xüsusiyyətləri nəzərə alaraq, biz haqqında bəhs olunan süjeti göstəriciyə daxil etməmişik.

Sehrli nağıllar bölməsində o qədər də ciddi dəyişikliklər yoxdur, yalnız bəzi süjetlərin yeri dəqiqləşdirilib. Məsələn, AT-də sehrli nağılların tərkibində verilmiş "Ağıllı qardaş" süjeti bizim göstəricidə novellavari nağıllar bölməsində verilib. Bu dəyişikliyi edərkən həmin süjetin kompozisiya xüsusiyyətlərini nəzərə almışıq. Belə ki, novellavari nağıllarda olduğu kimi, burada da qəhrəman qarşıya qoyduğu məqsədə ağlı, zehni hesabına çatır. Onu da qeyd edək ki, həmin süjet Aarne-Andreyev göstəricisində də novellavari nağıllar bölməsində verilib.

Dini nağıllar qrupunda da bəzən bu qrupa aidiyyatı olmayan süjetlərə təsadüf etmək mümkündür. Nəhəng şam (AT 778) belə süjetlərdən biridir. Molla təhlükə anında Allaha qurban kəsəcəyini deyir, amma təhlükə ötəndən sonra sözünün üstündə durmur. Dini nağılların kompozisiya xüsusiyyətlərinə cavab vermədiyi üçün biz həmin süjeti göstəriciyə daxil etməmişik.

Novellavari nağıllar bölməsində əsas dəyişikliklərdən biri 916 nömrəli süjet üzərində həyata keçirilib. Süjetin qısa məzmunu belədir: *Qardaşlar növbə ilə padşaha keşik çəkirlər. Kiçik qardaş padşahın yataq otağına tərəf sürünən əjdahanı öldürür. Padşah səsə çölə çıxdıqda kiçik qardaşı əli qanlı görür və onu öldürmək istədiyini zənn edir. Kiçik qar-*

*daşı öldürtdürmək istəyir, amma həqiqəti biləndən sonra fikrindən daşınır.* Haqqında bəhs olunan süjet çox vaxt "Günahsız tutuquşu" (178C*) və "Günahsız qızılquş" (178D*) süjetləri ilə kontaminasiya olunur. Qardaşlar padşahı fikrindən daşındırmaq üçün günahsız yerə öldürülmüş tutuquşunun, yaxud sudan içməyə imkan vermədiyi üçün qızılquşu öldürən, amma tutduğu əmələ görə peşman olan padşahın əhvalatını danışırlar. Aarne-Tompson göstəricisində qardaşların danışdığı əhvalatlar 916 nömrəli süjetin tərkib hissəsi kimi təsvir olunub. Bizim fikrimizcə, padşahı hansısa bir hərəkətdən çəkindirmək məqsədi ilə ibrətamiz məzmunlu hekayələrin danışılması əslində süjetləri kontaminasiya etməyin bir üsuludur. Eyni kontaminasiya üsuluna "Balıqların gülməsi" (679*) süjetində də rast gəlirik. Qəhrəman balıqların gülməsini öyrənmək istəyən padşahı bu fikirdən daşındırmaq üçün tutduğu əmələ görə peşman olan padşahın əhvalatını danışır. Məhz bundan çıxış edərək, haqqında bəhs olunan əhvalatlar bizim göstəricidə müstəqil süjet kimi təqdim olunmuşdur. "Günahsız qızılquş" süjetinə "Kəlilə və Dimnə"də müstəqil süjet şəklində rast gəlinməsi bizim qənaətimizin doğru olduğunu göstərir.

Başqa xalqlarda müstəqil halda təsadüf olunan bəzi süjetlərə bizdə hansısa bir nağılın tərkibində rast gəlinir. SUS kataloqunda "Hökmdar və uşaq" (920E) süjeti buna misal ola bilər. Süjetdə təsvir olunur ki, hökmdar saqqalından tutduğu üçün uşağı cəzalandırmaq istəyir. Təlxək Balakirev uşağın əlini yanan şama (oda) uzatmasını əsas gətirərək bunu düşünmədən etdiyini sübut edir. Həmin süjetə Azərbaycanda "Musa və Firon" (2605*B) haqqında nağılın tərkibində təsadüf olunur. Həmin nağılın Lənkərandan və Gəncəbasardan qeydə alınmış iki variantı mövcuddur. Gəncəbasar variantında deyilir ki, Qüreyş

yeni doğulan uşağını sandığa qoyub Nilə atır. Firon həmin uşağı övladlığa götürür. Uşaq əlini uzadıb onun saqqalını yolur, sonra əlinə çubuq alıb onu vurur. Firon uşağın Qüreyş nəslindən olmasından şübhələnib onu öldürmək istəyir. Arvadı siniyə köz və qızıl qoyur. Uşağın əlini közə uzatmasını əsas gətirərək bunu məqsədli şəkildə etmədiyini sübut edir[100].

Eyni xüsusiyyət AT 217 nömrəli süjetə də şamil edilir. Süjetdə təsvir olunur ki, pişik başı üstündə çıraq saxlayır. Kral siçanı sərbəst buraxır. Pişik siçanı tutmaq istəyəndə çıraqları yerə salır. Həmin süjetin Azərbaycan variantında padşah tacirlə mərc gəlir. Əgər pişik quyruğu üstündə yeddi çırağı səhərə qədər saxlasa, tacirin var-dövləti ona çatır. Mərci udan padşah tacirin var-dövlətini əlindən alır, özünü isə zindana salır. Tacirin arvadı ərini axtarır. Otağa siçan buraxmaqla padşahı udur və ərini xilas edir. Göründüyü kimi, Şərqi slavyan xalqlarında müstəqil şəkildə təsadüf olunan həmin süjetə Azərbaycanda "Arvad ərini xilas edir" (880) süjetinin tərkibində rast gəlirik.

Azərbaycanda qeydə alınmış süjetlərlə əsas göstəricidəki süjetlər arasında bəzən zahiri bir oxşarlıq olsa da, ideya və məzmun baxımından ciddi fərqlər müşahidə olunur. “Sadiq arvad” (AT 882*) belə süjetlərdən biridir. Kişi səfərə gedir, arvadı ona xəyanət edərsə, onun köynəyində qara ləkə əmələ gəlməlidir. Kişinin yaxın tanışı arvadı yoldan çıxartmaq istəyir; arvad onu zirzəmiyə salıb işləməyə (toxumağa) məcbur edir. Sonuncu motivə “Usta Abdulla” (998*B) nağılında rast gəlinir. Nağılda deyilir ki, padşahın onu öldürəcəyindən xəbər tutan

---

[100] Azərbaycan folkloru antologiyası. IX c., Gəncəbasar folkloru / Tərtib edənlər H.İsmayılov, R.Quliyeva. Bakı: Səda, 2004, s.75

usta onu, vəziri və vəkili açar dalınca evə göndərir. Ustanın arvadı onları zirzəmiyə salıb işləməyə məcbur edir. Əgər AT göstəricisində arvadın ərinə sədaqətindən bəhs olunursa, “Usta Abdulla” nağılında ustanın öz ağlı və bacarığı sayəsində onu öldürmək istəyən zalım hökmdardan xilas olmasından danışılır. Göründüyü kimi, müəyyən motivlər üst-üstə düşsə də, hər iki süjet arasında ideya və məzmun baxımından ciddi fərqlər müşahidə olunur. Ona görə də bizim tərtib etdiyimiz göstəricidə “Usta Abdulla” süjeti yeni nömrədə verilir.

Əsas gösəricidə axmaq şeytan haqqında nağıllara məxsus bir çox süjetlər onu təşkil edən komponentlərə görə sistemləşdirilib. Nümunə üçün “Hirslənməmək sazişi” (1000) süjetinə diqqət yetirək: *Nökər hər söyüşə görə yüz manat alacağına dair ağa ilə saziş bağlayır. Təzə küpün qulpunu sındırır, buzovun qulağını qoparır, bununla ağanı hirslənməyə məcbur edir. Daha sonra hər söyüşə görə ondan yüz manat tələb edir.* Təsvir olunan süjetin tərkib hissələri olan nökərin təzə küpün qulpun sındırması, buzovun qulağını qoparması və s. əsas göstəricidə müstəqil süjet kimi təqdim olunur. Eyni vəziyyət “Qorxaq Əhməd” nağılında da müşahidə olunur. Həmin nağılı təşkil edən komponentlər – kim daşdan su çıxardar, kimin qoltuğunun tükü uzun olar və s. əsas göstəricidə müstəqil nömrələr altında verilib. Bizim tərtib etdiyimiz göstəricidə isə həmin komponentlər məxsus olduğu süjetin tərkib hissəsi kimi təsvir olunub.

Azərbaycan folklorunda “Qarımış qızlar” yarımqrupuna məxsus hansısa bir nağıl süjeti aşkar etmədik. Ona görə də göstəricidə həmin yarımqrupun yalnız adını qeyd etməklə kifayətlənmişik.

Göstəricidə kontaminasiya olunmuş süjetlərin siyahısı və coğrafi göstərici də verilib. Kontaminasiyalar göstəricidə

iki yerdə – həm mənbənin qarşısında, həm də göstəricinin sonunda verilib. Bu da göstəricidən istifadə edənlər üçün əlavə imkanlar yaradır. Belə ki, göstəricinin sonunda verilmiş siyahı Azərbaycan nağıllarında rast gəlinən kontaminasiyalar haqqında ümumi təsəvvür yaradırsa, kontaminasiyanın mənbənin qarşısında verilməsi həmin mənbədəki nağılın hansı süjetlərdən təşkil olunması haqqında məlumat verir. Ən geniş yayılmış kontaminasiyalar göstəricidə qara şriflə verilib.

Kataloqun sonunda verilmiş coğrafi göstəricidə süjetlərin rayonlar üzrə yayılması öz əksini tapıb. Amma bəzi toplularda pasportlaşdırmanın olmaması və ya düzgün aparılmaması üzündən bir çox süjetləri bura daxil etmək mümkün olmamışdır. Məsələn, Ə.Axundovun iki cildlik nağıllar toplusunun I cildində, 1967 və 1974-cü illərdə çap olunmuş "Qaravəllilər" adlı toplularda, S.Paşayevin çap etdirdiyi "Azərbaycan xalq söyləmələri" toplusunda və s. nağılların söyləyiciləri və qeydə alındığı məkanlar haqqında heç bir məlumat verilməyib. Bəzi toplularda isə pasportlaşdırma düzgün aparılmadığından söyləyicinin hansı mətni söylədiyi aydın olmur. Məsələn, AFA-nın IX cildində söyləyicilər haqqında məlumat bölməsində söyləyicilərin adı verilsə də, onların hansı mətni söylədiyi qeyd olunmayıb. Bu kimi amillər üzündən həmin süjetlər coğrafi göstəricidən kənarda qalmışlar. Bundan başqa, bəzən eyni nağılın toplularda müxtəlif söyləyicilərin adı ilə çapına rast gəlirik. Məsələn, 1950-ci ildə çap olunmuş "Azerbaydjanskie skazki" toplusunda "Yetim İbrahim və sövdəgər" nağılının Hadrutun Tuğ kəndindən toplandığı, beş cildlik nağıllar toplusunun III cildində isə eyni nağılın Qubadlı rayonunun Qaracalı kəndindən yazıya alındığı qeyd olunur. Belə hallarla qarşılaşdıqda biz nağılın ilkin nəşrindəki mənbəyini əsas götürmüşük.

## ŞƏRTİ İXTİSARLAR

| | |
|---|---|
| AA | – Андреев Н.П. Указатель сказочных сюжетов по системе Аарне, Л.: 1929 |
| Abdulla | – Dava yorğan davası imiş / Toplayan B.Abdulla. Bakı, 1993, 254 s. |
| Abdullayev | – Arazam Kürə bəndəm / Tərtib edən Bəhlul Abdullayev. Bakı, Yazıçı, 1986, 200 s. |
| AFA (1968) | – Azərbaycan folkloru antologiyası: 2 cilddə, II c., Bakı, 1968 |
| AFA | – Azərbaycan folkloru antologiyası: 23 cilddə, I-XXIII cildlər, Bakı. |
| Ağalı | – Sözlü, nağıllı gecələr / Toplayıb tərtib edən L.Ağalı. Bakı, İşıq, 1991, 120 s. |
| Ağayev | – Ağayev Ə.Q. Azərbaycan dilinin Cəlilabad rayon şivəsi (nam. diss.), Bakı, 1975 |
| Ağbaba folkloru | – Azərbaycan folkloru antologiyası. Ağbaba folkloru / Toplayıb tərtib edən S.Ağbabalı. Bakı, Azərnəşr, 1997, 253 s. |
| Axısqa folkloru | – Axısqa türk folkloru. Bakı, 2008 |
| AXS | – Azərbaycan xalq söyləmələri/Toplayıb tərtib edən S.Paşayev. Bakı, Yazıçı, 1992, 216s. |
| Axundov | – Azərbaycan nağılları / Toplayıb tərtib edən Ə.Axundov. I-II c., Bakı, 1970 |
| AKD | – Arpaçay köylerinden derlemeler. II baskı, Ankara: TDK, 1988, 398 s. |
| AKƏK | – Azərbaycan klassik ədəbiyyat kitabxanası: 20 cilddə, I c., Bakı, Elm, 1982, 510 s. |

| | |
|---|---|
| AS | Азербайджанские сказки / Составитель А.Ахундов, Баку, 1950 |
| AT | – Thompson S. The types of the folktale. A classification and bibliography. Second revision, 1973, 588 p. |
| ATS | – Азербайджанские тюрские сказки / Перевод, статъ и коммент. А.Багрия и Х.Зейналлы. М.:Akadeмiya, 1935, 668 c. |
| Ayrım bəzəmələri | – Ayrım bəzəmələri / Toplayanı V.Vəliyev. Bakı, Gənclik, 1983, 164 s. |
| Azərb. nağ. | – Azərbaycan nağılları. I-V c., Bakı, 1961-1964 |
| Azərb. nağ. (2005) | – Azərbaycan nağılları. I-V c., Bakı, Şərq-Qərb, 2005 |
| Babayev | – Бабаев Ф.С. Азербайджанские говоры Масисского района Армянской ССР: Дис. ...канд.филол. наук. Баку,1988, 310 с. |
| Bakı dialekti | – Şirəliyev M.Ş. Bakı dialekti. II çap, Bakı, 1967, 226 s. |
| Baqri | – Фольклор Азербайджана и прилегающих стран / Под. ред. А.В.Багрия, в 3-х т.1-3, Баку: АзГНИИ, 1930 |
| Bayat | – Şah Abbasın arvadı / Toplayanı F.Bayat. Bakı, Yazıçı, 1996, 244 s. |
| Behrəngi | – Behrəngi S. Məhəbbət nağılları: seçilmiş əsərləri. Bakı, 1987, 504 s. |
| Binnətova | – Binnətova Ç.K. Azərbaycan dilinin Lerik rayonu şivələri: Filol.elm.nam. ... dis., Bakı, 2002, 189 s. |

| | |
|---|---|
| Borçalı folkloru | – Azərbaycan folkloru antologiyası. Borçalı folkloru / Toplayanı V.Hacıyev. Bakı, Azərnəşr, 1996, 266 s. |
| Budaqov | – Budaqov B. Çobankərə eli. Bakı, Elm, 1996, 181 s. |
| BYBQ | – Bu yurd bayquşa qalmaz / Toplayanlar V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. Bakı, Yazıçı, 1995, 240 s. |
| CAƏA | – Cənubi Azərbaycan ədəbiyyatı antologiyası, I-IV c., Bakı, 1988 |
| Cəbrayıl şivəsi | – Hacıyev T.İ. Azərbaycan dilinin Cəbrayıl şivəsi: Filol. elm.nam. ... dis., Bakı, 1961, 437 s. |
| Cəfərli | – Cəfərli Ə. Azərbaycan dilinin Qazax dialekti: Filol.elm. nam. ... dis., Bakı, 1961, 369 s. |
| Cəfərzadə | – Cəfərzadə M.M. Azərbaycan dilinin İmişli rayonu şivələri: Filol.elm.nam. ... dis., Bakı, 1968, 371 s. |
| Çəmənzəminli | – Çəmənzəminli Y.V. Əsərləri. III c., Bakı, 1977 |
| Çingizoğlu-Şənol | – Çingizoğlu Ə., Şənol Ş. Qarabağın aran ağzı – Arazbar. Bakı, Ozan, 1998, 104 s. |
| DQ | – Dədə Qorqud. Elmi-ədəbi toplu. Bakı, Nurlan. |
| El çələngi | – El çələngi / Toplayıb tərtib edənlər T.Fərzəliyev, İ.Abbasov. Bakı, Gənclik, 1983, 388 s. |
| Ələkbərli | – Qax: folklor-etnoqrafik etüdlər. Bakı, Ağrıdağ, 2005, 224 s. |

| | |
|---|---|
| Əliyev-Xəlilov | – Allah yıxan evi qızlar tikər / Toplayan O.Əliyev, R.Xəlilov. Bakı, Yazıçı, 1994, 304 s. |
| Əlizadə (1929) | – Azərbaycan el ədəbiyyatı. Nağıllar / Toplayanı: H.Əlizadə. I hissə, Bakı, 1929 |
| Əlizadə (1937) | – Dastanlar və nağıllar / Toplayan H.Əlizadə. I c., Bakı, Azərnəşr, 1937, 434 s. |
| Həmzəyev | – Həmzəyev T.B. Ordubad dialekti: Filol.elm.nam. ... dis., Bakı, 1959, 506 s. |
| Hüseynov | – Rəvayətli ifadələr / Toplayıb tərtib edən B.Hüseynov. Bakı, 1961, 212 s. |
| Hüseynzadə | – Aşı mollanın, başı mollanın / Toplayıb tərtib edən Ə.Hüseynzadə. Bakı, Yazıçı, 1983, 91 s. |
| XDD | – Xalqımızın deyimləri və duyumları / Toplayıb tərtib edən M.Həkimov. Bakı, Maarif, 1986, 388 s. |
| İbrahimov | – İbrahimov B. Mərəzə rayonu şivələri: Filol.elm.nam. ... dis., Bakı, 1949, 403 s. |
| İmamquliyeva | – İmamquliyeva K.H. Azərbaycan dilinin Şərur şivələri: Filol.elm.nam. ... dis., Bakı, 1991, 304 s. |
| İslamov | – İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı, 1968, 271 s. |
| İsmayıllı şivələri | – Hacıyev İ.Ə. İsmayıllı rayonunun şivələri: Filol.elm. nam. ... dis., Bakı, 1948, 381 s. |
| İsmayılov | – Vətən qürbətdə qaldı. Göyçə mahalından toplanmış folklor örnəkləri / Toplayıb tərtib edən H.İsmayılov. Bakı, Yazıçı, 1993, 544 s. |

Kərimov – Kərimov Ş.M. Ermənistan SSR Krasnoselo və İcevan rayonlarında Azərbaycan şivələri: Filol.elm.nam. ...dis., Bakı, 1990, 427 s.

Köçərli – Köçərli F. Balalara hədiyyə. Bakı, Yazıçı, 1967, 88 s.

Qarabağ – Qarabağ: folklor da bir tarixdir, I-III cildlər, Bakı, Elm və təhsil, 2012

Qarabulaq folkloru – Qarabulaq (Füzuli) folkloru antologiyası / Toplayıb tərtib edən F.Şükürbəyli. I kitab, Bakı, 2010, 376 s.

Qaravəllilər (1967) – Qaravəllilər. Bakı, Azərnəşr, 1967, 160s.

Qaravəllilər (1974) – Qaravəllilər / Toplayan Ə.Axundov. Bakı, Azərnəşr, 1974, 78 s.

Qarayev – Qarayev S. Qazangöl həsrəti. II nəşr, Bakı, Azərbaycan, 2002, 463 s.

Qasımlı – El düzgüləri, elat söyləmələri / Toplayıb tərtib edən M.Qasımlı. Bakı, Azərnəşr, 1993, 176 s.

Qərb şivələri – Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. I c., Bakı, EA, 1967, 281 s.

Qonaqkənd ləhcəsi – Hacıyev M.İ. Tat dilinin Qonaqkənd ləhcəsi: Filol.elm. nam. ...dis., Bakı, 1965, 282s.

Meğri şivələri – Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı, Elm, 2003

Məcidov – Məcidov A.B. Azərbaycan dilinin Lənkəran şivəsi: Filol.elm.nam. ... dis., Bakı, 1970, 268 s.

Məmmədov – Məmmədov H.X. Talış dilinin Şüvi şivəsi: Filol.elm. nam. ... dis., Bakı, 1971, 295 s.

Muğan şivələri – Azərbaycan dilinin Muğan qrupu şivələri. Bakı, EA, 1955, 262 s.

Naxçıvan şivələri – Naxçıvan MSSR-nin dialekt və şivələri. Bakı, 1962, 326 s.

NFA – Naxçıvan folklor anatologiyası. III c., Naxçıvan: Əcəmi, 2012, 560 s.

Ramazanov – Ramazanov K.T. Azərbaycan dilinin Salyan dialekti: Filol.elm.nam. ... dis., Bakı, 1955, 475 s.

Rüstəmov – Rüstəmov R.Ə. Quba dialekti. Bakı, EA, 218 s.

Seyidov – Nağıllar / Tərtib edən N.Seyidov. Bakı, Azərnəşr, 1976, 254 s.

SUS – Сравнительный указатель сюжетов: Восточнославянская сказка (сост.: М.Г. Бараг, И.П.Березовский, К.П.Кабашников, Н.В.Новиков) Л.: Наука, 1979

Şirəliyev – Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı, Azərtədrisnəşr, 1962, 423 s.

Tantəkin – Qaravəllilər, nağıllar / Toplayanı M.Tantəkin, S.Əliyev. Bakı, Yazıçı, 1988, 170 s.

Təhmasib – Molla Nəsrəddin lətifələri / Tərtib edən M.H.Təhmasib. Bakı,Yazıçı, 1978, 219 s.

Təhmasib (1941) – Nağıllar / Red. M.H.Təhmasib. Bakı, 1941

Vəliyev – Vəliyev A.H. Azərbaycan dilinin keçid şivələrinə aid mətnlər, əlavə (dissertasiya) Bakı, 1975, 90 s.

# I. HEYVANLAR HAQQINDA NAĞILLAR

## 1-99 Vəhşi heyvanlar

### 1-69. Tülkü

**1B* Tülkü gəlinin zinət əşyalarını oğurlayır.** Tülkü gəlin gəcavəsinin keçdiyi yolda özünü ölülüyə vurur. Onu ölmüş bilib atın tərkinə alırlar. Yolda gəlini biabır edəcəyi ilə qorxudub onun zinət əşyalarını alır.

SMOMPK, XXVIII burax., II şöbə, s.137-144, kont. 113B*+2+35B+56A+33; Azərb. nağ., V c., s. 24-27, kont.2 +113B*+38A*+38B*; Behrəngi, s.324-329, kont.2+38C* +38B*+35B+82*A+50; Qarabağ, III kitab, s.322-326, kont. 2+38A*+38B*+15

**2 Qurd balıq tutur.** Tülkünün məsləhəti ilə quyruğunu suya qoyur, quyruğu buz bağlayır.

SMOMPK, XXVIII burax., II şöbə, s.137-144, kont.1B*+ 113B*+35B+33+56A; Əlizadə (1937), s.323-326, kont.35B+38B*; Azərb. nağ., V c., s.24-27, kont.1B*+113B*+38A*+38B*; Behrəngi, s.324-329, kont.1B*+38C*+38B*+35B+82*A+50; Qarabağ, III kitab, s.322-326, kont.1B*+38A*+38B*+15

**15 Tülkünün mamaçalığı.** Tülkü ilə qurd (pişik ilə siçan) qış üçün yağ ehtiyatı görürlər. Tülkü mamaçalığa, yaxud adqoyduya getmək adı ilə evi tərk edib gizlətdikləri yağı yeyir. Oğrunu tapmaq üçün yanlarını istiyə verirlər. Tülkü qurdun böyrünə yağ sürtüb onu günahlandırır.

Azərb. nağ., V c., s.22-23; Seyidov, s.248-251; AFA, I c., №128; Qarabağ, III kitab, s.322-326, kont.1B*+2+38A*+38B*

**20 Heyvanlar bir-birini yeyirlər.** Tülkü, çaqqal, qurd və s. quyunun dibində ağaran daşı quyruq zənn edib növbə ilə özlərini ora atırlar. Tülkü mahnı oxuyur, hansı heyvanın adı axıra düşürsə, onu yeyirlər. Axırda tülkü özünü ölülüyə vurmaqla quyudan çıxır.

Əlizadə (1937), s.346-350, kont.21; Azərb. nağ., V c., s.5-10 kont.21+33

**20C Xoruz ağacdan düşən tutu daş zənn edib qaçır.** Yolda ona it, kirpi, tülkü və qartal qoşulur. Qabaqlarına çay çıxır. Xoruz çayı uçub keçir, dovşan tullanıb keçir, it üzüb keçir, qartal da kirpini caynağına alıb çaydan keçirir ki, onun balalarını ilandan qorusun.

Vəliyev, s.3

**21 Özünü yemə.** Qoltuğunda gizlətdiyi əti yeyən tülkü ayıya qoltuğunun ətini yediyini deyir. Tülkünün sözünə inanan ayı qoltuğunun ətini qoparır, onunla da canını tapşırır.

Əlizadə (1937), s.346-350, kont.20; Azərb. nağ., V c., s.5-10, kont.20+33; AFA, XVI c., s.436

**31 Tülkü ilə canavar quyuda.** Qurdun başı quyruq yeməyə qarışanda tülkü onun belinə tullanıb quyudan çıxır.

AXS, s.113-114

**33 Tülkü quyuda.** Özünü ölülüyə vurmaqla oradan çıxa bilir.

SMOMPK, XXVIII burax., II şöbə, s.137-144, kont. 113B*+1B*+2+35B+56A; Azərb. nağ., V c. s.5-10, kont.20+21

**33A* Tülkü toyuq hinində.** Ev yiyəsinin əlinə keçən tülkü özünü ölülüyə vurmaqla xilas olur.

Azərb. nağ., V c., s.30-31

**35B = AT 35B* Tülkünün orucu.** Tülkü qurda oruc tutduğunu deyir, qurd əti yemək istəyəndə tələyə düşür. Tülkü kənara sıçrayan əti yeyir, guya ayın çıxdığını görüb orucunu açır.

SMOMPK, XXVIII burax., II şöbə, s.137-144, kont. 113B*+1B*+2+56A+33; Əlizadə (1937), s.323-326, kont.2 +38B*; Azərb. nağ., V c., s.20-21; Vəliyev s.33; AXS, s.114; Behrəngi, s.324-329, kont.1B*+2+38C*+38B*+82*A+50; AFA, III c., s.210; XVI c., s.434-435, kont.105

**37 Tülkü mollalıq edir.** Ayı öz balalarını tülküyə oxutmağa verir, tülkü onları yeyir.

Azərb. nağ., V c., s.11-15, kont.60+225+181 (= ATS s.505-512; = Azərb. nağ. (2005), IV c., s.238-242)

**38A* Tülkü qurda pinəçilik öyrədir.** Bizi qurdun dilinə batırıb aradan çıxır.

Azərb. nağ., V c., s.24-27, kont.1B*+2+113B*+38B*; Qarabağ, III kitab, s.322-326, kont.1B*+2+38B*+15

**38B* Tülkü qurda səbət toxumağı öyrədir.** Qurdu səbətə salıb ağzını hörür.

Əlizadə (1937), s.323-326, kont.2+35B; Azərb. nağ., V c., s.24-27, kont.1B*+2+113B*+38A*; Seyidov, s.245-247, kont. 38A*+38C*; Behrəngi, s.324-329, kont.1B*+2+38C*+35B +82*A+50; Qarabağ, III kitab, s.322-326, kont.1B*+2 +38A* +15

**38C* Tülkü qurda dəyirmançılıq öyrədir.** a) Onu aldadıb dəyirmanın novdanına salır; yaxud b) qurdu razı salır ki, dəyirman daşının üstündəki unu yalasın. Qurd unu yalayanda dəyirmanı işə salıb onun üz-gözünü yaralayır.

Seyidov, s.245-247, kont.38A*+38B*; Behrəngi, s.324-329, kont.1B*+2+38B*+35B+82*A+50

**44 = AT 44* Tülkü, qurd və qoyun.** Qurdla tülkü qoyunu onların otlaq sahələrini korlamaqda günahlandırıb yemək istəyirlər. Qoyun onları təpəyə (pirə) and içməyə razı salır. Qurdla tülkü and içmək istəyəndə təpənin arxasında gizlənmiş köpək onları tutur.

Behrəngi, s.277-278; s.311-315, kont.126+126A; AXS, s.128-129; AFA, V c., s.70

**45* Özüm.** Tülkü adının Özüm olduğunu deyir və ayının bədəninə od vurur. Ayıdan soruşduqda «səni kim yandırdı?», cavab verir: «Özüm». Müqayisə et: 1135

AFA, XVI c., s.428-429

**46* Tülkünün nəziri.** Ovçulardan xilas olmaq üçün pirə nəzir deyir; təhlükə ötəndən sonra onu verməkdən boyun qaçırır.

Hüseynzadə, s.43-46, kont.155; AFA, V c., s.305

**47A Tülkü dəvənin quyruğunda.** Tülkü quyruğunu yatmış dəvənin quyruğuna bağlayır, dəvə ayağa qalxanda onun quyruğundan asılı qalır. Camaatın təəccüblə baxdığını görüb deyir: «Mən ölüm, üz vurmayın, böyüklərlə gəzirəm».

Behrəngi, s.247-248; AXS, s.111

**47E =** Bax: 122J

**50 Xəstə şir.** Tülkü şiri inandırır ki, onun baş ağrısının dərmanı canavarın döş ətidir. Şir canavarı parçalayır.

Behrəngi, s.324-329, kont.1B*+2+38C*+38B*+35B+82*A

**50B Eşşək beyni.** Tülkü eşşəyi aldadıb aslanın yaşadığı mağaranın ağzına gətirir. Eşşək aslanı görüb mağaraya girmək istəmir. Tülkü onu inandırır ki, içəridəki aslanın özü deyil, onun müqəvvasıdır. Eşşək içəri girəndə aslan onu parçalayır.

Hüseynov, s.154-155

**50** Cəsarətlənmiş şir.** Şir tülkünün şirin dilinə aldanıb dərədən tullanır, yıxılıb qol-qabırğasını sındırır. Tülkü onun ətini yeyir.

Behrəngi, s.287-288

**50*** Cəsarətlənmiş tülkü.** Tələyə düşmüş aslana söyür.

AKƏK, I c., s.245 (= El çələngi, s.178)

**51 Şiri razı salan bölgü.** Şir, tülkü və qurd şərikli ov ovlayırlar. Qurd öküzü şirə, toyuğu tülküyə, qoyunu isə özünə götürür. Bölgü şirin xoşuna gəlmir, qurdu öldürür. Ovu bu dəfə tülkü bölür: öküzü şirin nahar yeməyi üçün, qoyunu gündüz, toyuğu isə şam yeməyinə ayırır. Şir onun bölgüsündən razı qalır.

Azərb. nağ., V c., s.50 (= El çələngi, s.178-179); Hüseynov, s.118-119; AKƏK, I c., s.224; Azərb. nağ. (2005), I c., s.292-293, kont.126A

**51* = AT 51** Tülkü ovun yaxşısını özünə götürür.** Ayı, canavar və tülkü şərikli ov ovlayırlar. Tülkü ovun yaxşısını özünə götürür, qalanını isə ayı ilə canavara verir.

Qasımlı, s.104

**51** Tənbəl qurd.** Qurd özünü xəstəliyə vurub başqa heyvanların gətirdiyi ovla dolanır. Tülkü heyvanları onun kələyindən xəbərdar edir. Qurd özünü ölülüyə vurmaqla onlardan xilas olmağa çalışır, amma buna nail ola bilmir; onu diri-diri basdırırlar.

Azərb. nağ., V c., s.51-53

**55A* Şərikli göl.** Heyvanlar şərikli göl düzəldirlər, növbə ilə keşik çəkib onlara kömək etməyən tülkünü göldən su içməyə qoymurlar. Tülkü xəlvəti göldən su içəndə onu tuturlar. Tülkünün xahişi ilə onu öldürməzdən əvvəl bədənini yağlayırlar, tülkü qaçıb xilas olur.

AFA, II c., s.391-392; IV c., s.167-169

**56A Tülkü və sağsağan.** Tülkü ağacı kəsəcəyi ilə qorxudub sağsağanı balalarından birini ona verməyə razı salır. Sağsağan qarğanın (anqunun) məsləhəti sayəsində tülküdən xilas olur. Tülkü a) özünü ölülüyə vurmaqla qarğanı tutur; yaxud b) anqunu razı salır ki, necə yatdığını ona göstərsin. Anqu başını qanadları arasına alanda onu tutur.

SMOMPK, XXVIII burax., II şöbə, s.137-144; kont. 113B*+1B*+2+35B+33; XXXII burax., II şöbə, s.129-131; Şirəliyev, s.407; AXS, s.125-127, kont.56D

**56D Tülkü quşdan soruşur:** külək əsəndə o nə edir? Quş başını qanadları arasına alanda tülkü onu tutur.

AXS, s.125-127, kont.56A

**60 Tülkü ilə hacıleylək bir-birilərini qonaq çağırır.** Tülkü hacıleyləyi dayaz sinidə, hacıleylək isə tülkünü ağzı dar bardaqda yeməyə qonaq edir. Hər ikisi evə ac qayıdır.

Azərb. nağ., V c., s.11-15, kont.225+37+181 (= ATS, s.505-512; = Azərb. nağ. (2005), IV c., s.238-242)

**61 Xoruz tülkünün pəncəsində.** Xoruz tülküdən qəbiristanlıqdakı ölülər üçün fatihə verməsini xahiş edir. Tülkü fatihə verəndə onun ağzından qaçır.

AFA, X c., s.114

**61A Xoruzun şəhəri.** Tülkü xoruzun salmaq istədiyi şəhərdə özünə yer almaq istəyir. Xoruz yerölçəninin ağacın koğuşunda olduğunu deyir. Tülkü yerölçəni götürmək istəyəndə orada gizlənmiş köpək onu tutur.

Əliyev-Xəlilov, s.300

**61B Tülkü, xoruz və köpək.** Xoruzla it meşədə gecələyir. Tülkü xoruzu aldadıb yemək istəyir, ağacın oyuğunda və ya kolun dibində gizlənmiş it onu xilas edir.

Azərb. nağ., V c., s.17-19; AXS, s.120-121; El çələngi, s.180-181; Axısqa folkloru, s.49-51

**62 Heyvanlar arasında sülh.** Tülkü xoruzu aldatmaq istəyir, guya hakimin verdiyi yeni fərmana görə heç bir canlı bir-birinə toxunmamalıdır. İtlərin səsini eşidəndə qaçır ki, bəlkə onların bu fərmandan xəbəri yoxdur.

AFA, IV c., s.169-170; XVI c., s.435

## 70-99. Başqa vəhşi heyvanlar

**70 Qorxaq dovşan.** Dovşanlar özlərini gölə atmaq istəyirlər. Qurbağaların onlardan da qorxaq olduğunu görüb bu fikirdən daşınırlar.

AXS, s.116

**70** Dovşanın düşüncəsiz hərəkəti.** Su içmək üçün quyuya düşür, oradan çıxa bilmir.

AKƏK, I c., s.246

**75 Şir zəifin ona kömək etməsini özünə sıxışdırmır.** Tülkü şirin ayaqlarını bağlayır, çaqqal (siçan) onu xilas edir. Şir həmin yeri tərk edir.

Əlizadə (1937), s.341-345, kont.117+157; Seyidov, s.241-242; AXS, s.118-119; AFA, XII c., s.313-316 (= BYBQ, s.202-204); XV c., s.70-71

**75** Aslanın heysiyyəti.** Aslan siçanın onun üstündən keçməsini özünə ar bilir.

AKƏK, I c., s.245 (= DƏK, s.172-173)

**76 Hoqqar canavarın boğazında qalmış sümüyü çıxardır.** Etdiyi yaxşılığın qarşılığında canavarın yediyi ətdən

ona da verəcəyini gözləyir. Canavar deyir: «Şükür elə ki, başını ağzımdan sağ çıxartmısan».

Cəfərli, s.330-331

**76** Dəvə dilini girov qoyur.** Tülkü taqətdən düşmüş dəvəyə ot verir, əvəzində dəvə dilini ona verəcəyinə boyun olur. Tülkü nə qədər tullansa da, dəvənin dilini qoparmağa boyu çatmır. Canavarı köməyə çağırır. Dəvə canavarı öldürür.

AKD, s.117-118; Meğri şivələri, s.508 (= AFA, XII c., s.318-319)

**77 Maral buynuzları ilə öyünür.** Təhlükə anında buynuzları ona qaçıb xilas olmağa mane olur.

Hüseynov, s.106

**80A = AT 80A* Kimin yaşı böyükdür.** a) Dəvə, canavar və tülkü kökə tapırlar; yaxud b) dəvə, eşşək və qoyun bir dərz ot tapırlar. Razılaşırlar ki, hərə öz yaşını desin, kimin yaşı böyük olsa, kökəni o yesin. Canavar Nuhun gəmisinə ilk minənlərdən biri olduğunu, tülkü gəminin qayrılmasında iştirak etdiyini deyir. Dəvə: «Sizin sözünüzdən belə çıxır ki, dəvə uşaqdır» – deyib kökəni yeyir.

AXS, s.116; Budaqov, s.159; AKƏK, I c., s.244-245; AFA, II c., s.153; XIII c., s.344-345; XVI c., I mətn, s.427; II mətn, s.427; XVIII c., s.126; AFK, VIII c., s.343; Qarabağ, III kitab, s.321-322; Qarabulaq folkloru, I kitab, s.225

**82*A Xəlifənin fərmanı.** Tülkü a) boynuna xəlifənin adından fərman asır, guya xəlifə ona bağın meyvəsindən yeməyə icazə verib; yaxud b) özünə yeni bağ aldığını söyləyib canavara bağın meyvəsindən yeməyə icazə verir. Bağ sahibi gələndə tülkü qaçıb aradan çıxır, canavar isə yaxalanır. Canavar özünü ölülüyə vurmaqla bağ sahibindən xilas olur.

Hüseynov, s.49; Behrəngi, s.324-329, kont.1B*+2+38C*+38B*+35B+50

**82*B Qarı çaqqalla qəbalə bağlayır.** Qarı cücələr böyüdükdən sonra onların yarısını çaqqala verəcəyinə dair onunla qəbalə bağlayır. Çaqqal ona çatası toyuqları almağa gələndə qarı tövlədə gizlətdiyi iti onun üstünə buraxır. Tülkü itin təqibindən qaçan çaqqala məsləhət görür ki, qəbaləni göstərsin. Çaqqal deyir: “Bu dərəbəylikdə kimdi qəbaləyə baxan”.

AFA, XVIII c., s.127-128

**92 Aslan suya düşən əksini başqası zənn edir.** Heyvanlar aslana gündə bir ov gətirməlidirlər. Dovşan aslanı inandırır ki, gətirdiyi ovu başqa bir heyvan onun əlindən alıb və aslana onun suya düşən əksini göstərir. Aslan özünü suya atır, boğulub ölür.

Azərb. nağ., V c., s.47; El çələngi, s.181-182

## 100-149. Vəhşi heyvanlar və ev heyvanları

**103 Xor-xor pişik.** Evdən qovulmuş pişik tülkünün yuvasında yatır. Tülkü onun xorultusunu eşidib qorxur. Vəhşi heyvanlar pişiyi qovmaqda tülküyə kömək etmək istəyirlər, amma onun hərəkətlərindən qorxub qaçırlar.

AFA, IV c., s.166-167

**103C = AT 103C* Eşşəkdən qorxan şir.** Şir eşşəyin anqırtısını eşidib ondan qorxur.

Babayev, s.282-283; Seyidov, s.233-237

**105 Tülkünün yeganə fəndi.** İran tülküsü yüz fənd bilir, amma bu onun köməyinə gəlmir. Azərbaycan tülküsündən öyrəndiyi bir fəndi işlədib tələdən xilas olur.

AFA, XVI c., s.434-435, kont.35B

**110 Pişiyin zınqırovu.** Siçanlar qərara gəlirlər ki, pişikdən xilas olmaq üçün onun boynuna zınqırov assınlar, amma heç biri buna cəsarət etmir.

Hüseynov, s.38

**110** Taclı siçan.** Siçanlar seçdikləri başçının başına qızıldan tac qoyurlar. Təhlükə anında tac ona gizlənməyə mane olur, pişik onu tutub yeyir.

AKƏK, I c., s.249 (= El çələngi, s.176)

**112*** Harınlamış siçan (tülkü).** a) Siçan karvandan qalan arpa, buğda, çörək qırıntılarını yeyib kökəlir. Dəvələrin ayaqları arasından keçmək istəyir, sonuncu dəvənin ayağı altında qalıb ölür. Yaxud b) tülkü it olmayan kəndə dadanır və oğurladığı toyuqları yeyib kökəlir. O qədər harınlayır ki, özünü həmin yerin hökmdarı sayır və şirə onun torpağından keçməyi qadağan edir. Şir onu vurub öldürür, daha sonra əliylə tülkünü qarnını yoxlayır. Tülkünün qarnının piy bağladığı məlum olur.

AXS, s.111-112; AFA, XVI c., s.437

**113B Pişik Həccə gedir.** Onunla halallaşmağa gələn siçanları tutub yeyir.

Axısqa folkloru, s.43-44

**113B* Tülkü Həccə gedir.** Yolda qarğa ilə xoruz da ona qoşulur. Tülkü onları əməllərinə görə günahlandırıb yeyir.

SMOMPK, XXVIII burax., II şöbə, s.137-144, kont. 1B*+2+35B+56A+33; Azərb. nağ., V c., s.24-27 kont.1B* +2+38A*+38B*

**117 = AT 117*, 119C* Uğursuz təqlid.** Canavar çaqqala atı ovlamağın yolunu göstərir: gözləri qızarır, böyrü enib-

qalxır, tükləri biz-biz durur, atılıb öküzü parçalayır. Caqqal onu yamsılayır, amma uğursuz olur.

Əlizadə (1937), s.341-345, kont.75+157; AKD, s.116-117; AXS, s.119-120; AFA, VI c., s.158; XVI c., s.429-430

**118 Atla pələng güclərini yoxlayır.** Atın daşdan qığılcım çıxartdığını görən pələng ondan qorxub qaçır. Yolda canavara rast gəlir. Atı göstərmək üçün onu pəncələri arasına alıb havaya qaldırır, canavar boğulub ölür.

Qonaqkənd ləhcəsi, s.241-242

**122A Axmaq canavar.** Ac canavar növbə ilə müxtəlif heyvanlarla qarşılaşır. Onları yemək istəyir: gözləyir ki, camış palçığını yusun, quzu duz gətirsin və s. Heyvanlar onu aldadıb qaçırlar, canavar ac qalır.

SMOMPK, XXXII burax., II şöbə, s.132-134, kont.122J; Muğan şivələri, s.216-217; Seyidov, s.238-240, kont.122C +122 K+122J; CAƏA, III c., s.503-504 (= Abdullayev, s.108-109); AFA, II c., s.379-380, kont.122J; XXIII c., s.128-129, kont. 122J; Qarabağ, I kitab, s.323-324, kont.122G+122J; III kitab, s.326

**122C Keçinin nəğməsi.** Canavar yemək istədiyi keçiyə son nəfəsdə oxumağa icazə verir. Çoban keçinin səsini eşidib onun köməyinə gəlir.

Seyidov, s.238-240, kont.122A+122K+122J

**122G Canavar yeməzdən əvvəl camışa yuyunmağa icazə verir.** Camış gölə girdikdən sonra oradan çıxmır.

Qarabağ, I kitab, s.323-324, kont.122A+122J

**122J Ayı və at.** a) At ayıdan onu arxa tərəfdən yeməsini xahiş edir; b) canavarı inandırır ki, onu yeməyin qaydası ayağının altına yazılıb; c) dal ayağının altında şokalad olduğunu söyləyir; yaxud d) ölməzdən qabaq yaşını bilmək istədiyini

deyir. Canavar (ayı) onu yemək istəyəndə, yaxud ayağının altındakı yazını oxumaq istəyəndə təpiyi ilə onu vurub qaçır.

SMOMPK, XXXII burax., II şöbə, s.132-134, kont.122A; Seyidov, s.238-240, kont.122A+122C+122K; AFA, II c., s.344-345; s.379-380, kont.122A; IX c., s.346-347; XXIII c., s.128-129, kont.122A; Qarabağ, I kitab, s.323-324, kont. 122A+122G; III kitab, s.326

**122K = AT 122K* Ayı və qoç.** Ayı gözləyir ki, qoçlar döyüşsünlər, hansının buynuzu qırılsa, əvvəlcə onu yesin. Qoçlar buynuzları ilə vurub ayını yıxırlar.

Seyidov, s.238-240, kont.122A+122C+122J

**123 Şəngülüm, Şüngülüm, Məngülüm.** Qurd ana keçinin səsini yamsılayır. Onu anaları zənn edən keçi balaları qapını açır, qurd onları yeyir. Keçi dəmirçiyə bir qab qatıq, qurd isə içinə hava doldurulmuş dağarcıq hədiyyə edir. Əvəzində dəmirçi keçinin buynuzlarını itiləyir, qurdun isə dişlərini çəkib yerinə sarımsaq qoyur. Keçi qurdun qarnını yırtıb balalarını xilas edir.

SMOMPK, XXXII burax., II şöbə, s.134-135; Əlizadə (1929), s.81-82; Azərb. nağ., V c., s.32-36; Köçərli, s.41-45; AFA, II c., s.382-383

**126 Vəhşi dərisinə bürünmə.** Köçdən ayrı düşən keçi, dana və qoyun hərəsi bir yırtıcı heyvan dərisinə bürünür. a) Həmin heyvanları öldürdüklərini söyləyib ayı, qurd və tülkünü qorxudurlar; yaxud b) keçi yeddi canavar dərisindən kürk tikdirmək istədiyini deyir, canavarlar qorxub qaçır.

Azərb. nağ., V c., s.37-38, kont.126A (= ATS, s.478-480; = Azərb. nağ. (2005), IV c., s.243-244); Behrəngi, s.311-315, kont.126A+44; Qarabağ, III kitab, s.317-320, kont.126A

**126A = AT 126A* Hürküdülmüş heyvanlar.** Canavarların təqibindən qaçan qoyun, keçi və dana ağacda (dağda) gizlənirlər. Ayağı sürüşüb ağacdan (dağdan) yıxılan dana canavarları yeyəcəyi ilə hədələyir, canavarlar qorxub qaçır.

Azərb. nağ., V c., s.37-38, kont.126 (= ATS, s.478-480; = Azərb. nağ. (2005), IV c., s.243-244); Behrəngi, s.311-315, kont.126+44; AFA, XV c., s.280-281; Azərb. nağ. (2005), I c., s.292-293, kont.51; Qarabağ, III kitab, s.317-320, kont.126

**127A = AT 127A* Qurd və keçi.** Qurd keçini aldadıb yarğandan aşağı düşürmək istəyir, amma buna nail olmur.

AKƏK, I c., s.248 (= El çələngi, s.174)

**139* Güc birlikdədir.** Öküzlər nə qədər ki bir yerdədir, onlara batmaq mümkün deyil; tülkü (aslan, canavar) öküzləri bir-birindən ayırıb onları parçalayır.

AKƏK, I c., s.245; CAƏA, III c. s.504-505 (= Abdullayev, s.110); IV c. s.379-383; AFA, V c., s.262; XVIII c., s.126-127; XXIII c., s.130

## 150-199. İnsan və vəhşi heyvanlar

**150 Üç məsləhət.** Sərçə onu tutan ovçuya üç məsləhət verir: gedənə yanma, deyilənə inanma, özündən yuxarıya əl uzatma. Ovçu onu buraxır. Sərçənin çənədanının qızılla dolu olduğunu eşidəndə onu tutmaq istəyir, yıxılıb əzilir.

AFA, XII c., s.362

**154 Qatranlanmış inək.** Dəyirmançı inəyin üstünə qır yaxıb hər gecə onu minən tülkü, canavar və ayını tutur. Heyvanlar dəyirmançıya hədiyyə boyun olmaqla ondan xilas olurlar, amma ayı boyun olduğu hədiyyəni vermək istəmir. Tülkü

dəyirmançıya kömək edir. Ayını inandırır ki, padşah xəstə oğlu üçün ayı əti axtarır və onu çuvalda gizlənməyə razı salır. Dəyirmançı ayını döyüb boyun olduğu hədiyyəni alır.

Meğri şivələri, s.487-488 (= AFA, XII c., s.316-317)

**155 Yaxşılığa yamanlıq.** a) Kişi soyuqdan donmaqda olan ilanı qoynunda qızdırır; yaxud b) ilanı alovun içindən xilas edir. İlan kişinin boynuna sarılıb onu sancmaq istəyir. Üç nəfərə məsləhət edirlər, kişi tülkünün köməyi ilə ilandan xilas olur. Bəzi variantlarda kişi ona yaxşılıq etmiş tülkünü ovçuların əlindən xilas edir, digərlərində isə tülkünün yerini ovçulara nişan verir.

SMOMPK, XXVII burax. II şöbə, s.132-137; Baqri, I c., s.41-45, kont.1164 (= ATS, s.513-518); III c., s.119-122; Azərb. nağ., V c., s.61-65 (= Azərb. nağ. (2005), IV c., s.245-249); AKD, s.260-261; İmamquliyeva, s.280-281; Hüseynzadə, s.43-46, kont.46*; AFA, XVI c., I mətn, s.422-423; II mətn, s.423-424; III mətn, s.424-425; Qarabağ, II kitab, s.395-397, kont.161

**156B = AT 156B* Qadın tülküyə mamaçalıq edir.** Tülküyə balalarını dünyaya gətirməkdəköməklik edir, əvəzində tülkü onu toyuq-cücə ilə mükafatlandırır.

AFA, XVI c., s.437-439

**157 İnsanın gücü.** Pişik aslana insanın hamıdan güclü olduğunu söyləyir və onu cütçü ilə tanış edir. Cütçü a) aslanı aldadıb öküzün yerinə cütə qoşur; yaxud b) onu ağaca sarıyıb (xaralın içinə salıb) döyür.

SMOMPK, XXXII burax., II şöbə, s.131-132; Əlizadə (1937), s.341-345, kont.75+117; Azərb. nağ., V c., s.54-55; Hüseynov, s.132-133; AXS, s.122-123; AFA, XVI c., I mətn, s.431; II mətn, s.431-432

**159B Söz yarası.** Kişi ayıya ağzından pis iy gəldiyini deyir. Bu sözdən məyus olan ayı kişidən xahiş edir ki, onu balta ilə vursun. Bir müddətdən sonra onlar qarşılaşanda ayı balta yarasını unutmuş olur, amma söz yarasını yox.

Ağalı, s.102-103

**159B*** Tısbağa yaralı maraldan xahiş edir ki, bir az kənardan getsin, qanını onun üstünə tökməsin. Söz marala çox pis təsir edir və deyir: “Ay tısbağa, ovçunun yarası məni öldürməyəcəkdi, amma sənin bu sözün məni öldürəcək”.

Qarabağ, III kitab, s.363

**160 Xeyirxah heyvanlar.** Meymun, şir və ilan onları quyudan xilas edən kəndlini mükafatlandırırlar. Kəndli ilanın verdiyi ləli satmaq üçün bazara aparır, onu həmin ləli oğurlamaqda günahlandırıb tuturlar. Heyvanlar məhkəmədə şahidlik edib onun günahsız olduğunu sübut edirlər.

SMOMPK, XIII burax., II şöbə, s.82-85

**161 Ovçulardan qaçan tülkü.** Kişi tülkünü torbanın içində gizlənməyə razı salır və onun yerini heç kimə deməyəcəyinə söz verir. Ovçular xəbər alanda tülkünün yerini onlara nişan verir.

Qarabağ, II kitab, s.395-397, kont.155

**178A Günahsız meymun.** Meymun (tula) padşahın oğlunu yemək istəyən əjdahanı öldürür. Padşah meymunu əliqanlı görüb uşağı yediyini güman edir və onu öldürür. Həqiqəti biləndən sonra tutduğu işə peşman olur.

SMOMPK, XLII burax., II şöbə, s.20-30, kont.976A+925**+925*A+916+178D*; Axundov, I c., s.262-267, kont. 916+178C*+178D*; II c., s.144-152, kont.916+178C*+178D*; İsmayılov, s.135-145, kont.679*+178D*+178C*

**178C* Günahsız tutuquşu.** Bağban qızılquşun padşaha hədiyyə etdiyi qeyri-adi alma toxumunu əkir, onun meyvəsindən padşaha nübar aparır. Padşahı öldürmək üçün fürsət axtaran vəzir bağbanın gözündən yayınıb almanı dəyişir, yerinə zəhərli alma qoyur. Padşah almadan bir dilim pişiyə verir, pişik onu yeyən kimi ölür. Qızılquşun zəhərli alma toxumu gətirdiyini güman edən padşah onun başını üzür, həqiqəti biləndən sonra tutduğu işə peşman olur.

AT kataloqunda 916 nömrəli süjetin tərkibində verilib.

Azərb. nağ., III c., s.140-148, kont.679* (= Azərb. nağ. (2005), IV c., s.119-127); IV c., s.124-129, kont.679* (= Azərb. nağ. (2005), V c., s.124-129); Cəfərli, s.333-337, kont.679*; Axundov, I c., s.262-267, kont.916+178D*+178A; II c., s.144-152, kont.916+178A+178D*; İsmayılov, s.135-145, kont.679*+178A+178D*; AFA, XII c., s.172-179, kont.679*+178D* (= BYBQ, s.167-173)

**178C** Günahsız göyərçin.** İnək hər səhər göyərçinin gətirdiyi otdan yeyib daha çox süd verir. Bir gün inək ölür, inək sahibi göyərçinin gətirdiyi otdan şübhələnib onun boynunu üzür. Amma sonradan atasının həmin otdan hazırlanmış şorbadan yeyib cavanlaşdığını görüb göyərçinin günahsız olduğunu başa düşür və onu öldürdüyünə peşman olur.

AFA, II c., s.348-349

**178D* Günahsız qızılquş.** Qızılquş padşaha zəhərli sudan içməyə, yaxud zəhərli almanı yeməyə imkan vermir: almanı (suyu) vurub onun əlindən salır. Quşun bu hərəkətinə qəzəblənən padşah onu öldürür, həqiqəti biləndən sonra tutduğu işə peşman olur.

AT kataloqunda 916 nömrəli süjetin tərkibində verilib.

SMOMPK, XLII burax., II şöbə, s.20-30, kont.976A +925**+925*A+916; Axundov, I c., s.262-267, kont.916 +178C*+178A; II c., s.144-152, kont.916+178A+178C*; İsmayılov, s.135-145, kont.679*+178A+178C*; AFA, XII c., s.172-179, kont.679*+178C* (= BYBQ, s.167-173)

**181 Cütcü və ayı.** Cütcü tülkünün ayının balalarını yediyinin şahidi olur və bu sirri açmayacağına dair ayıya söz verir. Amma sözünün üstündə durmur. Sirri açdığı üçün ayı cütcünü öldürmək istəyir. Tülkü cütcüyə ayıdan xilas olmaqda köməklik edir: quyruğuna süpürgə bağlayıb dağın başında toz qaldırır. Cütcü tozu ayıya göstərib onu qorxudur, guya padşahın adamları xəstə şahzadə üçün ayı əti axtarırlar və ayını çuvalda gizlənməyə razı salır. Ayını öldürdükdən sonra qarnında küçük olduğunu söyləyib tülküdən də xilas olur.

Azərb. nağ., V c., s.11-15, kont.60+225+37 (= ATS, s.505-512; = Azərb. nağ. (2005), IV c., s.238-242)

**185* =** Bax. 1539A*

**187* İnsan şirlə gücünü yoxlayır.** Kim daşdan su çıxarar? İnsan daş əvəzinə yumurtanı sıxıb suyunu çıxardır. Şir ondan qorxur (Müqayisə et: 1060).

Seyidov, s.243-244, kont.188*

**188* Qoca şiri onun üstünə gətirən tülküdən xilas olur.** Tülkünün ona şir borclu olduğunu deyir; şir tülkünü öldürüb aradan çıxır (Müqayisə et:1149A*).

Seyidov, s.243-244, kont.187*

**189* Ayının yoxsulluqdan qorxması.** Padşah ayını öldürən şəxsə piyalə dolusu qızıl verəcəyini elan edir. Kasıb ayını meydana çağıraraq deyir: «Məni cürətli edən yoxsulluq yanımdadır, o məni bura gətirib. ...onun hünəri ilə mən səni

öldürməliyəm». Ayı yoxsulluğu qeyri-adi silah növü olduğunu zənn edib qaçır.

Tantəkin, s.13-14

**190* Ana meymunun peşmançılığı.** Bala meymun anasına bir-biri ilə yola getməyən qarı ilə pişiyi barışdırmağı məsləhət görür, amma ana meymun onun sözünə əhəmiyyət vermir. Qarı pişiyin üstünə neft töküb yandırır. Canının hayına qalan pişik özünü meşəyə vurur, oranı od tutur. Meymunlar güclə qaçıb canlarını qurtarır.

AXS, s.115-116

## 200-219. Ev heyvanları

**203 Kim daha çox ot yeyər?** Qoyun yedikcə xəlvəti quyruğunun altından qığlayır, at isə fasiləsiz yeyir; at partlayıb ölür.

Qarabağ, III kitab, s.327

**207A Eşşək və öküz.** Eşşək işləməkdən yorulmuş öküzə məsləhət görür ki, özünü xəstəliyə vursun; sahibi öküzün yerinə onu cütə qoşur; bu səfər öküzü inandırır ki, əgər sağalmasa, sahibi onu kəsəcək.

Qarabağ, I kitab, s.181-183, kont.670

**209* Atın narahatçılığı.** Padşah bütün dovşanların boynunun vurulmasını əmr edir, at qaçıb xilas olmağa çalışır.

AFA, VI c., s.115-116

**210 Tülkü qoz oğurlamağa gedir.** Yolda ona xoruz, ilan və toxmaq da qoşulur. Xoruz ocağın içində gizlənir, toxmaq qapının başından asılır, ilan isə çəkmənin içinə girir. Xoruz ev yiyəsinin gözünü tökür, ilan ayağını sancır, ev

yiyəsi qapını açıb qaçmaq istəyəndə toxmaq onun başına düşür. Heyvanlar qozu aralarında bölüb yeyirlər.

AFA, X c., s.113-114; XII c., s.317-318; Qarabağ, III kitab, s.328-329; NFA, III c., s.148-149

**212 Qoyunun yalanı.** Hər axşam axura gələndə qoyunlar çobanın onları ac saxlamasından şikayətlənirlər. Süleyman peyğəmbər çoban geyimində qoyunları otarır, onların yalan dediyi məlum olur. Peyğəmbər qoyunları qarğayır, o vaxtdan onlar nə qədər otlasa da, gözləri doymur.

Qarabağ, II kitab, s.29; III kitab, s.37-38, s.38

**214 = AT 214* At və eşşək.** Eşşək şikayətlənir ki, sahibi onu işlədir, amma atı tövlədə bəsləyir. Müharibə vaxtı at döyüşdə ölür, eşşək öz halına şükür edir.

SMOMPK, XXVIII burax., II şöbə, s.163; AKƏK, I c., s.245 (= DƏK, s.173)

**214A Dəvə və eşşək.** Dəvə ilə eşşək a) arıq düşdüklərindən karvan sahibi onları sərbəst buraxır; yaxud b) ağır işdən təngə gəlmiş dəvə ilə eşşək evdən qaçır. Yeyib kökəlmiş eşşək anqırır, yaxınlıqdan keçən karvan sahibi səsi eşidib onları tutur və yükə qoşur. Yolda karvan sahibi eşşəyin taqətdən düşdüyünü görüb onu dəvənün üstünə yükləyir. Çaydan keçəndə dəvə oynayır, eşşək onun üstündən çaya düşüb boğulur.

Hüseynov, s.101-102; Qarayev, s.411-412; AFA, XVI c., s.436-437; Qarabağ, III kitab, s.320-321

**214B Boya küpünə düşmüş çaqqal.** Çaqqal boya küpünə düşür və hər tükü bir rəngə çalır. Heyvanlar onu özlərinə padşah seçirlər. Ulayanda çaqqal olduğu məlum olur, onu qovurlar.

AXS, s.109; AFA, XIV c., s.117-118; XVI c., I mətn, s.432-433; II mətn, s.433; III mətn, s.433-434

**215* Köşəyin xiffəti.** Kişi ona əmanət edilmiş yetim köşəyə öz dəvəsindən də yaxşı baxır, amma köşək anasının xiffətini çəkdiyindən gündən-günə arıqlayır.

AFA, XIII c., s.186-187; XVI c., s.276-278, kont.838*; s.426-427

**215**A Dəvənin ovsarı eşşəyin quyruğunda.** Kişi ölüm ayağında olan dəvəsindən halallıq istəyir. Dəvə onun bütün günahlarından keçir, yalnız çaydan keçərkən ovsarını eşşəyin quyruğuna bağlamasını ona bağışlamır.

Qasımlı, s.8; AFA, XIV c., s.88-89

**215**B** Eşşəklərin saxlandığı tövlə uçduğu üçün kişi onları atların olduğu tövləyə salır. Səhər tövlənin qapısını açanda atların ağladığını, eşşəklərin isə güldüyünü görür. Məlum olur ki, atlar onları eşşəyə tay tutduqları üçün ağlayır, eşşəklər isə atlarla bir yerdə qaldıqları üçün sevinirlər. Kişi təcili eşşəklər üçün bir tövlə tikib onları atlardan ayırır.

Ağalı, s.67-68

**219E** Qarı və xoruz.** Qarı evi süpürəndə tapdığı bir şahı pula halva alır. Halvanı yediyi üçün xoruzun qıçını sındırır, xoruz da onun gözünü çıxarır. Qarı qazıya şikayət edir.

CAƏA, I c., s.347-348

## 220-274. Quşlar və balıqlar

**225 Tülkü göyü seyr etmək istəyir.** Hacıleylək və ya durna tülkünü qanadları üstünə alıb göyə qaldırır, onu oradan yerə atır.

Azərb. nağ., V c., s.11-15, kont.60+37+181 (= ATS, s.505-512; = Azərb. nağ. (2005), IV c., s.238-242); Seyidov, s.262; AXS, s.127-128

**227 Tülkü və kəklik.** Tülkü kəkliyi dilə tutub gözlərini yummağa razı salır. Kəklik gözlərini yumanda onu tutur. Kəkliyin xahişi ilə onu yeməzdən əvvəl “afərin” deyir, yaxud şükür edir, onu ağzından qaçırır (Müqayisə et: AT 227).

SMOMPK, XXVIII burax., II şöbə, s.162-163; Azərb. nağ., V c., s.16 (= AKƏK, I c., s.260; = El çələngi, s.175-176)

**233D = SUS 233D** Xoruz və qartal.** Xoruz döyüşdən qalib çıxdığı üçün qürrələnir, qartal onu caynağına alıb aparır.

AKƏK, I c., s.246 (= El çələngi, s.173)

**233D* Qızıl quş və xoruz.** Qızılquş xoruzu sahibinə sədaqətsizlikdə günahlandırır. Xoruz deyir: “Əgər sən heç olmasa bir tikə qızardılmış şahin əti görsəydin, yəqin ki, heç olmasa bircə dəfə uçmağa imkanın olsaydı, geri dönməzdin”.

AKƏK, I c., s.247

**238A* Qızılquş iti gözləri ilə öyünür.** Qızılquş (və ya qartal) samanlıqdakı iynəni göyün üzündən seçə bilməsi, yaxud ölmüş öküzün cəsədindəki qurdu göyün üzündən görə bilməsi ilə öynür, amma iki addımlığındakı toru görə bilmir.

AFA, XII c., s.319-320 (= BYBQ, s.33-34); Qarabulaq folkloru, I kitab, s.94-95

**248A Qırqovulun qisası.** Dəvə (şir) su içməyə gedəndə onun yolu üstündə yuva qurmuş qırqovulun yumurtalarını tapdalayıb əzir. Qırqovul dəvədən qarğaya şikayət edir. Qarğa dəvənin gözlərini çıxardır, qurbağalar isə dəvənin korluğundan istifadə edib onu quyuya salırlar.

AXS, s.123; AFA, IV c., s.170-172

**256* Sərçənin düşmənçiliyi və köməkliyi.** Sərçələrdən biri dimdiyində gətirdiyi samanı, digəri isə ağzında gətirdiyi

suyu yanan xırmanın üstünə atır. Bununla sərçələrdən biri öz düşmənçiliyini, digəri isə öz köməkliyini göstərmiş olur.

Hüseynov, s.44-45; AFA, I c., №114

**256** Hazırcavab sərçə.** Ana sərçə (qarğa) balasına məsləhət görür ki, insan yerə əyiləndə tez qaçsın. Bala sərçə deyir: "Olmaz ki, yerə əyiləndə deyil, hər dəfə gözə görünəndə qaçaq?"

Hüseynov, s.52; Ələkbərli, s.79

## 275-299. Digər heyvanlar (əşyalar, bitkilər və təbiət hadisələri)

**275 Tülkü ilə tısbağanın yarışı.** Tülkü ilə tısbağa şərikli bostan əkirlər. Razılaşırlar ki, yarışsınlar, kim bostana birinci çatsa, məhsul onun olsun. Tısbağa qabaqcadan bostana yumurta qoymuş olur, tülkü ora çatanda yumurtadan çıxmış tısbağanı görüb yarışı uduzduğunu zənn edir.

AFA, XVI c., s.430

**275A Arxayınçılığın sonu.** Kirpi ilə dovşan yarışır. Sürətinə arxayın olan dovşan yolda tez-tez dincəlir, kirpi isə fasiləsiz qaçıb onu keçir.

AKƏK, I c., s.247-248 (= El çələngi, s.177)

**278 Taylı tayını tapmasa.** Siçanla qurbağa bir-birini görmək üçün ayaqlarını iplə bağlayırlar. Quş siçanı caynağına alıb aparır, qurbağa da onun güdazına gedir.

Azərb. nağ., V c., s.46; AXS, s.129

**279 = AT 279* İlanla tülkünün dostluğu.** İlan onu çaydan keçirən tülkünü sancmaq istəyir. Tülküyə sonuncu dəfə üzündən öpməyə icazə verir, tülkü onu öldürür.

Azərb. nağ. V c., s.28-29; AXS, s.115

**280B* Qənaətcil qarışqa.** Bir buğda dənəsi ilə yeddi il dolanır.

Azərb. nağ., V c., s.69-72; Budaqov, s.166-167; AFA, X c., s.86; Qarabağ, II kitab, s.39-40

**280C* Qarışqaların şikayəti.** Qarışqalar şikayətlənirlər ki, fillər su içməyə gedəndə onların ayaqları altında qalıb əzilirlər. Süleyman peyğəmbər onların şikayətinə əhəmiyyət vermir. Qarışqalar torpağı oyub boşaldırlar, fillər su içməyə gedəndə torpaq çökür, quyuya düşürlər.

Şirəliyev, s.393-394; AFA, XVI c., I mətn, s.62

**280D* Süleyman və qarışqa.** Süleyman peyğəmbər qarışqalara quru ağacda, yolda yuva qurmağı qadağan edir. Onun məsləhətinə əməl etməyən qarışqalar sonradan tutduqları işə peşman olurlar.

AFA, XVI c., II mətn, s.62

**280E* Qarışqa o dünyada.** Süleyman peyğəmbər ölünün necə sorğu-sual edildiyini öyrənmək üçün qarışqanı o dünyaya göndərir. Mələklər a) qarışqanı geri qaytarır ki, peyğəmbər özü gələndə hər şeyi öyrənəcək, yaxud b) qarışqaya bir şallaq vurub oradan qovurlar.

AFA, VI c., s.112; XVI c., s.61

**280F* Qarışqa filə ərə gedir.** Nikah gecəsi fil ölür. Qarışqa ağlayır ki, ölüncə filə qəbir qazmalı olacaq.

AXS, s.114

**281B = SUS 281B* Arıların qəzəbi.** Yuvalarını dağıtdığına görə fili sancıb öldürürlər.

Seyidov, s.263-264

**281* Kimin zəhəri güclüdür:** İlanla arı hansının zəhərinin güclü olması üsündə mübahisə edir. Növbə ilə bir

adamı sancırlar. İlanın çaldığı adam arını görüb elə bilir onu çalan arıdır, zəhər ona təsir etmir. Amma arı çalanda bu səfər ilan onun gözünə görünür, insanın ürəyi partlayır.

AFA, XIII c., s.193

**282* Peyin böcəyi və bal arısı.** Bal arısı peyin böcəyini özünə köməkçi götürür, bal gətirmədiyi üçün onu sancıb öldürür.

AKƏK, I c., s.246-247 (= El çələngi, s.177)

**283* Hörümçəklə milçəyin düşmənçiliyi.** Kim od gətirsə, padşah onun arzusunu yerinə yetirəcəyini elan edir. Hörümçək odu əldə edir, amma geri qayıdanda yolda yatıb yuxuya qalır. Milçək odu ondan oğurlayıb aparır və padşahdan süfrə açılanda üstünə ilk onun qonmasını xahiş edir. O vaxtdan hörümçək milçəyə düşmən kəsilir və onun yolu üstündə yuva qurub milçəyi tutmağa çalışır.

Qarabağ, III kitab, s.27-28

**285B** İnsanın mədəsində gizlənmiş ilan.** Kişi təqibdən qaçan ilanı mədəsində gizləyir, təhlükə keçəndən sonra ilan onun qarnından çıxmaq istəmir. Kişi qocanın verdiyi paslı qılıncla qarnının üstündən çarpaz xətt çəkir. Yediyini sifraq edir, ilan doğranmış halda onun bədənindən çıxır.

AFA, XVI c., s.425-426

**285D Quyruq yarası, oğul dağı.** Kasıb a) hər gün ilana süd verir, yaxud b) ilanı çalmaq istəyən əqrəbi öldürür; bu yaxşılığının qarşılığında ilan hər gün ona bir qızıl verir. Bir gün kasıb xəstələnir, oğlu onu əvəz edir. Oğlan ilanı öldürüb qızılların hamısına sahib olmaq istəyir, amma dəqiq nişan ala bilmir; qılınc ilanın quyruğunu qoparır. İlan oğlanı sancır və bu hadisədən sonra kasıbla onun dostluğu pozulur.

Baqri, I c., s.25-26 (= AS, s.442-443); Hüseynzadə, s.80-82; AFA, V c., s.225-226; XIII c., s.302; Azərb. nağ. (2005), I c., s.294-295 (= Azərb. nağ. III c., s.181-182); Axısqa folkloru, s.40-41

**285E = SUS 285E* Süleyman və ilanlar.** İlanlar Süleyman peyğəmbərdən başlarının ixtiyarını quyruğa verməlerini xahiş edirlər. Peyğəmbər onların istəyini yerinə yetirir, quyruqları onları aparıb qaynar qazana salır.

AFA, VI c., s.114-115

**292 Eşşək və bülbül.** Eşşək bülbül kimi məlahətli səsə sahib olmaq üçün hava və su ilə qidalanır; acından ölür.

AKƏK, I c., s.246 (= El çələngi, s.177-178)

**292* Qəfəsə salınmış bülbül.** Bulbul vətən həsrəti çəkdiyi üçün yanıqlı-yanıqlı oxuyur, padşah onu azad edir.

Seyidov, s.265; AFA, V c., s.50-51; XVI c., s.439

**293* Otların bəhsi.** Hansının daha faydalı olması üstündə mübahisə edirlər.

AKƏK, I c., s.236-243

**294* = AT 335 Qışın xəbərdarlığı.** Qış öz gəlişini xəbər verəcəyini dostuna söz verir. Əvvəl sağ tərəfdəki, sonra sol tərəfdəki dağın başına qarlayır, amma dostu bundan bir şey anlamır və qışa hazırlıqsız yaxalanır.

Qarabağ, I kitab, s.151-152

**295 Paxla, saman və köz çayı keçməyə cəhd edir.** Köz samanı yandırır, çaya düşüb batırlar. Paxla onlara o qədər gülür ki, qarnı partlayır.

AFA, IV c., s.124-126

**299* Qızıl və dəmir.** Hansının daha qiymətli olması üstündə mübahisə edirlər.

Baqri, I c., s.159-160; III c., s.122-124

# II. SEHRLİ NAĞILLAR

## 300-399. Qeyri-adi düşmən

**300 Suyun qabağını kəsmiş əjdaha.** Su əldə etmək üçün hər gün əjdahaya bir qız qurban verilir. Qəhrəman əjdahanı öldürüb qızı xilas edir. Qız əlini qana batırıb onun kürəyinə nişan qoyur və qəhrəman həmin nişana görə tanınır.

SMOMPK, III burax., II şöbə, s.112-118, kont.516D*+301B; VI burax., II şöbə, s.20-28, kont.301B+318; IX burax., II şöbə, s.189-199, kont.301B; XXXV burax., II şöbə, s.80-85, kont.301; XLII burax., II şöbə, s.71-79, kont.301; s.84-101, kont.550+301B; Əlizadə (1929), s.113-130, kont. 2502*B+301; Azərb. nağ., I c., s.80-93, kont.318 (= Azərb. nağ. (2005), II c., s.69-82); II c., s.307-318, kont.590B*+303 (= Azərb. nağ. (2005), III c., s.236-247); III c., s.149-160, kont.2502*B+301 (= Azərb. nağ. (2005), IV c., s.128-140); s.190-200, kont.301 (= Azərb. nağ. (2005), IV c., s.169-179); s.262-268, kont.303 (= Azərb. nağ. (2005), IV c., s.221-226); Behrəngi, s.358-365, kont.318; İsmayılov, s.172-180, kont. 304+449; AKD, s.43-51, kont.301; Bayat, s.138-167, kont. 926C**+582*+531+302; DQ, 2004, № 4, s.123-135, kont.590; AFA, XIII c., s.302-303; XV c., s.286-287, kont.750B; XVI c., s.184-186, kont.650*; s.186-198, kont.301; Azərb. nağ. (2005), I c., s.111-114, kont.301 (= ATS, s.103-109); s.124-132, kont. 301B; Qarabağ, II kitab, s.206-217, kont.301B

**301 Oğurlanmış üç şahzadə qız.**

I. a) Qardaşlar növbə ilə alma ağacının keşiyini çəkirlər. Böyük qardaşları yuxu tutur, kiçik qardaş barmağını yarıb yarasına duz basmaqla oyaq qalır və almaları oğurlayan divi yaralayır. Qardaşlar qan izini təqib edərək divin yaşadığı quyuya rast gəlirlər.

II. Kiçik qardaş quyuya düşüb divi öldürür və oğurlanmış qızları xilas edir. Onları kəndirə bağlayıb yuxarı çıxardır. Qardaşları kiçik qıza sahib olmaq üçün kəndiri kəsib onu quyuya atırlar.

III. Qəhrəman Simurq quşunun balalarını yemək istəyən əjdahanı (ilanı) öldürür, əvəzində quşdan onu işıqlı dünyaya çıxartmasını istəyir. Yolda quşu bəsləmək üçün qırx tuluq su və qırx şaqqa ət götürür. Ətin bir şaqqası yerə düşdüyündən öz baldırının ətini kəsib quşa verir. Daha sonra quş dilinin altında saxladığı əti qəhrəmanın yarasına qoyub üstündən öz tüpürcəyini sürtməklə (qanadını çəkməklə) onun ayağını sağaldır. Süjet qəhrəmanın qardaşlarından qisas alması və kiçik qızla evlənməsi ilə tamamlanır.

SMOMPK, XIII burax., II şöbə, s.107-116; XX burax., II şöbə, s.26-27; XXXV burax., II şöbə, s.80-85, kont.300; Əlizadə (1929), s.113-130, kont.2502*B+300; Azərb. nağ., III c., s.149-160, kont.2502*B+300 (= Azərb. nağ. (2005), IV c., s.128-140); s.190-200, kont.300 (= Azərb. nağ. (2005), IV c., s.169-179); Axundov, I c., s.38-52, kont.531B*+329* (= DƏK, s.102-116); Qərb şivələri, s.266-267; Məcidov, s.221-226; AKD, s.43-51, kont.300; s.376-378; Azərb. nağ. (2005), I c., s.111-114, kont.300 (= ATS s.103-109); s.168-173, kont.305; AFK, IX c., s.99-102

**301B Güclü adam və onun yoldaşları.** a) Ayı dağda seyrə çıxmış sövdəgərin qızını qaçırdır və qız ondan uşağa qalır; yaxud b) naxırçı qəbiristanlıqdan təzə meyidləri oğurlayan halı tutur və onunla evlənir. Doğulan uşaq tez-tez öz həmyaşıdları ilə dalaşıb onları döyür. Uşaqların valideynləri ondan şikayətçi düşürlər, qəhrəman evi tərk etmək məcburiyyətində qalır. Yolda ona qeyri-adi gücə malik adamlar qoşulur. Növbə ilə yemək bişirirlər. Boyu bir qarış, saqqalı yeddi qarış saqqalının tükü ilə onun yoldaşlarının əl-qolunu bağlayıb bişirilən yeməklərin hamısını yeyir. Qəhrəman boyu bir qarışı saqqalından ağaca bağlayır, amma o, saqqalını qopardıb qaçmağı bacarır. Qəhrəman boyu bir qarışı təqib edərək onun yaşadığı quyuya rast gəlir. Süjetin ardı yuxarıdakı varianta uyğun inkişaf edir.

SMOMPK, III burax., II şöbə, s.112-118, kont.516D*+300; VI burax., II şöbə, s.20-28, kont.300+318; IX burax., II şöbə, s.189-199, kont.300; XLII burax., II şöbə, s.71-79, kont.300; s.84-101, kont.550+300; Azərb. nağ., II c., s.135-156, kont. 2540*+303 (Azərb. nağ. (2005), III c., s.110-131); V c., s.217-226; Tantəkin, s.115-124, kont.516D*+525*; Həkimov, s.190-207, kont.516D*; Əliyev-Xəlilov, s.42-55, kont.559+1406+661*; s.71-75; Bayat, s.224-229; AFA, XVI c., s.186-198; Azərb. nağ. (2005), I c., s.53-61, kont.516D*+525* (= ATS, s.155-167; = Azərb. nağ., II c., s.227-234); s.124-132, kont.300; AFK, IV c., s.264-273; Qarabağ, II kitab, s.206-217, kont.300; NFA, III c., s.118-126, kont.2527*+302

**301C*** Başqa bir şəhərdə evlənən padşah bir müddətdən sonra öz ölkəsinə qayıdır. Arvadına bazubənd verir ki, oğlu olarsa qoluna taxsın. Uşaq əsl atasının kim olduğunu öyrənib onu axtarmağa gedir. Atasının yanında sarayda işə düzəlir.

Divi öldürüb oğurlanmış qızı xilas edir. Qardaşları onun başını kəsib cəsədini quyuya atırlar. Dəviş ağzının tüpürcəyi ilə qəhrəmanı dirildir. Padşah qolundakı bazubənddən onun öz oğlu olduğunu tanıyır. Qəhrəman qardaşlarının günahından keçir, atasının yerinə taxta çıxıb ədalətli hökmdar olur.

Axundov, II c., s.207-213, kont.532

**301* Sehrli sandıq.** Yeddibaşlı div padşahın qızını oğurlayıb daş sandığın içinə salır və onunla evlənə bilmək üçün atasında icazə almağa gedir. Yolda çovğuna düşüb həlak olur. Çoban qızı xilas edir (Müqayisə et: AT 311*).

Əliyev-Xəlilov, s.113-117 (= AFA, XIV c., s.167-171)

**301** Oğurlanmış meyvə.** Göyərçin padşaha alma toxumu hədiyyə edir: onu yeyən xəstə şəfa tapır. Bağban toxumu əkir və meyvə yetişən vaxt bir div ağacın meyvəsini oğurlayır. Keçəl divi öldürür, onun qanını xəstə ağaca sürtür, ağac yenidən göyərir. Ağacın meyvəsindən yeyən padşah şəfa tapır.

AFK, IX c., s.103-105

**302 Divin canı göyərçindədir.** Qəhrəman oğurlanmış arvadını xilas etməyə gedir. Onun köməyi ilə divin canının yerini öyrənir, onu əldə edib divi öldürür.

SMOMPK, III burax., II şöbə, s.134-137, kont.530; VII burax., II şöbə, s.109-120, kont.590+2527* (= ATS, s.110-124); XIII burax., II şöbə, s.308-318, kont.304+316*; XXIV burax., II şöbə, s.260-265, kont.304+554; ATS s.195-205, kont.305+412; Axundov, II c., s.266-269, kont.530; İsmayılov, s.232-236; Əliyev-Xəlilov, s.277-284, kont.546*; Bayat, s.138-167, kont.926C**+582*+531+300; AFA, I c., №103; IX c., s.161-163, kont.516D*+525*; s.211-216, kont.530; Azərb. nağ. (2005), I c., s.189-191, kont.530; AFK, IX c., s.328-348, kont.

316*+554 (= Qarabağ, III kitab, s.163-182); NFA, III c., s.118-126, kont.2527*+301B

**302B* = SUS 302$_2$ Divin canı atdadır.** Qəhrəman arvadının köməyilə atın yerini öyrənir, onu əldə edib arvadını qaçırdır.

SMOMPK, XIII burax., II şöbə, s.107-126, kont.550; Azərb. nağ., II c., s.157-166, kont.530 (= Azərb. nağ. (2005), III c., s.132-141); AFK, VII c., s.222-235, kont.530; IX c., s.118-121

**302C* Qəfəsə salınmış div.** Qəhrəman qırxıncı otaqda qəfəsə salınmış divə su verir, div qolundakı zəncirləri qırıb onun arvadını qaçırdır. Qəhrəman oğurlanmış arvadını xilas etməyə gedir. Müxtəlif əşyalar tullamaqla divin təqibindən qaçırlar: Ülgüc divin ayağını kəsir, duz yaralarını göynədir, suyu atdıqda isə hər tərəf su olur və div suda boğulub ölür.

SMOMPK, VI burax., II şöbə, s.124-140 (= AS, s.108-127); Ağbaba folkloru, s.110-114, kont.408

**303 Daşa dönmüş qardaş.** a) Evi tərk etmiş qardaşlar iki yolayrıcına gəlib çıxırlar və üzüklərini dəyişib hərəsi bir yolla gedir. Qardaşlardan biri ağacın başında soyuqdan üşüyən qarıya rast gəlir. Qarı a) oğlundan məktub aldığını bəhanə edib onu oxuması üçün qəhrəmanı evinə aparır və onu daşa döndərir; yaxud b) böyük qardaşdan süpürgəni yerdən götürüb ona verməsini xahiş edir. Böyük qardaş süpürgəni götürmək istəyəndə onu daşa döndərir. O biri qardaş a) üzüyün qaşının qaraldığını, b) qardaşının adına əkilmiş ağacın başının saraldığını görüb onun təhlükədə olmasından xəbər tutur. Qarının sehrli çubuğunu (süpürgəsini) ələ keçirib onu dirildir.

Əlizadə (1937), s.418-426, kont.327A; Azərb. nağ., I c., s.94-111, kont.327A+538*+532+449 (= Azərb. nağ. (2005), II c., s.83-101); II c., s.135-156, kont.2540*+301B (= Azərb.

nağ. (2005), III c., s.110-131); s.307-318, kont.590B*+300 (= Azərb. nağ. (2005), III c., s.236-247); III c., s.262-268, kont.300 (= Azərb. nağ. (2005), IV c., s.221-226); Ağalı, s.71-72; AKD, s.34-43, kont.305; AFA, XII c., s.150-161, kont.516+1538B*+525* (= BYBQ, s.127-134);

**304 Ovçu.**

I. a) Qardaşlar növbə ilə atalarının qəbri üstündə keşik çəkirlər; kiçik qardaşın növbəsi zamanı qəbrin üstündəki şam sönür, onu yandırmaq üçün od əldə etməyə gedir; yaxud b) qəhrəman dayısının baş və ayaq tərəfindəki yanan şamların keşiyini çəkir; ayaq tərəfində yanan şam sönür, qəhrəman onu yandırmaq üçün od əldə etməyə gedir. Yolda qara yumağı yığıb ağ yumağı açan qoca ilə qarşılaşır və onun əl-qolunu bağlayır.

II. a) Divlərlə birlikdə şahzadə qızı oğurlamağa, yaxud b) quldurlarla birlikdə padşahın xəzinəsini yarmağa gedir. Divlər (quldurlar) saraya daxil olduqca bir-bir onların başını kəsir, daha sonra kiçik qızın yataq otağına daxil olub onun üzüyünü götürür. a) Həmin üzüyün köməyi ilə öz qəhrəmanlığını sübut edir; yaxud b) padşah yeddi yolayrıcında karvansara tikdirib orada gecələyənlərdən başlarına gələn əhvalatı soruşur. Bu yolla qəhrəman tapılır və padşahın qızı ilə evlənir.

SMOMPK, XIII burax., II şöbə, s.308-318, kont.316* +302; XXIV burax., II şöbə, s.260-265, kont.554+302; Qərb şivələri, s.267-272, kont.449; AKD, s.367-368; Behrəngi, s.248-254, kont.590B*; İsmayılov, s.172-180, kont.300+449; s.185-186; AFA, III c., s.332-344, kont.316*

**305 Şəhəri talan edən əjdaha.** a) Qardaşlardan biri qeyri-adi quşun başını, o biri isə ürəyini yeyir (Bax: 567); yaxud b) ögey ana qardaşlara böhtan atır, onlar evi tərk

edirlər. Böyük qardaş padşah seçilir. Kiçik qardaş şəhərə girmək istəyən əjdahanı öldürür. Pəhləvan (Qara pəhləvan, qələban və s.) kiçik qardaşı xəncərlə vurur, onu ölmüş bilib çaya atır və görülən işi öz adına çıxır. Axırda həqiqət üzə çıxır, yalançı qəhrəman cəzalandırılır.

SMOMPK, XXXV burax., II şöbə, s.101-105 (= AFA, VI c, s.195-198); ATS, s.189-194; s.195-205, kont.302+412; Axundov, II c., s.200-206, kont.412; İsmayılov, s.209-216, kont.412; AKD, s.34-43, kont.303; Əliyev-Xəlilov, s.75-77; Azərb. nağ. (2005), I c., s.168-173, kont.301

**311 Dərviş və üç bacı.**

I. Üç bacı bazara gedən atalarına sifariş verirlər: böyük bacı soğan qabığından paltar, ortancıl bacı zərqumaşdan çarğat, kiçik isə pişik almasını xahiş edir. Ata ortancıl və kiçik bacının istəyini yerinə yetirir, amma böyük bacının tapşırdığı soğan qabığından köynəyi tapa bilmir. Dərviş böyük bacının istəyini yerinə yetirəcəyinə boyun olur, əvəzində ata qızını ona ərə verməlidir.

II. Dərviş qıza adam ətindən qovurma verir, qovurmaları yemədiyi üçün onu saçından divara mıxlayır. Növbə ilə o biri bacılarla da evlənir. Kiçik bacı əti pişiyə yedirdir. Özüyeriyən sandıq düzəltdirir, onun içində gizlənib dərvişdən qaçır.

III. Dərviş qızı təqib edir. Saraya daxil olub onu öldürmək istəyir, hevanlar onu parçalayır.

Azərb. nağ., I c., s.121-129, kont.533 (= Azərb. nağ. (2005), II c., s.111-119); Behrəngi, s.334-338; AFA, I c., №80, kont.533; İsmayılov, s.265-272

**311A* Canavar və üç bacı.** Canavar növbə ilə üç bacı ilə evlənir, onlara qabdakı suya toxunmağı qadağan edir.

Qadağanı pozduqları üçün kiçik və ortancıl bacıları öldürür, böyük bacı qaçıb xilas olur.

AFA, V c., s.45-46

**312D Qardaşlar itmiş atalarını axtarırlar.** a) Dərviş övladı olması üçün padşaha alma verir, əvəzində doğulacaq uşaqlardan biri ona verilməlidir; padşah oğlunun yerinə özünün aparılmasını istəyir; yaxud b) ata divin yaşadığı məkandan qızıl oğurlamağa gedir, div onu yeyir. Atalarını axtarmağa gedən böyük qardaşlar həlak olurlar. Kiçik qardaş divi öldürüb atasının və qardaşlarının qisasını alır.

SMOMPK, VII burax., II şöbə, s.65-71, kont.530; XLII burax., II şöbə, s.56-65, kont.1530+1542B*; Əliyev-Xəlilov, s.202-206 (= AFA, XIV c., s.183-187); NFA, III c., s.243-244

**313* Qurddan qaçış.** Qurd bağa gəzməyə çıxmış qardaşları oğurlayır. Qardaşlar qurdun gözünü kor edib ondan qaçırlar. Yolda ayıya, küp qarısına rast gəlirlər: ayının gözlərinə qum səpirlər, qarıya altı ayaqlı, yeddi başlı pəhləvanın uşaqları olduqlarını deyirlər. Onlardan da xilas olub sağ-salamat evə qayıdırlar.

AFA, V c., s.65-66

**315A Adamyeyən qız.**

I. Oğlan bacısının adam yediyini görüb onu meşədə azdırır, yaxud özü evi tərk edir. Bir müddətdən sonra çəkmələrinin içini duzla (qumla) doldurub bacısına baş çəkməyə gedir. Bacısı onu yemək istəyəndə duz gözlərinə dolur, qəhrəman bundan istifadə edib evdən qaçır. Bacısının ona çatdığını görüb şəfdəli (çinar) ağacına çıxır və heyvanları köməyə çağırır. Aslanla Qaplan qızı parçalayırlar.

II. Qızın qanından bir damla yarpağın üstünə düşür; a) tülkü həmin qanı yaladığından yırtıcı heyvana çevrilir; yaxud

b) qəhrəman yarpağı cibinə qoyur və onun sayəsində mərci udur: tacirin yükünün ləl-cəvahirat və ya bitlə birə olduğunu deyir, tacir yükü ulaq qarışıq ona verir.

Şirəliyev, s.379-380; AFA, V c., s.49-50; XII c., s.120-121 (= BYBQ, s.48-49); XIII c., s.263-272; XVI c., s.224-225; Azərb. nağ. (2005), I c., s.192-193; AFK, VII c., s.125-128; Qarabağ, II kitab, s.187-195

**315* Gəlininə aşiq olmuş ata.** Ata oğlunu öldürüb gəlinini ələ keçirmək istəyir. Özünü xəstəliyə vurub oğlunu Səməndər gülünü, rəml almasını gətirməyə göndərir. Qəhrəman Simurq quşunun köməyi ilə tapşırıqları yerinə yetirir, atasını öldürüb onun yerinə taxta çıxır.

Azərb. nağ., IV c., s.88-101 (= Azərb. nağ. (2005), V c., s.87-100);

**316* = AT 303A On bir qardaş üçün on bir bacı.** a) On bir qardaş evlənmək üçün on bir bacı axtarır; yaxud b) altı qardaş evlənmək üçün altı bacı axtarır. Yolda qadağan olunmuş evdə və ya uçmuş binada gecələyirlər. Div kiçik qardaşı oğurlayır və onu a) sehrli üzüyü gətirməyə göndərir; qəhrəman üzüyün köməyi ilə ondan xilas olur; b) Mədinələr mədinəsinin qızını gətirməyə göndərir; qəhrəman heyvanların köməyi ilə nikah tapşırıqlarını yerinə yetirir və qızı əldə edib geri qayıdır (Bax: 554); c) Qara divin bağında bitən almanı gətirməyə göndərir. Qəhrəman Zümrüd quşunun balalarını yemək istəyən əjdahanı öldürür, əvəzində quş onu divin yaşadığı məkana gətirir. Pəri qızın cildini oğurlayır, onun köməyi ilə divi öldürüb almanı əldə edir.

SMOMPK, XIII burax., II şöbə, s.308-318, kont.304+302; XXVI burax., II şöbə, s.206-213; Azərb. nağ. (2005), I c.,

s.204-207 (= ATS, s.340-347); AKD, s.92-99; AFA, I c., №77, kont.554; III c., s.332-334, kont.304; AFK, IX c., s.328-348, kont.554+302 (= Qarabağ, III kitab, s.163-182)

**317* Qəhrəman göyün altıncı qatına çıxıb qızı divdən xilas edir.** Qəhrəman göyün altıncı qatında Kağal divin əsirliyində olan Bilqeys Yəmənə aşiq olur. Tora düşmüş balıqlar padşahının oğlunu dəryaya buraxır, əvəzində balıqlar padşahı ona Becanın qılıncını, Kəyumərsin qalxanını və qeyri-adi at hədiyyə edir. Qəhrəman onların köməyi ilə Kağal divi öldürüb Bilqeys Yəməni xilas edir və onunla evlənir.

İsmayılov, s.236-243; Bayat, s.38-52; AFA, IX c., s.201-206; AFK, VIII c., s.70-97

**318 = AT 302B, 516B Qəhrəmanın canı döşündəki damarda olur.**

I. a) Qəhrəman şəkildə gördüyü qıza aşiq olur. Qızın yaşadığı sarayın açarı damın üstündə uçan quşun boynundan asılmış olur. Qəhrəman oxla quşu vurub açarı əldə edir və qızı qaçırdır, onunla evlənir; yaxud b) qəhrəman qızılsaçlı qızla evlənir. a) Külək qızın ipə sərilmiş alt paltarını aparır; yaxud b) su onun başının tükünü padşahın bağına gətirib çıxarır. Qıza aşiq olan padşah onu qaçırtması üçün küpəgirən qarıya özü ağırlığında qızıl boyun olur.

II. a) Qəhrəmanın canı onun döşündəki damarda olur; yaxud b) nə qədər ki ayağı torpaqdadır, heç kimin ona gücü çatmır. a) Qarı damarı ələ keçirib çaya atır; yaxud b) qəhrəmanın ayağını torpaqdan üzüb gücdən salır və onun arvadını qaçırdır.

III. a) Damar çaydan tutulan balığın qarnından çıxır, onu döşündəki yarığa qoyduqda qəhrəman yenidən dirilir; ya-

xud b) qəhrəman ayağını torpağa basdıqda onun gücü özünə qayıdır. Padşahı öldürüb arvadını xilas edir.

SMOMPK, VI burax., II şöbə, s.20-28, kont.301+300; XXIV burax., II şöbə, s.139-148; Azərb. nağ., I c., s.80-93, kont.300 (= Azərb. nağ. (2005), II c., s.69-82); Seyidov, s.51-58, kont.538*; Behrəngi, s.358-365, kont.300; AFK, I c., s.256-263; II c., s.110-119

**318A* Qəhrəmanın gücü onun atındadır:** Padşah qəhrəmanın arvadını ələ keçirmək üçün onun üstünə qoşun göndərir. Nə qədər ki qəhrəman atın başını arxaya çevirməyib padşahın qoşunu onlara bata bilmir. Qəhrəman atın başını arxaya döndərən kimi altındakı at qatıra çevrilir. Padşahın adamları onun əl-qolunu bağlayır, qızı və atı əsir alıb aparırlar. Qəhrəman arvadının aparıldığı şəhərə gəlir, özünü mehtər kimi qələmə verib atı ələ keçirir və arvadını qaçırır.

Əliyev-Xəlilov, s.124-130, kont.552A (= AFA, XIV c., s.171-178); AFA, XVI c., s.233-235

**325 Oxxay.**

I. Oxxaya şagirdliyə verilən qəhrəman ondan müxtəlif cildə düşmək sənətini öyrənir. Bir ildən sonra onu imtahan edəndə heç nə bilmədiyini deyir və Oxxay onu azad edir.

II. Ata müxtəlif heyvan cildinə girmiş oğlunu bazarda satır, amma heyvanın başının ipini (yüyənini və ya ovsarını) özündə saxlamalıdır. Oğlunun tapşırığını unudan ata atı yüyən qarışıq Oxxaya satır. Qəhrəman Oxxayın qızının köməyi ilə ondan xilas olur və müxtəlif cildə düşməklə təqibdən qaçır: qəhrəman quş cildinə girir, Oxxay çalağana dönüb onu təqib edir; qəhrəman darıya çevrilir, Oxxay toyuq olub darını dənləməyə başlayır. Qəhrəman tülküyə çevrilib Oxxayı parçalayır.

SMOMPK, VII burax., II şöbə, s.110-118; Azərb. nağ., IV c., s.202-214 (= Seyidov, s.19-29; = Azərb. nağ. (2005), V c., s.204-216); Təhmasib (1941), s.130-137; Şirəliyev, s.390-391; AFK, I c., s.82-89; AFA, XVIII c., s.122-125, kont.560D*

**325A* Sehrbazlıq sənəti.** Naxırçının oğlu padşahın qızına elçi düşür, əlində sənəti olmadığından padşah qızını ona vermir. Axvaya şagirdlik edən oğlan ondan sehrbazlıq sənətini öyrənir. Süjetin ardı yuxarıdakı varianta uyğun inkişaf edir.

SMOMPK, XLII burax., II şöbə, s.151-156; Behrəngi, s.267-273; İsmayılov, s.187-192; Azərb. nağ. (2005), I c., s.62-70 (= ATS, s.249-265)

**326 Gənc qorxunun nə olduğunu bilmək istəyir.**

I. Keçəl hamama mıx çalacağına dair lotularla mərcə girir və orda məskən salmış pəri qızın corabının bir tayını ələ keçirir. Coraba gözü düşən baqqal onu ələ keçirmək üçün keçələ böhtan atır: keçəlin onun qırx cüt corabını oğurladığını deyir. Keçəl yoldaşlarını girov qoyub corabın o biri tayını gətirməyə gedir.

II. Keçəl suyun qabağını kəsmiş pəri qızın sırğasını, qalaçada yaşayan pəri qızın üzüyünü ələ keçirir. Pəri qızların söhbətini eşidir və həmin əşyaların onlara məxsus olduğunu öyrənir. Kiçik qızla evlənir, corabın o biri tayını əldə edib yoldaşlarını xilas edir.

SMOMPK, XIX burax., II şöbə, s.242-261, kont.550; Axundov, II c., s.32-38, kont.550; AKD, s.370-371; Azərb. nağ. (2005), I c., s.34-52, kont.465C (= ATS, s.382-407; = Azərb. nağ., V c., s.82-96)

**327A Özünü başqası ilə əvəz etmə.** Dərviş padşaha övladı olması üçün alma verir, əvəzində doğulan uşaqlardan

birini özünə götürür. Onu təndirə salıb yandırmaq istəyir. Kəllə qəhrəmanı dərvişin niyyətindən xəbərdar edir və ondan xilas olmağın yolunu göstərir. Qəhrəman özünü naşılığa vurur və dərvişdən ilk kündəni təndirə yapmasını xahiş edir. Dərviş kündəni yapmaq üçün əyiləndə onu təndirə salıb ağzını tiyanla örtür.

SMOMPK, III burax., II şöbə, s.118-124, kont.538*+532; XIII burax., II şöbə, s.99-107, kont.532+538*; Əlizadə (1937), s.418-426, kont.303; Azərb. nağ., I c., s.94-111, kont.538* +532+303+449 (= Azərb. nağ. (2005), II c., s.83-101); V c., s.232-255, kont.538*+532 (= Azərb. nağ. (2005), IV c., s.286-309)

**327B Qardaşlar qarının evində.** Şəhəri tərk edən qardaşlar bir qarının evində gecələyirlər. Gecə qarının qızları ilə paltarlarını və ya yerlərini dəyişirlər, qarı onların yerinə öz qızlarını öldürür. Qardaşlar qaçıb xilas olurlar.

Azərb. nağ., III c., s.217-222, kont.531 (= Azərb. nağ. (2005), IV c., s.196-201); V c., s.121-124, kont.507C (= Axundov, II., s.321-324); Çəmənzəminli, III c., s.51-56, kont.328

**327C Darının nağılı.** Arvad övladı olması üçün altına darı tökür, səhər yuxudan durduqda darılar uşağa çevrilmiş olur. O qədər uşağın öhdəsindən gələ bilməyən arvad onları ocağa atıb yandırır. Uşaqlardan biri xilas olur. Alma ağacından oğurluq etdiyi üçün div onu tutub torbaya salır. Qəhrəman torbadan çıxıb divin keçisi ilə quzusunu ora salır, div qarısını peçə atır. Heyvanların qarşısındakı yemi dəyişir, onların köməyi ilə qaçıb xilas olur.

AFA, XII c., s.186-188; XIII c., s.256;

**327D Cırtdan.** Uşaqlar meşəyə odun yığmağa gedirlər, qaranlıq düşdüyündən yollarını azıb divin yaşadığı məkana

gəlirlər. Cırtdan divə qayğanaq bişirtdirir, onu xəlbirdə su gətirməyə göndərir. Divə boyunlarına dəyirman daşı keçirib çayı keçdiklərini deyir. Div çayı keçmək istəyəndə suda boğulub ölür.

Azərb. nağ. (2005), I c., s.296-298 (= ATS, s.474-477; = Azərb. nağ., V c. s.79-81); AKD, s.175-177

**327D*** Dərviş övladı olması üçün padşaha alma verir, əvəzində doğulan uşaqlardan birini özünə götürür. Qəhrəman müxtəlif əşyalar tullamaqla ondan qaçır. Boyunlarından dəyirman daşı asıb çaydan keçdiklərinə dərvişi inandırır. Dərviş suda boğulub ölür.

SMOMPK, XXIV burax., II şöbə, s.152-175, kont. 538*+532; AFA, X c., s.156-162, kont.882

**328 Caccı.** Padşahın tapşırığı ilə div qarısının qızıl qaşığını, tazısını, kürsülərini, axırda isə özünü oğurlayıb gətirir.

Çəmənzəminli, III c., s.51-56, kont.327B

**329* Gizlənpaç oyunu.** Şeytan üç dəfə müxtəlif cildə girir: çöpə çevrilib quşun qanadları arasında gizlənir və s. Qəhrəman atın köməyi ilə onu tapır. Gizlənmək növbəsi qəhrəmana çatır, şeytan onu tapa bilmir.

Axundov, I c., s.38-52, kont.301+531B*

**332 Əzrayılın kirvəliyi.** Kasıb oğluna kirvə axtarır, amma yoxsul olduğundan heç kim ona kirvəlik etmək istəmir. Əzrayıl kirvə olmağa razılıq verir. Kasıb onun məsləhəti ilə həkimlik edir: Əzrayıl hansı xəstənin ayaq tərəfində durursa, onu sağaldıb haqqını alır. Əzrayıl axırda kasıbın öz canını almağa gəlir, ona kəlmeyi-şəhadətini deməsi üçün möhlət verir. Kasıb kəlmeyi-şəhadətinin yarısını deyib, yarısını saxlayır. Allah onun ömrünü uzadır.

Hüseynzadə, s.9-12, kont.1199; Tantəkin, s.26-30, kont. 1199; Ağbaba folkloru, s.169-170; AFA, XII c., s.218-219 (= BYBQ, s.8-9); XIII c., s.301-302; AFK, VII c., s.345-346; Qarabağ, I kitab, s.225-226, kont.670****+751C; s.228

**332B = AT 332B* Allah ayrıseçkilik edir:** bəzilərini varlandırır, bəzilərini kasıblaşdırır, amma Əzrayıl heç kimə fərq qoymur. Ona görə də kasıb çörəyini Allahla deyil, Əzrayılla paylaşır.

AFA, XIII c., s.212-213, kont.1199

**335** = 294* nömrəsində verilib.

**337* Qız və dərviş.** Dərviş arvadını meymunla yaxınlıq etməyə təhrik edir və ondan olan uşağın başını kəsib onun yağı ilə adamları qızıla döndərir. Yağdan arvadının yeməyinə qatıb onu da qızıla döndərmək istəyir. Ərinin niyyətini anlayan arvad qabı fırlayır, yeməyin yağlı tərəfi onun qabağına düşür. Dərviş yeməkdən yeyib qızıla dönür.

Azərb. nağ., II c., s.23-59, kont.663*+550 (= Azərb. nağ. (2005), III c., s.24-61); Behrəngi, s.254-262, kont.400*B+ 400*C+449; Azərb. nağ. (2005), I c., s.158-163, kont.800*B+ 1137+400*B (= ATS, s.227-236; = Axundov, II c., s.237-241); AFK, IX c., s.114-117

## 400-459. Sehrli ər (arvad, yaxud başqa qohum)

**400 Ər itmiş arvadını axtrır.** Kiçik qardaş a) qurbağa (meymun və s.) cildinə girmiş qızla evlənir; yaxud b) göldə çimən pəri qızlardan kiçiyinin cildini oğurlayıb onunla evlənir. Qız cildini ələ keçirib öz ölkəsinə qayıdır. Qəhrəman

ayağına dəmir çarıq geyinib, əlinə dəmir əsa alıb onu axtarır. a) Divləri aldadıb onların sehrli əşyalarını – uçan xalça və sehrli papağı ələ keçirir, həmin əşyaların köməyi ilə arvadını tapır; yaxud b) qara ilanla döyüşdə ağ ilana kömək edir: qara ilanı sağ gözündən vurub öldürür, əvəzində ilanlar padşahı onu Süleyman peyğəmbərin yanına gətirir. Süleyman peyğəmbərdən İrəm bağının yerini öyrənən qəhrəman sehrli əşyaların köməyi ilə arvadını xilas edir.

SMOMPK, IX burax., II şöbə, s.94-102, kont.402+449; ATS, s.355-372, kont.936+485A; Əlizadə (1929), s.76-80, kont.936; Azərb. nağ., I c., s.130-147, kont.936 (= Azərb. nağ. (2005), II c., s.120-137); IV c., s.215-228, kont.402+546* (= Azərb. nağ. (2005), V c., s.217-230); Kərimov, s.370-372, kont.936; İsmayılov, s.243-246, kont.936; s.251-254; AKD, s.27-34, kont.402+936; AFA, XII c., s.121-130, kont.402+449; Azərb. nağ. (2005), I c., s.141-146, kont.402+449; AFK, I c., s.256-263; IX c., s.106-108, kont.402; Qarabağ, III kitab, s.191-196

**400*A Pəri qız qayınanasının yasında qəribə hərəkətlər edir.**

I. Qəhrəman a) bulaq başında gördüyü qızla evlənir; b) hər gün qapıları önündən keçən qızın yaxasına iynə sancıb onunla evlənir; c) ağ ilanla dalaşan qara ilanı öldürür, ağ ilan cildini çıxarıb gözəl bir qıza çevrilir və onunla evlənir.

II. Qız toyda ağlayıb yasda gülür, qayınanası öləndə atılıb yükün üstündə oturur, cənazə aparılanda əlini əlinə vurub gülür. Etdiyi hərəkətlərin səbəbini izah edib qeybə çəkilir.

Behrəngi, s.339-347, kont.994**+1645A+449; BYBQ, s.135-136; Bayat, s.188-200, kont.878*B+987*+456*; İsma-

yılov, s.15-16 (= Ağbaba folkloru, s.166-167; = AFA, III c., s.48-49); s.19-20 (= Ağbaba folkloru, s.156-158; = AFA, III c., s.55-56); AFA, V c., s.216-217; XVI c., I mətn, s.315-316; II mətn, s.316; Axısqa folkloru, s.34-35; Qarabağ, I kitab, s.187-188; III kitab, s.203-206; s.206-208

**400*B Qəhrəman evləndiyi qızdan etdiyi hərəkətin səbəbini soruşmamalıdır.**

I. a) Qız hər gün göyərçin cildində bacadan daxil olub evi silib-süpürür, yemək bişirir; yükün dalında gizlənmiş qəhrəman qızın cildini ələ keçirib onunla evlənir; yaxud b) qəhrəman qarının sualına cavab verir: eyni sifətdə və eyni geyimdə olan qızlardan hansının xanım, hansının qulluqçu olduğunu tapır və xanım qızla evlənir.

II. Qəhrəman qızdan etdiyi hərəkətin səbəbini soruşmamalıdır. İki övladı olur, qız onların birini təndirə, o birini isə çaya atır. a) Qəhrəman özünü saxlaya bilməyib yoldaşından nə üçün belə etdiyini xəbər alır və o, qeybə çəkilir; yaxud b) onu qarğadığı üçün qızı ilan çalır.

Axundov, II c., s.301-311, kont.994**+738+733*+449; Behrəngi, s.254-262, kont.337*+400*C+449; Əliyev-Xəlilov, s.242-248, kont.841A*+400*D; İsmayılov, s.195-203, kont. 956*B+509*+938C* (= AFA, III c., s.268-276); İslamov, s.213-216, kont.994**+449+733* (= AFA, IV c., s.199-202); Azərb. nağ. (2005), I c., s.158-163, kont.800*B+1137+337* (= ATS, s.227-236; = Axundov, II c., s.237-241)

**400*C Digər qadağalar.** Qəhrəman pəri qızla evlənir, qız ona a) qurşaqdan aşağı toxunmağı və yaxud əlini kürəyinə toxundurmağı qadağan edir; b) doğulan uşağı əlinə almağı qadağan edir; c) qonaqlar nə qədər yesə də, «bəsdir» deməyi

qadağan edir; d) nə etsə də, əri ona hirslənməməlidir. Qadağa pozulur, qız qeybə çəkilir.

SMOMPK, XXI burax., II şöbə, s.27-51, kont.456*+910B*+893; Axundov, II c., s.195-199, kont.989*+836F; Behrəngi, s.254-262, kont.337*+400*B+449; AFA, XVI c., s.231-233, kont.449+839*A

**400*D Balıq qız.** Torçunun dəryadan tutduğu balıq cildini çıxarıb gözəl bir qıza çevrilir, torçu onunla evlənir. Qayınanası onunla yola getmədiyi üçün qız qeybə çəkilir.

Əliyev-Xəlilov, s.242-248, kont.841A*+400*B

**402 Gəlinlərin sınanması.**

I. a) Padşah hər bir oğlunun adına bir alma atır: alma hansı evin bacasından içəri düşsə, o evin qızını oğluna almalıdır; yaxud b) qardaşlar ox atırlar, kiçik qardaşın qismətinə qurbağa (meymun) düşür.

II. a) Padşah gəlinlərinə onun üçün atres parçadan paltar tikmələrini tapşırır; kiçik gəlin tapşırığı digər gəlinlərdən daha yaxşı yerinə yetirir. b) Padşah şənlik düzəldir və gəlinlərini qonaq çağırır; kiçik gəlin oynayanda sol qolundan qızıl, sağ qolundan gümüş tökülür və ya qollarından mirvari tökülür.

III. Kiçik qardaş paltosunun yaxalığında gizli cib düzəldib arvadının donunu orada gizləyir. Böyük qardaşlar donu yandırır, qız qeybə çəkilir.

SMOMPK, VI burax., II şöbə, s.141-155, kont.465C; IX burax., II şöbə, s.94-102, kont.400+449; Baqri, I c., s.30-33; III c., s.57-65, kont.465C; Azərb. nağ., V c., s.215-228, kont.400+546* (= Azərb. nağ. (2005), IV c., s.217-230); AKD, s.27-34, kont. 400+936; Əliyev-Xəlilov, s.248-256, kont.465C; AFA IX c.,

s.170-177; XII c., s.121-130, kont.400+449; Azərb. nağ. (2005), I c., s.141-146, kont.400+449; AFK, IX c., s.106-108, kont.400

**407 Qız gülə çevrilir.** Kim onu tapsa, ona ərə gedəcəyini elan edir. Baxçada bir gülün üstünə şeh düşməmiş olur, qəhrəman həmin əlamət sayəsində qızı tapır və onunla evlənir.

AFA, XVI c., s.389-393, kont.1060

**408 Əməmxiyar qızı.**

I. a) Qarı səhəngini sındırdığı üçün padşahın oğlunu qarğayır: «Səni görüm Gah-gah dağında üç xiyara aşiq olasan»; yaxud b) kişi yuxusunda gördüyü qıraların (nar qızının) dalınca gedir.

II. Qəhrəman xiyarları (narı, qıraları və s.) əldə edir; a) onların ikisini su olmayan yerdə kəsir, xiyarın içindən çıxan qızlar ölür; üçüncü xiyarı bulaq başında kəsir; yaxud b) iki narın içində heç nə olmur, üçüncü nardan gözəl bir qız çıxır. Qəhrəman qızı ağaca çıxarıb onun üçün paltar gətirməyə gedir. Qulluqçu (qaraçı qız) xiyarın içindən çıxmış qızı suya itələyib özü onu yerində oturur və şahzadə ilə evlənir.

III. Əsl gəlin bənövşəyə (gülə və s.) çevrilir; oğlan a) bənövşələri yola səpə-səpə gəlir və sonuncu bənövşəni sarayın önündə yerə atır; həmin bənövşə sərv ağacına çevrilir; yaxud b) gülləri dərib arvadına hədiyyə edir, arvadı onları pəncərədən çölə atır, gülün biri çinar ağacına çevrilir. Yalançı gəlin ağacı kəsdirib uşağı üçün beşik düzəltdirir. Qarı ağacın bir tilişkəsini evinə gətirir, həmin tilişkə yenidən qıza çevrilir.

IV. Əsl gəlin başına gələn əhvalatı a) səbr daşı və qın bıçağına danışır; yaxud b) paltar toxumaq üçün saraya çağrılır; paltar toxuya-toxuya mahnı oxuyur; qapının arxasından qulaq asan şahzadə mahnının sözlərindən onun əsl gəlin oldu-

ğunu müəyyən edir və onunla evlənir. Yalançı gəlin a) xam qatırın quyruğuna bağlanılır və ya b) saraydan qovulur.

Behrəngi, s.347-353; Tantəkin, s.101-115; AKD, s.149-157; s.368-370, kont.432; Əliyev-Xəlilov, s.156-159; s.190-199; Ağbaba folkloru, s.110-114, kont.302C*; AFA, I c., №83; IX c., s.236-239; Azərb. nağ. (2005), I c., s.105-110 (= ATS, s.95-102; = Azərb. nağ., III c., s.116-120)

**408B*** Padşah öz dəsmalını evlənəcəyi qıza göndərir və onu yuyub suyunu həyətə tökməyi tapşırır. Qonşu qız suyu oğurlayıb öz həyətlərinə tökür, həmin yerdə qızıl gül kolu bitir. Padşah onunla evlənir. Əsl gəlin göyərçinə, ağaca və s. çevrilir. Axırda həqiqət üzə çıxır, yalançı gəlin cəzalandırılır.

SMOMPK, XXVI burax., II şöbə, s.173-180

**409 Canavar arvad.** Oğlan qardaşı arvadını pusur, onun hər gecə canavar cildinə düşüb adam yediyini görür və qardaşını bundan xəbərdar edir. Arvadın cildini ələ keçirib yandırırlar, arvad adamcıllıqdan çıxır.

AFA, I c., №26; Ağbaba folkloru, s.165-166

**409A Qarpız qız.** Padşah dərviş verən almanı ortadan bölüb bir üzünü özü yeyir, bir üzünü arvadına verir. Doqquz aydan sonra onların qarpız şəklində bir qızları olur. Qız çay kənarında qabığından çıxıb paltarı yuyanda tacirin oğlu onu görür və qıza aşiq olur. Qız tacirin oğlu ilə evlənir və nikah gecəsi cildini çıxardır. Qayınanası cildi yandırır, saçına düşən qığılcımdan qız da alışıb yanır.

İsmayılov, s.228-232 (= Ağbaba folkloru, s.128-133; = AFA, VIII c., s.199-203); AFA, XIV c., s.160-163

**410 Yatmış gözəl.** Dərviş verən qozdan padşahın bir qızı olur. Uşağa xeyir-dua vermək üçün padşah hamını saraya

yığır, amma yaman pəriləri çağırmır. Pərilərdən biri qızın böyüyəndə barmağına iynə batacağını və bütün məmləkətin yuxuya gedəcəyini xəbər verir. Onun dediyi gercəkləşir: cadugər bütün şəhəri yuxuya verir. Təsadüfən həmən şəhərə gələn qəhrəman saraya daxil olub qızı öpür və şəhər dirilir.

İsmayılov, s.261-264

**410A* = AT 410* Bəni-daş şəhəri.** Qəhrəman bəni-daş şəhərinin sirrini öyrənməyə gedir. Qırx gün, qırx gecə kitab oxuyub şəhəri daşdan xilas edir.

Əliyev-Xəlilov, s.109-113, kont.465E*

**410* = SUS 413* Tilsimlənmiş şəhər.**

*I. Balıqların sirri.* Torçu şüşəyə salınmış ifritəni xilas edir, əvəzində ifritə ona qeyri-adi balıqların yaşadığı gölün yerini nişan verir. Torçu göldən tutduğu balıqları padşaha hədiyyə aparır. Aşbaz balıqları bişirmək istədikdə divar yarılır və oradan əli çubuqlu bir arvad çıxır; əlindəki çubuğu tavaya vurur, balıqlar qeybə çəkilir. Padşah balıqların sirrini öyrənmək məqsədilə onların tutulduğu gölün sahilinə gəlir, orada qurşaqdan aşağısı daşa dönmüş bir insanla qarşılaşır.

*II. Daşa dönmüş insanın əhvalatı.* Arvad hər gecə ərini yuxuya verib aşnası ilə görüşə gedir. Padşah arvadını təqib edir və onun aşnasını ölümcül yaralayır. Arvad aşnasının istəyi ilə şəhəri gölə, ərini isə qurşaqdan aşağı daşa döndərir. Həmin şəhərin sirrini öyrənmək məqsədi ilə ora gəlmiş qəhrəman arvadı öldürüb şəhər əhlini tilsimdən qurtarır.

SMOMPK, XXI burax., II şöbə, s.18-26, kont.514; ATS, s.319-324, kont.1426+895*+567; Azərb. nağ., II c., s.119-126, kont.514 (=Azərb. nağ. (2005), III c., s.94-101); IV c., s.102-110, kont.514 (= Azərb. nağ. (2005), V c., s.101-

110); Axundov, II c., s.220-225, kont.514; Borçalı folkloru, s.15-20; s.58-62, kont.514; Bayat, s.179-187

**411 Əjdaha qız.** Qəhrəman insan donuna girmiş ilanla və ya əjdaha ilə evlənir, arvadının nəfəsi onu gündən-günə zəiflədir. Dərvişin məsləhəti ilə arvadının yeməyinə çoxlu duz qatır və evdəki bütün suları boşaldır. Arvad susuzluğunu yatırmaq üçün su axtarır, tapa bilmədikdə ilana çevrilir. Qəhrəman arvadının cildini və ya onun özünü təndirə (ocağa) atıb yandırır.

Baqri, I c., s.46-48; Azərb. nağ., IV c., s.229-236, kont.425 (= Azərb. nağ. (2005), V c., s.231-238); Ağayev, s.176-182, kont.561; Ağbaba folkloru, s.158-159; DQ, 2005, №4, s.173-176; AFK, II c., s.56-67; IX c., s.122-126

**411* İlana çevrilmiş qız.** Ata qızının sevdiyi oğlanla evlənməsinə razılıq vermir. Qız ilana çevrilib istədiyi oğlanın belinə sarılır və onunla evlənir. Ondan bir oğlu olur, axırda cildini çıxarıb insana çevrilir.

Ağbaba folkloru, s.159-162 (= AFA, III c., s.50-52)

**412 Tilsimlənmiş qız.**

I. a) Qardaşlar atalarının gözünə dərman deyilmiş balığı dəryaya buraxdıqları üçün evdən qovulurlar; yaxud b) qardaşlardan biri qeyri-adi quşun başını, digəri isə ürəyini yeyir; analarının ögey atanın istəyi ilə onları öldürmək istədiyini öyrənib evi tərk edirlər. Bir-birindən ayrı düşürlər. Böyük qardaş padşah seçilir, kiçik isə halvaçı dükanında şəyird işləyir.

II. Padşahın qızı a) özünü lal tutuquşuna tilsimbənd edir: tutuquşu hansı elçiyə dillənsə, ona ərə gedəcək; yaxud b) özünü göy muncuqla əjdahaya tilsimbənd edir. Kiçik qardaş tilsimi sındırıb qızla evlənir. Cuhud (tacir) onu dəryaya atıb qızı qaçır-

dır. Qəhrəman padşah seçilən qardaşının köməyi ilə qızı xilas edir. Cuhud cəzalandırılır: dəli qatırın quyruğuna bağlanılır.

ATS, s.195-205, kont.305+302; Azərb. nağ., I c., s.269-290, kont.2530* (= Azərb. nağ. (2005), II c., s.246-268); II c., s.127-134 (= Azərb. nağ. (2005), III c., s.102-109); Axundov, II c., s.200-206, kont.305; AKD, s.275-291; İsmayılov, s.209-216, kont.305, AFA, IX c., s.146-150; s.181-184; XV c., s.283-284; XVI c., s.351-356

**413 Qəhrəman göyərçin cildinə girmiş pəri qızla evlənir.** Üç qardaş qazanc məqsədi ilə evi tərk edir və üç yolayrıcına çıxırlar. Böyük qardaşlar gedər-gələr, kiçik qardaş gedər-gəlməz yolla gedir. Kiçik qardaş bir qarının evində gecələyir. Qarının qadağasına baxmayaraq, işıq gələn tərəfə gedir və pəri qızların yaşadığı qalaçaya rast gəlir. Onlar üçün hazırlanmış yeməyi yeyir. Kiçik bacı onu tutur. Kiçik qardaş pəri qızları onunla getməyə razı salır və böyük bacıları böyük qardaşlarına alır, kiçik bacı ilə özü evlənir.

Əliyev-Xəlilov, s.21-28

**425 İtmiş ərin axtarılması.** İlan kiçik bacı ilə evlənir və nikah gecəsi cildini çıxarıb gözəl bir oğlana çevrilir. Qız böyük bacılarının təhriki ilə ərinin cildini yandırır, oğlan qeybə çəkilir. Ərini axtarır. Qulluqçu qızın səhənginə üzüyünü atır, əri suyu içəndə üzüyü görüb arvadının gəlməsindən xəbər tutur. Müxtəlif əşyalar (ülgüc, duz və su) tullamaqla təqibdən qaçırlar.

Azərb. nağ. IV c., s.229-236, kont.411 (= Azərb. nağ. (2005), V c., s.231-238); AFA, IX c., s.156-158

**425D Həsən Yusif.** a) Əmioğlu əmiqızı kiçik yaşlarından bir-birinə beşikkərtmə edilir, nikah gecəsi oğlan qeybə çəkilir. Yaxud b) padşah yeni doğulan oğlunu altı ay qucaqda

saxlamalıdır; qadağanı pozduğu üçün uşaq qeybə çəkilir. Qız onu axtarır. Yeddi yolayrıcında imarət tikdirib gəlib-gedəndən başına gələn əhvalatı soruşur, bu yolla oğlanın yerini öyrənib onu xilas edir.

Azərb. nağ., IV c., s.68-87, kont.467 (= Azərb. nağ. (2005), V c., s.66-86); Behrəngi, s.329-333

**425L Oğlanın qoltuğunun altındakı pərdə:** Kiçik bacı atasına saçına sancmaq üçün gül almasını tapşırır. Gül sahibi qızın arzusunu yerinə yetirəcəyinə söz verir, əvəzində ata kiçik qızını ona ərə verməlidir. Qız xalasının məsləhəti ilə barmağını yarıb yarasına duz qoyur və ərinin gözəl bir oğlan olduğunu öyrənir. Ərinin qoltuğunun altındakı pərdəni qopardır, oğlan ölür. Sehrli yağı ərinin qoltuğunun altına sürtməklə onu dirildir.

Behrəngi, s.385-391, kont.956*D+433B+449A*

**425M* İlanın arvadı.** Kiçik bacı ilanla ailə qurur və uşaqlarını götürüb valideynlərinə baş çəkməyə gedir. Böyük bacılar onu çaya (quyuya) atırlar. Quyudan qamış cücərir. Böyük bacılar qamışı yandırır, onun külündən çinar əmələ gəlir. Çinarı kəsirlər, onun tilişkəsi yenidən qıza çevrilir. Qız başına gələn hadisəni sirr daşı ilə mərmər bıçağına (nar ilə inci boyunbağıya) danışır. Qapının arxasından onu pusan əri həqiqəti öyrənir və böyük bacıları cəzalandırır.

AFA, XIII c., s.274-278; NFA, III c., s.138-140

**425N Quşpaşa.** Padşahın qızı ilə evlənir və hər gecə ona şərbət içirdib yuxuya verir. Qız anasının məsləhəti ilə sinəsinə pambıq qoyur və şərbəti ağzının qırağı ilə həmin pambığın üstünə axıdır. Özünü yuxuluğa vurur, ərinin cildini çıxarıb gözəl bir oğlana çevrildiyini görür. Sirri açıldığı üçün oğlan onu evdən qovur, sonradan peşman olub qızla barışır.

AFA, I c., №99

**425Q* Pəriyə aşiq olmuş oğlan.** Oğlan növbə ilə üç bacı ilə evlənir, amma onlarla kəlmə kəsmir: hər səhər evi tərk edib gecə evə qayıdır. Böyük bacılar ondan boşanır. Kiçik bacı ərini təqib edir, onun bir pəriyə aşiq olduğunu görür. Pəri oğlanın evli olduğunu bilib onu tərk edir, oğlan ondan sonra arvadının yanına qayıdır.

Ağbaba folkloru, s.102-104

**428 Div qarısının qulluğunda.**

I. Qız ilanla evlənir. İlan nikah gecəsi cildini çıxarıb gözəl bir oğlana çevrilir. Bacılarının təhriki ilə ərinin cildini yandırır, oğlan qeybə çəkilir.

II. Qız ayağına dəmir çarıq geyinib, əlinə dəmir əsa alıb ərini axtarır. Onun köməyi ilə div qarısının tapşırıqlarını yerinə yetirir: a) ələyi su ilə doldurur, b) torbanı quş lələyi ilə doldurur, c) div qarısının tapşırığı ilə onun bacısının darağını (qavalını) gətirmək üçün o dünyaya gedir.

III. Müxtəlif predmetlərə çevrilməklə div qarısının təqibindən qaçırlar: a) qız qoyuna, oğlan çobana çevirilir, b) qız qarpıza, oğlan bostançıya çevrilir, c) axırda qız gülə çevrilir, oğlan isə ilana dönüb ona sarılır. Bu yolla div qarısından xilas olurlar.

Əlizadə (1937), s.393-398; Axundov, II c., s.166-173; Behrəngi, s.288-295; Əliyev-Xəlilov, s.63-71, kont.433*; Azərb. nağ. (2005), I c., s.186-188 (= ATS, s.216-221); AFK, VII c., s.236-248, kont.433*; IX c., s.295-299; NFA, III c., s.156-160, kont.437

**432 Oğlan ilan cildində.** Kiçik bacı ilan cildinə girmiş oğlanla evlənir, amma onunla evli olduğunu heç kimə deməməlidir. Qadağa pozulur, oğlanın gəldiyi yeri öyrənən böyük

bacılar deşiyin ağzına saxsı qırıqları tökür. Oğlan deşikdən çıxmaq istəyəndə saxsı qırıqları onu kəsir, oğlan qeybə çəkilir.

AKD, s.368-370, kont.408; AFA, XIII c., s.303-304; Qarabağ, II kitab, s.275-281, kont.878*B

**433B Şahzadə ilan cildində.** Hər gün ona bir qız qurban verilir. Sonuncu qurban ilanı cildini çıxarmağa məcbur edir. Cildini çıxaran ilan gözəl bir oğlana çevrilir və öz xilaskarı ilə evlənir.

Behrəngi, s.385-391, kont.425L+956*D+449A*; Seyidov, s.59-61; AFA, III c., s.52-53; V c., s.56-57

**433* Şahzadə qıza aşiq olmuş ilan.** Ağacın dibindən tapılan yumurtanın içindən ilan çıxır, naxırçı onu övladlığa götürür. İlan padşahın nikah tapşırıqlarını yerinə yetirir: yeddi mərtəbəli ev tikir, öz evindən padşahın sarayına qədər olan yola xalça döşətdirir və s. Padşahın qızı ilə evlənir, nikah gecəsi cildini çıxarıb gözəl bir oğlana çevrilir.

Əliyev-Xəlilov, s.63-71, kont.428; AFK, VII c., s.236-248, kont.428

**437 Ölüyə qismət olan qız.**

I. Qız a) qırx gün-qırx gecə ölünün başı üstündə Quran oxuyur; b) onun ayağına batırılmış iynələri çıxardır; c) ölünün milçəyini qovur. Sonuncu gün qulluqçu qız (qaraçı qız) onu əvəz edir və görülən işləri öz adına çıxıb oğlanla evlənir.

II. Qız göyərçinə çevrilir. Qaraçı qız onu kəsdirir, göyərçinin yerə düşən qanından ağac əmələ gəlir; qaraçı qızın tələbi ilə ağacı kəsirlər, onun tilişkəsi yenidən qıza çevrilir. Qız a) başına gələn əhvalatı səbr daşı və qın bıçağına danışır; yaxud b) xalının üstünə yazır; yaxud c) inci düzmək üzün saraya çağrılır; inciləri düzdükcə başına gələn hadisəni danışır. Onun

sayəsində həqiqət üzə çıxır və yalançı gəlin cəzalandırılır: başına qatıq yaxıb onu dəli qatırın quyruğuna bağlayırlar.

SMOMPK, XIX burax., II şöbə, s.159-167, kont.956B +533; ATS s.314-318; Azərb. nağ., I c., s.71-79 (= Azərb. nağ. (2005), II c., s.60-68); II c., s.247-254 (= Azərb. nağ. (2005), III c., s.182-189); III c., s.223-228, kont.559+661* +1406+860B (= Axundov, II c., s.295-300; = Azərb. nağ. (2005), IV c., s.202-207); Cəbrayıl şivəsi, s.419-420; Rüstəmov, s.216-218 (= Şirəliyev, s.353-354); Behrəngi, s.278-281; İslamov, s.211-212 (= AFA, IV c., s.198-199); Ağalı, s.56-57; Əliyev-Xəlilov, s.171-174; BYBQ, s.31-32; AFA, V c., s.46-48; V c., s.235; XIII c., s.256-257; AFK, III c., s.186-190; NFA, III c., s.156-160, kont.428

**449 Gül və Sənavər.**

I. Padşah qızına elçi düşən gəncdən Güllə Sənavərin əhvalatını öyrənməsini tələb edir. Gənc yolda sehrli xalça, süfrə və tac üstündə mübahisə edən divlərə rast gəlir. Üç ox atır, oxu birinci gətirənə xalçanı, ikinci gətirənə sürfəni, üçüncü gətirənə tacı verəcəyini deyir. Divlər oxun dalınca gedəndə həmin əşyaları götürüb aradan çıxır. Sənavər padşah öz əhvalatını danışmağa razı olur, amma bir şərtlə: qurtardıqdan sonra qəhrəmanı öldürməlidir.

II. Arvad hər gecə ərini yuxuya verib aşnası ilə görüşə gedir. Atının arıq düşməsindən şübhələnən padşah özünü yuxuluğa vurur və arvadını təqib edərək bir mağaraya gəlir. Arvadının aşnasını öldürür. Arvadı onu itə (eşşəyə) döndərir. Qəssab qızının köməyi ilə əvvəlki şəklinə qayıdan padşah a) sehrli çubuğun köməyi ilə arvadını quşa döndərir, b) qəssab qızından öyrəndiyi ovsunu oxuyub arvadını qatıra döndərir.

III. Gənc çölə çıxmaq üçün Sənavər padşahdan möhlət alır. Daha sonra a) əldə etdiyi sehrli əşyaların köməyi ilə qaçıb aradan çıxır; yaxud b) onu öldürmək istədikdə süfrədəki çörəkdən tez ağzına qoyur, çörəyini kəsdiyi üçün Sənavər padşah ona toxunmur.

SMOMPK, IX burax., II şöbə, s.94-102, kont.402+400; ATS, s.145-154; Azərb. nağ., I c., s.94-111, kont.327A+538* +532+303 (= Azərb. nağ. (2005), II c., s.83-101); Qərb şivələri, s.267-272, kont.304; Axundov, II c., s.153-160, kont. 582*; II c., s.301-311, kont.994**+738+733*+400*B; Behrəngi, s.254-262, kont.337*+400*B+400*C; s.339-347, kont.994** +400*A+1645A; Əliyev-Xəlilov, s.85-96, kont.550; İsmayılov, s.172-180, kont.304+300; İslamov, s.213-216, kont.733* +400*B+994** (= AFA, IV c., s.199-202); Borçalı folkloru, s.48-51, kont.1406A*+936; AFA, V c., s.239-241; XII c., s.121-130, kont.402+400; XVI c., s.231-233, kont.400*C+839*A; Azərb. nağ. (2005), I c., s.133-140; s.141-146, kont.402+400; Qarabağ, II kitab, s.202-206, kont.1406A*+514*+976*B

**449A*** Arvad hər axşam ərinin başını qılıncla kəsib aşnası ilə görüşə gedir, geri qayıtdıqdan sonra sehrli yağı sürtüb onu dirildir. Kəniz onu pusur, sehrli yağı ələ keçirib padşahı dirildir. Həqiqəti öyrənən padşah arvadını və onun aşnasını öldürür.

Behrəngi, s.385-391, kont.425L+956*D+433B

**450 Axsaxca ceyran.**

I. a) Qız ögey ananın onu öldürəcəyindən xəbər tutub qardaşı ilə evi tərk edir; yaxud b) ata ögey ananın təkidi ilə övladlarını meşədə azdırır. Oğlan bacısının etirazına baxmayaraq ceyran ləpirindən su içir və ceyrana (marala, öküzə) çevrilir.

II. Şahzadə oğlan atını suvarmağa gətirəndə qızın suya düşən əksini görür; nə qədər çalışırsa, onu ağacdan düşürə bilmir. Qarı qızı ağacdan düşürməkdə ona köməklik edir: qazanı tərsinə ocağın üstünə asır, nə qədər su tökürsə, qazan suyu saxlamır. Qız qarıya kömək etmək üçün ağacdan düşəndə qarı onu tutub şahzadənin yanına gətirir. Şahzadə oğlan qızla evlənir.

III. Qız qardaşını tərk etdiyi yerə gəlir, çinarın ağacının başına çıxıb onu gözləyir və yoldan keçən qaraçı qızı da yanına alır; qaraçı qız onun paltarını soyundurur, özünü isə itələyib suya salır. a) Qız naxa balığın qarnında uşaq dünyaya gətirir; balığın qarnını yarıb onu xilas edirlər; yaxud b) qız gülə çevrilir; şahzadə gülü dərib evə gətirir və o, yenidən əvvəlki şəklinə qayıdır.

SMOMPK, VI burax., II şöbə, s.105-109; ATS, s.3-19, kont.480+510A; Şirəliyev, s.363-364; s.388-389; Vəliyev, s.17-19; Behrəngi, s.281-283; İsmayılov, s.169-172, kont. 480+510A; AFA, XII c., s.144-147; XVI c., s.229-230

**K 451B* Yeddi qardaş bir bacı.**

I. Qardaşlar anaları səkkizinci uşağa hamilə qalanda evi tərk edirlər. Getməzdən əvvəl ona tapşırırlar ki, bacıları olsa, qapının üstündən ələk, qardaşları olsa, tüfəng (ox-yay) assın. Qızı olan ana qapının üstündən ələk asır, paxıl qonşu ələyi tüfənglə dəyişir. Qız qarğanı təqib edərək qardaşlarının yaşadığı məkana gəlir.

II. Qız yediyi kişmişdən pişiyə verməyi unudur, əvəzində pişik işəyib ocağı söndürür. Divin yaşağıdı daxmadan od oğurlayır. Div qızın cibindən düşən sapı (yumağı) təqib edərək onun yaşadığı məkana gəlir. Qızı a) qardaşlarını yeyəcəyi ilə hədələyir; yaxud b) barmağına üzük taxacağını deyir və ondan

barmağını qapının deşiyindən çölə çıxartmasını tələb edir. Div a) qızın barmağını sorur, yaxud b) iynəni onun barmağına sancır, qızın ürəyi gedir. Qardaşlar divi öldürüb onu qapının ağzında və ya küllükdə basdırırlar.

III. a) Qardaşlar divin qəbri üstündən çıxan pencəri yeyib qoyuna dönürlər. Qız sehrli çubuğun köməyi ilə onları əvvəlki şəklinə qaytarır. Yaxud b) divin qəbri üstündə bitən güllər qıza çevrilir, qardaşlar onlarla evlənirlər. Gəlinlər qıza böhtan atırlar, guya qardaşları evdə olmayanda baldızları oynaşının yanına gedir. Arvadlarının sözünə inanan qardaşlar bacılarını meşədə azdırırlar. Qız şahzadə ilə evlənir, ondan bir oğlu olur. Qardaşlar uşağın oxuduğu mahnıdan onun bacıları oğlu olduğunu müəyyən edirlər.

SMOMPK, XIX burax., II şöbə, s.199-206; Azərb. nağ., V c., s.97-103; AKD, s.193-196; İsmayılov, s.169-172, kont.480+510A; Əliyev-Xəlilov, s.236-242; Ağbaba folkloru, s.107-110; AFA, XII c., s.140-141; Azərb. nağ. (2005), I c., s.194-198 (= ATS, s.273-280); Qarabağ, II kitab, s.217-226; NFA, III c., s.116-117

**456* Qəhrəman cənnətdə.**

Qəhrəman a) çərxi-fələyə minir, yaxud b) azan vermək üçün minarəyə çıxır, quş onu caynağına alıb pərilər ölkəsinə gətirir. a) Pərilərin başçısı ona hər gün bir bacısı ilə əylənməyi təklif edir. Qəhrəman onun təklifinə razı olduğu üçün məleykə ondan imtina edir. Yaxud b) pəri qız üçgünlük səfərə çıxır və səfərdən qayıtdıqdan sonra qəhrəmanla evlənəcəyinə söz verir. Oğlan hövsələsizlik edib həmin an ona sahib olmaq istəyir, qız ondan imtina edir.

SMOMPK, XXI burax., II şöbə, s.27-51, kont.910B* +400*C+893; Azərb. nağ., I c., s.202-217, kont.1426+896* +986*A+560*B (= Azərb. nağ. (2005), II c., s.176-191); Bayat, s.188-200, kont.878*B+987*+400*A; Əliyev-Xəlilov, s.117-124, kont.732*+836F

## 460-499 Qeyri-adi tapşırıq

**460A Bəxtin axtarılması.** Kasıb bəxtini axtarmağa gedir. Yolda müxtəlif dərdə düçar olmuş şəxslərlə qarşılaşır: canavar bədənində tükün olmamasından əziyyət çəkir, cütcü əkdiyi sahədən məhsul götürə bilmir, padşah bütün döyüşlərdə meydanı məğlub tərk edir. Kasıb onların da şikayətini çatdırır. Ona edilən təkliflərdən imtina etdiyinə görə canavar onu parçalayır.

SMOMPK, XXVI burax., II şöbə, s.126-128 (= ATS, s.205-210); Şirəliyev, s.397-399; s.411-412; Azərb. nağ., V c., s.188-191; Qərb şivələri, s.273-276; Qaravəllilər (1967), s.113-117; Behrəngi, s.298-301; BYBQ, s.27-29; Borçalı folkloru, s.51-54, kont.875*; AFA, XII c., s.130-134; XVI c., I mətn, s.235-236; II mətn, s.236-238; XXIII c., s.148-152; AFK, III c., 24-27; Qarabağ, I kitab, s.188-192; III kitab, s.201-203

**460B Günəşdən xəbər gətirmək.** Bu variantda padşah onun qızına aşiq olmuş qəhrəmanı günəşdən xəbər gətirməyə göndərir. Qəhrəman yolda müxtəlif dərdə düçar olmuş heyvanlarla qarşılaşır, onların şikayətini günəşə çatdırır. Varlanıb geri qayıdan qəhrəman padşahın qızı ilə evlənir.

SMOMPK, XIII burax., II şöbə, s.297-301; Borçalı folkloru, s.62-67, kont.798*

**460C* Bəxtini oyatdıqdan sonra kasıbın şansı gətirir:** Quru ağacın dibindən tapdığı qızıl küpü hesabına varlanır.

Qarabağ, II kitab, s.281-282

**460* Qaraçuxası yatmış şəxs.** Varlı adamların qaraçuxası göy çəməndə oturub söhbət edir, ortabab adamlarınkı palçıq təpikləyir, kasıblarınkı isə yatmış olur. Varlı tutduğu vəzifəyə arxayın olub qaraçuxasını palçıq təpikləyənlərin arasından çıxardıb yatanların arasına qoşur. Qəssabdan aldığı qoyun başı adam başına dönür (Bax: AT 780C). Onu padşahın yaxın adamını öldürməkdə günahlandırıb dara çəkmək istəyirlər. Padşahdan möhlət alan varlı qaraçuxasını yatırdığı yerə gəlib onu oyadır. Öldürüldüyü güman edilən şəxsin təsadüfən saraya gəlməsi nəticəsində varlının günahsız olduğu üzə çıxır və o azad edilir.

Qarabağ, II kitab, s.269-275

**460** Dəyirmanın sirri.** Oğlan kasıb yaşamağının sirrini öyrənmək üçün evi tərk edir, yolda a) buğdanı ağacın başına sovuran adamlarla, b) unluğu olmayan dəyirmanla, c) bir gün gülən, bir gün ağlayan quşla qarşılaşır. Bunların mənasını və kasıb yaşamağının səbəbini öyrənib geri qayıdır.

Əliyev-Xəlilov, s.167-171

**461A** = 807*A nömrəsində verilib.

**465A Get ora, bilmirəm hara.** Ovçu göyərçin cildinə girmiş qızla evlənir. Padşah qızı ələ keçirmək üçün ovçuya çətin tapşırıqlar verir: get ora, bilmirəm hara, gətir onu, bilmirəm nəyi və s. Qəhrəman arvadının köməyi ilə tapşırıqları yerinə yetirir.

Borçalı folkloru, s.75-81

**465C O dünyadan xəbər gətirmək.**

I. Kasıb yuxuda a) uca bir dağın başında durduğunu və dörd bir yanının ulduzla dolu olduğunu görür; yaxud b) əkinçi sinəsində gün, ayağında ay doğduğunu görür. Yuxusunu yolda qarşılaşdığı çobana satır, onunla adını dəyişib geri qayıdır. Çoban yuxunun dalınca gedir.

II. a) Əmioğlu əmiqızı bir-biri ilə sözləşib qaçmaq qərarına gəlirlər; oğlan yatıb yuxuya qalır, qız çobanı əmisi oğlu bilib onunla qaçır; b) dəryadan tutulan kəllənin içindən gözəl bir qız çıxır; yaxud c) qardaşlar ox atırlar, oxları kimin qapısına düşsə, o evin qızı ilə evlənməlidirlər; kiçik qardaşın qismətinə tısbağa düşür və onunla evlənir.

III. Qəhrəman arvadının köməyi ilə padşahın çətin tapşırıqlarını yerinə yetirir: a) təpəgöz canavarın dərisini gətirir; b) fillərin su içdiyi gölə zəhər qatmaqla fil sümüyü əldə edir; c) nar içində huri qızı gətirir; d) dəryanın ortasında ev tikdirir; e) o dünyadan padşahın ölmüş ata-anasından xəbər gətirir.

IV. a) Padşah o dünyaya ata-anasının yanına getmək üçün qaladığı tonqalda yanır; yaxud b) dəryanın ortasında tikilmiş ev padşahla birlikdə suya qərq olur.

SMOMPK, VI burax., II şöbə, s.141-155, kont.402; VII burax., II şöbə, s.71-81; XXIV burax., II şöbə, s.113-121, kont.513A; s.236-243; XXVIII burax., II şöbə, s.89-101; s.115-124; XLII burax., II şöbə, s.117-126; Baqri, III c., s.57-65, kont.402; Əlizadə (1937), s.386-392; ATS, s.54-60; Təhmasib (1941), s.75-92; Azərb. nağ., V c., s.192-199; Əliyev-Xəlilov, s.180-190, kont.513A; s.248-256, kont.402; İsmayılov, s.145-154, kont.807*B+513A (= AFA, III c., s.268-267); s.180-184; Borçalı folkloru, s.40-46; AFA, I c., №84; №89; IX c., s.188-196; XII c., s.134-139 (= BYBQ, s.159-164); XIV c., s.156-

159; XVI c., s.198-210; Azərb. nağ. (2005), I c., s.34-52, kont.326 (= ATS, s.382-407; = Azərb. nağ., V c., s.82-96); s.71-87 (= ATS, s.20-46; = Azərb. nağ., II c., s.90-105); s.208-211 (= Azərb. nağ., III c., s.201-204); AFK, I c., s.102-112; II c., s.197-222, kont.921*+875B; s.250-255; s.333-344, kont.807*A; X c., s.207-215; Qarabağ, II kitab, s.226-237, kont.807*B

**465E* = AT 513C Ovçu oğlu.**

I. Qəhrəman atasının sənətinin ovçuluq (balıqçılıq) olduğunu öyrənir və ondan miras qalmış cələ və tütəyi (toru) götürüb ova çıxır. Qurduğu cələyə hər tükü bir rəngə çalan quş düşür. Sövdəgər quşun yumurtalarını ondan ucuz qiymətə alıb baha qiymətə padşaha satır. Bunu anlayan qəhrəman özü yumurtaları padşaha satmağa başlayır. Yaxud b) ovçu ovladığı ceyranı padşaha hədiyyə edir.

II. Sövdəgərin (vəzirin) təhriki ilə padşah qəhrəmana çətin tapşırıqlar verir: a) yumurtanı yumurtlayan quşu gətirmək; b) quşun xoruzunu gətirmək; c) solmayan gülü gətirmək. Sonuncu tapşırığın icrası zamanı qəhrəman divi öldürüb oğurlanmış qızı xilas edir və onunla evlənir.

Azərb. nağ., III c., s.95-103 (= SMOMPK, VII burax., II şöbə, s.81-95; = Azərb. nağ. (2005), IV c., s.93-101); Axundov, I c., s.238-242; Behrəngi, s.372-385, kont.513A; Bayat, s.65-75; Əliyev-Xəlilov, s.109-113, kont.410A*; İsmayılov, s.216-224, kont.513A; AFA, XIII c., s.257-263; NFA, III c., s.127-130

**465F* Göbəyi kəsilməmiş, danışan uşaq gətirmək.** Balıqçının dəryadan tutduğu qurbağa cildini çıxarıb gözəl bir qıza çevrilir və balıqçı onunla evlənir. Onun köməyi ilə padşahın tapşırıqlarını yerinə yetirir: a) Təzə dərilmiş üzüm gətirmək; b) bir gecəyə padşahın qoşunu üçün paltar tikmək; c)

göbəyi kəsilməmiş, amma danışa bilən uşaq gətirmək. Uşağın sayəsində padşahı öldürüb onun yerinə taxta çıxır.

Behrəngi, s.263-266

**467 Solmayan gülü (ləli) gətirmək.** Qəhrəman a) anasının saçları arasında saxladığı ləli xırdalamaq üçün padşaha aparır, yaxud b) sudan tapdığı qızıl gülü padşaha hədiyyə edir. Padşahın tapşırıqlarını yerinə yetirir: a) gülün tayını gətirmək. Çayın mənbəyinə doğru gedib divin qalaçasına rast gəlir. Divi öldürüb qızı xilas edir və onun qanından əmələ gələn gülü padşaha verir; b) divlərin mərmər daşı və şam ağacından imarət tikmək. Divlər padşahının canını əldə etməklə onu özünə tabe edir və ona mərmər daşı ilə şam ağacından imarət tikdirir; ç) üç pəri qızı gətirmək; pəri qızları onların donunu oğurlamaqla əldə edir. Onların köməyi ilə padşahı öldürür və kiçik bacı ilə evlənir.

Azərb. nağ., III c., s.161-165, kont.571B (= Azərb. nağ. (2005), IV c., s.141-145); IV c., s.8-18, kont.670+554 (= Azərb. nağ. (2005), V c., s.5-15); s.68-87, kont.425D (= Azərb. nağ. (2005), V c., s.66-86); Axundov, II c., s.161-165; Qaravəllilər (1967), s.27-33, kont.571B (= Ayrım bəzəmələri, s.153-158); AFA, IV c., s.172-181; NFA, III c., s.215-218

**470 Qəhrəman ölən dostuna baş çəkmək üçün o dünyaya gedir.** Orada min il qalır, amma ona elə gəlir ki, gəldiyi bir gündür. İşıqlı dünyaya qayıtdıqdan sonra Əzrayıl onun canını alır.

AFA, XIII c., s.176-177, kont.996***

**470B Ölümün olmadığı yer.** Ölümdən qaçan ər-arvad qəbiristanlığı olmayan bir şəhərdə məskunlaşırlar. Arvad xəstələnir, camaat onun ətini yeyir.

Azərb. nağ., IV c., s.111-117, kont.612+881 (= Azərb. nağ. (2005), V c., s.111-117); AFA, IX c., s.80-81; X c., s.97-98

**470* = K 472* Əbədi həyat axtaran gənc.** Əbədi həyat axtarmaq məqsədilə evi tərk etmiş gənc yolda kələ, marala rast gəlir. Kəlin dərəni peyinlə doldurana qədər, maralın buynuzları göyə dirənənə qədər ömrü olur. Heyvanlar gəncə onların yanında qalmağı təklif edirlər, lakin həmin ömür ona az gəlir. O dünyaya gedən gənc bir neçə yüz il orda qalır, həmin müddət ona bir neçə gün kimi gəlir. Anasına baş çəkmək üçün geri qayıdanda maralın, kəlin öldüyünü görür. Oğlan o dünyadan gətirdiyi almanı yeyib dünyasını dəyişir.

AFA, XVI c., s.323-325

**480 Ögey ana və ögey qız.** Yel ögey qızın əlçinini aparıb bir qarının daxmasından içəri salır. Ögey qız qarının saçını təmizləyir, kürəyini qaşıyır, onun nişan verdiyi sularda çimib daha da gözəlləşir. Doğma qız da gözəlləşmək istəyir, amma kobud rəftarına görə qarı onu cəzalandırır: daha da çirkinləşir.

ATS, s.3-19, kont.450+510A; Əlizadə (1937), s.405-409, kont.510A; Azərb. nağ., IV c., s.19-26, kont.510A (= Azərb. nağ. (2005), V c., s.16-23); Seyidov, s.84-87; Köçərli, s.61-68, kont.510A; Behrəngi, s.301-307, kont.510A; İsmayılov, s.169-172, kont.510A+450; AFA, XII c., s.141-144 (= BYBQ, s.137-139); XIV c., s.152-155, kont.510A; XVI c., s.227-229, kont.510A

**480D* Ögey qız div qarısının uşaqlarına baxır.** Ögey ananın istəyi ilə ata öz qızını meşədə azdırır. Qız div qarısının uşaqlarına baxır, əvəzində qarı onu mükafatlandırır. Doğma qız da hədiyyə almaq istəyir, amma uşaqları ac saxladığı üçün qarı onu cəzalandırır.

Seyidov, s.84-87

**480E* Ögey qız.** Ata ögey ananın istəyi ilə öz qızını meşədə azdırır. a) Qız div qarısını qaynar qazana salıb öldürür və ondan qalan sərvətə sahib olur; yaxud b) qız onu tapan şahzadə ilə evlənir və ondan bir oğlu olur. Qızına qonaq olan ata onun necə təmtəraqlı həyat sürdüyünü yoldaşına danışır. Ögey ana da öz qızını meşəyə yola salır, heyvanlar onu parçalayır.

SMOMPK, VI burax., II şöbə, s.101-105; XXXIII burax., II şöbə, s.138-140

**485 Cəvahirsatan Səlim.** Qəhrəman qızmar şişlə təpəgözün gözünü kor edir və heyvan dərisinə bürünüb mağaradan çıxır (Bax: 1137). Daha sonra meymunlar ölkəsinə gəlir və bir meymunla evlənir: ondan bir oğlu, bir qızı olur. Onları atıb qaçır. Başına gələn hadisələri danışıb padşahı güldürür.

İsmayılov, s.290-297, kont.936 (= AFA, III c., s.277-284); AFA, I c., №101; XI c., s.141-145, kont.612

**485A = AT 485A* Qəhrəman meymunlar ölkəsində:** yalnız sonuncu gediş iştirak edir.

ATS, s.355-372, kont.936+400; AKD, s.196-197, kont. 1137; Bayat, s.167-179, kont.938

## 500-599. Qeyri-adi köməkçi

**502 Yalançı şahzadə.** Ata arvadına qolbağı verir ki, oğlu olarsa, qoluna taxsın. Oğlan böyüdükdən sonra atasının kim olduğunu öyrənib onu axtarmağa gedir. Yolda nökər qolbağını ondan alır və özünü şahzadə, oğlanı isə nökər kimi qələmə verir. Qəhrəman heyvanların köməyi ilə padşahın nikah tapşırıqlarını yerinə yetirir (Bax: 554). Axırda həqiqət üzə çıxır; yalançı şahzadə cəzalandırılır.

SMOMPK, XXVI burax., II şöbə., s.223-228, kont.554

**507C Xeyirxah ölü.**

I. *Ölü (ilan) insan cildində.* a) Tacirin kiçik oğlu ölünü ona işgəncə verən borc sahibinin əlindən alıb dəfn edir; yaxud b) padşah oğlunu sancmaq istəyən ilana başmağında su verir. Ölü (ilan) insan cildində qəhrəmanın qarşısına çıxır və onunla yol yoldaşı olmaq istəyir. Qəhrəman onu sınayır: çörəyi bölməsi üçün ona verir, ona belinə minib çaydan keçməyi təklif edir. Ölü çörəyin böyük hissəsini qəhrəmana verib kiçiyini özünə götürür, onu çiyninə alıb çaydan keçirir.

II. *Şahzadə qız.* Kim padşahın qızı ilə evlənirsə, nikah gecəsi onun ağzından çıxan ilan həmin gənci sancıb öldürür. Ölü padşahın qızına elçi düşür və onu sahibi üçün istəyir. Nikah gecəsi özünə bəylə gəlin olan otaqda yer salır. a) Gecə qızın ağzından çıxan ilan oğlanı sancmaq istəyəndə onu öldürür, yaxud b) ilanın başını manqalda yandırıb qızı onun buğuna verməklə və ya c) qızın ağzına üfürməklə onun qarnındakı ilanları çıxardır. Yolda gəlini yarı böləcəyi ilə qorxudub sonuncu ilanı da onun qarnından çıxarır.

SMOMPK, XLII burax., II şöbə, s.38-42, kont.672E*+936; AS, s.390-396; Azərb. nağ., V c., s.121-124, kont.327B (= Axundov, II c., s.321-324); Tantəkin, s.139-158, kont.509*; Seyidov, s.74-79, kont.912**+910L*+880; Ağalı, s.76-77; Əliyev-Xəlilov, s.159-163; Borçalı folkloru, s.67-72, kont.559+661*+653A; Azərb. nağ. (2005), I c., s.120-123 (= Azərb. nağ., I c., s.60-63); AFA, XVII c., s.146-148, kont.661*; AFK, III c., s.28-35

**507* Xeyirxah ölü.** Qəhrəman ölünü ona işgəncə verən borc sahibinin əlindən alıb dəfn edir. Ölü onu bir şəhərə şah

göndərir, amma qazandığı şeyləri onunla yarı bölməlidir. Qəhrəman uşağın bölünməsinə etiraz edir, şahlığı itirir.

Ağalı, s.72-76

**507** Xeyirxah qurbağa.** Qəhrəman qurbağanı ilanın ağzından xilas edir, əvəzində qurbağa insan cildində ona köməklik edir: padşahın dənizə düşmüş üzüyünü tapır, onun ilan sancmış qızını sağaldır. Qəhrəman qızla evlənir.

Baqri, I c., s.39-41

**509* Tacir oğlu.**

I. Tacir tulanın sidiyinə bulaşmış dəsmalla üzünü sildiyindən gözləri tutulur. Oğlunu öz yerinə ticarətə göndərir. Oğlan ölünün borcunu qaytarıb onu borc sahibinin əlindən alır və dəfn edir. Ölü insan cildində onunla yol yoldaşı olur. Tula ilə canavarın söhbətini eşidir və canavarın ürək qulaqcıqlarının (yağının, qara qoçun beyninin) padşahın xəstə qızının dərmanı olduğunu öyrənir.

II. Ölü a) canavarın ürək qulaqcıqlarını qıza yedirtməklə onu sağaldır; yaxud b) canavarın yağını əridib qızın boynuna sarılmış ilana vurmaqla onu xilas edir. Həmin qızı tacirin oğluna alır. Ölü tulanın göz yağını və yaxud qanını tacirin gözlərinə çəkməklə onu da sağaldır.

SMOMPK, IX burax, II şöbə, s.199-207, kont.559+661*; XLII burax., II şöbə, s.30-37; Azərb. nağ., III c., s.177-180 (= Azərb. nağ. (2005), IV c., s.158-161); Tantəkin, s.139-158, kont.507C; İsmayılov, s.195-203, kont.956*B+938C*+400*B (= AFA, III c., s.268-276); Əliyev-Xəlilov, s.28-42, kont.986; s.55-63; AFA, XIV c., s.118-122, kont.670+670**; Azərb. nağ. (2005), I c., s.212-220, kont.986 (= ATS, s.329-339)

**509** Şahzadə qızın canına cin sirayət etdiyindən onun ağlı başından çıxır.** Qəhrəman qızın yanında tütək çalmaqla cini onun canından çıxarır.

AFK, III c., s.120-124

**510A Göyçək Fatma.** Xoruzun köməyi ilə analığının verdiyi tapşırıqları yerinə yetirir: darını küldən ayırır, qabları göz yaşı ilə doldurur və s. Saraydakı qonaqlıqda oynayır: qonaqlar oturan tərəfə gül, analığı oturan tərəfə kül səpir. Qonaqlıqdan qaçanda başmağının bir tayını itirir. Şahzadə başmağın köməyi ilə qızı tapır və onunla evlənir.

ATS, s.3-19, kont.480+450; Əlizadə (1937), s.405-409, kont.480; Azərb. nağ., III c., s.128-131 (= Azərb. nağ. (2005), IV c., s.108-110); IV c., s.19-26, kont.480 (= Azərb. nağ. (2005), V c., s.16-23); Köçərli, s.61-68, kont.480; Behrəngi, s.301-307, kont.480; İsmayılov, s.169-172, kont.480+450; AFA, XIV c., s.152-155, kont.480; XVI c., s.227-229, kont.480

**510B İstənilməyən övlad.** Səfərə çıxan kişi arvadına tapşırır ki, qızı olarsa, başını kəsib qanını bir şüşəyə doldursun. Övladının başını kəsməyə əli gəlməyən ana onu qonşuya övladlığa verir, əvəzində ərinə şüşəyə doldurduğu xoruz qanını göstərir. Ata qonşunun qızına (əslində öz qızı olur) aşiq olur. Qız özüyeriyən arabanın içində gizlənib ondan qaçır və padşahın oğlu ilə evlənir. Axırda həqiqət üzə çıxır, ata qızı ilə barışır.

Azərb. nağ. (2005), I c., s.349-352 (= Azərb. nağ., II c., s.78-81)

**513A Altı qəribə yoldaş.** Qəhrəman aşiq olduğu qızın dalınca gedir, yolda ona qeyri-adi xüsusiyyətə malik altı adam qoşulur. Onların köməyi ilə padşahın nikah tapşırıqlarını ye-

rinə yetirir: altı pud düyünün aşını yeyir, qaynar hamamda çimir və şahzadə qızla evlənir.

SMOMPK, VII burax., II şöbə, s.95-104, kont.707B; Azərb. nağ., II c., s.235-246, kont.531A* (= Azərb. nağ. (2005), III c., s.169-181); III c., s.69-73 (= Azərb. nağ. (2005), IV c., s.71-75); İsmayıllı şivələri, s.322-323; Şirəliyev, s.367-368; s.385-387; Behrəngi, s.372-385, kont.465E*; Əliyev-Xəlilov, s.180-190, kont.465C; İsmayılov, s.145-154, kont.465C+807*B (= AFA, III c., s.258-267); s.216-224, kont.465E*

**514 Cins dəyişmə.**

I. Ata saraya göndərmək istədiyi qızlarını növbə ilə sınayır: pəhləvan qiyafəsində qızlarının qarşısına çıxıb onlarla güləşir. Sınaqdan uğurla çıxan kiçik qızını padşaha xidmət etməyə göndərir.

II. Padşahın qızı qəhrəmana aşiq olur, amma sevgisinə qarşılıq ala bilmir. Özünü xəstəliyə vurub onu a) dünya gözəlinin bişirdiyi çörəyi gətirməyə, b) Səmavər padşahın əhvalatını öyrənməyə göndərir. Qəhrəman çətin tapşırıqları yerinə yetirir. a) Qarğış nəticəsində, və ya b) sehrli əşyanın qəbulu nəticəsində oğlana çevrilir və padşahın qızı ilə evlənir.

SMOMPK, XXI burax., II şöbə, s.18-26, kont.410*; Azərb. nağ., II c., s.119-126, kont.410* (= Azərb. nağ. (2005), III c.. s.94-101); IV c., s.102-110, kont.410* (= Azərb. nağ. (2005), V c., s.101-110); Axundov, II c., s.220-225; Borçalı folkloru, s.58-62, kont.410*

**514*** Yeni padşah seçilmiş oğlan ölkəsinin sərhədlərini tanımaq üçün səfərə çıxır. Su içmək üçün quyuya əyildikdə qıza çevrilir. Onu tapan padşaha ərə gedir, ondan bir oğlu olur. Əri və oğlu ilə birlikdə atası evinə gəlir, yolda dincəl-

mək üçün həmin quyunun yanında dayanırlar. Ərini quyudan su gətirməyə göndərir. Bu dəfə o oğlana, əri isə qıza çevrilir.

Qarabağ, II kitab, s.202-206, kont.1406A*+449+976*B

**516 Etibarlı dost.** Şahzadə şəkildə gördüyü qıza aşiq olur. Sadiq dostunun (keçəlin, vəzirin oğlunun) köməyi ilə a) ceyran dərisinin və ya taxta qoçun içində, yaxud b) qadın paltarında qızın yataq otağına daxil olub onu qaçırdır. Padşahın qoşunu onları təqib edir. Müxtəlif əşyalara çevrilməklə təqibdən xilas olurlar.

Baqri, I c., s.97-104, kont.1654+1530 (= ATS, s.566-574; = AS, s.459-468); Azərb. nağ. (1949), III c., s.68-71; Azərb. nağ., IV c., s.45-67, kont. 525*+893+893*A (= Azərb. nağ. (2005), V c., s.43-65); s.243-254, kont.1654 (= Azərb. nağ. (2005), V c., s.245-256); Axundov, II c., s.257-261; AFA, XII c., s.150-161, kont. 525*+1538B*+303 (= BYBQ, s.127-134); Azərb. nağ. (2005), I c., s.147-155 (= Axundov, I c., s.156-164); AFK, II c., s.40-45, kont.525*; s.46-55, kont. 525*+1538B*

**516D* Yeddi qardaş divin bacısı.** Padşahın oğlu yeddi qardaş divin bacısına aşiq olur. Qardaşı onun əvəzindən divlərin nikah tapşırıqlarını yerinə yetirir: a) içi ov əti ilə dolu qazanı üç dəfə yerindən qaldırır, b) bir zərbəyə ağacı kəsir və ya poladı bölür, c) qarışqaların köməyi ilə arpanı buğdadan ayırır, d) bir oturuma bir kəli yeyir, e) taxtanı suyun üzü ilə elə axıdır ki, o, suya toxunmur, ə) stəkandakı suyu tökmədən ağaca çıxıb-düşür. Qəhrəman yeddi qardaş divin bacısı ilə evlənir.

SMOMPK, III burax., II şöbə, s.112-118, kont.301B+300; Tantəkin, s.115-124, kont.301B+525*; Həkimov, s.190-207, kont.301B; AFA, IX c., s.161-163, kont.302+525*; XII c.,

s.147-150, kont.525*; Azərb. nağ. (2005), I c., s.53-61, kont. 301B+525* (= ATS, s.155-167; = Azərb. nağ., II c., s.227-234)

**516D** Rüstəm-Qul.** Şirin himayəsində böyüyür, padşah onu tutub saraya gətirir. Səhəngini sındırdığı üçün qarı onu qarğayır: səni görüm qırx qızıl hörüklü gözəlin eşqinə mübtəla olasan. Qəhrəman qardaşlığı ilə qızın dalınca gedir. Yolda yeddibaşlı, üçbaşlı və təkbaşlı divlə vuruşur, saraya daxil olub qızı qaçırdır. Qardaşlığı onun gözlərini çıxardır. Göyərçinlərin verdiyi lələklə gözlərini sağaldır və qardaşlığından qisas alır.

SMOMPK, XIX burax., II şöbə, s.181-193

**516E* Seyfəlmülk.** Padşahın oğlu şəkildə gördüyü qıza aşiq olur və vəzirin oğlu ilə birlikdə onu axtarmağa gedir. Yolda gəmiləri tufana düşüb batır, bir-birindən ayrı düşürlər. Qayışbaldır padşah oğlunun boynuna sarılıb onu boğmağa çalışır. a) Göyərçinlərin nişan verdiyi tikanlı ağacın köməyi ilə, yaxud b) Qayışbaldıra çaxır içirtməklə ondan xilas olur. Ağ divi öldürüb oğurlanmış qızı xilas edir və onun köməyi ilə öz sevgilisinə qovuşur. Axırda itmiş dostunu da tapır.

SMOMPK, IX burax., II şöbə, s.87-91; ATS, s.178-188; Azərb. nağ., V c., s.209-216 (= Azərb. nağ. (2005), IV c., s.278-285); Axundov, II c., s.5-16; AFA, I c., №85

**517 Quş dili bilən İskəndər.**

I. Bülbüllər onun padşah olacağını, analığının ona xörək gətirəcəyini, atasının isə onun əlinə su tökəcəyini xəbər verir. Ata ögey ananın tələbi ilə oğlunu sandığa qoyub çaya atır. Torçu uşağı xilas edir və onu övladlığa götürür. Qəhrəman vəzirin oğlu ilə siğə qardaşı olur. Padşahın qızı ilə evlənir. Arvadı onu bədheybət bir heyvana döndərir, özünə də sağalmaz bir xəstəlik verir: nə qədər yeyirsə, qarnı doymur.

II. Qardaşlığının köməyi sayəsində qəhrəman xəstəlikdən xilas olur, əvvəlki şəklinə qayıdır. Arvadını öldürüb onun yerinə taxta çıxır. Süjet bülbüllərin dediyinin gerçəkləşməsi ilə tamamlanır.

Vəliyev, s.8-10; Azərb. nağ. (2005), I c., s.93-104, kont. 671* (= ATS, s.67-82; = Azərb. nağ., III c., s.166-176); Qarabağ, II kitab, s.173-182

**521* Küpə salınmış cin.** Cin onu xilas etdiyi üçün Bəsrə padşahının oğlunu oğurlayıb balıqçıya gətirir. Padşah rəml atdırır, oğlunun çay qırağında olduğunu öyrənir. Padşahın arvadı özünü çaya atıb boğulan kimi göstərir, uşaq onu xilas etmək üçün özünü çaya atanda balıq onu udur. Cin uşağı xilas edir.

AFA, XI c., s.148-151

**525* Sirrin açılması.** Keçəl göyərçinlərin və ya dərvişlərin danışığını eşidir və qəhrəmanı nikah gecəsi gözləyən təhlükədən xəbər tutur. Onu sancmaq istəyən ilanı öldürür. Sirri açdığı üçün daşa dönür. Qəhrəman yeni doğulmuş uşağının başını kəsir, onun qanını daşın üstünə səpməklə keçəli dirildir. Daha sonra göyərçinlərin verdiyi lələyi uşağın boynuna çəkib onu da dirildir.

AT kataloqunda 516 nömrəli süjetin tərkibində verilib.

SMOMPK, XXIV burax., II şöbə, s.273-276; Azərb. nağ., I c., s.112-120, kont.2530*+551 (= Azərb. nağ. (2005), II c., s.102-110); IV c., s.45-67, kont.516+893+893*A (= Azərb. nağ. (2005), V c., s.43-65); Tantəkin, s.115-124, kont.301B +525*+516D*; Ağbaba folkloru, s.162-164; AFA, IV c., s.189-198, kont.861; IX c., s.161-163, kont.516D*+302; s.232-236, kont.551+2530*; XII c., s.147-150, kont.516D*; s.150-161, kont.516+1538B*+303 (= BYBQ, s.127-134); Azərb. nağ.

(2005), I c., s.53-61 kont.301B+ 516D* (= ATS, s.155-167; = Azərb. nağ., II c., s.227-234); AFK, II c., s.40-45, kont.516; s.46-55, kont.516+1538B*

**526* Aşiq həkim.** Cinlər padşahının oğlu ilə mələkələr padşahının qızı mübahisə edir: biri oğlanın, o biri isə qızın gözəlliyini tərifləyir. Kimin haqlı olduğunu müəyyən etmək üçün gecə qızı yatağından götürüb oğlan olan otağa gətirirlər. Gənclər bir-birinə aşiq olur və əhd-peyman bağlayırlar. Səhər mələkələr qızı aparıb öz otağına qoyurlar. Qız oğlanın dərdindən xəstə düşür. Oğlan həkim geyimində qızın yanına gəlir, onu sağaldır və onunla evlənir.

AFK, VIII c., s.98-111

**530 Qəbir üstündə keşik çəkmə.** Kiçik qardaş üç gün-üç gecə atasının qəbri üstündə keşik çəkib üç at əldə edir və onların köməyi ilə padşahın nikah tapşırıqlarını yerinə yetirir: atla a) xəndəyin üstündən tullanır, b) şahzadə qızın oturduğu köşkə qalxıb onu öpür. Onunla evlənir.

SMOMPK, III burax., II şöbə, s.134-137, kont.302; VII burax., II şöbə, s.65-71, kont.312D; Baqri, I c., s.113-121; ATS, s.222-226; Azərb. nağ. II c., s.157-166, kont.302B* (= Azərb. nağ. (2005), III c., s.132-141); Axundov, II c., s.266-269, kont.302; İmamquliyeva, s.260-263; AFA, IX c., s.211-216, kont.302B; Azərb. nağ. (2005), I c., s.189-191, kont.302; AFK, VII c., s.222-235, kont.302B*

**530A* Kim onun atını keçsə, şahzadə bacısını ona ərə verəcəyini elan edir.** Qəhrəman hovuza çaxır töküb dərya atını tutur. Onun köməyi ilə yarışı udur, amma şahzadə vədinə əməl etmir və qəhrəmanı ilanın qızıl sandığını, div qarısının bağlı

boxçasını, divlərin dəfini gətirməyə göndərir. Qəhrəman atın köməyi ilə tapşırıqları yerinə yetirir və şahzadə qızla evlənir.

Azərb. nağ., V c., s.73-78 (= Azərb. nağ. (2005), IV c., s.250-255)

**531 Çil at.**

I. a) Torçunun dəryadan tutduğu sandığın içindən at və gül çıxır; yaxud b) qəhrəman yoldan işıqsaçan lələk tapır. Lələyə (gülə) gözü düşən padşah ondan həmin lələyin sahibini gətirməsini tələb edir.

II. Qəhrəman atın köməyi ilə padşahın tapşırıqlarını yerinə yetirir: qeyri-adi quşu, quşun sahibi pəri qızı gətirir. Qızın nikah tapşırıqlarını yerinə yetirir: onun gəlinlik paltarını gətirir, dərya ayğırının südünü əldə edir. a) Padşah dərya ayğırının südündə çiməndə qəhrəman hovuza torpaq atır, padşah torpağa və ya tısbağaya çevrilir; yaxud b) yeni tikdirdiyi binanı gəzməyə çıxanda qız onu qırxıncı mərtəbədən yerə atır. Qəhrəman dərya ayğırının südündə çimib cavanlaşır və pəri qızla evlənir.

Əlizadə (1929), s.76-80; ATS, s.348-354; Təhmasib (1941), s.203-217, kont.1538; Azərb. nağ. (1949), III c., s.292-297; Azərb. nağ., II c., s.167-177 (= Azərb. nağ. (2005), III c., s.142-152); III c., s.217-222, kont.327B (= ATS, s.262-272; = Azərb. nağ. (2005), IV c., s.196-201); Axundov, I c., s.226-230; AKD, s.356-359; Əliyev-Xəlilov, s.96-107; Bayat., s.138-167, kont.926C**+582*+302+300; Azərb. nağ. (2005), I c., s.88-92; s.221-224; AFK, II c., s.120-124

**531A* Ağ çeşmə daşı.** Üç qardaş xəstə ataları üçün ağ çeşmə daşı əldə etməyə gedir. Kiçik qardaş padşahın qızını qaçırdır, onun köməyi ilə çeşmə sahibinin tapşırıqlarını yerinə

yetirir (dərya atını, atın sahibini gətirir, şir südündə çimir) və daşı əldə edib geri qayıdır.

Azərb. nağ., II c., s.235-246, kont.513A (= Azərb. nağ. (2005), III c., s.169-181)

**531B* Vəfalı at.** Tacirin arvadı qəhrəmana aşiq olur, sevgisinə qarşılıq ala bilmədikdə onu öldürməyə çalışır. Ona çətin tapşırıqlar verir: hər daşı bir rəngə çalan ev tikmək və s. Qəhrəman atın köməyi ilə tapşırıqları yerinə yetirir: o dünyadan usta gətirir, hər daşı bir rəngə çalan ev tikir.

Axundov, I c., s.38-52, kont.301+329* (= DƏK, s.102-116)

**532 Ağ atlı oğlan.**

I. a) Ögey ana özünü xəstəliyə vurub atı kəsdirmək istəyir. Qəhrəman son dəfə atı çapmaq üçün icazə alır, onu minib aradan çıxır. Simurq quşunun balalarını yemək istəyən əjdahanı öldürür, pələngin ayağına batmış ağacı çıxardır, əvəzində heyvanlar öz balalarının birini ona verir. Yaxud b) atın qabağına ət, quşun qabağına ot, itin qabağına dən qoyulmuş olur. Qəhrəman hər heyvanın yemini öz qabağına qoyur, heyvanlar balalarının birini ona hədiyyə edir.

II. Qəhrəman heyvanların köməyi ilə düşmən qoşununu məğlub edir, hər dəfə də gizlənir. Yarasına bağlanmış yaylığa görə tanınır.

SMOMPK, III burax., II şöbə, s.118-124, kont.327A+538*; XIII burax., II şöbə, s.99-107, kont.327A+538*; XXIV burax., II şöbə, s.152-175, kont.327D*+538*; XXXV burax., II şöbə, s.88-92, kont.538*; ATS, s.237-242, kont.538*; s.256-261; Azərb. nağ., I c., s.94-111, kont.327A+538*+303+449 (= Azərb. nağ. (2005), II c., s.83-101); V c., s.232-255, kont.327A +538* (= Azərb. nağ. (2005), IV c., s.286-309); Axundov, II c., s.207-

213, kont.301C*; AFA IX c., s.267-269, kont.538*; Azərb. nağ. (2005), I c., s.227-231 (= Azərb. nağ., III c., s.205-209)

**533 = AT 403, 533* Qız və yengə.** Qız qeyri-adi xüsusiyyətə malik olur: yeriyəndə ayağı qızıl kəsir, güləndə ağzından güllər tökülür və s. Şahzadə oğlan qıza elçi düşür, onunla evlənir. Gəlin köçəndə yengə qıza duzlu balıq və ya duzlu qoğal yedirdir, su qarşılığında onun gözlərini çıxardır, onu gəcavədən yerə itələyib yerinə öz qızını oturdur. Qız şahzadənin atını bəsləyir, şahzadə atı aparmağa gələndə onu görüb tanıyır. Şahzadə oğlan əsl gəlinlə evlənir, yalançı gəlin isə cəzalandırlır: qatırın quyruğuna bağlanılıb daşlığa buraxılır.

SMOMPK, XIX burax., II şöbə, s.159-167, kont.437 +956B; XXVI burax., II şöbə, s.187-196; Axundov, I c., s.143-155; İsmayılov, s.203-209 (= Ağbaba folkloru, s.121-128); AFA I c., №80, kont.311; VIII c., s.193-199; Azərb. nağ., I c., s.121-129, kont.311 (= Azərb. nağ. (2005), II c., s.111-119)

**538* = AT 530A Kürəkənlərin sınanması.**

*I. Qeyri-adi əlamətin əldə edilməsi.* Şahzadə kəllənin ona nişan verdiyi suda başını yuyur, saçının bir tərəfi qızıl, bir tərəfi gümüş rəngə çalır. Başına qoyun dərisi keçirib şəhərə gəlir, bağban yanında şəyird işləyir.

*II. Üç bacı.* Evlənmək yaşı çatdıqlarını xəbər vermək üçün atalarına üç yemiş göndərirlər. Yemişlərdən biri tam ötmüş olur, ikinci qismən ötmüş, üçüncünün isə əsl yeməli vaxtı olur. Həmin əlamətlərə görə padşah qızlarının evlənmək istədiyini başa düşür.

*III. Nişanlının seçilməsi.* Şəhər əhli sarayın önündən keçir, bacılar bəyəndikləri şəxsə alma atırlar. Böyük bacı vəzirin, ortancıl vəkilin, kiçik isə bağbanın şəyirdini seçir. Kiçik qızının seçiminə qəzəblənən padşah onu saraydan qovur.

*IV. Damğalanma qarşılığında verilən ov əti.* Kürəkənlər xəstə padşah üçün ov əti əldə etməyə gedirlər. Qəhrəman kürəkənləri damğalayıb tutduğu ov ətini onlara verir, baş-ayağını isə özünə götürür. Padşah kiçik qızının baş-ayaqdan hazırladığı yeməyi yeyib sağalır. Süjet kiçik kürəkənin əsilzadə nəslindən olmasının üzə çıxması və böyük kürəkənlərin ifşa olunması ilə tamamlanır.

SMOMPK, III burax., II şöbə, s.118-124, kont.327A +532; XIII burax., II şöbə, s.99-107, kont.327A+532; XXIV burax., II şöbə, s.152-175, kont.327D*+532; XXXV burax., II şöbə, s.88-92, kont.532; ATS, s.237-242, kont.532; Azərb. nağ., I c., s.94-111, kont.327A+532+303+449 (= Azərb. nağ. (2005), II c., 83-101); V c., s.232-255, kont.327A+532 (= Azərb. nağ., IV c., s.286-309); Seyidov, s.51-58, kont.318; AFA, IX c., s.267-269, kont.532

**545B Armudan bəy.**

I. Armud ağacından oğurluq edən tülkü padşahın qızını dəyirmançıya alacağına söz verir. Tülkü ağasının qızıllarını çəkmək bəhanəsi ilə padşahdan qızılölçəni alır, onun altına bir qızıl yapışdırıb geri qaytarır; daha sonra padşahın qızını ağasına istəyir; padşah qəhrəmanın zəngin olduğunu zənn edib tülkünün bu təklifinə razılıq verir.

II. Tülkü divləri aldadır: a) guya padşahın qoşunu divləri qırmağa gəlir və onları ot tayasının altında gizlənməyə razı salır; daha sonra tayaya od vurub divləri yandırır. Yaxud b) divi (varlı şəxsi) inandırır ki, onun əti xəstə padşaha, və ya padşahın qotur düşmüş ilxısına dərman deyilib. Bu yolla divləri (varlı şəxsi) qorxudub onların mülkünü ələ keçirir və dəyirmançını orada yerləşdirir.

III. Tülkü dəyirmançını sınamaq üçün özünü ölülüyə vurur, dəyirmançı onu çəkməsinin ucuna alıb atır.

SMOMPK, XXVIII burax., II şöbə, s.101-108; XXXV burax., II şöbə, s.93-95; XLII burax., II şöbə, s.68-71; s.81-84; ATS, s.500-504; Şirəliyev, s.369-371; Azərb. nağ., V c., s.58-60; İsmayılov, s.303-306; s.490-491 (= AFA, III c., s.702); AFA, IV c., s.215-216; IX c., s.228-230; X c., s.199-203; XII c., s.161-166; s.166-169, kont.1149A* (= BYBQ, s.199-202); XVI c., s.238-239; Azərb. nağ. (2005), I c., s.283-288, kont.1149A*; Qarabağ, I kitab, s.184-187

**546* Heyvanların qız qaçırtması.** Tülkü heyvanlarla danışıb onları qəhrəmana xidmət etməyə razı salır və padşahın qızını qaçırırlar. Padşah onların yerini müəyyən edib üstlərinə qoşun çəkir. Qəhrəman heyvanların köməyi ilə padşahın qoşununu məğlub edir və onun qızı ilə evlənir.

SMOMPK, XIII burax., II şöbə, s.130-140; Baqri, I c., s.35-39 (= ATS, s.519-524); Azərb. nağ., IV c., s.215-228, kont.402+400 (= Azərb. nağ. (2005), V c., s.217-230); V c., s.104-120; Behrəngi, s.365-370; Əliyev-Xəlilov, s.277-284, kont.302; Borçalı folkloru, s.20-24

**550 Mürği-xəndan quşu.** a) Qardaşlar mürği-xəndan quşunu (çalıb-çağıran ağacı, hazarandastan gülü və bülbülünü və s.) gətirməyə gedirlər; yaxud b) Gülüstani-İrəmdə bitən ağacın yarpağı padşahın gözünə dərman deyilir, qardaşlar yarpağı gətirməyə gedirlər. Kiçik qardaş divin ayağına batmış ağacı çıxardır, div onu həmin əşyanın yerləşdiyi məkana gətirir. Pəri qızın yataq otağına daxil olub onun üzündən öpür (başının altına məktub qoyur, və yaxud öz üzüyünü onun barmağına taxır), axtardığı əşyanı əldə edib geri qayıdır. Qardaşları onu quyuya salır. Qəhrəman pəri qızın köməyi ilə xilas olur.

SMOMPK, XIII burax., II şöbə, s.107-126, kont.302B; XIX burax., II şöbə, s.242-261, kont.326; XXIV burax., II şöbə, s.134-139; s.215-219, kont.707A; s.219-223; XLII burax., II şöbə, s.84-101, kont.301+300; s.135-146; Azərb. nağ., II c., s.23-59, kont.337*+663* (= Azərb. nağ. (2005), III c., s.24-61); Axundov, I c., s.70-79; II c., s.32-38, kont.326; Əliyev-Xəlilov, s.85-96, kont.449; AFA, I c., №86; Azərb. nağ. (2005), I c., s.275-282 (= Azərb. nağ., I c., s.166-173)

**551 Qəhrəman atasına yer üzündə bənzəri olmayan əşya axtarır:** a) Padşah oğlanlarına atının ayağı dəyməyən yerdən bir əşya gətirmələrini tapşırır; yaxud b) həkimlər Sas Tavuğ quşunu xəstə padşah üçün dərman deyirlər. Qardaşlar quşu gətirməyə gedirlər və üç yolayrıcına çıxırlar. Böyük qardaşlar gedər gələr, kiçik qardaş isə gedər gəlməz yolla gedir. Kiçik qardaş ağ quşun (tülkünün) köməyi ilə divlərin göyərçinini, üzüm səbətini və ağ divin qızını əldə edir.

Azərb. nağ., I c., s.112-120, kont.2530*+525* (= Azərb. nağ. (2005), II c., s.102-110); AFA, II c., s.335-338; IX c, s.232-236, kont.2530*+525*

**552A Kürəkən div.** Kiçik qardaş bacısını divə ərə verir, onun köməyi ilə özünə gəlin əldə edir.

Əliyev-Xəlilov, s.124-130, kont.318B* (= AFA, XIV c., s.171-178)

**552C* Kürəkən şir.** Şir peyğəmbərdən onu evləndirməsini istəyir. Peygəmbərin xahişi ilə kasıb öz qızının şirlə evlənməsinə razılıq verir. Daha sonra qızına baş çəkməyə gedir və kürəkəninin şir donuna girmiş bir mələk olduğunu öyrənir.

Qarabağ, I kitab, s.217-218, kont.807**

**554 Xeyirxah heyvanlar.** Qəhrəman a) ayının qarnını doyuzdurur, b) qarışqalara arxı keçməkdə köməklik edir, c) susuzluqdan əziyyət çəkən divə su verir. Onların köməyi ilə padşahın nikah tapşırıqlarını yerinə yetirir: dörd qazan aşı bir oturuma yeyir, arpanı buğdadan ayırır, suyu stəkandan tökmədən ağaca çıxıb düşür və padşahın qızı ilə evlənir.

SMOMPK, XXIV burax., II şöbə, s.260-265, kont.304 +302; XXVI burax., II şöbə, s.223-228, kont.502; Təhmasib (1941), s.93-100; Azərb. nağ., IV c., s.8-18, kont.467+670 (= Azərb. nağ. (2005), V c., s.5-15); AFA, I c., №77, kont.316*; IV c., s.181-188; AFK, IX c., s.328-348, kont.316*+302 (= Qarabağ, III kitab, s.163-182)

**555 Dilək ağacı.** Kəndlinin bütün arzularını (qoyun sürüsü, imarət və s.) yerinə yetirir. Kəndli ağacı kəsmək istədikdə daşa dönür.

Əliyev-Xəlilov, s.174-176

**557* Cavanlıq alması.** Qəhrəman öküzün belindəki cavanlıq almasını gətirmək üçün o dünyaya gedir. Yolda dilindən asılmış quşa, quyruğundan asılmış ata rast gəlir. Onları xilas edir, əvəzində heyvanlar ona öz tüklərini hədiyyə edir. Cavanlıq almasını əldə edir, heyvanların köməyi ilə yenidən işıqlı dünyaya qayıdır.

Qarabağ, III kitab, s.196-198

**558* Göydən canavar yağır.** Padşah yuxu görür: göydən a) canavar yağır, b) qılınc yağır, c) qoyun yağır. Kasıb ilanın köməyi ilə padşahın yuxusunu yozur, əvəzində aldığı qızılları onunla yarı bölməlidir. Kasıb ilanı öldürüb qızılların hamısına sahib olmaq istəyir, ilan özünü bir dəliyə salmaqla ondan xilas olur. Padşahın yuxusunu yozmaq üçün kasıbı növ-

bəti dəfə saraya çağırırlar, ilan yenə də ona kömək edir. Kasıb ilanın bu xeyirxahlığını görəndən sonra tutduğu işə peşman olur.

AXS, s.182-183; Borçalı folkloru, s.10-15; AFA, VIII c., s.172-176; Azərb. nağ. (2005), I c., s.21-26 (= Azərb. nağ., III c., s.104-109); AFK, II c., s.169-170; Qarabağ, II kitab, s.378-381

**559 Danışmayan qız.** Qəhrəman a) xəstə atası üçün tutulmuş balığı dəryaya buraxır; yaxud b) ölünün borcunu qaytarıb onu dəfn edir. Onun köməyi ilə padşahın qızını danışdırır və onunla evlənir.

SMOMPK, IX burax., II şöbə, s.75-83, kont.653A; s.199-207, kont.509*+661*; XXI burax., II şöbə, s.51-56, kont.653A+661*; s.57-60, kont.661*; XXIV burx., II şöbə, s.265-270, kont.661*+976B*+976*A; XLII burax., III şöbə, s.128-130, kont.661*; Baqri I c., s.27-30 (= ATS, s.133-137); Şirəliyev, s.394-397, kont.976*A+661*; Azərb. nağ., III c., s.223-228, kont.661*+1406+437+860B (= Axundov, II c., s.295-300; = Azərb. nağ. (2005), IV c., s.202-207); Axundov, I c., s.80-90, kont.976+661*+653A; II c., s.262-265, kont.661*; Qərb şivələri, s.262-265, kont.770*; Seyidov, s.36-40, kont.661*; Əlyev-Xəlilov, s.42-55, kont.661*+1406+301B; BYBQ, s.164-167, kont.653A; Borçalı folkloru, s.37-40, kont. 653A+661*; s.67-72, kont.661*+653A+507C; AFA, XI c., s.155-159, kont. 661*+1406; XV c., s.243-254, kont.661*+653A; Azəb. nağ. (2005), I c., s.115-119, kont.661*+653A+1406 (= ATS, s.126-132); AFK, VII c., s.341-344, kont.661*+653A; VIII c., s.221-228, kont.653A+661*; Qarabağ, II kitab, s.196-202, kont. 653A+976*A+661*; III kitab, s.182-191, kont.661*+653A+976*A; NFA, III c., s.237-242, kont.653+661*+976

## 560-649. Qeyri-adi əşya

**560 Sehrli üzük.** Qəhrəman a) yeşiyə salınmış ilanı xilas edir, əvəzində ilanlar padşahı ona dilinin altındakı yaşıl daşı hədiyyə edir; yaxud b) satın aldığı balığın qarınından göy muncuq çıxır. Qəhrəman onun köməyi ilə padşahın nikah tapşırıqlarını yerinə yetirir: a) qoz qabığı içində paltar tikdirir, yeddi mərtəbəli ev tikdirir və onun qızı ilə evlənir. Qəhrəmanın arvadına aşiq olmuş Hindistan padşahının oğlu qarını pulla ələ alır və onun köməyi ilə üzüyü ələ keçirib qəhrəmanın arvadını qaçırdır. Qəhrəman itlə pişiyin köməyi ilə oğurlanmış əşyasını geri qaytarıb arvadını xilas edir.

SMOMPK, III burax., II şöbə, s.126-131; Əlizadə (1937), s.327-336; Azərb. nağ., II c., s.60-69 (= Azərb. nağ. (2005), III c., s.62-71); IV c., s.27-44, kont.566 (= Azərb. nağ. (2005), V c., s.24-42); V c., s.181-187 (= Azərb. nağ. (2005), IV c., s.267-273); İslamov, s.216-218 (= AFA, IV c., s.213-214); Seyidov, s.30-35; AKD, s.128-131; s.362-365; İsmayılov, s.246-261; AFA, I c., №102; II c., s.349-353; IX c., s.221-228; X c., s.121-127; AFK, II c., s.309-318

**560D* Sehrli papaq.** Qəhrəman a) yolçunun ona nişan verdiyi dağın içindən papaq əldə edir; yaxud b) ona atasından sehrli papaq miras qalır. Onun köməyi ilə padşahın nikah tapşırıqlarını yerinə yetirir: öz evlərindən saraya qədər bağ salır, eyni formada və ölçüdə qırx üzük hazırlatdırır və onun qızı ilə evlənir. Paxıl qonşu papağı ələ keçirib onun arvadını oğurlayır. Qəhrəman mehtər paltarında onun yaşadığı şəhərə gəlir və arvadını xilas edir.

İsmayılov, s.246-261; AFA, XVIII c., s.122-125, kont.325

**560E* Sehrli od.** a) Onu əjdahadan xilas etdiyi üçün Gün qəhrəmana sehrli od hədiyyə edir; yaxud b) şeytan qəhrəmana sehrli toppuz hədiyyə edir. Qəhrəman padşahın qızı ilə evlənir. Qız (darğa) toppuzu oğurlayır. Qəhrəman pişiyin, yaxud şeytandan aldığı başqa bir toppuzun köməyi ilə onu geri qaytarır, padşahı və darğanı öldürür.

Azərb. nağ., V c., s.174-180 (= Azərb. nağ. 2005, IV c., s.260-266); Qaravəllilər (1967), s.3-12

**560*A Şumdan tapılmış üzük.** Şumdan tapılmış xəzinənin içində sehrli üzük olur. Vəzir qəhrəmanın çayına bihuşdarı qatıb üzüyü ələ keçirir və onun vasitəsi ilə qəhrəmanı cəhənnəmə atdırır. Qəhrəmanın arvadına sahib olmaq istəyir. Onun xahişi ilə otağa girəndə üzüyü barmağından çıxarıb rəfə qoyur. Arvad üzüyü ələ keçirib ərini xilas edir.

Axundov, II c., s.84-93, kont.864*; Azərb. nağ. (2005), I c., s.246-254, kont.864*

**560*B Süleyman peyğəmbərin üzüyü.** Onun qaşını siləndə iki qul hazır olur. Qəhrəman üzüyü ələ keçirib onun köməyi ilə şəhər əhlini Qülleyi-Qafa atdırır. Vəzirlə qızı səfərdə olduqlarından sağ qalırlar. Vəzirin qızı üzüyü ələ keçirib adamları xilas edir.

Azərb. nağ., I c. s.202-217, kont.1426+896*+986*A+456* (= Azərb. nağ. (2005), II c., s.176-191)

**561 Oğurlanmış əşya başqa bir sehrli əşyanın vasitəsilə qaytarılır.** Qəhrəman a) dərvişin köməyi ilə sehrli şamdan əldə edir: nə arzu edirsə, şamdan onu yerinə yetirir; yaxud b) meşədən sehrli torba tapır, onun ağzını açanda müxtəlif nemətlər hazır olur. Sehrli şamdan (torba) oğurlanır, qəhrəman a) başqa bir sehrli əşyanın köməyi ilə onu geri qaytarır;

b) sehrli yaylıq əldə edir: onu çırpanda iki adam hazır olur; onun köməyi ilə oğurlanmış torbanı geri qaytarır.

SMOMPK, XXIV burax., II şöbə, s.270-273 (= ATS, s.373-381); Qaravəllilər (1967), s.45-52 (= Qaravəllilər (1974), s.30-37); Axundov, II c., s.73-81; Ağayev, s.176-182, kont.411; Azərb. nağ. (2005), I c., s.232-237, kont.785A (= ATS, s.373-381; = Qaravəllilər (1967), s.33-41)

**562 Əhmədi Çekkaş.**

I. a) Naxırçı düzəltdiyi ləyəni padşaha satmaq istəyir, amma buna nail olmur; yaxud b) padşahın barmağındakı qiymətli üzüyü dərvişə verdiyi üçün bərk danlanılır. Padşahdan qisas almaq fikrinə düşür. a) Novruz bayramı çərxi-zəvvara girib iki fəriştənin ixtiyarının ona verilməsini istəyir; yaxud b) Hindistanda bir tilsimçiyə şəyird olmaqla ondan bu sənətin sirlərini öyrənir. Hər gecə padşahın qızını yataq otağından götürüb dükanda çalışan oğlanın yanına gətirir, səhər tezdən isə qızı aparıb öz otağına qoyur. Qız oğlandan uşağa qalır.

II. Padşah qızının oğlanın yanından gətirdiyi meyvələrin köməyi ilə onun qaçırıldığı şəhəri müəyyən edir və oğlanı tutması üçün qarıya qızıl boyun olur. Qarı naxırçını murdarlayıb tilsimdən salır, oğlanı və naxırçını tutub padşahın hüzuruna aparır. Yolda naxırçı özünü dəryaya atıb yenidən gücünü qaytarır və oğlanı xilas edir.

Azərb. nağ., III c., s.210-216 (= Azərb. nağ. (2005), IV c., s.189-195); Bayat, s.107-115

**566 Üç sehrli əşya və qeyri-adi meyvə.**

I. a) Qəhrəmana atasından sehrli kisə, papaq və tütək miras qalır; b) ilan onu xilas etdiyi üçün qəhrəmana sehrli kisə və papaq hədiyyə edir; yaxud c) divlər atalarından miras

qalmış süfrəni, tacı və xalçanı aralarında bölə bilmirlər; qəhrəman tüfəngdən atəş açır, kim gülləyə birinci çatsa, ona süfrəni, ikinci çatana tacı, üçüncü çatana isə xalçanı verəcəyini deyir; divlər güllənin dalınca qaçanda qəhrəman həmin əşyaları götürüb aradan çıxır.

II. a) Həmin əşyalar oğurlanır, yaxud b) onları nərddə padşahın qızına uduzur. Qəhrəman qeyri-adi almanın (onu yeyən buynuz çıxardır) köməyi ilə oğurlanmış əşyaları geri qaytarır.

SMOMPK, XXVIII burax., II şöbə, s.80-89, kont.567; XXXV burax., II şöbə, s.99-101; XLII burax., II şöbə, s.65-68; ATS, s.168-170; s.305-313; Azərb. nağ., II c., s.342-347 (= Azərb. nağ. (2005), III c., s.261-266); III c., s.267-273 (= Azərb. nağ. (2005), IV c., s.227-233); IV c., s.27-44, kont.560 (= Azərb. nağ. (2005), V c., s.24-42); V c., s.146-156; Axundov, I c., s.187-193, kont.567; II c., s.252-256, kont.567; Behrəngi, s.194-208; AKD, s.184-188; Bayat, s.3-18, kont.1352A+567; AFA, III c., s.323-331; V c., s.45; Azərb. nağ. (2005), I c., s.156-157

**567 Dövlət quşu.**

I. Odunçunun arvadı cuhudla başbir olmaq istəyir, onun istəyi ilə kimyagər quşunu kəsib onun ətindən yemək bişirir (quşun başını yeyən padşah olur, ürəyini yeyən isə hər səhər başının altından yüz tümən pul tapır). Qardaşlardan biri quşun başını, o biri isə ürəyini yeyir. Analarının onları öldürmək istədiyini bilib evi tərk edirlər. İki yolayrıcına çıxırlar. Böyük qardaş işlək, kiçik qardaş isə işlək olmayan yolla gedir. Böyük qardaş padşah seçilir. Dünya gözəli kiçik qardaşa içinə bihuşdarı qatılmış alma verməklə quşun ürəyini ələ keçirir.

II. Kiçik qardaş göyərçinlərin nişan verdiyi ağacın budağını əldə edir, onun köməyi ilə qızı qatıra döndərir. Qatırı o

qədər işlədir ki, onun beli yara bağlayır. Qatır padşaha şikayətə gedir. Padşah qatır yiyəsini yanına çağıranda onun öz qardaşı olduğu məlum olur. Kiçik qardaş dünya gözəlini əvvəlki şəklinə qaytarıb onunla evlənir.

SMOMPK, XXVIII burax., II şöbə, s.80-89, kont.566; ATS, s.319-324, kont.1426+895*+410*; Şirəliyev, s.399-400; Axundov, I c., s.187-193, kont.566; II c., s.252-256, kont.566; Bayat, s.3-18, kont.1352A+566; NFA, III c., s.234-236

**567* Ayrı düşmüş qardaşlar.** Sevgilərinə qarşılıq ala bilməyən vəzirin qızları qardaşlara böhtan atır: qardaşların onlara sataşdıqlarını deyirlər. Padşah oğlanlarının öldürülməsini əmr edir. Cəllad qardaşları azad edir, əvəzində onların qanlı köynəklərini padşaha göstərir. Qardaşlardan biri padşah seçilir, o biri qardaş adamyeyənlər ölkəsinə gəlir. Çörəkçi onu tutub zirzəmiyə salır və kökəldib kəsmək istəyir. Kiçik qardaş padşah seçilən qardaşının köməyi ilə xilas olur.

Azərb. nağ., III c., s.5-36, kont.993* (= Azərb. nağ. (2005), IV c., s.5-37)

**571 Sehrli keçi.** Arvad ərini aldadır, guya baldızı hər dəfə tək səbir gətirdiyindən evin bərəkəti qaçır. Kişi Bağdada bacısının yanına gedir, ondan aldığı keçini evə gətirir. Əri evdə olmayanda arvad keçini kəsmək istəyir, əli onun buynuzuna yapışır. Oğlu ona köməyə gəlir, o da keçiyə yapışır.

Əliyev-Xəlilov, s.200-202

**571B Sehrli söz.** Keçəl yağışlı havada paltarını çıxardıb daşın altında gizlədir və quru qalmasının sirrini şeytana verib ondan tilsim öyrənir. Padşahın qızına elçi düşür, qızı ona vermədikdə tilsimi oxuyub padşahın ailə üzvlərini bir-birinə yapışdırır.

Ayrım bəzəmələri, s.90-94; Azərb. nağ., III c., s.161-165, kont.467 (= Azərb. nağ. 2005, IV c., s.141-145)

**575 Taxta at.**

I. Zərgərlə dülgər a) qadın üstündə, yaxud b) hansının sənətinin daha üstün olması üstündə mübahisə edir. Mübahisələrini həll etmək üçün padşaha müraciət edirlər, padşahın oğlu onlardan öz məharətlərini göstərmələrini tələb edir. a) Zərgər qızıldan xoruz düzəldir, dülgər isə taxtadan uçan at hazırlayır. Dülgərin işi padşah oğlunun xoşuna gəlir və mübahisəni onun xeyrinə həll edir. Yaxud b) zərgərlə dülgər mərc gəlirlər ki, hansının düzəltdiyi əşya bazarda baha qiymətə satılarsa, onun sənəti daha üstündür; dülgər mərci udur.

II. Padşahın oğlu taxta atın köməyi ilə başqa bir padşahın qızını qaçırır. a) Qızı yerə düşürüb od gətirməyə gedir, közdən düşən qığılcımdan at alışıb yanır; yaxud b) qız üçün yemək gətirməyə gedir, geri qayıdanda yolu azır.

III. Qız çoban qiyafəsində bir şəhərə gəlir, onu padşah seçirlər. Şəklini çəkdirib şəhər darvazasına vurdurur və kim şəkilə baxıb ah çəksə, onu saraya gətirmələrini tələb edir. Bu yolla nişanlısını tapır.

ATS, s.421-432; Axundov, II c., s.226-233; Azərb. nağ. (2005), I c., s.238-245 (= Azərb. nağ., II c., s.299-306); AFK, I c., s.376-383; X c., s.188-198

**575* Üç sənətkar.** Hər biri öz sənətini tərifləyir. Padşah onların mübahisələrini kəsmək üçün öz bacarıqlarını göstərmələrini tələb edir. Bənna hər daşı bir rəngə çalan ev tikir, dülgər taxta at, zərgər isə qızıl xoruz düzəldir. Padşah onların köməyi ilə düşmən qoşununu məğlub edir.

Seyidov, s.222-224

**582* Sehrli toqqa.** Əmioğlu əmiqızı kiçik yaşlarından bir-birinə nişanlanır, amma fərqli şəhərlərdə yaşayırlar. Qəhrəman nişanlısının dalınca gedir. Onunla evlənib geri qayıdır, yolda ifritə (quş) əmisinin ona hədiyyə etdiyi işıqsaçan toqqanı (köynəyi) oğurlayır. İfritənin yanan tiyanını söndürür, onun tapşırığı ilə ağ divi öldürür (Bax: 301) və ya pəri qızın donunu oğurlayır və toqqasını alıb geri qayıdır.

Azərb. nağ., I c., s.236-262, kont.926C**+968A* (= Azərb. nağ. (2005), II c., s.212-229); Axundov, II c., s.153-160, kont.449; Bayat, s.138-167, kont.926C**+531+302+300

**590 Ana (bacı) divlə əlbir olub oğlunu (qardaşını) öldürmək istəyir.** Özünü xəstəliyə vurub oğlunu a) Ağ divin bağında bitən dirilik almasını, b) narı gətirməyə göndərir. Oğlunun bu səfərlərdən sağ qayıtdığını görən ana onun qolunu yayın kirişi ilə bağlayıb gözlərini çıxarır, özünü isə quyuya atır. Tula gözləri dilinin altında saxlayır. Qəhrəman a) göyərçinlərin verdiyi lələklə və yaxud b) yarpağı əzib suyunu çəkməklə gözlərini sağaldır. Divi və anasını öldürüb onlardan qisas alır.

SMOMPK, VII burax., II şöbə, s.109-120, kont.2627*+302 (= ATS, s.110-124); XXI burax., II şöbə, s.8-12; XLII burax., II şöbə, s.126-135; Əliyev-Xəlilov, s.209-215; AFA, IX c., s.253-259; XVI c., s.225-227; DQ, 2004, №4, s.123-135, kont. 300; Azərb. nağ. (2005), I c., s.179-185; AFK, VIII c., s.215-220; IX c., s.111-113; X c., s.204-206; Qarabağ, III kitab, s.199-201

**590B* Cəlayi-vətən.**

I. Qəhrəman anası ilə köçüb divlərin yaşadığı mağarada məskunlaşır. Ana axırıncı otaqda və ya quyuda həbsə salınmış divlə yaşayır və ondan olan uşağı oğlunun yolu üstünə atır.

II. a) Div əqrəbə çevrilib qəhrəmanı sancmaq istəyir, yaxud b) qəhrəman çeşmənin başında yatanda onu öldürmək istəyir. Divdən olan uşaq qardaşını xilas edir. Ana divin qanını bir qaba yığıb oğlunun yeməyinə tökür. Divdən olan oğlunun təhriki ilə yeməyi özü yeyir və dünyasını dəyişir.

Azərb. nağ., II c., s.307-318, kont.300+303 (= Azərb. nağ. (2005), III c., s.236-247); Behrəngi, s.248-254, kont.304; AFA, X c., s.216-220, kont.1000+1013+1029+1132+1120+1537

**610A* Yeddi dağ alması.** Bağbanın oğluna aşiq olmuş şahzadə qız özünü xəstəliyə vurur. Padşah qızını onu sağaldana ərə verəcəyini elan edir. Bağbanın oğlu həkim cildində qızın yanına gəlir və onu sağaldır. Padşahın çətin tapşırıqlarını yerinə yetirir: a) yeddi dağ almasını, b) Nil çayından yanar əskiləri gətirir. Padşahı öldürüb onun qızı ilə evlənir.

Azərb. nağ., I c., s.64-70 (= Azərb., nağ., 2005, II c., s.53-59)

**612 Ər arvadının qəbrində.** Kişi ölən arvadı ilə bir yerdə mağarada dəfn olunur. Ondan əvvəl padşahın gəlini də ölən əri ilə bir yerdə orada dəfn olunmuş olur. Mağaranın bir küncünü oyub oradan çıxırlar və qəhrəman həmin gəlinlə evlənir.

Azərb. nağ., IV c., s.111-117, kont.470B+881 (= Azərb. nağ. (2005), V c., s.111-117); Axundov, I c., s.91-100, kont.852; AFA, XI c., s.141-145, kont.485

**613 Mərd və Namərd.**

I. Mərdlə Namərd (Xeyirlə Şər) yol yoldaşı olurlar. Aclıq Mərdi əldən salır, o, yol yoldaşından çörək almaq məcburiyyətində qalır, qarşılığında gözlərinin çıxarılmasına razı olur.

II. Mərd heyvanların danışığını eşidir: a) sürüdəki qara qoçun (qurd yağının, ağac yarpağının) padşahın xəstə qızının dərmanı olduğunu öyrənir; b) siçanın qızıllarının yerini öyrənir.

Göyərçinlərin verdiyi lələklə gözlərini sağaldır. Qara qoçu kəsib onun qanı ilə padşahın xəstə qızını sağaldır; daha sonra siçanın xəzinəsini ələ keçirir. Necə varlandığını Namərdə nağıl edir.

III. Namərd heyvanların danışığına qulaq asmaq üçün köhnə xarabalığa gəlir, heyvanlar onu parçalayır.

SMOMPK, XXXV burax, II şöbə, s.85-88 (= AFA, VI c., s.179-181); Cəbrayıl şivəsi, s.415-417; Behrəngi, s.295-298; AFA, IX c. s.125-131; Azərb. nağ. (2005), I c., s.174-178 (= Azərb. nağ., V c., s.141-145)

**613A* Halal qazanc yaxşıdır, yoxsa haram.** Qəhrəman bunun üstündə tacir dostu ilə mərc gəlir. Üç nəfərə məsləhət edirlər, üçü də pulu haram yolla qazanmağın yaxşı olduğu söyləyir. Mərci uduzan qəhrəman şəhəri tərk edir. Şeytanların danışığını eşidir və çobanın sürüsündəki qara itin padşahın xəstə qızının dərmanı olduğunu öyrənir. Onu əldə edib qızı sağaldır, padşah onu mükafatlandırır. Paxıl tacir də varlanmaq istəyir, amma şeytanlar onu parçalayır.

SMOMPK, VI burax., II şöbə, s.77-88

**615* Atılmış arvad.** Padşah xəstəliyə tutulmuş arvadını meşəyə atır. Arvad meşədən tapdığı qeyri-adi yarpağın köməyi ilə şəfa tapır və əri ilə barışır.

Baqri, I c., s.183-196, kont.672D

## 650-699. Qeyri-adi güc, yaxud bilik (bacarıq)

**650* Rüstəmzal və qızı.**

I. Rüstəmzalın qızının bir oğlanı görəndə həmişə başını aşağı dikməsini camaat söz edir, guya qızın həmin oğlanla əlaqəsi var, ona görə başını aşağı dikir. Rüstəmzal qızı haqda gəzən şaiyələr üzündən şəhəri tərk edir. Tanınmaması üçün

dərman atıb görkəmini dəyişir və başqa bir ölkənin padşahına pəhləvan olur. Çayın qabağını kəsmiş əjdahanı öldürür (Bax: 300). Bir müddətdən sonra öz ölkəsinə qayıdır.

II. Qızı Rüstəmzalı və adının hallandırıldığı oğlanı öz evinə qonaq çağırır. Hamı bir xalçanın üstündə oturur. Qız xalçanı dartır, yalnız oğlanın altındakı hissə cırılıb qalır. Məlum olur ki, qız oğlanın gücündən ehtiyat etdiyi üçün həmişə onun yanından keçəndə başını aşağı dikirmiş.

AFA, XVI c., s.184-186, kont.300

**650** Zal və Rüstəm.** Zal getdiyi şəhərdə bir qadınla siğə elətdirir və ondan bir oğlu olur. Uşaq atasının kim olduğunu öyrənib onu axtarmağa gedir və başqa bir padşahın pəhləvanı kimi onun qarşısına çıxır. Zal uşaqdakı fəndləri görüb gələcəkdə onu üstələyəcəyindən ehtiyat edir və onu öldürür. Qolundakı bilərzikdən oğlu olduğunu tanıyır. Bir ağsaqqaldan uşağı qırx gün qucağında gəzdirərsə, onun diriləcəyini öyrənir. Otuz doqquz gün onu qucağında gəzdirir, sonuncu gün əlindən yerə qoyur, uşaq çırpınıf keçinir.

Qarabağ, II kitab, s.267-269

**651*A Oxbatmaz İskəndər.** Mələklər onun bədəninə əllərini çəkdiyindən heç bir ox ona təsir etmir, onu ancaq gözlərindən vurmaqla öldürmək mümkün olur.

BYBQ, s.17-18

**651*B Oxbatmaz İsfəndiyar.** Kim Rüstəmin ölüsünü və ya dirisini gətirsə, Şah Abbas taxtı ona verəcəyini elan edir. Şah Abbasın oğlu atasının tapşırığını yerinə yetirməyə gedir və tilsimdən köynək geydiyindən heç bir ox ona təsir etmir. Rüstəm onu gözlərindən vurmaqla öldürür.

AKD, s.333-347

**653A Ən qiymətli hədiyyə.** a) Üç qardaş eyni qıza aşiq olur: hansı ən qiymətli hədiyyə gətirsə, qız onunla evlənəcəyini vəd edir. Qardaşlardan biri rəmmallığı, o biri həkimliyi öyrənir, kiçik qardaş isə divləri aldadıb onların sehrli əşyalarını ələ keçirir; yaxud b) ata oğlanlarının hər birinə üç yüz manat pul verir və həmin pula yadigar bir şey almalarını vəsiyyət edir. Qardaşlardan biri sehrli xalça, o biri sehrli güzgü, üçüncü isə dirilik suyu alır. Böyük qardaş qızın xəstə olduğunu xəbər verir, kiçik sehrli xalçanın köməyi ilə onları evə çatdırır, ortancıl isə qızı sağaldır.

SMOMPK, IX burax., II şöbə, s.75-83, kont.559; XXI burax., II şöbə, s.51-56, kont.559+661*; Axundov, I c., s.80-90, kont.559+976+661*; AKD, s.328-329; BYBQ, s.164-167, kont.559; Borçalı folkloru, s.37-40, kont.559+661*; s.67-72, kont.559+661*+507C; AFA, V c., s.263; XV c., s.243-245, kont.559+661*; Azəb. nağ. (2005), I c., s.115-119, kont.559+661*+1406 (= ATS, s.126-132); Axısqa folkloru, s.44-47; AFK, VII c., s.341-344, kont.559+661*; VIII c., s.221-228, kont.559+661*; Qarabağ, II kitab, s.196-202, kont.559 +976*A+661*; III kitab, s.182-191, kont.559+661*+976*A; NFA, III c., s.237-242, kont.559+661*+976

**655** = 925*A

**655A** = 925**

**661* Xarrat, dərzi və kimyagər.** Xarrat taxtadan qadın heykəli düzəldir, dərzi ona paltar tikir, kimyagər isə can verir. Daha sonra qadın üstündə mübahisə edirlər.

SMOMPK, IX burax., II şöbə, s.199-207, kont.509*+559; XXI burax., II şöbə, s.51-56, kont.559+653A; s.57-60, kont.559; XXIV burax., II şöbə, s.265-270, kont.559+976B*+976*A;

XLII burax., III şöbə, s.128-130, kont.559; Azərb. nağ., III c., s.223-228, kont.559+1406+437+860B (= Axundov, II c., s.295-300; = Azərb. nağ. (2005), IV c., s.202-207); Şirəliyev, s.394-397, kont.559+976*A; Axundov, I c., s.80-90, kont. 559+653A+976; II c., s.262-265, kont.559; Seyidov, s.36-40, kont.559; Əliyev-Xəlilov, s.42-55, kont.559+1406+301B; Borçalı folkloru, s.37-40, kont.559+653A; s.67-72, kont.559+653A +507C; AFA, XI c., s.155-159, kont.559+1406; XV c., s.243-245, kont.559+653A; XVII c., s.146-148, kont.507C; Azəb. nağ. (2005), I c., s.115-119, kont.559+653A+1406 (= ATS, s.126-132); AFK, VII c., s.341-344, kont.559+653A; VIII c., s.221-228, kont.559+653A; Qarabağ, II kitab, s.196-202, kont.559+653A+976*A; III kitab, s.182-191, kont.559 +653A+976*A; NFA, III c., s.237-242, kont.559+653+976

**670 Ovçu Pirim.**

*I. İlanlar padşahı.* Ağ ilanla qara ilan dalaşır. Ovçu Pirim qara ilanı vurmaq istəyir, amma atdığı ox ağ ilana dəyir. İlanlar padşahı Ovçu Pirimin günahsız olduğunu biləndən sonra onu mükafatlandırır: a) onun ağzına tüpürür, b) dilinin altındakı daşı ona verir, c) dilini Ovçu Pirimin ağzına salıb gəzdirir. Ovçu Pirim ondan sonra bütün heyvanların dilini bilir, amma bu sirri açarsa, onu ölüm gözləyir. Arvadının israrı ilə sirri açmaq istəyir.

*II. Heyvanların söhbəti.* Ovçu Pirim a) itlə xoruzun söhbətini eşidir. Xoruz itə məsləhət görür ki, yiyəsi sirri açmaq istəmirsə, arvadını yaxşıca kötəkləsin; b) qoçun ondan arxın üstündən tulanmağı tələb edən qoyuna verdiyi cavabı eşidir: «sən olma, başqasını taparam» və sirri açmaq fikrindən daşınır. Bəzi variantlarda sirri açır, canavar onu parçalayır.

SMOMPK, VII burax., II şöbə, s.98-110; Əlizadə (1929), s.83-85; ATS, s.243-248; Əlizadə (1937), s.337-340; Azərb. nağ., IV c., s.8-18, kont.467+554 (= Azərb. nağ. (2005), V c., s.5-15); Vəliyev, s.14-16; AFA (1968), II c., s.242-243; Axundov, II c., s.292-294; Tantəkin, s.89-96; AFA, IV c., s.65-66; XII c., s.170-171; XIII c., s.211-212; XIV c., s.118-122, kont.509*+670**; XVI c., I mətn, s.239-242, kont.670*; II mətn, s.242-243; III mətn, s.243-244, kont.670*; AFK, I c., s.237-255, kont.930L*; Qarabağ, I kitab, s.181-183, kont.207A

**670* = SUS 101*** Sadiq köpək.** Ovçu Pirim heyvanların danışığını eşidir və axşam canavarların tövləyə hücum edəcəyindən xəbər tutur. Onun üçün çəkilmiş aşı və yaxud qara qoyunun quyruğunu köpəyə verir. Köpək canavarları sürüyə girməyə qoymur.

AFA, XII c., s.171-172, kont.750B+670**; XVI c., I mətn, s.239-242, kont.670; III mətn, s.243-244, kont.670

**670** = SUS 834* Qoyunla gələn var-dövlət.** Ovçu Pirim a) iki arıq qoyunun danışığını eşidir, onlardan birinin yüz oğul anası, digərinin isə yüz oğul atası olacağını öyrənir; yaxud b) göyərçinlər ona sürüdəki axsaq quzunun böyük bir sürünün başçısı olacağını xəbər verir. Həmin qoyunları özünə götürür, onların hesabına varlanır.

AFA, XII c., s.171-172, kont.750B+670*; XIV c., s.118-122, kont.670+509*; XVI c., IV mətn, s.244-245, kont.670***

**670*** Arıların söhbəti.** Varlı qonşunun qonağı çox olduğu üçün arılar da çox işləyir, amma kasıb qonşunun gəlib-gedəni olmadığı üçün ana arı deyir: “Gedəni yox, gələni yox, gec-gec gedin, gec-gec gəlin”. Ovçu Pirim həmin təhnədəki arıları özünə götürür.

AFA, VI c., s.117; XVI c., IV mətn, s.244-245, kont. 670**

**670**** Göydən gələn bəla.** Heyvanların dilini bilən bir kişi atının, camışının öləcəyini bilib onları ucuz qiymətə satır, axırda bəla onun özünə gəlir.

Bayat, s.240-242; AFA, XVI c., I mətn, s.256-257; II mətn, s.257; Qarabağ, I kitab, s.225-226, kont.751C+332

**671C** Dağyunusun xəzinəsi.** a) Qəhrəman körpə uşaqlarını quşlarla bir yerdə böyüdür və bu yolla onların quş dili öyrənmələrinə nail olur. Daha sonra çoxlu heyvan kəsdirib onların ətini quzğunlara yedirdir. Yaxud b) ata oğlunun yuxusuna girib onun üçün ehsan verməsini xahiş edir. Oğlu buna əməl edir. Ehsan ətini yeyən quzğunlardan Dağ Yunusun çovğuna düşmüş karvanının yerini öyrənir.

AFA, XI c., s.60-61; Qarabağ, I kitab, s.270-271

**671E = AT 671E* Münəccim uşaq.**

I. Şah yuxuda dəryadan çıxan arıq sünbülün kök sünbüllərin hamısını qırdığını görür. Uşaq şahın yuxusunu yozur. Münəccimbaşı uşağı öldürüb qanlı köynəyini ona gətirmələrini əmr edir. Münəccimlər uşağı sərbəst buraxırlar, onun köynəyini heyvanın qanına bulayıb münəccimbaşına göstərirlər.

II. Padşah növbəti dəfə yuxu görür və münəccimlərdən yuxunu yozmalarını tələb edir. Münəccimlər uşağı öldürmədiklərini etiraf edirlər və yuxunu yozmaq üçün onu saraya gətirirlər. Uşaq padşaha qıtlıq olacağını xəbər verir və çoxlu taxıl alıb anbarlara yığmağı məsləhət görür; ondan sonra padşah öz taxt-tacını uşağa verir.

Bayat, s.211-216

**671* Qarğaların şikayəti.** a) Qarğalar İskəndərə Bəlğ pəhləvanının zülmündən şikayət edirlər; yaxud b) ana qarğa uşaqları ondan almaq istəyən ata qarğadan şikayət edir. Qəh-

rəman a) Bəlğ pəhləvanı öldürüb camaatı onun zülmündən xilas edir; yaxud b) qarğaların mübahisəsini ana qarğanın xeyrinə həll edir.

Azərb. nağ., V c., s.200-204; Azərb. nağ. (2005), I c., s.93-104, kont.517 (= ATS, s.67-82; = Azərb. nağ., III c., s.166-176)

**672D = AT 672D* Sehrli ot.** Onu yeyən bütün otların dilini bilir. Padşahın arvadı otu bişirmək üçün aşbaza verir. Aşbaz otu xamıra qatıb kündələyəndə kündəni əlindən yerə salır. Həmin kündəni yeyən şəyird bütün otların dilini bilir.

Baqri, I c., s.183-196, kont.615*

**672E* Dəryaya atılan çörək.** Oğlan atasının məsləhəti ilə hər gün dənizə çörək atır. Onları yemlədiyi üçün balıqlar padşahı dilinin altındakı tikanı ona hədiyyə edir. Qəhrəman onun köməyi ilə bütün canlıların dilini bilir.

SMOMPK, XLII burax., II şöbə, s.38-42, kont.936+507C

**672*A Qəhrəman ona yaxşılıq etmiş ilanı ələ verir.**

I. Yoldaşları ilə meşəyə odun yığmağa gedən qəhrəman arı şanı çıxarmaq üçün quyuya düşür, yoldaşları onu quyuda qoyub gedirlər. Şamıran ilan ona yeddi il sürən bir əhvalat danışır, həmin müddət qəhrəmana bir neçə gün kimi gəlir. İlanın köməyi ilə quyudan çıxır.

II. Şamıran ilanın yağı xəstə padşaha dərman deyilir. Qəhrəman ilanın yerini ələ verir. İlanın məsləhəti ilə onun bir qarış başından, bir qarış da quyruğundan kəsib quyuya atır, ilan yenidən dirilir. İlanın yağından padşahın bədəninə çəkən kimi o, dünyasını dəyişir.

AFA, I c., №74

**672*B** Ovçu onu a) quyudan çıxarmış, yaxud b) dəvədən xilas etmiş ilanın yerini ələ verir. İlan onun sifətinə tüpürür, ovçunun sifəti əriyib tökülür.

BYBQ, s.37-38; AFA, XXIII c., s.158-159

**675 Xeyirxah balıq.** Qəhrəman balığı dəryaya buraxır: nə arzu edirsə, balıq onu yerinə yetirir. Onun istəyi ilə padşahın qızı ondan uşağa qalır. Padşah qızını və oğlanı sandığa qoyub çaya atır. Qızla oğlan xilas olurlar və saray tikdirirlər. Axırda padşah oğlanı kürəkənliyə qəbul edir.

AKD, s.144-147

**676 Qırx hərami.** Qəhrəman quldurların yaşadığı mağaradan oğurluq edir. Paxıl qonşu da varlanmaq istəyir, amma quldurlar onu öldürür.

Seyidov, s.162-166

**678 Sehirkar padşahla vəziri.** Padşah vəzirə müxtəlif cildə düşmək sənətini öyrədir. Padşah sona şəklinə düşəndə vəzir onun cildinə girib taxtı ələ keçirir. Padşah arvadının köməyi ilə əvvəlki şəklinə qayıdır və vəziri təndirə atıb yandırır.

Axundov, II c., s.277-279; Muğan şivələri, s.232-233 (= Şirəliyev, s.375-376); AFA, II c., s.333-334

**679* = AT 875D Balıqların gülməsi.** a) Tacir qəbiristanlıqdan tapdığı kəlləni, və ya dəryada üzən kəsik başı evə gətirir; tacirin qızı kəllənin tozundan dadıb uşağa qalır. Yaxud b) qadın boynuna uşaq düşəndən sonra əri ilə yatmaqdan imtina edir. Dünyaya gələn uşaq balıqların gülməsinin və yaxud qızın erkək göyərçinləri yolmasının səbəbini izah edir. Padşah arvadının (qızının) yanında oynaş saxladığını öyrənib onu öldürür.

Bu süjet AT kataloqunda 875D nömrəsində verilib.

SMOMPK, VII burax., II şöbə, s.77-79; Azərb. nağ., III c., s.140-148, kont.178C* (= Azərb. nağ. (2005), IV c., s.119-127); IV c., s.124-129, kont.178C* (= Azərb. nağ. (2005), V c., s.124-129); Cəfərli, s.333-337, kont.178C*; İsmayılov, s.135-145, kont.178A+178D*+178C*; Əliyev-Xəlilov, s.176-180; AFA, IX c., s.259-263; XII c., s.172-179, kont.178C*+178D* (= BYBQ, s.167-173); XVI c., s.211-224, kont.2563*; AFK, VII c., s.347-352, kont.759C+922H*+922B**; X c., s.230-236; Qarabağ, II kitab, s.182-187;

## 700-749. Başqa qəribə hadisələr

**700 Noxudbala.** Möcüzəli şəkildə doğulur; eşşəyin qulağında oturub tarlada işləyən atasına çörək aparır; mal peyininə düşür; arvadlar peyini çuvala yığıb aparanda qışqırıb onları qorxudur; anası onu çimizdirmək üçün təndiri qalayır, ocağa düşüb ölür.

AKD, s.204-205

**706 Qolsuz qızlar.** İki dost qızlarını əmilərinə tapşırıb başqa bir ölkəyə səfər edir. Əmi qızlara böhtan atır, onların pis yola düşməsi haqqında nişanlılarına məktub yazır. Nişanlıları onların qollarını kəsir, özlərini isə meşəyə atırlar. Şir ağzının suyu ilə onların qollarını sağaldır. Axırda həqiqət üzə çıxır, günahkar cəzalandırılır.

Axundov, I c., s.202-215

**706C Ata qızına aşiq olur.**

I. Ana ölüm ayağında ərinə vəsiyyət edir ki, ayaqqabısı kimin ayağına olsa və yaxud üzüyü kimin barmağına gəlsə,

onunla evlənsin. Arvadın ayaqqabısı qızının ayağına uyğun gəldiyindən cuhud onunla evlənmək istəyir. Qız su başına çıxmaq bəhanəsi ilə atasından qaçır. Padşahla (şahzadə ilə) evlənir, ondan bir oğlu olur.

II. Cuhud gecə saraya daxil olub uşağın başını kəsir, qanlı bıçağı qızının yastığının altına (cibinə) qoyur. Qızı uşağın ölümündə günahlandırıb saraydan qovurlar. Qız a) göyərçinlərin verdiyi lələyi uşağın boynuna çəkir; yaxud b) onu göyərçinlərin nişan verdiyi çayda çimizdirir, uşaq dirilir. Axırda qızın günahsız olduğu üzə çıxır.

SMOMPK, XIX burax., II şöbə, s.194-199; ATS, s.297-304; Azərb. nağ., II c., s.280-289 (= Azərb. nağ. (2005), III c., s.216-226); Behrəngi, s.315-319, kont.709; AKD, s.181-184; s.365-367; Bayat, s.216-224; Borçalı folkloru, s.26-30; AFA, I c., №88; II c., s.26-30; IX c., s.163-165; XV c., s.289-290; AFK, IX c., s.93-98; s.245-248; X c., s.170-178; s.216-224; NFA, III c., s.245-248

**706D*** Qəhrəman tacir dostu ilə göy gözlü, kürən saçlı arvadın evində gecələyir. Gecə özünü yuxuluğa vurur və arvadın öz oğlunun başını kəsib qanlı bıçağı tacirin balıncının altına qoyduğunu görür. Taciri uşağın ölümündə günahlandıranda qəhrəman həqiqəti söyləyib dostunu xilas edir.

Baqri, III c., s.77-80

**707A = AT 707 Uşağın dəyişdirilməsi.**

*I. Qızıl birçəkli uşaqlar.* Padşah üç bacının danışığını eşidir, onların qeyri-adi xüsusiyyətə malik olduğunu öyrənir: böyük bacı bir yumurta ilə qırx qonağı yola sala bilir, ortancıl elə bir xalça toxuya bilir ki, onun üstündə yüz adam oturur,

kiçik bacı isə birçəyinin bir tərəfi qızıl, bir tərəfi gümüş övlad dünyaya gətirəcəyini deyir; padşah kiçik bacı ilə evlənir.

*II. Böhtanlanmış arvad.* Padşahın kiçik bacıdan bir qızı, bir oğlu olur: qızın saçı qızıldan, oğlanın saçı isə gümüşdən olur. Böyük bacılar (baş hərəm) uşaqları oğurlatdırıb yerinə it küçüyü qoyurlar. Arvadının it küçüyü doğduğuna qəzəblənən padşah onu a) mal gönünə sarıtdırıb günün altında saxlatdırır, b) peyinin içinə basdırır, yaxud c) gözlərini çıxartdırır, sağ gözünü sol, sol gözünü sağ əlinə verib evdən qovur.

*III. Uşaqların tapılması.* Uşaqlar tacirbaşının və ya dəyirmançının himayəsində böyüyürlər. Axırda həqiqət üzə çıxır, padşah böyük bacıları dar ağacından asdırır.

SMOMPK, XIII burax, II şöbə, s.318-322, kont.883A*; XXIV burax., II şöbə, s.215-219, kont.550; Azərb. nağ., III c., s.121-127; AKD, s.126-128; İsmayılov, s.282-290; Əliyev-Xəlilov, s.133-143, kont.301+300; AFA, IV c., s.202-209, kont.883A*; X c., s.178-182; XIII c., s.250-252; XIV c., s.139-142; Azərb. nağ. (2005), I c., s.164-167 (= ATS s.171-177); AFK, II c., s.271-274; Qarabağ, III kitab, s.289-294; s.294-296

**707B** Bu variantda süjet çətin tapşırıqların verilməsi ilə davam edir. Baş hərəm uşaqları öldürmək üçün onu Qırx qönçə xanımı, keçəpapağı və s. gətirməyə göndərir. Qəhrəman atın köməyi ilə tapşırıqları yerinə yetirir.

SMOMPK, VII burax., II şöbə, s.95-104, kont.513A; XXXIII burax., IV şöbə, s.96-99; Azərb. nağ., II c., s.106-118 (= Azərb. nağ. (2005), III c., s.80-93); III c., s.183-189 (= Azərb. nağ. (2005), IV c., s.162-168); Əliyev-Xəlilov, s.3-20; AFA, IX c., s.184-188; XII c., s.179-186, kont.989*; Azərb. nağ. (2005), I c., s.199-203; NFA, III c., s.166-174

**709 Sehrli güzgü.** Ana öz qızının ondan da gözəl olduğunu öyrənib onu evdən qovur. Qız yeddi qardaşın yanında yaşayır. Qızını təqib edən ana ona zəhərli saqqız verir, onu çeynədikdən sonra qız dünyasını dəyişir. Qardaşlar onu atın üstündəki xurcunun gözünə qoyub çölə buraxırlar. Padşah qıza aşiq olur, içi südlə doldurulmuş yeddi hovuzda çimizdirməklə onu dirildir və qızla evlənir.

Behrəngi, s.315-319, kont.706C

**715 Boranı.** Padşahdan atasının borcunu almağa gedən boranı yolda qarşılaşdığı heyvanları udur. a) Padşah onu toyuqların arasına atdırır; boranı tülkünü boşlayır, tülkü toyuqları qırır; b) padşah onu qoyunların arasına atdırır; boranı bu səfər canavarı boşlayır, canavar qoyunları parçalayır; c) padşah boranını ocağa atdırır; boranı suyu boşlayıb ocağı söndürür. Padşah boranını xəzinəyə salır, xəzinəni yığıb evə gətirir.

Behrəngi, s.273-275; AFA, XII c., s.188-189

**715A** = 2050* nömrəsində verilib.

**725** = 921* nömrəsində verilib.

**730* Varlı və kasıb qonşu.** Meşəyə odun yığmağa gedən kasıb başı ağrıdığından bir ağacın dibində uzanıb dincini almaq istəyir, onu yuxu tutur. Oyandıqda artıq hava qaralmış olur. Kasıb yığdığı odunları götürüb evə qayıdanda yarpaqların arasından nəyinsə bərq vurduğunu görür. Həmin yeri qazır, oradan bir küp qızıl tapır. Varlı qonşu da varlanmaq həvəsi ilə meşəyə gedir, onu canavar parçalayır.

Əliyev-Xəlilov, s.131-133

**731* = SUS 735**** Kədi çərdəyi.** Quş qanadını sağaltdığı üçün kasıba qeyri-adi kədi çərdəyi hədiyyə edir. Kasıb çərdəyi əkir, ondan yetişən kədinin içində buğda əmələ gəlir. a)

Buğda zəhər kimi dadır, yaxud b) dəyirman buğdanı üyütmür. Kasıb mollanın məsləhəti ilə həmin buğdadan quşlara, kimsəsizlərə pay verir, ondan sonra a) buğda şirinləşir, b) dəyirman onu üyüdür. Paxıl qonşu da varlanmaq istəyir: qəsdən quşun qanadlarını sındırır, sonra onu sağaldır; onun hədiyyə etdiyi kədi çərdəyini əkir, tarlada kədi əvəzinə qaratikan kolu bitir.

AFA, I c., №65; XVI c., I mətn, s.247-248; II mətn, s.248

**732* Körüyün içindəki ləl-cəvahirat.** Dəmirçi yediyi yeməkdən cinə vermir, cin də ləl-cəvahiratı dəmirçiyə göstərib onları qeybə çəkir. Dəmirçi cini yeməyə qonaq etmədiyinə peşman olur.

Əliyev-Xəlilov, s.117-124, kont.456*+836F

**733* Pinəçinin peşmançılığı.** Tez-tez ayaqqabısını təmir etdirməyə gələn müştərisindən şübhələnib padşaha şikayət edir; müştəri qeybə çəkilir; pinəçi tutduğu işə peşman olur.

Axundov, II c., s.301-311, kont.449+400*B+738+994**; Seyidov, s.99-106, kont.994**+836F+738; İslamov, s.213-216, kont.994**+400*B+449 (= AFA, IV c., s.199-202); IX c., s.197-200, kont.994**+738+ 836F

**736** = 834C* nömrəsində verilib.

**737B*** = 834**

**738 = AT 738* Ağ ilanla qara ilan dalaşır.** Qəhrəman qara ilanı vurmaq istəyir, amma atdığı ox ağ ilana dəyir. Onu ilanlar padşahının hüzuruna aparırlar. Yolda ilanlar onu xəbərdar edir ki, ilanlar padşahından qırxıncı otağdakı hədiyəni istəsin. Qəhrəman onların sözünə əməl etmir, otuz doqquzuncu otağdakı qızıl-gümüş üyüdən dəyirmanı istəyir; qırxıncı otağdakı dəyirmanın ləl-cəvahirat üyütdüyünü görəndə tutduğu işə peşman olur.

Axundov, II c., s.301-311, kont.994**+449+400*B+733*; Seyidov, s.99-106, kont.994**+836F+733*; AFA, IX c., s.197-200, kont.994**+733*+836F

**740 = AT 740* Evdən qovulmuş qardaş.** Böyük qardaş arvadının sözü ilə kiçik qardaşı və atasını evdən qovur. Allah qocanın quşları qovmaq üçün əlinə götürdüyü daşı qızıla döndərir. Kiçik qardaş həmin daşı qırx dəvə yükü qızıla padşaha satır və onun hesabına varlanırlar. Böyük qardaşın isə bütün var-dövləti əlindən çıxır və dilənmək məcburiyyətində qalır.

Axundov, II c., s.280-286; Qarabağ, III kitab, s.300-305

**745 =** Bax 835*

**745A =** Bax 834B*

# III. DİNİ NAĞILLAR

## 750-779. Allah mükafatlandırır və ya cəzalandırır

**750A Üç dilək.** Odunçu Allahdan üç dilək haqqı alır: birini arvadına verir, birini qızına, birini isə özünə saxlayır. Arvadı on beş yaşında gözəl bir qız olmasını istəyir. Bulaq başına su gətirməyə gedəndə padşahın oğlu onu atın tərkinə alıb qaçırır. Odunçu Allahdan arvadının itə çevrilib həyətə zəncirlənməsini istəyir. Odunçunun qızı sonuncu diləkdən istifadə edib anasını əvvəlki şəklinə qaytarır.

AFA, XVI c., s.296-297

**750B Səxavət vardandır, yoxsa insanlıqdan.** Padşahla vəzir mübahisələrini həll etmək üçün əvvəl varlı, sonra kasıb adama qonaq olurlar. Varlı onları qapıdan qovur, kasıb isə bir illik qazancı olan qoyunları kəsib onların böyrəyindən padşaha yemək hazırlayır. Padşah ondan sonra səxavətin insanlıqdan olduğuna əmin olur.

SMOMPK, XXVII burax., II şöbə, s.26-29; AKD, s.359-360; AFA, I c., №82; V c., s.247-249; XII c., s.171-172, kont. 670*+670**; XV c., s.286-287, kont.300

**750B* İbadət yaxşıdı, yoxşa səxavət.** a) İmam Həsənlə İmam Hüseyn mübahisələrini həll etmək üçün əvvəl abidə, sonra naxırçıya qonaq olurlar; yaxud b) axirət qonşusunun kim olduğunu öyrənmək istəyən peyğəmbər Allahın məsləhəti ilə əvvəl abidə, sonra lotuya (haramıbaşına) qonaq olur. Abid qeybdən qonaq üçün gələn yeməyi və yorğan-döşəyi gizləyir (Bax: 751). a) Naxırçı isə onları mehriban qarşılayır, arvadı,

övladları dünyasını dəyişir, amma qonaqları üzməmək üçün acısını büruzə vermir; yaxud b) peyğəmbər özünü xəstəliyə vurur, haramıbaşı onun əlini sağaltmaq üçün öz uşağının başının kəsilməsinə razı olur. Bu hadisənin şahidi olan İmam Həsənlə İmam Hüseyn səxavətin ibadətdən daha yaxşı olduğunu başa düşür, yaxud peyğəmbər axirət qonşusunun haramıbaşı olduğunu öyrənir.

AFA, VI c., s.163-166, kont.751; XII c., s.203-206 (= BYBQ, s.108-110); XVI c., s.252-254, kont.779**+751

**750B** Əl tutmaq savabdır.** Molla un üçün qapısına gələn şəxsi əli-boş geri qaytarır, keşiş isə ona əl tutur. Allah keşişi cənnətlə mükafatlandırır.

AFA, XVI c., s.273-274

**750C* Allah qonaq xoşlamayan arvadı cəzalandırır:** dünyasını dəyişəndən sonra onu itə döndərir.

AFA, XVI c., I mətn, s.254-255

**750C** Qəbir əzabı.** Qəbirdə gecələyən Həzrət Əli küncdə örtüyün arxasına iki heyvanın bağlandığını görür. Məlum olur ki, qonaq sevmədiyi üçün Allah onları o şəklə salıb.

AFA, XVI c., s.83-84

**750D Peyğəmbərlə üç yolçu.** Peyğəmbər yolçuların arzusunu yerinə yetirir: onlardan birinə bağ, birinə qoyun sürüsü, birinə də halal südəmmiş qız qismət edir. Daha sonra yolçuları sınamaq üçün növbə ilə onlara baş çəkir. Bağ sahibi peyğəmbəri adi yolçu hesab edib bağın meyvəsindən vermək istəmir, sürü sahibi öz heyvanına qıymır. Peyğəmbər bağı qaratikan koluna, sürünü isə daşa döndərir. Daha sonra üçüncü yolçuya qonaq olur. a) Peyğəmbər özünü xəstəliyə vurur, oğlan onu sağaltmaq üçün öz uşağının başının kəsilməsinə razı olur. Yaxud

b) ev sahibinin uşaqları dünyasını dəyişir, qonağı üzməmək üçün öz acısını üzə vurmur. Xeyirxahlığına görə peyğəmbər onu mükafatlandırır: uşaqların üstündə namaz qılmaqla onları dirildir.

SMOMPK, XXVIII burax., II şöbə, s.29-32; Əliyev-Xəlilov, s.220-223; Bayat, s.27-37; AFA, I c., №93; XII c., s.189-196; s.196-203 (= BYBQ, s.113-117)

**750D* Dərviş və iki yolçu.** Yolçulardan biri qurud əzir, digəri təzək yığır. Dərviş onların arzusunu yerinə yetirir, birinə padşahlıq, digərinə vəzirlik verir, amma uşaqların birini ona verməlidirlər. Şərti pozduqları üçün var-dövlətləri əllərindən çıxır (Müqayisə et: 507*).

Qarabağ, III kitab, s.241-243

**750İ* Kürək kürəyə yapışmış qardaşlar.** a) İki qardaş o qədər kürək kürəyə verib otururlar ki, kürəkləri yapışır; yaxud b) Musa peyğəmbər qızınmaq üçün kürəyini abidin kürəyinə sürtür, kürəkləri bitişir. Naxırçı (haramıbaşı) öz oğlunun başını kəsib qanını qardaşların (Musayla abidin) kürəyinə tökməklə onları bir-birindən ayırır. Xeyirxahlığına görə Allah onu cənnətlə mükafatlandırır.

Qarabağ, II kitab, s.303-304, kont.751; III kitab, s.239-240

**750J* Allahın hörmətli bəndəsi.** Musa peyğəmbər Allahın ən hörmətli bəndəsinin kim olduğunu öyrənmək istəyir və onun məsləhəti ilə çobana qonaq olur. Çobana gündə üç öynə qızıl boşqabda yemək gəlir. Çoban yeməkləri yedikdən sona boşqabları qayadan atır. Allah həmin çobanı cənnətlə mükafatlandırır.

Qarabağ, I kitab, s.213-214; s.214-215, kont.751

**750K* Qonaqpərvər qəssab (naxırçı, çoban)**. a) Qəssab Əli başı üçün almaram, Əli başı üçün vermərəm deyib ətə bir dəfə balta vurur, ət neçə kilo lazımsa, o qədər gəlir. Həzrət Əli ona qonaq olur. Yaxud b) Şah Abbas çobana qonaq olur. Qəssab (çoban) bütün qoyunlarını, yaxud bir illik qazancı olan qoyunları kəsib onların böyrəyindən qonaqlara yemək bişirir. Uşağı ölür, qonaqların narahat olmaması üçün acısını üzə vurmur. Qonaqpərvərliyinə görə Həzrət Əli onu mükafatlandırır.

Qarabağ, I kitab, s.197-199; II kitab, s.284-287; s.287-293, kont.934G*

**750* İynənin ulduzundan dəvə keçər?** Qırx il ibadət edən abid buna şübhəylə yanaşır, amma qaval çalıb oynayan şəxs deyir: “Allah razı olandan sora fil karvanı da keçər”. Allaha inamına görə qaval çalan cənnətlə mükafatlandırılır.

Qarabağ, II kitab, s.304-305

**751 Xəsis abid.** Abid adam olmayan yerə çəkilib ömrünü Allaha ibadətlə keçirir və o qədər namaz qılır ki, şəkli alnını qoyduğu möhürün üstünə düşür. Hər gün ona Allah tərəfindən a) bir nar ruzu göndərilir. Yaxud b) bir çörək və bir dəst yorğan-döşək göndərilir. Qonağı olduğu üçün Allah ona iki nar və iki dəst yorğan-döşək göndərir. Abid narın birini gizləyir, yorğan-döşəyi isə öz üstünə örtüb yatır. Gecə abid soyuqdan üşüyür, amma öz kürkünə bürünüb yatan qonaq soyuğu hiss etmir. Qonağın ruzusunu kəsdiyi üçün a) nar ağacı quruyur, və yaxud b) para nar gətirir.

AFA, VI c., s.163-166, kont.750B*; XII c., s.203-206 (= BYBQ, s.108-110); XVI c., s.251-252; s.252-254, kont.750B* +779**; Qarabağ, I kitab, s.214-215, kont.750J*; s.216-217; II kitab, s.303-304, kont.750İ*; s.305-306

**751A = AT 751A* Musa peyğəmbər Allahı qonaq çağırır.** Allah (Xıdır İlyas) sail sifətində Musa peyğəmbərə (cütcüyə) qonaq gəlir; bişirilən yeməkdən istəyir, peyğəmbər onu qapıdan qovur; aşbaz öz aş payını sailə verdiyi üçün Allah onu cənnətlə mükafatlandırır.

AFA, XVI c., s.283-284; Qarabağ, I kitab, s.212-213

**751C = AT 751C* Pul insanı dəyişdirir.** a) Qoca odunçuya bir kisə qızıl və sehrli süfrə hədiyyə edir; yaxud b) Allah kasıba var-dövlət qismət edir, amma qapısına gələnləri əliboş geri qaytarmamağı tapşırır. Varlanan odunçu şərtə əməl etmir, var-dövləti əlindən çıxır. Digər variantda isə, oğlan Allahın tapşırığını yaddan çıxarsa da, arvadı onun qazandığı pulların bir qismini kasıblara paylayır. Arvadının əliaçıqlığına görə Allah onun günahından keçir.

Əliyev-Xəlilov, s.153-156; AFA, XVI c., s.326-327; Qarabağ, I kitab, s.225-226, kont.670****+332

**751C* Bərəkətli toxum.** Xeyirxah qoca əkinçiyə qeyri-adi buğda toxumu hədiyyə edir, əvəzində əkinçi götürdüyü məhsulu onunla yarı bölməlidir. Bol məhsul götürən əkinçi şərtə əməl etmir, leysan onun bütün buğdasını aparır.

Baqri, I c., s.70-71

**753*A Müqəddəs dəyirmançı:** Səbəti su ilə doldurur. Peyğəmbər onun müqəddəsliyinə şəkk gətirir, dirəkdən asılmış səbət qırılır, su onun üstünə tökülür.

BYBQ, s.192-194

**753*B Dəyirmançı çırağa nöyüt əvəzinə su töküb yandırır.** Öz məharətini tacirə də öyrədir, tacir Allahın işinə qarışdığına görə həmin xüsusiyyəti itirir.

BYBQ, s.30-31

**754 Qızıl bəlası.** Padşah hər gün şənlik düzəldib əylənən odunçuya yarım kisə qızıl hədiyyə edir. Odunçu artıq şənlik düzəltməyi tərgidir, qazandığı pulları kisəyə yığıb onun başını doldurmağa çalışır.

AFA, I c., №158

**755A = SUS 755A* Göz yaşı.** Ata dünyasını dəyişmiş oğlanlarını dəfn edir, üçüncü oğlunu basdıranda gözündən bir damla yaş qəbrin içinə düşür. Növbə ilə qəbiristanlığa gəlib oğlanlarını çağırır. Qəbrin içinə düşən göz yaşı selə çevrilib yolu-irizi basdığından kiçik oğlu onun çağrışına gec cavab verir.

SMOMPK, XXIV burax., II şöbə, s.102-104; AFA, XIII c., s.167-168; XVI c., s.312-314

**756C Ən böyük günahkar.** Tutduğu əməllərdən peşman olan kişi günahlarının bağışlanması üçün Allaha yalvarır. Onun məsləhəti ilə dağın ətəyinə yanmış kösöv basdırır: kösöv (qara daş) nə vaxt göyərsə, onun günahları bağışlanmış olacaq. a) Özündən böyük günahkarı (zalım kəndxudanı), yaxud b) yüz nəfərin ölümü haqqında fərmanı aparan atlını öldürdüyü üçün Allah onun günahlarını bağışlayır.

SMOMPK, XXVIII burax., II şöbə, s.22-24; AFA, V c., s.200; X c., s.210-211; XIII c., s.190-191; Qarabağ, III kitab, s.234-236

**756* Xıdır ölünün namazını qılır.** Pis əməllərlə məşğul olan şəxs hər gün günahlarının bağışlanması üçün Allaha dua edir. Dünyasını dəyişdikdən sonra Allah onun cənazə namazını Xıdır Nəbiyə qıldırır.

AFA, XVI c., s.284-285

**757 Peyğəmbərin qürrələnməsi.** Allah Məkkəni tikdirdiyinə görə qürrələnən İbrahimxəlil peyğəmbəri səhraya atdırır. Aclıq və susuzluqdan əziyyət çəkən peyğəmbər Məkkənin savabını bir bardaq su ilə bir parça çörəyə satır.

Qarabağ, I kitab, s.203-204

**757* Fironun cənnət tikdirməsi.** Allah ölmüş qadının qəbri üstündə süd bulağı xəlq edir, yeni doğulmuş uşaq həmin bulaqdan içib sağ qalır. Uşaq böyüyüb firon olur. Cənnət tikdirir, amma ona qapı tapa bilmir. Cənnətin yarısını verib qapının bir tayını Cəbrayıldan alır, daha sonra o biri yarısını verib o biri tayını alır. Cənnətə girmək istəyəndə Əzrayıl onun canını alır.

AFA, XVI c., s.279-281

**759 Musa peyğəmbərlə Xıdır Nəbinin yolçuluğu.** Musa peyğəmbər Allahın məsləhəti ilə duzlu balıq götürüb səfərə çıxır. Əlini yuduğu sudan balığın üstünə çiləyir, balıq harada dirilsə, orada Xıdır Nəbini gözləyir. Onunla yoldaşlıq edir, amma gördüyü işlərin səbəbini ondan xəbər almamalıdır. Xıdır Nəbi a) gəminin kanını qoparır, b) cavan uşağa ölüm, qocaya uzun ömür arzulayır, c) uçuq barını hörür. Musa peyğəmbər özünü saxlaya bilmir və Xıdır Nəbidən həmin əməllərin səbəbini xəbər alır. Xıdır Nəbi onları izah etdikdən sonra qeybə çəkilir.

AFA, XVI c., I mətn, s.285-288; II mətn, s.288-290; III mətn, s.290-293

**759A* Peyğəmbərin arzusu.** Peyğəmbər uşağa ölüm, qocaya isə uzun ömür arzulayır, daha sonra bunun səbəbini izah edir.

AFA, XVI c., s.47-48

**759C Un təknəsi gəmini xilas edir.** Külək a) qarının un təknəsini aparır, yaxud b) kişinin ununu yerə dağıdır. Qarı (kişi) Davud peyğəmbərə şikayətə gedir. Davud peyğəmbər təknənin əvəzinə ona yüz kilo qızıl təklif edir, amma qarı Süleyman peyğəmbərin məsləhəti ilə qızılı qəbul etmir və öz təknəsini istəyir. a) Məlum olur ki, külək qarının təknəsini gəminin deşiyinə salıb onu batmaqdan xilas edib. Əvəzində gəmi sahibi gəmini qarıya bağışlayır. Yaxud b) Süleyman peyğəmbər küləyə əmr edir, külək dağılmış unu dağarın içinə yığır.

AFA, XVI c., s.60-61; AFK, VII c., s.347-352, kont. 922H*+679*+922B**

**759* = SUS 759 Peyğəmbər Allahı ədalətsizlikdə günahlandırır.** Atlının bulaq başında unutduğu xurcunu eşşəkçi götürür, amma atlı çobandan şübhələnib onu öldürür. Bu hadisənin şahidi olmuş Musa peyğəmbər (Süleyman peyğəmbər) Allahı ədalətsizlikdə günahlandırır. Allah atlının hərəkətinə haqq qazandırır.

AFA, IV c., s.158-159, kont.774D**; XVI c., s.293-294, kont.830*; Axısqa folkloru, s.33-34

**759** Qayıqçı Allahı ədalətsizlikdə günahlandırır.** Qoca əba, əsa və torbasını onu dəfn edən qayıqçıya vəsiyyət edir, amma həmin əşyalar quldurbaşına qismət olur. Allah öz əməlinə haqq qazandırır.

AFA, VI, c., s.170

**759*** Allahın üç səhvi.** İsa peyğəmbər Allahın səhvlərini göstərir: alim kasıb güzaran keçirir, uşaqlarına verməyə yeməyi olmayan ana boş qazana su töküb qaynadır, varlı harınlıqdan ağzını çörəklə silir. Allah onun haqlı olduğunu etiraf edir.

AFA, VI c., s.133

**760A* Söyüşkən arvad qəbirdə əzab çəkir.** Arvad sağlığında ölüləri söydüyü üçün qəbrdə dinclik tapmır: hər gecə ərinin yuxusuna girib onu öz kəndlərində basdırmasını tələb edir. Əri molla ilə məsləhətləşib onun istəyini yerinə yetirir.

AFA, XVI c., II mətn, s.255-256

**760B* Gənc böhtan atdığı üçün qəbrdə əzab çəkir.** Gənc sağlığında bir qıza böhtan atır və onun qarıyıb evdə qalmasına səbəb olur. Bu əməlinə görə Allah onu cəzalandırır: a) qəbri od tutub yanır, b) nə yeyirsə, qaytarır. Peyğəmbər qızı cavanlaşdırır və gəncin günahlarının bağışlanmasına nail olur.

İsmayılov, s.186-187; AFA, XII c., s.207-209, kont. 807*A (= BYBQ, s.110-112); AFK, VII c., s.262-266, kont.807*A (= Qarabağ, III kitab, s.208-212)

**760B** Kəfənsoyan:** Sağlığında o qədər kəfən soyur ki, qəbirdə dinclik tapmır. Kiçik oğlu qarımış qızla evlənib atasının günahlarının bağışlanılmasına nail olur.

AFA, XIII c., s.248

**760* Boyaq suyu ilə ehsan.** Atasına ehsan verməyə imkanı olmayan gənc boyaq suyunu ehsan edib çölə atır, həmin su dalğaların sahilə çıxartdığı balığı ölümdən xilas edir. Allah oğlanın ehsanını qəbul edir və onun atasını qəbir əzabından qurtarır.

AFA, XVI c., s.84-85

**760**A Ofsanata düşən tikə.** Qəhrəman yeddi gün ölən atası üçün ehsan verir. İmkanlı adamları çağırdığı üçün yeyilən ehsanın onun atasına heç bir xeyri olmur, ancaq sailin (gəlinin və ya erməninin) yediyi ehsan ofsanata keçir.

Qarabağ, II kitab, s.297-298; s.299; III kitab, s.236-239

**760**B Ofsanata düşən tikə.** Varlı şəxs gəlninə əziyyət verməmək üçün taxta qab-qaşıq düzəltdirib ehsanı onlarda verir. Ehsan qurtardıqdan sonra qabları yandırır, yalnız bir qab yanmır. Məlum olur ki, bu qədər ehsanın içində tək o qabda yeyilən ofsanata keçib.

Qarabağ, II kitab, s.300

**762* Alın yazısı.** Oğlan arvadının bir ay yolunu azacağını öyrənib evi tərk edir və anasına yoldaşı nə iş tutsa, ona bir söz deməməyi tapşırır. Ana gəlinin hərəkətlərinə dözə bilməyib ona irad tutur. Bu hərəkətinə görə Allah onu cəhənnəmlik edir, gəlini isə cənnətlə mükafatlandırır.

AFA, XVI c., s.349-350

**763 Qızıl üstündə bir-birini öldürürlər.** Üç yoldaş xəzinə yarır. Qızıllara sahib olmaq üçün ikisi əlbir olub üçüncünü öldürür, sonradan özləri də onun gətirdiyi aşdan yeyib zəhərlənirlər.

Qarabağ, I kitab, s.206-208, kont.798*

**766 Əshabi-kəf.** Dağyunusun zülmündən qaçan üç gənc mağarada gizlənir. Yuxuya qalırlar. Onlara elə gəlir bir gün yatıblar, amma çörək almaq üçün bazara çıxdıqda məlum olur ki, onlar bir neçə yüz il yuxuya qalıblar.

AFA, XVIII c., s.118-121, kont.835***+839*A+779*

**769* Kimə niyyət, kimə qismət.** Padşah dəmirçiyə bir gecədə qırx atın nalını və mıxını (və yaxud qırx min mıx) hazırlamağı tapşırır. Allah günü üç dəfə günortadan qaytarır, onun sayəsində dəmirçi sifarişi yerinə yetirir. Səhər padşahın ölüm xəbəri çıxır və dəmirçinin hazırladığı mıxlar onun tabutunda istifadə olunur.

Hüseynov, s.138; AFA, V c., s.233-234

**770* Qızıla dönmüş taxıl.** İki qardaş şərikli taxıl əkir. Bir-birindən xəbərsiz öz payına düşən taxıldan o biri qardaşın payının üstünə tökür. Həmin əməlinə görə a) Allah onların taxılını qızıla döndərir; yaxud b) bu hadisənin şahidi olan quldurlar əldə etdikləri qızılların bir hissəsini onlara verir.

Baqri, I c., s.68-70; Azərb. nağ., IV c., s.237-242, kont. 982*+929**+928*** (= Azərb. nağ. (2005), V c., s.239-244); Qərb şivələri, s.262-265, kont.559; AFA, XIV c., s.114-115

**770** Qeyri-adi sünbül.**

*I. İlanlar padşahı.* a) İlanlar padşahı onu ölümdən xilas etdiyi üçün dülgərə hər dənəsi qiymətli daş olan yeddi sünbül hədiyyə edir. Yaxud b) padşahın anbarından yumurta boyda buğda tapılır. Padşah vəzirdən həmin sünbülün əhvalatını öyrənməsini tələb edir.

*II. Sünbülün əhvalatı.* Bir kişi satın aldığı torpaqdan yeddi küp qızıl tapır. Qızılları torpağın əvvəlki sahibinə qaytarmaq istəyir, amma o, qəbul etmir. Övladlarını evləndirib qohum olurlar, qızılları da onlara verirlər. Həmin il o sahədə bitən taxılın buğdası yumurta boyda olur.

SMOMPK, XXVI burax., II şöbə, s.219-223, kont.828*; Hüseynov, s.23-26, kont.828*; Ağayev, s.171; Axundov, II c., s.135-143, kont.990; Seyidov, s.113-116; Behrəngi, s.370-372, kont.828*; Ağalı, s.62-63; AFA, IX c., s.207-210, kont.989*; XII c., s.277-279; XVI c., s.371-373; AFK, VII c., s.277-282, kont.828*; Qarabağ, II kitab, s.328-330, kont.828*; NFA, III c., s.260-264

**771* Çörəyin savabı.** İbrahimxəlil peyğəmbər kasıba üç dəvə hədiyyə edir, cütcü isə onu çörəyə qonaq edir. İbrahimxəlil peyğəmbər yuxuda cütcünün verdiyi çörəyin savabının onun dəvələrindən ağır gəldiyini görür.

AFA, XVI c., s.271-272

**771** Çörəyə ehtiram.** Allah var-dövlətinin azalmasını istəyən varlıya məsləhət görür ki, özüylə yuxa götürüb səfərə çıxsın. Allahın məsləhətinə əməl edən varlı səfərə çıxır və yuxa yeyə-yeyə gedərkən təsadüfən onun bir qırıntısı yerə düşür. Varlı həmin yerin ətrafına çız çəkir və səhər gəlib yuxanın qırıntılarını yerdən yığır. Və yaxud yuxanın qırıntılarının yerə tökülməməsi üçün boynuna döşdük bağlayır. Çörəyə qiymət verdiyi üçün Allah onun var-dövlətini daha da artırır.

AFA, XVI c., s.165-166; Qarabağ, III kitab, s.308-309

**771*** Üç manatın misalı.** Həzrət Əlinin evə ərzaq almaq üçün üç manat pulu olur, həmin pulu verib borclunun borcunu qaytarır. Yolda rastlaşdığı qocanın dəvəsini onun dediyindən də baha qiymətə satır, oradan ona çatan pulla evə ərzaq alır.

AFA, XVI c., s.269-271; Qarabağ, II kitab, s.311-314

**772* Şahın donuz güdməsi.** a) Şah Allahın yaratdığı donuzu murdar hesab edir; yaxud b) yağış yağdığı üçün şikayətlənir. Allahın işinə qarışdığı üçün a) taxt-tacı itirir, yaxud b) arvadı onu evdən qovur. Başqa məmləkətə gələn şah üç il erməniyə donuz güdür.

AFA, XVI c., I mətn, s.294; II mətn, s.294-295

**772** Molla iti murdar hesab edir.** Allah qırx il ona ibadət edən molladan yaratdıqları içərisində bir murdarını tapıb ona gətirməsini tələb edir. Molla qotur tökmüş itin boynuna ip salıb Allahın hüzuruna aparır. Pozğun həyat sürən qadın iti ondan alıb saxlayır, yaralarını sağaldır. Onun yaratdığını murdar hesab etdiyi üçün Allah mollanı cəzalandırır: onu cəhənnəmə göndərir, itə sahib çıxıb onu sağaldan qadını isə cənnətlə mükafatlandırır.

AFA, XVI c., s.245-247

**774D* Peyğəmbərin allahlığı.** Allah Musa peyğəmbərin xahişi ilə allahlığını bir neçə günlüyə ona verir. Musa peyğəmbər camış yaradır, amma onun ruzusunu yaratmağı unudur. Ac heyvan onu yemək istəyir. Allahın tapşırığı ilə peyğəmbər əlindəki əsanı yerə atır, qamış əmələ gəlir. Camışın üzünü qamışlığa çevirməsi ilə ondan xilas olur.

Baqri, III c., s.8-9; AFA, XIII c., s.172

**774D** Peyğəmbərin allahlığı.** Kasıbın dağarcığından dən oğurladığı üçün varlının qolunu qurudur, lakin sonradan səhvini başa düşür.

AFA, IV c., s.158-159, kont.759*; XIV c., s.115-116; XVI c., II mətn, s.282-283

**774D*** Peyğəmbərin allahlığı.** Allah Musa peyğəmbərin xahişi ilə allahlığını bir neçə günlüyə ona verir. İnsanlar əvvəl-axır öləcəklərini öyrənib işləmək istəmir. Musa peyğəmbər nə qədər çalışırsa, onları özünə tabe etdirə bilmir. Ondan sonra allahlıq etməyin onun işi olmadığını başa düşür.

AFA, XVI c., I mətn, s.281-282, kont.777*

**774K Musa peyğəmbər qarışqaları əzir.** Qarışqalardan biri onun ayağını dişləyir, amma o, ayağına dırmaşmış bütün qarışqaları əzib yerə tökür. Allah onun düzgün hərəkət etmədiyini sübut edir.

AFA, XVI c., VI mətn, s.64-65

**776* Ahuların şikayəti.** Peyğəmbər susuzluqdan əziyyət çəkən ahuların və yaxud keçilərin şikayətini Allaha çatdırır, amma ondan müsbət cavab ala bilmir. Bu xəbəri yoldaşlarına çatdırmalı olan ahular dağın başında oynayırlar ki, digər heyvanlar onların pis xəbərlə qayıtdıqlarını görüb məyus olmasınlar. Ahuların bu hərəkətinə görə Allah yağış yağdırır.

AFA, XII c., s.35 (= BYBQ, s.29); Qarabağ, I kitab, s.205; s.206

**776**A Allaha pənah.** Darğanın (pis qonşusunun) ölümünü arzulayan qadın onun ömrünə hələ qırx il qaldığını öyrənib Allaha pənah deyir. Bu xəbəri eşidən hər ailə üzvü "Allaha pənah" deyir. Hər Allaha pənah kəlməsinə görə Allah darğanın (pis qonşunun) ömründən on il kəsir, o, dünyasını dəyişir.

Hüseynzadə, s.13-14; Qarabağ, II kitab, s.307-308

**776**B Gündə üç dəfə çubuqlanan şəxslər.** Bu zülümdən nə vaxt qurtaracaqlarını bilmək istəyirlər. Musa peyğəmbər onların xahişini Allaha çatdırır, amma müsbət cavab ala bilmir. Bu xəbəri eşidən həmin şəxslərin hər biri "Allaha pənah" deyir. Həmin kəlməyə görə Allah onları çubuqlayan şəxsin ömrünü tamamlayır.

Qarabağ, III kitab, s.233-234

**777* Qoca Allahın cəhənnəmi yaratmasına etiraz edir.** Musa peyğəmbər qocanın xahişini Allaha çatdırır, onun məsləhəti ilə qocanın əsasını vurub əlindən salır. Ondan sonra qoca Allahın cəhənnəmi yaratmasına haqq qazandırır.

AFA, XVI c., I mətn, s.281-282, kont.774D***

**777** Bacı həsrəti.** Ömrünün sonuna bir il qaldığını öyrənən şəxs uzun müddət görmədiyi bacısına baş çəkir və ya əcəli tamam olmuş şəxs bacısına baş çəkmək üçün Əzrayıldan üç gün möhlət alır. Bu hadisə onun ömrünü uzadır.

AFA, XVI c., s.311-312; Qarabağ, II kitab, s.295-297

**777*** İcazə işini ər bilər.** Gəlin ərinin icazəsi olmadığı üçün atasının yasında iştirak edə bilmir. Yalnız əri səfərdən qayıtdıqdan sonra ondan icazə alıb atasının qəbrini ziya-

rət edir. Bu hərəkətinə görə Allah onun atasını cənnətlə mükafatlandırır.

AFA, XVI c., s.275-276

**779E* Gəlin qayınanasına hörmətsizlik etdiyi üçün cəzalandırılır.** Gözləri tutulmuş qayınanasına qurbağa əti (pişik əti) yedirdir, əməli sonradan öz qarşısına çıxır.

Borçalı folkloru, s.135-136; Ağbaba folkloru, s.177-178; AFA, V c., s.237; Axısqa folkloru, s.37

**779* Valideyn sevgisi.** Oğlan valideynlərini hər gün qoyun südü ilə bəslədiyi üçün Allah onu mükafatlandırır.

AFA, XVIII c., s.118-121, kont.766+835***+839*A

**779** Qəssabın ata sevgisi.** Yoldan keçən şəxsə çörək verdiyi üçün kişi arvadının əlini kəsir, bu əməlinə görə Allah onu donuza döndərir. Qəssab hər gün üç dəfə donuzu yedirir, onu təmizləyir, oxşayır və bu əməlinə görə Allah onu cənnətlə mükafatlandırır.

AFA, XVI c., s.252-254, kont.750B*+751

## 780-799. Həqiqət üzə çıxır

**780D* Xəncərin şahidliyi.** Əmioğlu əmioğlunu qız üstündə öldürür. Ölən şəxsin atası Həzrət Əlidən oğlunun qatilini tapmasını xahiş edir. a) Həzrət Əlinin icazəsi ilə xəncər şahidlik edir və cinayəti törədənin kim olduğunu deyir; yaxud b) ölünü öküzün külü ilə ovurlar, ölü dirilib onu öldürənin kim olduğunu deyir.

BYBQ, s.11-12; AFA, XVI c., s.267-268; Qarabağ, I kitab, s.200-201; III kitab, s.221-223; s.223-224

**781*A İskəndər quşlardan bac alır.** İskəndər iki uşağı kiçik yaşlarından saraya götürür və onları quşlarla bir yerdə böyüdür, bu yolla onların quş dili öyrənməsinə nail olur. Həmin uşaqların köməyi ilə quşlar padşahını ələ keçirir və ondan bac alır.

Əliyev-Xəlilov, s.256-260, kont.781*B

**781*B İskəndər balıqlar padşahından xərac alır.** Öz qoşununa əmr edir ki, hərə dənizdən bir vedrə su alıb kənara töksün. Bu yolla balıqlar padşahını xərac verməyə məcbur edir.

Əliyev-Xəlilov, s.256-260, kont.781*A

**781*C İskəndər Günəşdən xərac alır.**

AFK, III c., s.91-94, kont.934*+844

**782 İskəndərin buynuzu.** İskəndərin başını qırxan dəllək bu sirri heç kimə açmamalıdır. Sirri quyuya danışır, oradan çıxan qamış onu yayır.

SMOMPK, XIII burax., I şöbə, s.121-123; Baqri, I c., s.279-281; Azərb. nağ., IV c., s.136-143, kont.857*+806*+934*+831C (= Seyidov, s.67-73; = Azərb. nağ. (2005), V c., s.136-143); Hüseynov, s.102-103; Babayev, s.283-284; AKƏK, I c., s.92; AFA, XVI c., s.257-259

**782* İskəndər evin ətrafına dövrə vurur.** Sonuncu küncə yaxınlaşanda mələk onu vurub yıxır. Bununla demək istəyir ki, İskəndər ancaq dünyanın dörddə üç hissəsini tuta biləcək.

SMOMPK, XXVIII burax., II şöbə, s.10

**782** İskəndər (Süleyman) özünü yer üzünün yeganə hökmdarı hesab edir.** Səfərə çıxır, yolda dilini bilmədiyi bir adamla qarşılaşır. Onu evləndirir ki, ondan olacaq uşağın köməyi ilə onu danışdırsın. Həmin adamdan yer üzündə ondan da böyük hökmdarların olduğunu öyrənir.

Qərb şivələri, s.260-262, kont.806*+934*+831C+844 (= Şirəliyev, s.384-385); İsmayılov, s.328-329

**783* = AT 920B* Əsli hu.**

I. Padşah Xıdır Nəbini ona göstərənə özü ağırlığında qızıl verəcəyini vəd edir. Kasıb padşahdan qırx gün möhlət istəyir, qırx günün tamamında Xıdır Nəbini ona göstərəcəyini vəd edir. Vaxt tamam olur, amma kasıb Xıdır Nəbini tapa bilmir. Padşah kasıbı öldürmək üçün vəzirlərdən məsləhət alır. Birinci vəzir onu yandırıb külünü yelə verməyi, ikinci vəzir dərisini soyub, içinə saman doldurub meydandan asmağı, üçüncü vəzir isə bağışlamağı məsləhət görür.

II. Xıdır Nəbi uşaq cildində bu hadisələri kənardan müşahidə edir. Vəzirlər hər dəfə öz təkliflərini irəli sürəndə o, «əsli hu» deyir. Daha sonra nə üçün belə dediyini izah edir. Məlum olur ki, birinci vəzirin atası qəhvəçi, ikinci vəzirin atası qəssab, üçüncü vəzirin atası isə savadlı adam olub. Ailədə nə görüblərsə, təklif etdikləri cəza tədbiri də ona uyğundur. Xıdır Nəbi bunu izah etdikdən sonra qeybə çəkilir.

Seyidov, s.62-66, kont.923*+989*; Borçalı folkloru, s.81-83; AFA, V c., s.249-261, VI c., s.166-167; XIV c., s.126-128; XVI c., s.360-363, kont.951A; AFK, X c., s.323-325, kont.923*

**785A Toyuq bir qıçlıdır.** Qəhrəman gözünə gözəgörünməzlik sürməsi çəkir və saraya daxil olub padşah üçün çəkilən plovu oğurlayıb dərvişə gətirir. Yolda aşın üstündəki toyuğun bir qıçını yeyir. Dərviş nə qədər fənd işlədirsə, qəhrəman toyuğun iki ayaqlı olduğunu boynuna almır.

Azərb. nağ. (2005), I c., s.232-237, kont.561 (= ATS, s.373-381= Qaravəllilər (1967), s.33-41)

**795 = SUS 795* Bağışlanmaz günah.** Qadın qanunsuz doğulan uşağını çaxır çəlləyinə atdığına görə peşman olur. Günahlarının bağışlanması üçün Allaha yalvarır. Allah ikindi namazından başqa onun bütün günahlarından keçir.

AFA, XVI c., s.314-315

**796* Xeyirxah qarışqalar.** Anbar sahibi səfərə çıxmazdan əvvəl qarışqalar buğdanı çöldən anbara daşıyırdılar. Dükanı və ailəsini şərikinə tapşırıb səfərə gedir, qayıtdıqda qarışqaların buğdanı anbardan çölə daşıdığını görür. Məlum olur ki, şəriki aldığı almanı uşaqlar arasında bərabər bölmədiyinə görə qarışqalar belə hərəkət edirlər.

Baqri, I c., s.80-81

**798* Dünya qarısı.** a) Qarı gündüz qız, günorta qadın, axşam qarıya çevrilir; yaxud b) yazda qıza, qışda qarıya çevrilir. Süleyman peyğəmbər onunla əhd-peyman bağlayır, həqiqəti biləndən sonra üzüyünü geri istəyir. Mücrüdəki bütün üzüklərin üstünə Süleyman yazılmış olur. Üzüklərin içərisində biri atılıb düşür, həmin əlamətə görə Süleyman peyğəmbər onun öz üzüyü olduğunu müəyyən edir.

Borçalı folkloru, s.62-67, kont.460B; AFA, IX c., s.68-69; X c., s.95-97, kont.983*; s.190-195, kont.875D; XII c., s.216-217; XVI c., I mətn, s.301; II mətn, s.301-302; XVII c., s.138-140; Qarabağ, I kitab, s.206-208, kont.763; s.208-209; III kitab, s.243-244

**798** Süleyman peyğəmbərin əbədi həyat arzusu.** Allah Süleyman peyğəmbərə dirilik suyu göndərir, amma bütün heyvanların razılığını aldıqdan sonra sudan içməyə icazə verir. Süleyman peyğəmbər heyvanları yığır, yalnız kirpi onun çağırışına gəlmir. Peyğəmbər kirpinin dalınca vəziri, atı və iti göndə-

rir, kirpi itlə gəlir. Kirpi Süleyman peyğəmbəri dirilik suyunu içmək fikrindən daşındırır. Süleyman peyğəmbər a) əlini kirpinin belinə çəkir, onun bədənində tikan əmələ gəlir; yaxud b) stəkandakı suyu çaya atır, o vaxtdan bütün sular şirinləşir.

AFA, XVI c., I mətn, s.304-306; II mətn, s.306; Qarabağ, III kitab, s.41

**798*** Quzğunun şahidi olduğu möcüzə:** Gecə güclü qar yağır, qarın hündürlüyü ağacın başına çatanda isti külək əsib onu əridir. Süleyman peyğəmbər quşlardan xəbər alır, quzğundan (bayquşdan) başqa heç kim bu möcüzənin şahidi olmur. Peyğəmbər quzğuna sərvaxtlıq bəxş edir, onun sayəsində harada leş olsa, ondan xəbər tutur.

AFA, XIII c., s.175-176; Qarabağ, I kitab, s.209-210, kont.983*

## 800-809. İnsan o dünyada

**800*A Padşah cənnətdə.** Padşah Bəhlulla qardaş olmaq istəyir. Onun istəyi ilə arvadını boşayır, xəzinəni camaata paylayıb Bəhlulla yola çıxır. Cənnətə gəlir, pəri qızla evlənir. Yağış yağdığı üçün şikayətləndiyinə görə oradan qovulur.

Qarabağ, III kitab, s.259-265, kont.922F*

**800*B** Dərviş qeyri-adi kəramətə sahibdir: dəmiri qızıla döndərir. Padşah da həmin kəramətə sahib olmaq istəyir, bu məqsədlə taxtı tərk edib dərvişlə yola çıxır. Özüylə qızıl daraq, qızıl qab götürür, dərviş onları onun əlindən alıb atır. Uzun sınaqlardan sonra padşah həmin kəramətə yiyələnir.

Azərb. nağ. (2005), I c., s.158-163, kont.1137+400*B +337* (= ATS, s.227-236; = Axundov, II c., s.237-241)

**806* İskəndər o dünyada.** İskəndər dirilik suyu əldə etmək üçün zülmət dünyasına gedir, amma sudan içmək ona qismət olmur.

Azərb. nağ., IV c., s.136-143, kont.857*+782+934*+831C (= Seyidov, s.67-73; = Azərb. nağ. (2005), V c., s.136-143); Qərb şivələri, s.260-262, kont.782**+934*+831C+844 (= Şirəliyev, s.384-385); Axundov, I c., s.231-237, kont.831C+844A*; Qarabağ, I kitab, s.192-194, kont.981+831C

**807*A = AT 461A Qəhrəman atasının gizlətdiyi qızılları axtarır.** Qəhrəman atasının gizlətdiyi qızılların yerini öyrənmək üçün o dünyaya gedir və yolda əməllərinə görə əzab çəkən insanlarla qarşılaşır. Atası onun qarşısına yarı insan, yarı heyvan şəklində çıxır. Ondan qalan sərvətin bir hissəsini kasıblara paylayıb onu əzabdan qurtarır.

SMOMPK, XXIV burax. II şöbə, s.212-214; AFA, XII c., s.207-209, kont.760B* (= BYBQ, s.110-112); AFK, II c., s.333-344, kont.465C; VII c., s.262-266, kont.760B* (= Qarabağ, III kitab, s.208-212)

**807*B Qəhrəman o dünyada.**

I. a) Üzüm satan yetim oğlana bir salxım üzüm uzadır, üzümü götürmək istədikdə əlini geri çəkir. Oğlan onu ələ salmış qocanın aqibətini görmək üçün o dünyaya gedir. Yaxud b) qəhrəman atasının padşahlıq nişanası olan üzüyünü almaq üçün o dünyaya gedir. Sağlığında tutduğu əməllərə görə əzab çəkən insanlarla qarşılaşır.

II. a) Oğlanla qız çarpayıda söhbət edir, bir it çarpayının ayağına bağlanıb; b) bir qadın sacda yuxa bişirir, o biri sacın altından o üzə, bu üzə keçir; c) bir nəfərin barmağı öz-özünə

alışıb yanır; d) ilan oğlanın barmağını sorur. Peyğəmbər və ya əcir çəkən gördüyü şeylərin mənasını ona izah edir.

İsmayılov, s.145-154, kont.465C+513A (= AFA, III c., s.258-267); Qarabağ, II kitab, s.226-237, kont.465C; s.330-332

**807** Gələcək nəsil.**

I. a) Kişi gəlin köçürdüyü qızına baş çəkməyə gedir; yaxud b) qazı tacirdən əmanət aldığını danan mollaya and içdirir: "Əgər ondan pul almışamsa, mənim dinim yüz ildən sonra gələn müsəlmanın dinindən olsun". Bu andın nə anlama gəldiyini öyrənmək üçün molla qazının məsləhəti ilə səfərə çıxır.

II. Yolda qeyri-adi hadisələrlə qarşılaşır: a) itin qarnındakı küçüklər zingildəyir, b) qarğa leşdən yeyib Yasin surəsini oxuyur, c) bostandakı yemişin iyi ətrafı bürüyüb, amma hamısının içi çürükdür və s. Peyğəmbər yolda gördüyü şeylərin mənasını ona izah edir. Məlum olur ki, bunlar hamısı gələcək zamanın əlamətləridir. Elə bir zaman gələcək ki, böyük duran yerdə kiçiklər danışacaq, pis yola düşən, qumarbazlıq edən gəlib mollalıq edəcək. Bostandakı yemişlər isə paxıllığın əlamətidir: insanlar üzdə bir-birinə xoş davranıb arxada bir-birinin ayağını çəkəcəklər.

SMOMPK, XXIV burax., II şöbə, s.96-98; Bayat, s.75-82, kont.828; AFA, V c., s.227-228; VI c., s.159-162; XIV c., s.131-132; XVI c., I mətn, s.249-250; II mətn, s.250-251; Qarabağ, I kitab, s.217-218, kont.552C*

## 810-814. Əzrayıl və əcəli çatmış insanlar

**810* = Bax: AT 332A* Ana övladını Əzrayıldan qaçırır.** Övladını Əzrayıldan qaçıran ana təsadüfən onun evinə qonaq olur. Yuxa yayır, sakit durmadığı və ya yuxanı zay

etdiyi üçün oğlunu oxlovla vurur, uşaq dünyasını dəyişir. Ana oğlunun ölümündə özünü günahkar sayır.

AFA, XVI c., I mətn, s.321-322; II mətn, s.322-323; Qarabağ, II kitab, s.318-320

**810** Uşaq ailənin yeganə övladı olduğundan Əzrayıl onun canını almaq istəmir.** Allah elə edir ki, uşağın ölümündə heç kim Əzrayılı günahkar saymır.

Qarabağ, III kitab, s.271

**811* Əzrayıl hərənin canını bir üsulla alır.** Birinə alma qoxladır, birinin dilini xirtdəyindən qopardır, digərinin əlini-qolunu qarmaqla bağlayıb canını alır. Daha sonra bunun səbəbini izah edir. Məlum olur ki, alma qoxlatdığı oğlanın heç bir günahı yoxdur, ona görə onun canını rahatlıqla alır. O biri xəsis olduğu üçün onu dilini qopardır, əl-qolunu bağladığı qarı isə sözgəzdirən olduğu üçün onun canını əzabla alır.

Əliyev-Xəlilov, s.163-166, kont.934G*** (= AFA, XIV c., s.179-183 ); Ağbaba folkloru, s.175-176; AFA, XII c., s.220-222 (= BYBQ, s.10-11)

**814* Dənizə atılmış balıq:** Əzrayıl kişinin canını ala bilmək üçün onun bədənində pak yer axtarır, amma tapa bilmir. Kişi dalğaların sahilə çıxartdığı balığı yenidən dənizə atır, bu vaxt onun bədənində iynənin ucu boyda pak yer yaranır. Əzrayıl oradan kişinin bədəninə sirayət edib onun canını alır.

AFK, VIII c., s.366

## 815-826. Şeytan

**821A = AT 821A* Keçəl iki dilənçinin arasını vurur.** Sağ dilənçiyə yalandan pul verir və kor dilənçinin eşidəcəyi

səslə deyir: “Bu pul sənin, o birini də verərsən yoldaşına”. Sağ dilənçi nə qədər and-aman edirsə, keçəlin ona pul vermədiyinə kor dilənçini inandıra bilmir və onlar arasında dava düşür.

AFA, XVI c., II mətn, s.394-396, kont.821**

**821A* Səmimiyyət olan yerdə xəyanət olmaz.** Şeytan iki dostun arasını vurmaq istəyir, amma buna nail ola bilmir.

AXS, s.60-61

**821*A Şeytanın mıx tərpətməsi.** Dana boşalmış mıxı çıxardıb boylu gəlini vurur, gəlinin qohumları ilə dana sahibi arasında dava düşür.

AFA, I c., №126, kont.821*B; IX c., s.114

**821*B Şeytanın gül axıtması.** Uşaqlar gül üstündə dava edirlər.

İsmayılov, s.22-23 (= AFA, III c., s.56-57); AFA, I c., №126, kont.821*A

**821** = AT 1353 İnsanla şeytan gücünü yoxlayır.** İnsanla şeytan hansının gücü olması üstündə mübahisə edir. Şeytan iki gənci bir-birindən ayırınca keçəl iki nəsli bir-birinə qırdırır: arvadı inandırır ki, əri onun üstünə günü gətirəcək, əgər ərinin saqqalından tük gətirsə, o, bunun qarşısını ala bilər. O biri tərəfdən arvadın ərinə deyir ki, yoldaşı onu öldürmək istəyir. Özünü yuxuluğa vuran kişi arvadını əli ülgüclü görüb keçəlin sözünə inanır və arvadını öldürür. Arvadın qardaşları kişini öldürür və hər iki nəsil arasında nifaq yaranır.

SMOMPK, XIII burax., II şöbə, s.301-303; AFA, XII c., s.288-292, kont.928* (= BYBQ, s.121-125); XIII c., s.220-221; XVI c., I mətn, s.393-394; II mətn, s.394-396, kont.821A; III mətn, s.396-397

**821*** Özgəsinə quyu qazan özü düşər.** Şeytan arvadını öldürmüş kişiyə məsləhət görür ki, başqa birini də öldürüb günahı onun üstünə atsın. Kişinin öldürdüyü şəxs şeytanın öz oğlu olur.

Qarabağ, I kitab, s.321-322

**827 Çoban çarıqlı-patavalı namaz qılır.** Çoban namazın surəsini düzgün bilmir, «ağ qoyun, qara qoyun, başımı yerə qoyum» deyib namaz qılır. Məkkəyə ziyarətə gedən abid (peyğəmbər, Xıdır Nəbi) çobana namazın düzgün surəsini öyrədir, gəmiyə minib yenidən yoluna davam edir. Surənin bir sözünü unudan çoban dənizin səthi ilə abidin dalınca qaçır və yaxud dəniz aralanıb ona yol verir. Çobanın bu möcüzəsini görən abid ona namazı bildiyi kimi qılmağı məsləhət görür.

AFA, XVI c., I mətn, s.325-326; II mətn, s.326

**827* Çobanın həcc ziyarəti.**

I. Uşaqlara verməyə yeməyi olmayan ana a) onların başını aldatmaq üçün boş qazana su atıb qaynadır; yaxud b) zibillikdən tapdığı ölü toyuğu bişirib onlara vermək istəyir. Bu hadisənin şahidi olan çoban a) fermadan qoyun oğurlayıb uşaqların qarnını doydurur, yaxud b) həcc ziyarəti üçün yığdığı pulları qadına verir.

II. a) Həcc ziyarəti zamanı bulud onun başı üstündə kölgə salır; yaxud b) çoban ziyarətə gedə bilmir, amma ziyarətə gedənlər onun əlinin Məkkənin qapısında olduğunu görürlər. Məlum olur ki, çoban həmin hərəkətinə görə bu savaba layiq görülmüşdür.

SMOMPK, XXI burax., II şöbə, s.99-103; XXIV burax., II şöbə, s.130-133; AFA, IX c., s.115; XVI c., s.163; Qarabağ, I kitab, s.201-202; II kitab, s.308-310; s.310-311

**828 = SUS 828*** Bir qıza üç elçi.** Üç nəfər və ya ilan cildinə girmiş üç mələk əkinçinin bir qızına elçi düşür. Əkinçi elçilərdən birinə öz qızını, birinə eşşəkdən, üçüncüyə isə itdən dönmə qızı verir, daha sonra qızlarına baş çəkir. Kürəkənlərdən biri qızın gec anlamasından, o biri it kimi çəmkirməyindən şikayət edir, üçüncü kürəkən isə qızdan razılıq edir. Əkinçi bu əlamətlərə görə onlardan hansının öz qızı olduğunu müəyyən edir.

Ağalı, s.104-105; Əliyev-Xəlilov, s.229-236; Bayat, s.75-82, kont.807**; Meğri şivələri, s.495-497 (= AFA, XII c., s.209-211); AFA, III c., s.194-199; V c., s.207-208; XIV c., s.108-110; XVI c., III mətn, s.49-55; Budaqov, s.167-168

**828* Cavan qalmağın sirri.** Böyük qardaş kiçiklərə nisbətən daha cavan görünür. Bunun səbəbini a) arvadının xoşxasiyyətli olması ilə izah edir, yaxud b) evdə də, çöldə də işlərinin düz getməsi ilə əlaqələndirir.

SMOMPK, XXVI burax., II şöbə, s.219-223, kont.770**; Hüseynov, s.23-26, kont.770**; Behrəngi, s.370-372, kont. 770**; AFA, XIII c., s.230-232, kont.926C***; AFK, VII c., s.277-282, kont.770**; Qarabağ, II kitab, s.328-330, kont.770**

**830C* Allah qoysa.** Kişi arvadının israrına baxmayaraq, «Allah qoysa» demək istəmir. Yemək çəkilib süfrəyə gətirilən vaxt qapı döyülür, kişini çağırıb aparırlar. Ondan sonra başa düşür ki, qismətsiz tikəni yemək olmaz.

Hüseynzadə, s.34-35; AFA, IV c., s.160-161

**830* Qismətdən qaçmaq olmaz.** Musa peyğəmbər qismətdən qaçmağın mümkün olduğunu iddia edir. Günorta yayma yeyəcəyini öyrənən peyğəmbər kimsəsiz bir yerə çəkilir, amma qismətdən qaça bilmir.

AFA, XVI c., s.293-294, kont.759*; Qarabağ, III kitab, s.265-266

**831C = SUS 831C* Torpaq hərisi.** İskəndər və yaxud Şah Abbas dünyasını dəyişəndə gözləri və ya əlləri yumulmur. Abidin məsləhəti ilə onun gözlərinə (ovcuna) torpaq tökürlər, ondan sonra yumulur.

Rüstəmov, s.214; Qərb şivələri, s.260-262, kont.782**+806*+934*+844 (= Şirəliyev, s.384-385); Azərb. nağ., IV c., s.136-143, kont.857*+782+806*+934* (= Azərb. nağ. (2005), V c., s.136-143); Axundov, I c., s.231-237, kont.806*+844A*; AFA, XIII c., s.200-201; Qarabağ, I kitab, s.192-194, kont. 981+806*

**834A Kor canavarın qisməti.** Çoban qoyunun necə kor canavarın ayağına gəldiyini görür və o gündən çobanlıq etməyi tərgidib öz qismətinin ayağına gətirilməsini istəyir. Çobanın arvadı meşədən bir küp qızıl tapır, amma nə qədər israr edirsə, əri onu evə gətirmək istəmir. Paxıl qonşu qızılları oğurlayır, küpün ağzını açanda içindəkinin ilan və ya arı olduğunu görür. Küpü qonşunun həyətinə atır və ya bacadan içəri boşaldır, onun içindən qızıl tökülür.

İsmayılov, s.318-320 (= AFA, III c., s.53-54); Borçalı folkloru, s.83-85; AFA, IX c., s.196-197; Qarabağ, I kitab, s.271-274

**834B* = AT 745A Ağacın içində gizlədilmiş pul.** Qazandığı pulların dülgərə qismət olacağını öyrənən oğlan onları kötüyün içinə qoyub çaya atır. Balıqçılar çaydan tutduqları kötüyü dülgərə verirlər. Dülgər qızılın bir qismini çörəyin arasına qoyub sahibinə qaytarır, həmin qızıllar yenidən onun özünə qismət olur.

İsmayılov, s.317-318; Qarabağ, II kitab, s.320-322

**834B**** Oğlan yığdığı qızılların ona qismət olmayacağını öyrənir, onları sandığın içinə yığıb başqa şəhərə köçür. Yolda gəmi tufana düşüb batır, gəmi ilə birlikdə qızılların saxlandığı sandıq da dənizə qərq olur. Oğlan xilas olur və padşahın qızı ilə evlənir. Dənizdə batmış sandığını onun otağından tapır.

AFA, V c., s.246-247

**834C* = AT 736, 930D Balığın qarnındakı üzük.** Musa peyğəmbər odunçuya qızıl (və ya üzük) hədiyyə edir. Odunçu a) əlini çayda yuyanda üzük barmağından sürüşüb suya düşür; yaxud b) qarğa qızıl saxlanılan kisəni caynağına alıb aparır. a) Üzük odunçunun bazardan aldığı balığın qarnından çıxır; yaxud a) ağacın dibindən tapılır.

SMOMPK, VII burax., II şöbə, s.86-87; Ağalı, s.63-64; Borçalı folkloru, s.163-165

**834C** Əli aşiqi qəssab.** Qəssab "Əli başı üçün almaram, Əli başı üçün verməməm" deyib qiyməkeşi bircə dəfə ətə vurur, ət neçə kilo lazımsa, o qədər gəlir. Süleyman peyğəmbər və yaxud şəhəri gəzməyə çıxmış padşah aldığı ətin pulunu gətirənə qədər üzüyünü girov qoyur. Qəssabın başı qarışanda və yaxud ayaqyoluna gedəndə üzüyü daxıldan oğurlayıb çaya atır. Üzük qəssabın satın aldığı balığın qarnından çıxır.

AFA, XVI c., s.356-357; Qarabağ, II kitab, s.293-295

**834* İki şahılıq ləl.**

I. a) Kasıb balığın qarnından çıxan iki qiymətli daşın birini yüz qatır yükü qızıla tacirə satır; yaxud b) qaraçuxasının ona hədiyyə etdiyi iki qozu beşdaş oynayan uşaqlara verib onlardan iki daş alır və həmin daşları baha qiymətə tacirə satır.

II. Tacir o biri daşı da əldə etmək üçün kasıbla siğə qardaşı olur və ya öz qızını ona ərə verir. a) Kasıbın həmin daşları

iki şahıya aldığını biləndə tacirin ürəyi partlayıb ölür; yaxud b) tacir dünyasını dəyişəndən sonra onun sərvəti kasıba qalır.

AFA, XII c., s.276-277 (= BYBQ, s.125-127); XIII c., s.295-297; XVII c., s.155-159; Qarabağ, II kitab, s.283-284

**834** = AT 737B* Altı şahılıq ruzu.** Kasıb oğlan gündəlik qazancının altı şahıdan və ya bir quruşdan artıq olmayacağını öyrənir. a) Tacirin qızı ilə evləndikdən sonra tale onun üzünə gülür. Sövdəgərlərə qoşulub ticarətə gedir, səfərdən böyük sərvətlə qayıdır. b) Övladı dünyaya gəldikdən sonra taleyi dəyişir, ağac dibi belləyərkən qızıl dolu küp tapır. Oğlan Allahı yalan danışmaqda günahlandırır, amma məlum olur, həmin sərvət onun deyil, qızın və ya yeni doğulan uşağın qismətidir.

Azərb. nağ., IV c., s.255-265, kont.887* (= Seyidov, s.41-50; = Azərb. nağ. (2005), V c., s.257-268); Əliyev-Xəlilov, s.147-153; AFA, XVI c., s.334-338, kont.1535*; Qarabağ, I kitab, s.194-197; II kitab, s.370-372; III kitab, s.225-231, kont.1535*; s.231-233

**835* = 745 Palanın arasında gizlədilmiş pul.** Palançı yanlışlıqla pullarını saxladığı palanı satır. Palanı alan şəxs bir ildən sonra onu yamamağa gətirir, palançı öz pullarına qovuşur.

AFA, II c., s.359-363, kont.921+875+891

**835** Halal qazanc.** Kasıb kişi a) bir tacirin yanında ili bir abbasıya işə düzəlir; yaxud b) qocaya narını satmaqda köməklik edir. Əməkhaqqı olaraq ona təklif edilən halal bir manatı haram on manatdan üstün tutur. Həmin pula a) nar alır, onu kəsəndə dənələrinin ləl-cəvahirat olduğu məlum olur; yaxud c) balıq alır, onun qarnından ləl çıxır; c) çubuq alır, çubuq ilana çevrilib xəzinənin yerini ona nişan verir; d)

quş alır, həmin quş hər gün ağzından bir dənə onluq qızıl çıxardır. Onun hesabına varlanır.

SMOMPK, VII burax., II şöbə, s.104-108, kont.910B; XIX burax., II şöbə, s.167-180, kont.1651+881; Qasımlı, s.137-140, kont.990+1651; AFA, VI c., s.181-183; XIII c., s.248-250; NFA, III c., s.265-266

**835*** İmtina edilmiş əməkhaqqı:** Varlı xəndək qazmaq üçün iki fəhlə tutur. Fəhlələrdən biri səhərdən, digəri isə günortadan işləyir, amma varlı onların ikisinə də eyni miqdarda pul verir. Səhərdən işləyən fəhlə narazı qalıb pulu götürmür. Varlı həmin pula qoyun alır. Uzun illər sonra pula ehtiyacı olan fəhlə öz əməkhaqqısını geri istədikdə varlı həmin qoyundan törəyən sürünü ona verir.

AFA, XVIII c., s.118-121, kont.766+839*A+779*

**836F = 836F* Tamahkarın aqibəti.** Dəvə karvanına bələdçilik edən oğlan taciri öldürəcəyi ilə hədələyib onun bütün malını əlindən alır. Nəfsinə sahib ola bilməyən gənc tacirdən cibindəki pulları da verməsini tələb edir. Tacirin cibindən çıxan sürməni gözlərinə çəkir, gözləri tutulur. Yaxud tacir malını quldurlardan xilas edəcəyi təqdirdə yarısını nökərə verəcəyinə söz verir, amma sözünün üstündə durmur. Nökəri öldürür, nəticədə gözləri tutulur.

Axundov, II c., s.195-199, kont.989*+400*C; Seyidov, s.99-106, kont.994**+733*+738; Əliyev-Xəlilov, s.117-124, kont.732*+456*; AFA, IX c., s.197-199, kont.994**+738+733*; Qarabağ, I kitab, s.269-270

**837* Sınmış arşın.** Sövdəgər (ovçu) arşını sındığı (oxu əyildiyi) üçün evi tərk edib bağban yanında şəyird işləyir. Bağbanın zəhmət haqqı olaraq ona verdiyi ağaclar iki il çiçək aç-

mır, növbəti il saysız-hesabsız çiçək gətirir. Sövdəgər evə qayıdır, arşının düzəldiyini görüb yenidən öz sənətini davam etdirir.

Baqri, I c., s.72-75; AXS, s.55-56; AFA, XVI c., s.339

**838* Kişilərin bel ağrısı.** Allah qadınların doğum ağrılarını kişilərə verir. Yaşlı kişi ilə evlənən cavan qız qonşu oğlandan uşağa qalır. Doğum vaxtı kişi belinin ağrımadığını görüb arvadının ona xəyanət etdiyini başa düşür və onu uşaqları ilə birlikdə peyğəmbərin üstünə göndərir. Peyğəmbər qanunsuz doğulmuş uşağı qadından alıb onu geri qaytarır, kişi ondan sonra arvadını qəbul edir.

AFA, XVI c., s.276-278, kont.215*

**838** Dirinin sorğu sual edilməsi.** Ölüm ayağında olan ata oğlanlarına üç gün qəbri üstündə keşik çəkməyi vəsiyyət edir. Böyük qardaşın yerinə qayınanası keşik çəkir. Arvadı sorğu-suala çəkən mələklər ərindən ayrıldığı üçün onu qamçılayırlar. Ortancıl qardaş öz yerinə eşşəkçini keşik çəkməyə göndərir. Eşşəyi ac saxladığı üçün mələklər onu da qamçılayırlar. Üçüncü gecə kiçik qardaş keşik çəkir. Qonşudan aldığı bir girvəngə yağın pulunu vermədiyi üçün mələklər onu tənbeh edirlər.

Borçalı folkloru s.170; AFA, VI c., s.170-171; XVI c., s.298-300

**838*** Qazkeçməz körpüsü.** Kişi sözünə qulaq asmayan arvadından Musa peyğəmbərə şikayət edir, onun məsləhəti ilə Qazkeçməz körpüsünə gəlir. İki nəfərin qatırı körpüdən keçirmək istədiyini görür. Onlara məsləhət görür ki, biri qabaqdan dartsın, o biri isə arxadan qamçılasın: qamçı dəyən kimi qatır körpüdən keçir. Kişi başa düşür ki, Musa peyğəmbər bununla ona arvadını döyməyi məsləhət görür.

AFA, XVI c., s.274-275

**839 Üç günah.** Gəlin abidi yoldan çıxaracağına dair şeytanla iddiaya girir. Abidi məcbur edir ki, ya onunla zina etsin, ya uşağı öldürsün, ya da şərabı içsin. Abid sonuncuya razılıq verir. Şərabı içəndən sonra həm uşağı öldürür, həm də zina edir.

AFA, VI c., s.116; XVI c., s.295

**839C* Seytan abidi aldadır.** Özünü şikəstliyə vurur, abid onu çiyninə alıb çaydan keçirir.

AFA, XVI c., s.94-95

**839D* Seytan qadının diqqətini namazdan yayındırmaq istəyir,** amma buna nail ola bilmir.

AFA, XVI c., s.94-95

**839*A Allah görür.** Dəmirçi ondan buğda istəyən gəlinə başbir olmağı təklif edir. Gəlin əvvəl buna razılıq vermir, uşaqları acından öləndən sonra razı olur, amma bir şərtlə: onu elə yerə aparsın ki, orada onları görən olmasın. Dəmirçi onu kimsəsiz bir evə gətirir. Gəlin Allahın onları gördüyünü deyir. Qadının Allahı unutmadığını görən dəmirçi tutduğu işə peşman olur.

AFA, XVI c., s.231-233, kont.449+400*C; XVIII c., s.118-121, kont.766+835***+779*; Qarabağ, III kitab, s.213-216

**839*B Allah görür.** a) Kərbəla sahibi ziyarətə gələn üç gənci sınayır; yaxud b) molla şəyirdləri sınayır: onların hərəsinə bir toyuq verib tapşırır ki, elə yerdə kəssinlər onları görən olmasın. Gənclərdən ikisi toyuğu kəsib gətirir, amma üçüncü gənc belə bir yer tapa bilmir, çünki hara gedirsə Allah onu görür.

Qarabağ, I kitab, s.202-203; III kitab, s.240-241

**839** Halallıq.** Qəhrəman dənizi fəth etmək üçün səfərə çıxır. Yolda gəmi qəzaya uğrayır, taxta parçasının üzərində naməlum torpağa gəlir. Bu yerin insanları ilan əti yeyir, duzlu su içir, amma onlar arasında halallıq, düzlük var.

AFA, VI c., s.162-163

**840*A İnsanların taleyi.** Kasıb yuxuda üç bulaq görür: gur sulu bulaq xanlar, bəylər üçün, az sulu bulaq kəndxudalar üçün, damcı-damcı axan bulaq isə kasıblar üçündür. Kasıb əlindəki çöplə damcı-damcı axan bulağın gözünü deşmək istəyir, çöp qırılır və bulağın gözü tutulur.

AFA, XVI c., s.365-367, kont.842+842A*

**840*B Üç quyu.** Quyunun birində su dupdurudur, ikincidə nisbətən bulanıq, üçüncü quyu isə kol-kosla doludur. Birinci-ikinci quyular böyük qardaşların, üçüncü quyu isə kiçik qardaşın taleyidir. Ona görə böyük qardaşlar çalışır, evə qazanc gətirir, amma kiçik qardaş bütün günü yatır.

Qarabağ, II kitab, s.282-283

**841 Dilənçilərdən biri Allahdan, o biri isə şahdan istəyir.** Şah ondan istəyənə aşın altında, palanın içində və s. qızıl göndərir, qızıllar Allahdan istəyən dilənçiyə qismət olur;

Baqri, I c., s.240-244; Qərb şivələri, s.276-277; Ağalı, s.66-67; BYBQ, s.26-27; Borçalı folkloru s.85-86; AFA, IV c., s.164; s.164-165; V c., s.237; XII c., s.211-215 (= BYBQ, s.118-120); XIII c., s.280-281; XVI c., II mətn, s.367-368; III mətn, s.368-369

**841A* Allah verməyəni bəndə verə bilməz.** Şah ondan istəyən dilənçiyə öz qızını verir. Dilənçi yolda dünyasını dəyişir, qız Allahdan istəyən dilənçiyə qismət olur.

Əliyev-Xəlilov, s.242-248, kont.400*B+400*D; AFA, XVI c., s.363-365; AFK, III c., s.80-84; Qarabağ, III kitab, s.309-311

**841* Çörək verən Allahdır.** Şah Abbas pinəçinin bu sözünə acığı tutub onu zindana atdırır və ona yemək verməmə-

lərini tapşırır. Zindanban yanlışlıqla başqasına verməli olduğu yeməyi pinəçiyə verir, nəticədə pinəçi sağ qalır, o biri şəxs ölür.

Qarabağ, I kitab, s.235-236

**842 Padşah kasıbı varlandırmaq istəyir.** a) Körpünün üstünə pul qoyur ki, kasıb oradan keçəndə pulu götürsün; kasıb körpüdən gözünü yumub keçir (Bax: AT 947A); yaxud b) kasıba aşın altında qızıl göndərir; kasıb aşı bir manata tacirə satır və aldığı pulu duz qabında gizlədir; arvadı aldığı alçanın haqqını duzla ödəyir, həmin pullar da əldən çıxır.

AFA, XVI c., I mətn, s.365-367, kont.840*A+842A*

**842A* = SUS 2400* Kasıbın iştahı.** a) Daşı hara qədər atsa, mağazanın o hissəsi ona veriləcək. Kasıb daha çox ərazi almaq üçün daşı möhkəm atır, divara dəyib qayıdan daş onun başını yarır. Yaxud b) padşah kəndlilərə qaça bildikləri qədər torpaq verəcəyini vəd edir. Kəndlilər daha çox torpaq ala bilmək üçün o qədər qaçırlar ki, ürəkləri partlayır.

AFA, V c., s.63-64; XVI c., I mətn, s.365-367, kont. 840*A+842

**844 Şah Abbasın vəsiyyəti.** a) Şah Abbas anasına vəsiyyət edir ki, onun ehsanından dərdsiz adam yesin; b) ona xoşbəxt adamın köynəyini geyindirərlərsə, o dirilər; yaxud c) onun yasında bala dağı görməmiş heyvan kəssinlər. Ana nə qədər axtarırsa, dərdsiz adam və ya bala dağı görməmiş heyvan tapa bilmir.

Qərb şivələri, s.260-262, kont.782**+806*+934*+831C (= Şirəliyev, s.384-385); Ağalı, s.70-71; Borçalı folkloru, s.46-47; AFA, V c., s.206-207; VI c., s.108; XII c., s.295-296, kont. 895**; AFK, III c., s.91-94, kont.781*C+934*; s.109-110

**844A* İskəndərin vəsiyyəti.** Anasına təsəlli vermək üçün var-dövlətini cənazənin önü ilə aparılmasını vəsiyyət edir.

Axundov, I c., s.231-237, kont.806*+831C

**844* Qarın övladdan irəlidir.** Oğlunun ölümü ilə barışa bilməyən ana onun dəfn olunmasına razılıq vermir. Onu oğlunun tabutu olan otağa salırlar. Tavandan asılmış çörəyi ala bilmək üçün tabutu ayağı altına alır, ondan sonra oğlunun dəfninə icazə verir.

SMOMPK, XXVIII burax., II şöbə, s.10; AFA, VI c., s.120; XIII c., s.178

**845A* Gənc özünə ölüm arzulayır.** Kasıbçılıqdan bezən gənc Əzrayılı çağırır ki, onun canını alsın. Əzrayıl gəldikdə qaçıb xilas olmağa çalışır: əvvəl bəhməz küpündə, sonra yastığın içində, buxarıda gizlənir. Gənc buxarıdan çıxanda içəri girən Əzrayılla qarşılaşır, Əzrayıl ondan qorxub qaçır.

Qarabağ, II kitab, s.316-317

**846* = AT 650A[1] Bərəkət surfası.** Həzrət Əli a) bərəkət surfasını axtaran şəxsə, yaxud b) xaçpərəstə borcu olan kişiyə kömək etmək üçün özünün qul adıyla bazarda satılmasına razı olur. Padşahın çətin tapşırıqlarını yerinə yetirir: a) çayın qabağını kəsmiş əjdahanı öldürür (300), b) vəhşi heyvanların yaşadığı meşədən odun gətirir, c) dağı yarıb çayın qabağını açır. Padşahı öldürüb şəhər əhlini islam dininə dəvət edir.

AFA, XVI c., I mətn, s.259-261; II mətn, s.261-263; Qarabağ, I kitab, s.219-222; III kitab, s.218-221

**847* Kəsik baş.** a) Kəsik baş divlərin əlində olan ailəsini xilas etmək üçün peyğəmbərdən kömək istəyir. Həzrət Əli kəsik başı təqib edərək divlərin yaşadığı məkana gəlir; yaxud b) Məhəmməd peyğəmbər, Salmani-Farsi və Həzrət Əli su çıxartmaq üçün növbə ilə quyuya düşürlər. Peyğəmbərlə, Salmani Farsi “yandım” deyə qışqırır, onları çəkib çıxarırlar.

Həzrət Əli isə quyunun dibinə enib qırx gün-qırx gecə Cinni Cəfərin qoşunu ilə vuruşur. a) Cinni Cəfərin arzusunu yerinə yetirir və övladı olması üçün ona alma verir; yaxud b) onun suallarına cavab verir: Dünyanın ortası haradır? Dünyada arvad çoxdur, yoxsa kişi? Bir variantda divlər Həzrət Əlinin möcüzəsini görüb islam dinini qəbul edirlər, digər variantda isə Əli divləri qırır, o vaxtdan da yer üzündən onların kökü kəsilir. Müqayisə et: 301

AFA, XVI c., s.264-265; Qarabağ, I kitab, s.223-225; III kitab, s.216-218

**848*A Həzrət Əli və Sal-sal pəhləvan.** Sal-sal pəhləvan qabağına çıxa biləcək güclü pəhləvan tələb edir. Həzrət Əlini onun üstünə göndərirlər. Həzrət Əli Sal-sal pəhləvanı öldürür. Sal-sal pəhləvanın bacısı qardaşının qanını ona halal edir.

AFA, XVI c., I mətn, s.265

**848*B Həzrət Əli və Sal-sal pəhləvan.** Sal-sal pəhləvan onun qabağına çıxa biləcək adam axtarır. Əsir aldığı qızlardan biri Həzrət Əlinin ondan da güclü olduğunu deyir. Həzrət Əlini çağırması üçün ona qırx gün möhlət verir. Vaxtın tamam olmasına bir gün qalmış Həzrət Əli özünü onların köməyinə çatdırır və Sal-sal pəhləvanı öldürüb qızları xilas edir.

AFA, XVI c., II mətn, s.265-267

# IV. NOVELLAVARİ NAĞILLAR

## 850-869. Şahzadə qızla evlənmə

**851* Bağlama.** “Bir zaman keçi idim, qayalara çıxardım. O zaman ki, oldum at, yiyəm minəndə kişnərdim. İndi oldum qoyun, çoban qatıb qabağına aparır məni”. Kim bu bağlamanı tapsa, qız onunla evlənəcəyini elan edir.

İmamquliyeva, s.287-289

**851** Keçəl və ağa qızı.** Qız ona aşiq olmuş keçəlin qarşısında şərt qoyur: əgər onlar külfətliklə sancılanarsa, malları ağıya düşərsə, toyuqları çömbələn çıxararsa, onunla evlənəcək. Keçəl gənəgərçək yağı qatılmış balı qızın ailə üzvlərinə verir, mal-qaraya ağı otu verir, toyuqların bədəninə iynə sancır. Qızın tələbi gerçəkləşir, keçəl onunla evlənir.

Qaravəllilər (1967), s.74-77 (= Ayrım bəzəmələri, s.129-131)

**852 Keçəl padşahı “bu yalandır” deməyə məcbur edir.** Kim yalan danışsa, padşah qızını ona verəcəyini elan edir. Keçəl padşahın ona borclu olduğunu söyləyir. Padşah bunun yalan olduğunu etiraf edir və qızını ona ərə verir. (Müqayisə et: AT 1920F)

SMOMPK, XXIV burax., II şöbə, s.227-231; Axundov, I c., s.91-100, kont.612 (= Azərb. nağ. (1982), s.83-92); Ayrım bəzəmələri, s.124-125; AKD, s.331-333; AFA, I c., № 161

**854A* Şahzadə qız və keçəl.**

I. Şahzadə qızın əlini görmək istəyən yüz, üzünü görmək istəyən min tümən pul verir. Keçəl qızı görməkdə qəhrəmana köməklik edir: özlərini naşılığa vururlar, guya keçini kəsə bilmirlər. Şahzadə qız səsə çölə çıxdıqda qəhrəman onu görür.

II. Şahzadə qız qəhrəmana üç qatır yükü qızıl verir: onları birə iki qat artırsa, onunla evlənəcəyini deyir. Qəhrəman qatırlardan birini baş-ayaq ütənə verir, əvəzində ona ürəyi istəyən baş-ayaq hazırlamasını tapşırır. İkinci qatırı qatıq satana, üçüncünü isə sicimçiyə verir.

III. Səhərisi gün qəhrəman baş-ayaq ütəndən insan başı istəyir. Qəhrəmanın istəyini yerinə yetirə bilmədiyindən aldığı qızılları iki qat geri qaytarır. Qəhrəman qatıq satandan insan südündən hazırlanmış qatıq, sicimçidən isə insan saqqalından hazırlanmış sicim istəyir. Onlar da qəhrəmanın istəyini yerinə yetirə bilmir və aldıqları qızılı iki qat geri qaytarırlar. Qəhrəman şahzadə qızla evlənir.

AFA, XVI c., s.332-334

**857* Dünyada ən gözəl nədir?** Qəhrəman İsfahan padşahının qızına elçi düşür; onun nikah tapşırıqlarını yerinə yetirir: onunla at yarışdırır, qurşaq tutur, onun sualına (dünyada ən gözəl nədir?) cavab verir və qızla evlənir.

Azərb. nağ., IV c., s.136-143, kont.782+806*+934*+831C (= Seyidov, s.67-73; = Azərb. nağ. (2005), V c., s.136-143)

**859G = SUS 859G* Söz oyunu.** Keçəl söz oyunu hesabına bəyi aldadır: «Səkkiz göz altda, səkkiz göz üstdə imarətim olsa, yaxşıdırmı? Min qoyunum, min baş qaramalım, on iki çobanım olsa, yaxşıdırmı?» Bəy keçəli varlı zənn edib qızını ona verir.

Tantəkin, s.30-43; AFA, III c., s.573

**860B = AT 860B* Qəhrəman zərgərin əliylə onun arvadının kəbinini özünə kəsdirir.** Zərgərin arvadına aşiq olan qəhrəman onun evinə lağım atır. Arvadın üzüyünü, sırğasını gətirib zərgərdən nişanlısına da eyni üzük və sırğadan hazırlamasını xahiş edir. Zərgər həmin əşyaların arvadına məxsus olmasından şübhələnib evə baş çəkir. Qəhrəman atdığı lağımla zərgərdən qabaq evə çatıb üzüyü onun arvadına qaytarır və zərgərin şübhələrini aradan qaldırır. Daha sonra həmin üsulla zərgərin arvadının da kəbinini özünə kəsdirir.

Azərb. nağ., III c., s.223-228, kont.559+661*+437+1406 (= Axundov, II c., s.295-300; = Azərb. nağ. (2005), IV c., s.202-207); Axundov, I c., s.22-37; AFA (1968), II c., s.229-231 (= Ayrım bəzəmələri, s.94-96); Bayat, s.96-107

**861 Qəhrəman görüş vaxtı yuxuya qalır.**

I. Padşahın oğluna aşiq olmuş qız ona bağlamanın arasında a) samanla qənd, yaxud b) cam, almaz və üzük göndərir. Padşahın oğlu samanla qəndin Səmərqənd şəhərinə işarə olduğunu öyrənir və keçəllə həmin şəhərə yola düşür.

II. Qız padşahın oğluna heyva bağında, fındıq bağında və alma bağında görüş təyin edir. İlk iki görüşdə padşahın oğlunu yuxu tutur, üçüncü görüşdə barmağını yarıb yarasına düz basmaqla oyaq qalır və qızla görüşür. Qarovulçular, yaxud qızın nişanlısı gənclərin əl-qolunu bağlayıb padşaha xəbər verir. Keçəl yaxalanmış gəcləri azad edir, onların yerinə özü ilə qarını bağlayır, bu yolla onları xilas edir.

SMOMPK, XXVIII burax., II şöbə, s.126-132; Şirəliyev, s.408-411; Axundov, I c., s.131-142; Seyidov, s.130-139; Əliyev-Xəlilov, s.215-220, kont.928** (= AFA, XIV c., s.188-193); AFA, I c., №79; IV c., s.189-198, kont.525*; XI c., s.159-160; XII c., s.236-260 (= BYBQ, s.139-150); AFK, X c., s.225-229

**863* Siqaret közü ilə deşilmiş çarğat.** Qarı tacirin arvadını ərindən boşandırmaqda qəhrəmana kömək edir. Qəhrəmanın məşuqəsinə aparmaq adıyla tacirdən aldığı çarğatın ortasını siqaretin közü ilə deşir və onu tacirin evinə buraxır. Arvadının ona xəyanət etməsindən şübhələnən tacir onu boşayır.

Azərb. nağ., I c., s.291-300

**864* Yalançı tacir.** Arvad ərinə a) şan balı ilə yağda qovrulmuş qara xurma almağı, b) bir girvənkə yağla bir girvənkə bal almasını tapşırır. a) Şan balı əvəzinə süzmə bal aldığı üçün, yaxud b) aldığı ərzaqları bir-birinə qatdığı üçün ərini evdən qovur. Kişi meşədə gecələdiyi ağacın altında ifritəyə rast gəlir, onun köməyi ilə Yəmən ölkəsinə gəlir. Hər füqəraya bir kisə qızıl paylamaqla özünü varlı tacir kimi tanıdır və padşahın qızı ilə evlənir. Şumdan tapdığı xəzinə hesabına varlanır.

Axundov, II c., s.82-93, kont.560*A; Azərb. nağ. (2005), I c., s.246-254, kont. 560*A

**865* Şah Abbas və çoban.** Şah Abbas paltarını dəyişdiyindən çoban onu tanımır və onu şahın atını oğurlamaqda günahlandırır. Şah öz qızını çobana ərə verir və onu özünə vəzir təyin edir.

Ağayev, s.172-174

**867* Tilsimlənmiş ev:**

I. Qız yaşadığı evi tilsimbənd edir, kim tilsimi sındırsa, ona ərə gedəcəyini elan edir. Qəhrəman qocadan aldığı məsləhət sayəsində tilsimi sındırır, daha sonra qızın suallarına cavab verir.

II. Qız qəhrəmana zümrüd göndərir, bununla demək istəyir ki, mən atam-anam üçün zümrüd kimi qiymətliyəm; qəhrəman zümrüdün yanına zəbərcəd qoyub geri qaytarır. Qız qəhrəmana almaz göndərir, bununla demək istəyir ki, mən almaz kimi bərkəm, sən mənim arzularımı yerinə yetirə bilməzsən; qəhrəman almazı daşın altına qoyub əzir. Qız qəhrəmana brilyant göndərir, özünün brilyant kimi gözəl olduğunu demək istəyir; qəhrəman brilyantın yanına iki yaqut qoyub geri qaytarır; axırda qızla evlənir.

Azərb. nağ. (2005), I c., s.265-274, kont.925*A+917* (= Azərb. nağ., I c., s.156-165)

**868* «Dünya kor bir eşşəkdir, quyruğundan neçə tutsan, elə də gedər».** Şah Abbas kağız parçasının (boranının) üstünə a) “dünya kor bir eşşəkdir, quyruğundan necə tutsan, elə də gedər”; yaxud b) “dünyanın nə üzünü tutsan, o üzü də gedər” yazıb çaya atır. Kağızı ələ keçirən keçəl bir şəhərə gəlir. Özünü Şah Abbasın oğlu kimi qələmə verir, guya şəhəri yoxlamağa gəlib. Keçəl şəhər böyüyünün qızı ilə evlənir. Şah Abbasa məktub yazır ki, onu qarşılamağa çıxsın. Axırda tapdığı kağızı göstərib öz əməlinə haqq qazandırır.

Bayat, s.21-26; İslamov, s.218-219 (= AFA, IV c., s.214-215); AFA, V c., s.205-206; IX c., s.155-156, kont.951A; XII c., s.260-264 (= BYBQ, s.181-184); XV c., s.228-229; Qarabağ, II kitab, s.366-370

**869* «Bir inəyim var, nə arıqdır, nə kök, öldürsəm nə qədər edər?»** Padşah, vəzir və qul – üçü də eyni qıza aşiq olur. Qız onlara sual verir: bir inəyim var, nə arıqdır, nə kök, öldürsəm nə qədər edər? Qul suala düzgün cavab verir, qız onu evə dəvət edir. Onun qarşısına padnosda iynə, nar, kağız,

qayçı və Quran qoyur. Qul qayçı ilə kağızı doğrayır, iynələri nara sancır, Quranı öpüb yerə qoyur. Bunların mənasını açmadığına görə padşah onu dara çəkdirmək istəyir. Qız narı yerə çırpır, qul ondan sonra sirri açır.

Azərb. nağ., I c., s.148-155, kont.925*B (= Azərb. nağ. (2005), II c., s.138-145); CAƏA, I c. s.343-347, kont.925*B (= Abdullayev, s.103-106)

## 870-879. Şahzadə oğlana (padşaha) ərə getmə

**873 Padşah naməlum oğlunu tapır.** Səfərə çıxan şah arvadına bazubənd verir ki, oğlu olarsa, qoluna taxsın, qızı olarsa, satıb xərcləsin. Oğlu olur. Qəhrəman atasını axtarmağa gedir. Vəzirin qızına aşiq olur və onun evinə lağım atdırır. Şah bundan xəbər tutub onu asdırmaq istəyir, qolundakı bazubənddən oğlunu tanıyır.

SMOMPK, VII burax., s.121-128; XLII burax., II şöbə, s.146-151; Təhmasib, s.49-61; Ağalı, s.46-47, kont.875D; Behrəngi, s.353-358; AKD, s.266-275; AFA, I c., №100, kont. 875D+875H*; Azərb. nağ. (2005), I c., s.343-348, kont.875D

**875 Ağıllı qız.**

I. Qız padşahın sualına cavab verir: dünyada ən şirin şey nədir?; yaxud b) qız ailə üzvlərini soruşan padşahı verdiyi ağıllı cavabla özünə heyran edir.

II. Qız padşahın çətin tapşırıqlarını yerinə yetirir: a) bir günə toyuğu kürt basdırmalı, cücə çıxartmalı, onları böyüdüb saraya aparmalıdır. Qız padşahın tapşırığına əks tapşırıqla cavab verir: Bir çanaq buğda göndərir ki, onu əksin, bir günə

cücərtsin, dənini yığıb ona göndərsin (AT 875B). b) Padşah onu saraya dəvət edir, amma nə çılpaq, nə də paltarda getməlidi, əli nə dolu, nə də boş olmalıdı, nə içəridə, nə də çöldə durmalıdı. Qız saraya torbanın içində gedir, əlində də göyərçin aparır, saraya çatanda göyərçini əlindən buraxır, bir ayağını içəri qoyub birini çöldə saxlayır. c) Padşah palançının qızlarından iki canlı olaraq sarayın qarşısından keçmələrini tələb edir. Onlardan ürəkləri nə istədiyini soruşduqda kiçik qız cavab verir ki, dənizin ortasında bişmiş balıq. Bununla padşah öz tələbinin cəfəng olduğunu qəbul edir (AT 875B) və kiçik bacı ilə evlənir. Padşah onu evdən qovur, gedəndə istədiyi şeyi də özü ilə aparmasına icazə verir. Qız ərini də özü ilə götürür.

Əliyev-Xəlilov, s.291-293, kont.875E; AFA, I c., №95; II c., s.359-363, kont.835*+921+891

**$875_1$ Ağıllı uşaq.** Xanın tapşırıqlarını yerinə yetirir: almaların yaşını müəyyənləşdirir, xanın ən sevimli heyanının keçi olduğunu tapır, onun hüzuruna dəvənin üstündə gedir. Xan həbs etdiyi kənd ağsaqqallarını azad edir.

Seyidov, s.209-213

**875A Ay paradır, ulduzlar əysikdir.** Qız atası vasitəsi ilə padşaha a) bütöv bir çörək və bir qazan dolma, b) on iki qoğal və doqquz yumurta göndərir. Padşah a) ayın para, ulduzların isə əysik olduğunu deyir; yaxud b) bu yerlərdə ilin on bir aydan ibarət olduğunu və qadınların səkkiz aya doğduğunu deyir. Qız başa düşür ki, padşah bununla onun üçün göndərilən yeməyin üstündən yeyildiyini deyir.

AFA, II c., s.346-348, kont.875D+875H*+983; XIV c., s.163-167, kont.875D+921+927*B+891+925

**875B Oğlan suallara əks sualla cavab verir.** Lotular oğlanın pullarını əlindən almaq üçün onunla şərt kəsirlər: əgər suallara düzgün cavab verə bilməsə, qazandığı pulu onlara verməlidir. Oğlan hər suala əks sualla cavab verir: a) – Dənizin suyunu iç desələr nə edərsən? – Siz dənizə tökülən çayların suyunu dayandırın, mən dənizin suyunu bir nəfəsə içərəm. b) – Daşdan köynək tik desələr nə edərsən? – Siz daşdan ip əyirin, mən köynək tikərəm. c) – Poladdan köynək tik. – Qəhrəman qum göndərir ki, siz qumdan sap düzəldin, mən polladdan köynək tikərəm. Lotular öz istəklərinin mənasız olduğunu qəbul edirlər.

AFA, IV c., s.163; AFK, II c., s.197-222, kont.921*+465C

**875D Yola nərdivan salaq.** Şah Abbas onunla yol yoldaşı olan qocaya suallar verir: yola nərdivan salaq, çaya körpü ataq, bu zəminin sahibi görəsən yeyibdi, ya yeyəcəkdi? Qoca qızının köməyi ilə onların mənasını öyrənir. Şah Abbas onun qızı ilə evlənir.

Seyidov, s.158-161, kont.921F+927*A; AKD, s.168-174, kont.921**+891; Ağalı, s.46-47, kont.873; AXS, s.135-138, kont.922D*; AFA, I c., №100, kont.875H*+873; II c., s.346-348, kont.875A+875H*+983; X c., s.190-195, kont.798*; XIV c., s.163-167, kont.875A+921+927*B+891+925; Azərb. nağ. (2005), I c., s.343-348, kont.873

**875E Arabanın qulun doğması.** Molla (varlı) a) qonşunun inəyini onun qoruğunun doğduğunu iddia edir; yaxud b) qulunu onun arabasının doğduğunu iddia edir. İnək (qulun) sahibi ondan şikayət edir. Qazı onun qoltuğundakı küpü rüşvət bilib işi onun xeyrinə həll edir. Küpün ağzını açanda içindəkinin peyin olduğu məlum olur.

SMOMPK, XIII burax., II şöbə, s.78-82, kont.920*; Qaravəllilər (1967), s.99-102 (= Qaravəllilər (1974), s.73-77); Əliyev-Xəlilov, s.291-293, kont.875

**875H* Padşah çəpgöz qıza aşiq olur.** Padşah qızın gözlərinin çəpliyinə işarə vuraraq deyir: «Buxarı gözəldi, hayıf ki, çəpliyi var». Qız ona cavab verir: «Buxarının əyriliyini neynirsən, tüstünün düz çıxmasına bax». Qızın hazırcavablığına heyran qalan padşah onunla evlənir.

AFA, I c., №100, kont.875D+873; II c., s.346-348, kont. 875D+875A+983; V c., s.236

**875İ* Tərli bədən və soyuq su.** Tacir tərli olduğundan qız onun üçün gətirdiyi suyu yerə tökür. Bununla vaxt qazanmağa çalışır ki, tacirin təri soyusun. Tacir həmin qızı öz oğluna alır.

Qarabağ, II kitab, s.237-246, kont.882

**875* Dünyada ən yüyrək şey nədir? Canlılar arasında ən qüvvəlisi hansıdır? Həyatda ən şirin şey nədir?** a) Bir ölkənin padşahı o biri ölkəni müharibə ilə hədələyir, əgər suallara cavab verilməsə, müharibə qaçılmazdır; yaxud b) padşah vəzirdən dünyada ən iyli, ən güclü və şirin şeyin nə olduğunu tapmasını tələb edir. Çobanın qızı suallara düzgün cavab verir: ən yüyrək şey fikirdir, ən qüvvəli canlı atdır, ən şirin şey ağır zəhmətdən sonra gələn yuxudur. Padşah onunla evlənir.

AT kataloqunda 875 nömrəli süjetin tərkibində verilib.

Borçalı folkloru, s.51-54, kont.460A; İslamov, s.220 (= Şirəliyev, s.412-413; = AFA, VI c., s.157-158); Qarabağ, II kitab, s.377-378, kont.921

**878*A Əlimə su tök.** Tacirin qızı əhd edir ki, kim onunla evlənmək istəyirsə, gərək əlinə su töksün. Qızın bu tələbi şahzadənin acığına gəlir və zorla onunla evlənir. Öz fikrində israr etdiyi üçün onu quyuya salır. Tacirin qızı quyudan öz evlərinə lağım atır. Şahzadənin bağa gəzməyə gedəcəyini öyrənib başının dəstəsi ilə həmin bağa gəlir və əhdinə çatır: əlinin palçığını yuması üçün şahzadə onun əlinə su tökür.

Azərb. nağ., III c., s.229-234 (= Azərb. nağ. (2005), IV c., s.208-214)

**878*B Kiçik qız Şah Abbasın onun hamam boxçasını götürməsini arzu edir.**

I. Şah Abbas üç bacının danışığını eşidir: böyük bacı vəzirin, ortancıl vəkilin oğlunun onun almasını, kiçik bacı isə Şah Abbasın onun hamam boxçasını götürməsini arzu edir. Kiçik bacının istəyindən qəzəblənən Şah Abbas onu ölkəsindən qovur.

II. Kiçik bacı şumdan tapdığı yeddi küp qızıl hesabına varlanır, özünə Şah Abbasın imarətinə oxşar bir bina tikdirir: kim ona qonaq olursa, yemək yediyi boşqabı ona hədiyyə edir. Şah Abbasla qızın şöhrətini eşidib ona qonaq olur. Kiçik bacı öz arzusuna çatır: hamam boxçasını Şah Abbasa götürtdürür və onunla evlənir.

Qərb şivələri, s.259-260; Ağalı, s.48; Bayat, s.188-200, kont.987*+456*+400*A; AFA, V c., s.238-239; Qarabağ, I kitab, s.233-235; II kitab, s.275-281, kont.432; NFA, III c., s.131-132

**878** Mum adam.** Tacir hər dəfə səfərə gedəndə evdə yalnız qalan arvadının qorxudan ürəyi partlayıb ölür. Axırıncı dəfə evləndiyi arvad mumdan qadın heykəli düzəldir və onunla dərdləşməklə yalnızlığını unutmağa çalışır. Bu yolla sağ qalır.

AFA, II c., s.356-359

**879 Bəhməz tuluğu.** Şahzadə özünü arşınmalçı (halvaçı) kimi qələmə verir və satdığı malın qarşılığında qızdan öpüş alır. Qız özünü Əzrayıl kimi qələmə verib şahzadəni canını alacağı ilə qorxudur. Şahzadə onunla evlənir və nikah gecəsi onu öldürmək istəyir. Qız öz yerinə bəhməz tuluğu qoymaqla ondan xilas olur.

Azərb. nağ., II c., s.361-369, kont.888A+986 (= Azərb. nağ. (2005), III c., s.280-288); Behrəngi, s.245-247; AFA, V c., s.54-55

**879A* Özündən razı qız.** Hacının qızı padşah oğlunun atdığı almanı əzib geri qaytarır. Qızın bu hərəkəti oğlana bərk təsir edir və hər nə olur-olsun qızla evlənmək istəyir. Qızın nikah tapşırıqlarını yerinə yetirir: a) halvadan hamam tikir, b) qızıldan bağ salır. Toy günü qızı hamama aparırlar, gizli qapıdan aradan çıxır; yaxud padşahın oğlu ilə bağı gəzməyə çıxır, onu çarmıxa çəkib qaçır. Toy gecəsi hacının qızı öz yerinə balqabaq qoyur. Padşahın oğlunu öldürüb onun geyimində sarayı tərk edir.

Azərb. nağ., III c., s.235-240, kont.1538 (= Azərb. nağ. (2005), IV c., s.215-220)

**879* = AT 879A Təhqir olunmuş ər.** Kasıb oğlana ərə gedən şahzadə qız ərinin balıqçı oğlu olmasına gülür. Evi tərk edən oğlan özünü lallığa vurur. Padşah onu sağaltmaq üçün həkim çağırtdırır, hansı həkim uğursuz olursa, onu edam etdirir. Qız ərini sağaltmağı boynuna götürür, yalnız sonuncu gün onu danışdırmağa nail olur.

Ağalı, s.43-44

**879** Pozulmuş vəd.** Qız padşahla evlənməyə razılıq verir, amma padşah ondan icazəsiz çölə çıxmamalıdır. Qadağa

pozulur, qız evi tərk edir və əmisi oğlu ilə evlənir. Toy günü əri qadın paltarında onun yanına gəlir və qız yenidən onunla barışır.

Şirəliyev, s.387-388

**879*** Üç şərt.** Qəhrəman haram yeməməli, yalan danışmamalı, Allahın işinə qarışmamalıdır. Şərti pozduğuna görə arvadı ondan boşanır.

AKD, s.372-374

## 880-899. Sədaqət və günahsızlıq

**880 Arvad ərini xilas edir.** Padşah tacirlə mərc gəlir: əgər pişik səhərə kimi quyruğu üstündə yeddi çırağı saxlasa, tacirin var-dövləti ona çatır. Mərci udan padşah tacirin var-dövlətini əlindən alır, özünü isə zindana atdırır. Arvad kişi paltarında ərinin olduğu şəhərə gəlir. Otağa siçan buraxmaqla padşahı udur və ərini xilas edir.

Axundov, II c., s.273-276; Seyidov, s.74-79, kont. 910L*+912**+507C; AKD, s.157-168; Azərb. nağ. (2005), I c., s.225-226 (= ATS, s.270-272; = Azərb. nağ. I c., s.301-302)

**881 Böhtanlanmış arvad.** Qəhrəman arvadının pis yola düşməsi haqqında məktub alır. Arvadını xəncərlə vurur, ölmüş bilib onu tərk edir. Həkim (dəllək) qızı sağaldır və onunla evlənmək istəyir. Qız ondan qaçır, oğlan geyimində şəhərə gəlir və padşah seçilir. a) Şəklini çəkdirib divara vurdurur, yaxud b) qıtlıq olan il ucuz qiymətə taxıl satır, bu yolla ərini tapır.

SMOMPK, XIX burax., II şöbə, s.167-180, kont. 835**+1651; XXVI burax., II şöbə, s.196-206; Azərb. nağ., II

c., s.82-89 (= ATS, s.433-445); s.264-272 (=Azərb. nağ. (2005), III c., s.200-208); IV c., s.111-117, kont.470B+612 (= Azərb. nağ. (2005), V c., s.111-117); İsmayılov, s.308-311; AFA, XII c., s.223-236 (= BYBQ, s.151-158); AFK, III c., s.128-143, kont.884B; Qarabağ, II kitab, s.246-259

**881*** Üçgünlük körpənin şahidliyi.** Ona hay verməmdiyi üçün ana oğlunu qarğayır: səni görüm böhtana düşəsən. Bir qadın çobandan uşağa qalır, amma kəndin mollası olmaq istəyən oğlanı şərləmək üçün uşağın ondan olduğunu deyir. Oğlanı daş-qalaq etmək istəyirlər. Üçgünlük uşaq dil açıb atasının kim olduğunu deyir, ondan sonra qadının yalanı üzə çıxır.

AFA, XVI c., s.350-351

**882 Qadının sədaqətliliyi üstündə mərc.** Qəhrəman kasıb qızla evlənir və arvadının ona sədaqətli olmasına dair tacir dostu ilə iddiaya girir. Tacir qəhrəmanın yaşadığı şəhərə gəlir, qarının vasitəsi ilə onun arvadının üzüyünü oğurlatdırır və yaxud sandıqda arvadın yataq otağına daxil olub onun alt paltarını ələ keçirir. Arvad kişi geyimində onu təqib edir və özünün günahsız olduğunu sübut edir.

SMOMPK, XXIV burax., II şöbə, s.190-203, kont.900*; Baqri, I c., s.108-112; AFA, X c., s.156-162, kont.327D*; AFK, II c., s.175-186; s.187-196; Qarabağ, II kitab, s.237-246, kont.875İ*

**882* Dülgər daşın üstündə ağac yonur.** Fikri həmişə işində olduğuna görə baltanın ucu daşa dəymir. Lotu qarının əliylə dülgərin arvadını yoldan çıxartmağa çalışır, amma buna nail olmur.

AFA, XVI c., s.359-360

**883A Böhtanlanmış qız.**

I. Tacir çinar ağacının dibindən tapdığı uşağı yoldaşının köynəyindən keçirib övladlığa götürür. Tacir səfərdə ikən əmi qardaşı qızını ələ keçirməyə çalışır, buna nail olmadıqda ona böhtan atır. Qızı öldürməli olan qardaşı onu sərbəst buraxır, əvəzində onun qanlı paltarını atasına göstərir. Qız şahzadə ilə evlənir.

II. Qız atası evinə gələndə yolda vəzir onunla başbir olmaq istəyir, razı olmadıqda onun uşaqlarının başını kəsir. Qız subaşına çıxmaq bəhanəsiylə vəzirdən qaçır, oğlan paltarında və ya qoyun dərisində atası evinə gəlir. Başına gələn əhvalatı danışır, günahkarlar cəzalandırılır.

SMOMPK, XXIV burax., II şöbə, s.123-127; XLII burax., II şöbə, s.101-110; Baqri, I c., s.57-65; Azərb. nağ., II c., s.273-279 (= Azərb. nağ. (2005), III c., s.209-215); Vəliyev, s.28-29; Hüseynzadə, s.88-91; Behrəngi, s.229-234; AFA, XV c., s.290-295; XXIII c., s.131-138; Azərb. nağ. (2005), I c., s.322-328; AFK, X c., s.380-388

**883A* = SUS 883A*** Böhtanlanmış baldız.** a) Gəlin tutuquşunu, atı və uşağı öldürüb günahı baldızının üstünə atır; yaxud b) öz uşağının başını kəsib qanlı bıçağı baldızının döşəyinin altına qoyur. Qızı uşağın ölümündə günahlandırıb qollarını kəsirlər və ya onu evdən qovurlar. Qız dirilik suyunun köməyi ilə qollarını sağaldır. Özünün günahsız olduğunu sübut edir və gəlin cəzalandırılır.

SMOMPK, VI burax., II şöbə, s.94-100; XIII burax., II şöbə, s.318-322, kont.707A; Seyidov, s.155-157; AFA, IV c., s.202-209, kont.707A; IX c., s.239-243; s.177-181

**883C Qəribə adlı qardaşlar.** a) Padşahın qızı evdən ayrı düşür. Evlənir, oğlanlarının adını «Dayandur», «Bu nə qəzadı mən düşdüm» və «Allah, bu günümə də şükür» qoyur. Yaxud b) padşah adına xələl gətirəcəyindən qorxub qızının öldürülməsini əmr edir; qız sağ qalır və çobanla evlənir. Uşaqlarının adını "Nə idim", "Nə oldum", "Nə olacaq" qoyur. Onların sayəsində yenidən valideynlərini tapır.

Məmmədov, s.197-206; AFA, I c., №120; NFA, III c., s.152-155

**883C* Qismət belə imiş.** Padşah uşağı olmadığı üçün arvadının öldürülməsini əmr edir. Cəllad arvadın qollarını kəsib onu bir çöllüyə atır. Arvad çobanla evlənir, ondan olan oğlunun adını "Qismət belə imiş" qoyur. Onun sayəsində keçmiş ərini tapır.

AFK, VIII c., s.287-288

**884B = AT 884B* Qız gəldim, qız getdim.** Qız əyninə oğlan paltarı geyinib başqa bir şəhərə gəlir, bir qarının yanında oğulluğa girir, yaxud dəmirçinin yanında şəyird işləyir. Qarının oğlu (dəmirçi) onun qız olmasından şübhələnir: a) onu muncuq yığmaq üçün dağa aparır, qız muncuqlara məhəl qoymur; b) döşəyinin altına gül qoyur, qız yatanda gülləri bir kənara çəkdiyindən onlar öz təravətini qoruyub saxlayır. Qız məktub yazıb evi tərk edir. Qarının oğlu qızı tapıb onunla evlənir.

Behrəngi, s.234-239; Ağbaba folkloru, s.104-107; AFK, III c., s.128-143, kont.881; IV c., s.277-283

**887* Naşükür qız.** Valideynləri onun nə qədər nazı ilə oynasa da, yenə də bəxtindən narazıdır. Bağa seyrə çıxanda quş qızı caynağına alıb aparır və bir meşədə yerə qoyur. Çobanla paltarını dəyişir, başına qoyun dərisindən papaq qoyub

şəhərə gəlir və çayçı yanında şəyird işləyir. Stəkanları sındırdığına görə oradan qovulur. Şahzadə ilə evlənir. Onu uşaqların ölümündə günahlandırıb evdən qovurlar. Qarşılaşdığı qocanın məsləhəti ilə bəxtindən şikayətlənməyi tərgidir, ondan sonra itmiş uşaqlarını tapır və yenidən ailəsinə qovuşur.

Azərb. nağ., IV c., s.255-265, kont.834** (= Seyidov, s.41-50; = Azərb. nağ. (2005), V c., s.257-268)

**888A = AT 888A* Baftaçı Şah Abbas.** Evlənmək istədiyi qızın arzusu ilə baftaçılıq (xalçaçılıq) sənətini öyrənir. Dara düşür, toxuduğu baftanın üzərinə özünün təhlükədə olduğunu yazır. Arvadı onu xilas edir.

SMOMPK, XXIV burax., II şöbə, s.107-109; Baqri, I c., s.265-271; Azərb. nağ., II c., s.361-369, kont.986+879 (= Azərb. nağ. (2005), III c., s.280-288); Hüseynov, s.167-168; İmamquliyeva, s.275-276, kont.928*; AFA, IX c., s.131-132; XV c., s.224-228, kont.1590; Qarayev, s.401-402; AFK, VII c., s.306-311

**891 Padşah arvadından ona oxşar uşaq doğmasını tələb edir.** Padşah kasıb kişinin ağıllı qızı ilə evlənir. Şəhəri tərk edir və arvadından ona oxşar bir övlad dünyaya gətirməsini tələb edir. Qız kişi paltarı geyinib ərinin dalınca gedir və onun tapşırığını yerinə yetirir.

Seyidov, s.126-129; AKD, s.168-174, kont.875D+921**; AFA, II c., s.359-363, kont.835*+921+875; XIV c., s.163-167, kont.875D+875A+921+927*B+925

**891A Qız oğlanı özünə aşiq edir.** Padşahın qızı göyərçinlərin tərif etdiyi oğlana aşiq olur və onun dərdindən xəstələnir. Padşah bağdan yarılmış ürək asdırmaqla qızının xəstəliyinin səbəbini öyrənir və onu sandığa qoyub çaya atır. Oğlan

qızı xilas edir, amma anasının israrına baxmayaraq onunla evlənmək istəmir. Gül bağına gəzməyə gedir. Orada tanış olduğu qıza aşiq olur və onun yarasını yaylığı ilə sarıyır. Qız həmin yaylığa görə tanınır və oğlan onunla evlənir.

Behrəngi, s.319-324

**893 Dostun sınanması.** Qəhrəman torbaya qoyun cəsədi qoyur və adam öldürdüyünü söyləyib dostlarından onu basdırmaq üçün kömək istəyir. Hamı onu qapıdan qovur, yalnız köhnə dostu ona yardım edir.

SMOMPK, XXI burax., II şöbə, s.27-51, kont.456* +910B*+400*C; Azərb. nağ., IV c., s.45-67, kont.516+525* +893*A (=Azərb. nağ. (2005), V c., s.43-65)

**893A* Dostun sınanması.** Qəhrəman əkinə açdığı suyun qabağını kəsən şəxsi vurub öldürür. Dostunun köməyi ilə onu arxın içərisində basdırır. Daha sonra dostunu sınayır: düzəltdiyi məclisə onu çağırmır, əlinə məcməyi verib adamlara qulluq elətdirir və s. Onun sirri açmayacağına əmin olur.

AFA, IX c., s.115-116; X c., s.208-209; AFA, XVII c., s.163-164

**893*A Qəhrəman öz nişanlısının dostu ilə evlənməsinə razı olur.** Qəhrəman dostunun onun nişanlısına aşiq olduğunu bilib onların evlənməsinə razılıq verir. Valideynləri dərddən dünyasını dəyişir, camaatın rişxəndinə dözməyib şəhəri tərk edir və dostunun yaşadığı şəhərə gəlir. Dostu onu soyuq qarşılayır, amma sonradan anasının vasitəsi ilə ona öz evində sığınacaq verir, onu öz bacısı ilə evləndirir, atasının vasitəsilə ona iki kisə qızıl göndərir. Qəhrəman bu yaxşılıqları dostunun etdiyini bilib onunla barışır.

Azərb. nağ., IV c., s.45-67, kont.516+525*+893 (= Azərb. nağ. (2005), V c., s.43-65); Borçalı folkloru, s.32-34; AFA, XVIII c., s.128-133, kont.910D; AFK, IX c., s.243-244

**893*B Padşah qəssabın nişanlısına aşiq olur.** Qəssabın xeyirxahlığını eşidən şah onu sınamaq qərarına gəlir və ona qonaq olur. Şah divarın o biri üzündə gördüyü qıza – qəssabın nişanlısına aşiq olur və onunla evlənir. Nikah gecəsi qızdan həqiqəti öyrənən şah onu öz bacısı kimi yanında saxlayır. Nişanlısını itirən qəssab artıq əvvəlki həvəslə işləyə bilmir və şəhəri tərk edib şahın yaşadığı şəhərə gəlir. Onu nişanlısı ilə evləndirən şah qəssabın ondan da xeyirxah olduğunu etiraf edir.

Əliyev-Xəlilov, s.270-274

**893**A Tacirlə şahın dostluğu.** Qahirə şahı karvandan geri qalmış tacirə öz alaçığında yer verir. Şahın arvadına gözü düşən tacir əlini onun baldırına toxundurur, arvad əlindəki aftafa ilə onun başını vurub yarır. Yəmən padşahı ilə döyüşdə Qahirə padşahı məğlub olur və arvadı əsir düşür. Tacir şahın arvadını əsirlikdən xilas edir. Şah onun verdiyi pul hesabına özünə qoşun toplayır, Yəmən hökmdarını məğlub edib taxt-tacı geri qaytarır.

Tantəkin, s.159-164

**893**B Tacirbaşı Hüseyn.** Çin padşahının qızı əsir düşmüş gənci saraya buyruqçu təyin edir. Qıza gözü düşən gənc ona sataşmaq istəyir, qız mis parçla onun başını vurub yarır. Gənc onun sayəsində əsirlikdən xilas olur və öz ölkəsinə qayıdır. Ticarətlə məşğul olub böyük var-dövlət sahibi olur. Şəhərdə gəzərkən Çin padşahının qızının yəmənlilərə əsir düşdüyünü və kəniz kimi satıldığını görür. Qızı alıb onunla evlənir.

AFK, VII c., s.129-138

**893**C** Gənc evində gecələdiyi qadına sataşmaq istəyir, qadın onun başını vurub yarır. Amma gənci ərinin yanında satmır: onun guya atdan yıxılıb başını yardığını deyir. Gənc onların köməyi sayəsində başlıq parasını yığıb nişanlısı ilə evlənir.

AFK, IX c., s.235-239

**893*** Şah Abbasla torçunun qardaşlığı.** Şah Abbas arvadını siğə qardaşına – torçuya qoşub dağa dincəlməyə göndərir. Torçu səfərə çıxmazdan əvvəl özünü kişilikdən salır. Dağda dincəldikləri vaxt Şah Abbasın arvadı torçu ilə başbir olmaq istəyir, buna nail olmadıqda ona böhtan atır. Şah Abbas işin əslini yoxlamadan torçunun edamı haqqında fərman verir. Torçu özünü kişilikdən saldığını söyləyib günahsız olduğunu sübut edir. Bu hadisədən sonra onların qardaşlığı pozulur.

Bayat, s.206-211

**893**** Əsl dost.** Dostunun yerinə özünün dar ağacından asılmasını istəyir. Padşah onların arasındakı dostluğu görüb onun günahından keçir.

Vəliyev, s.30

**895* Şah Abbasın arvadları qırdırmaq istəməsi.**

I. a) Şah Abbasın arvadı ona xəyanət edir; b) gəlin çobanla zina edir; qız c) aşnasının istəyi ilə ərinin başını kəsir, yaxud d) Şah Abbasla evlənmək üçü öz ərini öldürməyə razılıq verir. Bu hadisənin şahidi olmuş Şah Abbas arvadların öldürülməsini əmr edir.

II. *Həsən Qaranın əhvalatı.* Qız nişanlısının qisasını almaq üçün özünə yoldaş axtarır. Pəhləvan qiyafəsində hər gecə bir vəzirin qapısını döyür, hansı vəzir onun qarşısına alt

tuman-köynəkdə çıxırsa, onun boynunu vurur. Həsən Qara arvadının məsləhəti ilə yaraqlanıb-yasaqlanıb qapıya çıxır, qızın tapşırığı ilə atını onun arxasınca sürür. Qız haramıbaşıdan (divdən) nişanlısının qisasını aldıqdan sonra onun qəbri üstündə özünü də öldürmək istəyir. Həsən Qara qıza özünü öldürməyə imkan vermir və onunla evlənir. Bu əhvalatı Şah Abbasa danışıb onu arvadları qırdırmaq fikrindən daşındırır.

SMOMPK, XXI burax., II şöbə, s.12-17 (= ATS, s.586-592); Baqri, I c., s.244-255, kont.895**; ATS, s.319-324, kont.1426+410*+567; Şirəliyev, s.391-392; Azərb. nağ., III c., s.78-94 (= Azərb. nağ. (2005), IV c., s.76-92); Tantəkin, s.65-78; AKD, s.102-105; BYBQ, s.174-176; Bayat, s.200-206; AFA, VI c., s.113; XIV c., s.122-125; AFK, IX c., s.86-92; Qarabağ, II kitab, s.353-359; NFA, III c., s.163-165; s.175-179

**895** Əhmədi Biqəm**. Əmioğlu əmiqızı bir-birilərinə sadiq qalacaqlarına dair əhd-peyman bağlayırlar. Qız ölüm ayağında olanda oğlan öz sünnətini kəsdirir. Qız sağalır, oğlanın özünü kişilikdən saldığını biləndən sonra onunla bir yerdə yaşamaq istəmir.

Baqri, I c., s.244-255, kont.895*; Ağalı, s.99-100; Borçalı folkloru, s.30-32; AFA, X c. s.165-167; XII c., s.295-296, kont.844

**896* Etibarsız ər.** Balıqçının dəryadan tutduğu sandığın içindən gözəl bir qız çıxır. Balıqçı qızla evlənir və onun sayəsində varlanır: özünə dükan açır, darğanın evini alır. Başqa qadına vurulan balıqçı öz arvadını sandığa qoyub yenidən dəryaya atır. Var-dövləti əlindən çıxır, müflisləşir. Vurulduğu qadının öz arvadı olduğunu biləndən sonra tutduğu işə peşman olur.

Azərb. nağ., I c., s.202-217, kont.1426+986*A+456*+560*B (= Azərb. nağ. (2005), II c., s.176-191)

**898* Padşah və dəmirçi.** Darğa dəmirçinin padşah üçün hazırladığı qılıncı dəyişir. Dəmirçinin onu aldatdığını zənn edən padşah onun qollarını kəsdirir. Axırda həqiqət üzə çıxır, darğa cəzalandırılır.

Azərb. nağ., IV c., s.181-186 (= Seyidov, s.145-150; = Azərb. nağ. (2005), V c., s.183-188)

**898** Kim daha etibarlıdır.** Qəhrəman elə zənn edir ki, qardaşı daha etibarlıdır və çeşmənin dibindəki qızılları çıxarmaq üçün onu özüylə aparır. Qoca ona qardaşının etibarsızlığını, hətta qızılları ələ keçirmək üçün onu öldürməyə belə hazır olduğunu göstərir. Arvadı qardaşından daha etibarlı çıxır.

AFA, XIV c., s.129-130

**899 Qadın ərinin yerinə öz canının alınmasına razı olur:** Nigah gecəsi oğlanın əcəli tamam olur, amma onun sağ qalması üçün kimsə onun yerinə öz canını verməlidir. Oğlan atasına, anasına ağız açır, amma onlardan müsbət cavab ala bilmir. Gəlin ərinin yerinə öz canının alınmasına razı olur.

AFA, XVI c., III mətn, s.320-321; Qarabağ, II kitab, s.314-316

## 900-909. İnadkar arvad və ya qızın yumuşalması

**900* Evlənmək istəməyən qız.** Qız yuxuda erkək ahunun ayağı oyuğa düşmüş dişi ahuya kömək etmədiyini görür, ona görə evlənmək istəmir. Qıza aşiq olmuş qəhrəman hamam tikdirir, hamamın divarlarını onun yuxusunu əks etdirən şəkillərlə bəzəyir, axırda da erkək ahunun dişi ahunun köməyinə gələrkən ovçular tərəfindən vurulduğunu təsvir edir. Bu yolla qızı fikrindən döndərib onunla evlənir.

SMOMPK, XXIV burax., II şöbə, s.190-203, kont.882; ATS, s.457-465; Azərb. nağ., II c., s.178-183 (= Azərb. nağ. (2005), III c., s.153-159)

**901 Kişi sözünə qulaq asmayan arvadın gözünü qorxudur.** Onun gözü qarşısında pişiyi parçalayır.

AFA, XIV c., s.206-207

**901* Arvadı arvad edən kişidir.** Yengivar şah öz arvadlarını boşayıb cütcünün arvadı ilə evlənir. Şahın arvadlarından biri dildən yava, o biri oğru, üçüncü isə ayağı sürüşkən olur. Cütcü dildən yava arvadı çaya atır, o biri arvadlar cütcünün qorxusundan öz əməllərini tərgidirlər.

Ağalı, s.100-102; AFA, I c., №109; XVI c., s.373-376, kont.984***; AFK, X c., s.257-258

**901** Şir tükü.** Cütçünün arvadı ərinin sevgisini qazanmaq istəyən qadına məsləhət görür ki, şir tükü əldə etsin. Arvad tükü əldə edə bilmək üçün hər gün şirlərə yemək verir, su verir, onların belini tumarlayır. Bunun sayəsində başa düşür ki, ərinin sevgisini qazanmaq üçün eyni münasibəti ona da göstərmək lazımdır.

Seyidov, s.179-180

**909* Qadınların fərqi.** Tacirin arvadı yolda təkbaşına uşaq dünyaya gətirir, onu kürəyinə sarıyıb yenidən yoluna davam edir. Bu hadisənin şahidi olan padşah həmin qadını əlini ağdan-qaraya vurmayan arvadına örnək gətirir. Arvad bağdakı ağaclarla meşədəki ağacların fərqini ərinə göstərir. Bağdakı ağaclar sulanmadığı üçün quruyur, amma meşədəki ağaclar sulanmır, yenə də yaşıldır. Bununla ərinə tacirin arvadı ilə özünün fərqli tərbiyə aldığını göstərir.

SMOMPK, XIII burax., II şöbə, s.120-121; Azərb. nağ., IV c., s.144-150, kont.1641B+1405 (= Seyidov, s.200-205; = Azərb. nağ. (2005), V c., s.144-150)

## 910-919. Xeyirxah məsləhətlər

**910A* İçki məclisinə, qumar oynamağa dostlarından sonra get, məşuqənin yanına sübh tezdən get.** Qəhrəman atasından aldığı məsləhətləri sınayır. Qumar oynayan yoldaşlarının pul üstündə bir-birini bıçaqladığını, içki içən yoldaşlarının sərxoş olub dalaşdığını, məşuqəsinin ənliksiz-kirşansız nə qədər çirkin olduğunu görür. Ondan sonra həmin əməllərini tərgidir.

AFA, XVI c., s.381-382

**910B Üç ağıllı məsləhət.**

*I. Söz satan qoca.* Qəhrəman nurani qocadan üç məsləhət alır: «dərədə yatma, təpədə yat», «könül sevən göyçək olar», «bir iş görəndə tələsmə».

*II. Alınan məsləhətlərin sınanması.* a) Qəhrəman dəvə karvanına bəldəçilik edir. Qocanın verdiyi məsləhətə uyğun olaraq təpədə gecələyir. Gecə güclü leysan yağır, sel dərədə gecələyən tacirlərin malını yuyub aparır. b) Su quyusunda yaşayan divin sualına cavab verir: könül sevən göçək olar. Tilsim sınır, divin aşiq olduğu qurbağa gözəl bir qıza çevrilir. Div qəhrəmana dənələri qiymətli daş olan bir nar hədiyyə edir. c) Qəhrəman evə qayıtdıqda arvadının yanında bir oğlanın yatdığını görüb onları öldürmək istəyir. Qocadan aldığı

sonuncu məsləhəti yadına salıb əl saxlayır. Məlum olur ki, öldürmək istədiyi onun öz oğludur.

SMOMPK, VII burax., II şöbə, s.104-108, kont.835**; Tantəkin, s.43-65; Seyidov, s.190-192; Borçalı folkloru, s.54-58, kont.1651; AFA, X c., s.92-95; XVI c., s.378-381; Qarabağ, II kitab, s.332-338, kont.986

**910B* Elmin başı da səbirdir, sonu da.** Yalnız sonuncu gediş iştirak edir. Oğlan bir ay çobana qulluq edir, əvəzində ondan bir məsləhət alır. Arvadının yanında yatan gənci öldürmək istəyir, çobanın məsləhətini yadına salıb əl saxlayır. Onun öz oğlu olduğu məlum olur.

SMOMPK, XXI burax., II şöbə, s.27-51, kont.456* +400*C+893; Borçalı folkloru, s.169; Qarabağ, III kitab, s.298-300

**910C Bir iş görəndə axırını fikirləş.** a) Padşah pinəçidən aldığı hikmətli sözü üzüyünün üstünə yazdırır; yaxud b) çəkməçi yazdığı şeiri padşahın pəncərəsi önündəki divara yapışdırır. Vəzir padşahdan qan almağa gələn dəlləyin neştərini dəyişib yerinə zəhərlisini qoyur. Üzüyün üstündəki söz, yaxud şeir parçası padşahı ölümdən xilas edir.

Baqri, I c., s.121-124; Hüseynov, s.76-78; İsmayılov, s.329-330; Əliyev-Xəlilov, s.223-227; AFA, VI c., s.120-121; XII c., s.264-270 (= BYBQ, s.176-181); Axısqa folkloru, s.36

**910D Tavanda gizlədilmiş qızıl.** Ata oğluna dar gündə özünü tavandan asmağı məsləhət görür. Bütün sərvəti əldən çıxan oğlan özünü tavandan asmaq istəyir, atasının orada gizlətdiyi qızıllar yerə tökülür.

Baqri, I c., s.75-77; Borçalı folkloru, s.24-25; AFA, XVIII c., s.128-133, kont.893*A

**910E Bağa basdırılmış küp.** Ölüm ayağında olan ata oğluna bağa küp basdırdığını deyir. Oğlu bağı qazır, amma küpü tapa bilmir. Başa düşür ki, atası bununla ona bağı becər, bar versin, onunla dolan demək istəyirmiş.

AFA, XIV c., s.104-105

**910F Yeddi nar çubuğu.** Nar çubuqlarını ayrı-ayrılıqda sındırmaq asan olur, amma onlar bir yerdə olanda bu mümkün deyil. Ata bununla oğlanlarına başa salmaq istəyir ki, nə qədər ki bir yerdədirlər, heç kim onlara bata bilməz.

Seyidov, s.220-221

**910K = SUS 837 Yaxşılara yaxşılıq elə, pislərə öz pisliyi kifayətdir.** Kasıb bu sözləri hər gün padşahın yadına salıb ondan bəxşiş alır. Vəzir qocaya çoxlu sarımsaq yedizdirir, padşahla danışanda o, əlini ağzına tutur. Qocanın ondan iyrəndiyini güman edən padşah onun boynunun vurulması haqqında fərman verir və fərmanı qoca ilə hakimə göndərir. Vəzir qocanın əlində kağızı görüb elə zənn edir ki, padşah yenə onu bəxşiş almağa göndərir. Kağızı özü aparıb hakimə təqdim edir, qocanın yerinə onun boynu vurulur.

Azərb. nağ., III c., s.274-277 (=Azərb. nağ. (2005), IV c., s.234-237); AFA, V c., s.61; VI c., s.110-111; X c., s.203-207

**910L* Hasara alınmış ev.** Ata oğluna evi satmaq istəsə, əvvəl onu hasara alıb, sonra satmağı məsləhət görür. Oğlu buna əməl edir. Evə verilən pulun hasarın xərcini ödəmədiyini görəndə onu satmaqdan vaz keçir.

Seyidov, s.74-79, kont.912**+880+507C; AXS, s.10-11

**911 = AT 911* Arvada sirr vermə, böyüklərlə dostluq etmə, özgədən dost tutma.** Vəzir üç söz satın alır: a) arvada sirr vermə, b) qohumu qoyub özgəynən oturma, c) padşaha

etibar etmə. Aldığı sözləri sınamaq üçün padşahın ən istəkli qoçunu öz tövləsində gizləyir, bazardan ona oxşar bir qoç alıb kəsir. Daha sonra əlinə bəhanə salıb arvadını döyür, arvad onun qoçu kəsməsini padşaha xəbər verir. Padşah işin əslini yoxlamadan vəzirin asılmasına qərar verir. Vəzirin dost bilib irəli çəkdiyi adamlar ona gülür, amma qohum-əqrabası onun üçün göz yaşı tökür. Bu hadisədən sonra vəzir satın aldığı sözlərin həqiqiliyinə əmin olur və padşaha həqiqəti söyləyib xilas olur.

AFA, XII c., s.279-280; Qarabağ, II kitab, s.338-344, kont.922**

**911A* Gədədən pul istəmə, atını başqasına vermə, arvadı atası evinə getməyə qoyma.** Qəhrəman atasının bu sözlərini sınayır: birinə borc verir, verdiyi borcu geri ala bilmir; atını qonşusuna verir, qonşu atı elə çapır ki, heyvan bala salır; arvadını atası evinə tək buraxır, arvad ona xəyanət edir; ondan sonra oğlan atasının verdiyi məsləhətin həqiqiliyinə inanır.

Qonaqkənd ləhcəsi, s.245-248; Qərb şivələri, s.265-266; Cəfərzadə, s.355-356; Ağalı, s.65-66; Ağbaba folkloru, s.99-102; AFK, IV c., s.249-254; IX c., s.231-234

**912*A İnsafı əldən qoyma, namazı vaxtında qıl və yalan danışma.** Qəhrəman üç məsləhət alır: a) insafı əldən qoyma, b) namazı vaxtında qıl, c) yalan danışma. Padşahın xəzinəsinə oğurluğa gedir: qızılı üç yerə bölüb bir hissəsini özünə götürür; səhərin açıldığını görüb yolda namaz qılır. Yaxalandıqda xəzinəni oğurladığını etiraf edir. Padşah onu azad edir.

Baqri, I c., s.137-138; AFA, V c., s.244-246; XVI c., s.382; AFK, X c., s.316-322, kont.934G**

**912*B** Əyyar atasına yalan danışmayacağına söz verir. Tacirin evinə oğurluğa gedir, geri qayıdanda yolda ev sahibi ilə qarşılaşır və ona həqiqəti söyləyir. Tacir öz malını ona halal edir. Əyyar ondan sonra oğurluğu tərgidir.

Seyidov, s.198-199

**912** Qumarı qumarbazların böyüyündən öyrən.** Ata oğluna qumar oynamaq istəsə, qumarbazların böyüyü ilə oynamağı vəsiyyət edir. Qəhrəman qumarbazların böyüyünün dilənçi günündə yaşadığını görüb bu peşənin axırı olmadığını başa düşür.

Seyidov, s.74-79, kont.910L*+880+507C; AFA, XVIII c., s.133-138, kont.925**+925*A+925****; AFK, VIII c., s.302-307, kont.925*A;

**915B* Yanlış anlaşılan məsləhət.** Ata oğlanlarına hər vilayətdə bir ev tikməyi tapşırır. Böyük oğlanları onun sözünə hərfi mənada əməl edirlər, kiçik oğlu isə hər vilayətdə özünə dost qazanmaqla atasının tapşırığını yerinə yetirir.

Hüseynov, s.195; AFA, XIII c., s.186; XIV c., s.107-108; Qarabağ, I kitab, s.258

**916 Qardaşlar padşahın yataq otağına qarovul çəkirlər.** Qardaşlar növbə ilə padşaha qarovul çəkirlər. Kiçik qardaş onun otağına tərəf sürünən əjdahanı öldürür. Səsə çölə çıxan padşah kiçik qardaşı əli qılınclı görüb onu öldürmək istədiyini zənn edir və onun boynunun vurulmasını əmr edir, amma həqiqəti biləndən sonra fikrindən daşınır.

SMOMPK, XLII burax., II şöbə, s.20-30, kont.976A +925**+925*A+178D*; Axundov, I c., s.262-267, kont.178C* +178D*+178A; II c., s.144-152, kont.178C*+178D*+178A

**917* Padşah özünə namuslu kürəkən axtarır.** Ata yol üstündə olan oğluna məsləhət verir: gördün ki, arzuna çatacaqsan, ona çatmaq üçün tələsmə. Padşah, qızına elçi düşən şəxsləri onunla bir otağa salıb özü əlində qılınc qapının arxasında durur: kim qıza yaxınlıq verirsə, qapıdan çıxanda onun boynunu vurur. Qəhrəman atasının məsləhətini yadına salıb qıza yaxın durmur və onunla evlənir.

Azərb. nağ. (2005), I c., s.265-274, kont.925*A+867* (= Azərb. nağ., I c., s.156-165)

**918* Sıldırım qaya.** Yaralı əliyin dalınca gedən ovçu qayıdanda sıldırım qayadan keçməyə qorxur. Bir ağsaqqalın məsləhəti ilə qayanın o biri tərəfində bir dəstə qız çalıb oynayır, onların həvəsinə ovçu qayadan keçir.

Qarabağ, II kitab, s.386-387

## 920-929. Ağıllı iş və hikmətamiz söz

**AT 920B*** = 783* nömrəsində verilib.

**920B* Padşahlığa namizədlərin yoxlanılması.** Padşah növbə ilə oğlanlarına baş çəkir. Böyük oğulları onun qarşısına alt paltarda çıxır, padşah kiçik oğlunu öz yerinə təyin edir.

Ağayev, s.175-176

**920B** Padşah vəzirliyə gətirmək istədiyi şəxsi sınayır.** Təğyirlibas olub ona qonaq olur. Həmin şəxs onun qabağına alt paltarda çıxır, evdə heç kim onun sözünə qulaq asmır. Padşah ondan sonra fikrindən daşınır.

Seyidov, s.214-219, kont.988*+922*

**920* Yalançı padşah.** Başqa şəhərdə çalışan qəhrəman qardaşı (yoldaşı) ilə ailəsinə qiymətli daş göndərir. Qardaşı daşı mənimsəyir, onları ünvanına çatdırdığını sübut etmək üçün yalançı şahid tutur. Qəhrəman ondan şikayət etməyə gedir və yolda xan-vəzir oynayan uşaqlarla qarşılaşır. Yalançı xan şahidləri ayrı-ayrılıqda dindirib onlardan daşın ölçüsünü və rəngini soruşur. Bu yolla onların yalanını üzə çıxarır (Müqayisə et: AT 920).

SMOMPK, XIII burax., II şöbə, s.78-82, kont.875E; XXI burax., II şöbə, s.96-99; Azərb. nağ. (2005), I c., s.303-312 (= ATS, s.575-585)

**920** Yalançı şahid.** Şah Abbas qızıl təsbehini uşaqları ac qarına yatırtmaq istəyən qadına bağışlayır. Qadın təsbehi satmaq üçün bazara çıxarır, təsbeh oğurlanır. Oğru təsbehin ona məxsus olduğunu iddia edir və yalançı ustanı da şahid göstərir. Şah Abbas təsbehi daşın altına qoyub əzir və ustadan onu yenidən düzəltməsini tələb edir. Yalançı usta bunu bacarmır, amma təsbehin əsl ustası onu əvvəlki kimi yenidən düzəldir. Bunun sayəsində Şah Abbas oğrunun yalanını üzə çıxardır və onu cəzalandırır.

AFA, I c., №75; IX c., s.217-221; XV c., s.261-267

**921 Padşah və kəndli qız.** Qız (yaxud oğlan) padşahın suallarına ağıllı cavab verir. a) – “Atan hara gedib?” – “Dostu düşmən etməyə”. b) – “Anan hara gedib?” – “Biri iki etməyə”. c) – “Sən nə edirsən?” – “İkini bir edirəm”. Daha sonra verdiyi cavabların mənasını izah edir.

AFA, II c., s.359-363, kont.835*+875+891; XIV c., s.163-167, kont.875D+875A+927*B+891+925; Qarabağ, II kitab, s.377-378, kont.875*

**921B İnsanının, heyvanın, ağacın, meyvənin pisi.** Kəndli yolda qarşılaşdığı qocadan sualın cavabını öyrənir. İnsanın pisi naşükür adam, heyvanın pisi eşşək, meyvənin pisi ərik, ağacın pisi yulğundur.

AFA, XIII c., s.254-255

**921C** Köpəyin münəccimliyi.** İki nəfər çərxi-zəvvara girib münəccimlik elmini öyrənir; bir dəyirmançıya qonaq olurlar; qara köpək yatdığı yerdən durub arabanın altına keçir, dəyirmançı bunun sayəsində yağışın yağacağını müəyyən edir; münəccimlərin verdiyi proqnoz isə özünü doğrultmur.

AFA, XVI c., s.385-387

**921E = AT 921E* Zurna satan.** Qəhrəman qonşusunun məsləhəti ilə şəhərə satmağa zurna aparır. Padşah rəiyyətə əmr edir ki, hərə ondan bir zurna alsın. Paxıl qonşu da varlanmaq istəyir. Əlində olan pulu verib zurna alır, amma onları sata bilmir.

Ayrım bəzəmələri, s.148-151

**921E*** Böyük qardaşın məsləhəti ilə kiçik bazara satmağa şam çubuğu aparır, çubuğu ondan alan olmur. Padşah kiçik qardaşın aldandığını anlayıb çubuqları ondan baha qiymətə alır. Böyük qardaş da varlanmaq istəyir və dörd at yükü çubuq kəsib padşaha aparır. Padşah çubuqlar sınana qədər onu döydürür.

Qonaqkənd ləhcəsi, s.252-254;

**921F = AT 921F* Qaz göndərsəm yola bilərsənmi?** Qoca Şah Abbasın suallarına cavab verir: – "Vaxtında niyə əkib-biçmədin?" – "Əkdim-biçdim, yellər apardı". – "Üçü doqquza niyə vurmadın?" – "Üçü doqquza vurdum, otuz ikidən artıra bilmədim". – "İkidəsən, üçdə?" – "Üçdə". – "Qaz göndərsəm yollarsanmı?" – "Tükünü də tozlaram". Şah Abbas qoca ilə da-

nışığının mənasını öyrənmək üçün vəziri onun yanına göndərir. Qoca vəzirin pulunu alıb verdiyi cavabın mənasını ona izah edir.

Şirəliyev, s.375; Naxçıvan şivələri, s.312-313; Seyidov, s.158-161, kont.875D+927*A; AXS, s.138-140; Qasımlı, s.99-100; AFA, XII c., s.346-348; XIV c., s.138-139; s.145-146; XV c., s.257-261; XVI c., s.377-378; Qarabağ, I kitab, s.248-251

**921H* Dəmirçi və fərasətli uşaq.** Uşaq ovcunu torpaqla doldurub dəmirçidən aldığı közü onun üstündə evə aparır. Dəmirçi uşağın ağlına heyran qalır.

AFA, XVI c., s.328-329

**921* = AT 725 Dərzi şagirdi Əhməd.**

I. Dərzinin və ya pinəçinin şagirdi a) yuxuda başının üstündə ay doğduğunu, qara buludun onun üstünü aldığını görür. Yuxusunu danışmaq istəmədiyi üçün padşah onu zindana salır. Firəng padşahının göndərdiyi sualları cavablandırmaqda padşaha kömək edir. Yaxud b) Şah Abbasın nikah tapşırıqlarını yerinə yetirir.

II. a) Hansı qabdakı daşın qırmızı, hansının qara rəngdə olduğunu təyin etmək: qəhrəman hər iki qabdakı daşın qırmızı rəngdə olduğunu başa düşür və onun birini götürüb uzağa atır, o biri qabda qalan daşın qırmızı rəngdə olduğunu deyir. b) Almaların yaşını müəyyən etmək: onları suya salır, təzə dərilən alma suyun dibinə batır, keçən ilki alma suyun üzündə qalır. c) Padşah eyni boyda və eyni geyimdə qırx adam göndərir, onlardan hansının qadın, hansının kişi olduğunu tapmağı tələb edir. Qəhrəman əllərinə qaynar su tökməklə hansının qadın, hansının kişi olduğunu müəyyən edir və padşahın qızı ilə evlənir.

Azərb. nağ., II c., s.184-226; Şirəliyev, s.401; Behrəngi, s.308-309; AFA, III c., s.345-371; IX c., s.120-125, kont.930; Azərb. nağ. (2005), I c., s.261-264 (= ATS, s.47-53); AFK, II c., s.197-222, kont.875B+465C

**921** Yaşlı padşah cavan qıza elçi düşür.** Qız ondan iyirmi quzu, otuz qoç, qırx ayğır, əlli insan, altmış axta, yetmiş noxta, səksən torba cehiz istəyir. Bununla demək istəyir ki, kişi iyirmi yaşında üzüyola, otuz yaşında qoç kimi döyüşkən olur, qırx yaşında ayğıra dönür, əlli yaşında müdrik insan olur, altmışında axtalanır, yetmişində noxtalanır, səksən yaşında isə torbalanır. Padşahın da səksən yaşı olduğu üçün qız onunla evlənmək istəmir.

AKD, s.168-174, kont.875D+891; AXS, s.50-51; AFA, I c., №122; AFK, II c., s.171-174

**922 Çoban vəzirin yerinə padşahın suallarına cavab verir.**

I. Padşah verdiyi sualların cavabını tapmaq üçün mollaya 40 gün möhlət verir; çoban mollanın qiyafəsində padşahın suallarına cavab verir.

II. a) Padşahın bədənində nə qədər qan var? Qəhrəman şahın bir dolça qədər qanı olduğunu deyir. Əgər şah şübhə edirsə, onun qanını bir dolçaya yığıb yoxlamalarını təklif edir. b) Padşahın dərisi neçəyə gedər? Qəhrəman padşahın dərisinə bir abbası qiymət qoyur. Əgər inanmırlarsa, onu bazara çıxarıb satmalarını təklif edir. c) Padşahın ağlı nə qədərdir? Qəhrəman padşahın ağlının kol bitdiyanı qədər olduğunu deyir, çünkü qarşısındakının molla və ya çoban olduğunu bilmir. Padşah onun sözünü təsdiqləyir.

Qarabağ, II kitab, s.359-362

**922A* Allah haradadır?** Kasıb bostanının məhsulundan padşaha nübar aparır, əvəzində padşah onu qızılla mükafatlandırır və bir kəndin kəndxudalığını ona tapşırır. Kasıb qızılları ondan almaq istəyən vəzirin suallarına cavab verir: a) – "Allah haradadır?" – "Allah hər kəsin qəlbindədir"; b) – Allah nə yeyir? – "Allah səbr yeyir"; c) – "Allah nə iş görür?" Kasıb vəziri yerlərini dəyişməyə razı salır. Vəzirin atına minəndən sonra deyir: – "Birini ata mindirir, birini atdan endirir".

Baqri, III c., s.172-173; Vəliyev, s.47; Azərb. nağ., V c., s.205-208, kont.1667* (= Azərb. nağ. (2005), IV c., s.274-277); Tantəkin, s.10-12, kont.1625*; Borçalı folkloru, s.167-168; AFA, V c., s.261; VI c., s.175-176, kont.925*B; IX c., s.163; XVI c., s.278-279; Qarabağ, I kitab, s.236-242, kont.1667*; II kitab, s.322-327

**922A** Allah haradadır?** Padşah vəzirdən Allahın yerini və nə işlə məşğul olduğunu öyrənməyi tələb edir. Vəzir padşahı yerlərini dəyişməyə razı salır. Taxta çıxan kimi onun boynunun vurulmasını əmr edir.

Borçalı folkloru, s.167-169

**922B* Şahın puldakı əksi.** Uşaq verdiyi cavablarla padşahı özünə heyran qoyur. – "Kəntdə qonaqları kim qarşılayır?" – "Köpəklər". – "Qılıncnan səni çaparam". – "Atı çapginən, yoldaşların getdi". Padşah uşağa qızıl onluq atır. Uşaq pulun düşdüyü yeri öpür, çünki pulun üstündə padşahın əksi var. Padşah onu özünə vəzir götürür.

AFA, XVI c., s.329-330, kont.925*A

**922B** Torpağa düşən sikkə.** Yalnız sonuncu gediş iştirak edir. Uşaq padşahın verdiyi sikkəni torpağa basdırır, sonra nə qədər axtarırsa tapa bilmir. Padşah deyəndə ki özünü

həlak etmə, birini də verərəm, deyir: Məni narahat edən odur ki, sənin sikkən torpağın altında qalır. Bu söz padşaha xoş gəlir, oğlana bir ovuc qızıl hədiyyə edir.

AFK, VII c., s.347-352, kont.759C+679*+922H*

**922C* İnsanın özünü aparmasında tərbiyənin rolu böyükdür, yoxsa irsin?** Vəzir qızının köməyi ilə padşahın bu sualına cavab verir.

AFA, VI c., s.113

**922D* Lobya qazana nə dedi?** Ağa nökər götürdüyü şəxslə şərt kəsir: əgər onun sualına düzgün cavab versə, əmək haqqısını artıqlaması ilə verəcək. Ondan soruşur: «Ocağın üstünə bir qazan lobya qoyduq, lobya ocağa nə dedi?» Nökər qızın köməyi ilə suala doğru cavab verir. Lobya qazana deyir ki, sən elə yan, mən bişim. Elə yanma sən coşasan, mən daşam, səni söndürəm.

AXS, s.135-138, kont.875D

**922E* Çobanın mənasız sözü.** Çoban elə söz deməlidir ki, o söz padşah üçün mənasız olsun. Çoban deyir: “De görüm sən dütdək çala bilirsən?” Padşah bu sözün onun üçün mənasız olduğunu etiraf edir.

AFA, XIV c., s.198-199; Qarabağ, II kitab, s.382-383

**922F* Çoban özünü Şah Abbasdan zəngin sayır:** Çünki o bu dünyadan köçəndə on beş arşın bez aparacaq, Şah Abbas isə on iki arşın.

Bayat., s.18-21, kont.984*; AFA, IX c., s.116-117; X c., s.207-208; Qarabağ, III kitab, s.259-265, kont.800*A

**922G* Düynada ən murdar şey.** a) Qız ona elçi düşən molladan dünyada ən murdar şeyin nə olduğunu öyrənməyi tələb edir; yaxud b) padşah vəzirdən onun üçün murdarın

murdarını tapmasını tələb edir. Molla (yaxud vəzir) çobanın işıq saçan daşını və yaxud tütəyini əldə etmək üçün itlərlə eyni qabdan yal yeməyə razı olur. Ondan sonra başa düşür ki, dünyada ən murdar şey nəfsdir.

AFA, XVI c., s.327-328; Qarabağ, III kitab, s.273-276

**922H* Qazı eşşək kimi anqırır.** Qazı uşağın əlindəki qızıl sikkəni ala bilmək üçün eşşək kimi anqırmağa razı olur. Uşaq deyir: "Sən eşşək ola-ola bilirsən ki bu qızıldı, mən adam ola-ola bilmirəm?"

AFK, VII c., s.347-352, kont.759C+679*+922B**

**922* Dil həm şirin, həm də acıdır.** Padşah şirin şey istəyir, nökər dil alıb gətirir. Acı şey istəyir, yenə dil alıb gətirir. Padşah başa düşür ki, dünyada ən şirin və ən acı şey dildir.

Seyidov, s.214-219, kont.988*+920B**; AFA, IX c., s.108-109

**922** Toğlunu qurda göstərmək.** Şah vəzirə toğlunu bir il bəsləməyi tapşırır, amma heyvanın çəkisi nə artmalı, nə də azalmalıdır. Vəzir arvadının məsləhəti ilə hər gün toğluya kişmiş yedirdir, sonra onu qurda göstərir. Heyvanı bir il bu qayda ilə bəsləyir, onun çəkisi dəyişməz qalır.

Ağalı, s.46; AXS, s.194-195; Qarayev, s.407 (= AFA, XII c., s.361-362); Budaqov, s.165; AFA, X c., s.85-86; Qarabağ, II kitab, s.338-344, kont.911

**923 Duz qədər istəyir.** Kiçik qız atasına onu duz qədər çox istədiyini deyir. Qızının bu sözünə acığı tutan padşah onu evdən qovur. Daha sonra ona qonaq olur. Qız atasını duzsuz yeməyə qonaq etməklə özünün haqlı olduğunu sübut edir.

Qərb şivələri, s.272-273; AKD, s.240-242

**923A* Duzun haqqı.** Şah Abbas aldığı duzun haqqını verə bilmək üçün qəpiyin dörddə biri miqdarında sikkə kəsdirir.

Əliyev-Xəlilov, s.266-269, kont.926*B+926*A

**923B** = 986-cı nömrədə verilib.

**923* İtin etibarı.** Vəzir özünü itlərə tanıtmaq üçün hər gün onlara ət verir. Padşah onu itlərə atanda heyvanlar ona toxunmur.

Seyidov, s.62-66, kont.783*+989*; AFK, X c., s.323-325, kont.783*

**924C* İşarələrlə danışmaq.** Şeyx tacirlə işarələrlə danışır: sağ əlinin baş barmağını başına aparır, tacir isə cavabında sağ əlini baş barmağını dilinə vurur. Daha sonra etdiyi söhbətin mənasını nökərə izah edir. Məlum olur ki, şeyx tacirə onu öldürmək istədiklərini söyləyib, tacir də ona dilini farağat qoymağı məsləhət görüb.

AFA, I c., №106, kont.927*A

**924D* Əyani məsləhət.** Şah seçilən şəxs vəzirlə vəkilin onu aradan götürmək istədiyini öyrənib atasına məktub yazır və ondan kömək istəyir. Ata qasidin gözü qabağında bostanda nə ki iri qarpız var onları parçalayır, gördüyünü şaha çatdırmasını tapşırır. Şah başa düşür ki, atası bununla ona vəzirlə vəkili aradan götürməsini məsləhət görür.

Tantəkin, s.164-171

**925 Xəbəri padşaha necə çatdırmalı.** Kim quşun (atın, arvadının) ölüm xəbəri gətirsə, padşah onu öldürəcəyini elan edir. Keçəl (Bəhlul Danəndə) bu xəbəri elə deyir ki, padşah quşun öldüyünu özü etiraf edir.

Hüseynov, s.53; AFA, XII c., s.350-351 (= BYBQ, s.208-209); XIV c., s.163-167, kont.875D+875A+927*B+921 +891; Qarayev, 407-408

**925*A = AT 655 Ağıllı qardaşlar.** Üç qardaş padşaha qonaq olur. Onlara verilən ətin it əti, şərabın insan qanı, padşahın isə aşbaz oğlu olduğunu deyirlər. Padşah araşdırır, məlum olur ki, qonaqlara verilən quzu it südü ilə bəslənib, şərab qəbiristanlıqda bitən üzümdən hazırlanıb, padşah özü isə aşbaz oğludur.

SMOMPK, XLII burax., II şöbə, s.20-30, kont.976A +925**+916+178A+178D*; Azərb. nağ., III c., s.110-115, kont.976A+925**+976 (= Azərb. nağ. (2005), IV c., s.102-107); İsmayılov, s.320-323, kont.925**+976A; AFA, XIV c., s.85-88; XVI c., s.329-330, kont.922B*; XVIII c., s.133-138, kont.912**+925**+925****; Azərb. nağ. (2005), I c., s.265-274, kont.917*+867* (= Azərb. nağ., I c., s.156-165); AFK, VIII c., s.302-307, kont.912**

**925*B İnsan sərrafı.** Tacir əlinə maya salmaq üçün nökəri baha qiymətə padşaha satır. Nökər padşaha hədiyyə edilən atın suya girəndə yatdığını, ləlin saxta, padşahın isə aşbaz oğlu olduğunu söyləyir. Padşah yoxlayır, deyilənlərin həqiqət olduğunu görür.

Azərb. nağ., I c., s.148-155, kont.869* (= Azərb. nağ. (2005), II c., s.138-145); CAƏA, I c. s.343-347, kont.869* (= Abdullayev, s.103-106); AFA, I c., №90; VI c., s.175-176, kont.922A*

**925** = AT 655A İtmiş dəvə.** Qardaşlar yoldakı izə görə itmiş dəvənin əlamətlərini söyləyirlər. Dəvə sahibi onlar-

dan şübhələnib padşaha şikayət edir. Qardaşların günahsız olduğu üzə çıxır.

SMOMPK, XLII burax., II şöbə, s.20-30, kont.976A+ 925*A+916+178A+178D*; Azərb. nağ., III c., s.110-115, kont.976A+925*A+976 (= Azərb. nağ. (2005), IV c., s.102-107); İsmayılov, s.320-323, kont.925*A+976A; Budaqov, s.157-158; AFA, X c., s.84; XIV c., s.125-126; XVI c., 330-331; XVIII c., s.133-138, kont.912**+925*A+925****

**925***A Yozucu qardaşlar.** Atlarını oğurlayan oğrunun əlamətlərini söyləyirlər. Oğru tapılır, amma törətdiyi cinayəti boynuna almır. Qardaşlar qazıya şikayət edirlər, qazı işi onların xeyrinə həll edir.

SMOMPK, XXIV burax., II şöbə, s.234-236; AFA, V c., s.297-298

**925***B Simi qeme, qelbi kütah, çeşmi siyah.** Hacı ona verilmiş əmanəti şəyirdi ilə evə göndərir. Oğrular özlərini əmanət sahibi kimi qələmə verib onu oğurlayırlar. Ev sahibi oğruları təsvir edir: «Simi qeme, qelbi kütah, çeşmi siyah». Rəmilçilər həmin təsvirə əsasən oğruları tapırlar.

AKD, s.114-116

**925**** Qardaşlar yeni tikilən saraya qiymət kəsirlər.** Böyük qardaş üç barmağını yuxarı qaldırır, ortancıl iki, kiçik qardaş isə bir barmaq yarım qiymət qoyur. Daha sonra bu işarələrin nə anlama gəldiyini izah edirlər. Böyük qardaş üç barmağını qaldırmaqla demək istəyir ki, sarayın dəyəri üç günlük yaz yağışının verdiyi xeyirə bərabərdir, ortancıl qardaş iki günlük, kiçik qardaş isə bir gün yarımlıq yağışın verdiyi xeyrə bərabər tutur. Böyük qardaşlar kiçik qardaşın kəsdiyi qiymətlə razılaşırlar.

Naxçıvan şivələri, s.297-299, kont.928* (= Şirəliyev, s.403-405); AFA, XVIII c., s.133-138, kont.912**+925**+ 925*A

**926 Uşağın əsl valideyinin müəyyənləşdirilməsi.** İki qadın eyni uşağa iddia edir. Süleyman peyğəmbər (Həzrət Əli, qazı) onun yarı bölünməsini təklif edir, uşağın əsl anası buna razı olmur.

Baqri, III c., s.29-30; Təhmasib, s.86; Hüseynov, s.179-180; AXS, s.20-21; Qasımlı, s.17; AKƏK, I c., s.70-71; Qarabağ, I kitab, s.222-223; II kitab, s.372-377, kont.930

**926A* Müəllimlə çoban qız üstündə mübahisə edir.** Qazı qıza yun əyirməyi, kitabları rəfə düzməyi tapşırır. Qız birincini bacarmır, amma hər müəllifin kitabını sırasıynan rəfə düzür. Bunun sayəsində qazı qızın müəllimin olduğunu müəyyən edir.

Qarabağ, II kitab, s.383-385, kont.926*B+926*A

**926C** Beşikkərtmə uşaqlar.** Əmioğlu əmiqızı kiçik yaşlarından bir-birinə beşikkərtmə edilir, amma müxtəlif yerlərdə yaşayırlar. Oğlan beşikkərtməsinin dalınca gedir. Əmisindən qızın lal, kor və topal olduğunu öyrənir, buna baxmayaraq onunla evlənmək istəyir. Məlum olur ki, əmisi onu sınamaq üçün belə deyirmiş.

Bayat, s.138-167, kont.582*+531+302+300; Azərb. nağ., I c., s.236-262, kont.582*+968A* (=Azərb. nağ. (2005), II c., s.212-229).

**926C*** Kar, kor, şil qız.** Oğlan bağ sahibindən yediyi almanın halallığını almaq istəyir. Bağ sahibi əgər onun əli-ayağı şikəst, dili lal, qulağı kar qızı ilə evlənərsə, ona halallıq verəcəyini deyir. Oğlan qızla evlənir. Məlum olur ki, bağ sahibi

bununla qızının oğurluq etmədiyinə, yalan danışmadığına işarə edirmiş.

AXS, s.196-197; AFA, I c., №105; XIII c., s.230-232, kont.828*; XVII c., s.144-146

**926E* Süleyman peyğəmbər və oğlu.** Süleyman peyğəmbər əkinçiyə bütün taxılı əkməyi, oğlu isə yarısını əkib, yarısını saxlamağı məsləhət görür. Əkinçi Süleyman peyğəmbərin məsləhətinə əməl edir, yeməyə buğdası qalmadığından acından ölür.

SMOMPK, XXVIII burax., II şöbə, s.9

**926* Ağıllı qazılar haqqında**

**926*A Yağ ləkəsinə görə pulların əsl sahibinin tapılması.** a) Qəssab qonşusuna verdiyi əmanəti geri ala bilmir, ondan qazıya şikayət edir; yaxud b) qəssabla qoluzorlu pul üstündə mübahisə edirlər. Qazı pulları suya salır, suyun üzünə çıxan yağ ləkəsinə görə onların qəssaba məxsus olduğunu müəyyən edir.

Əliyev-Xəlilov, s.266-269, kont.923A*+926*B; AXS, s.192-194, kont.926*B; Qarabağ, II kitab, s.383-385, kont. 926*B+926A*

**926*B Korun şəri.** Atın tərkinə alınmış kor atın və arvadın ona məxsus olduğunu iddia edir. At sahibi qazıya şikayət edir. Qazı a) onların hər ikisini ata göstərir, at qocanı görəndə fınxırıb geri çəkilir; yaxud b) onları ayrı-ayrı otağa salıb danışıqlarına qulaq asır. Bunun sayəsində atın əsl sahibinin kim olduğunu müəyyən edir. Müqayisə et: AT 926A

Şirəliyev, s.368-369; Qaravəllilər (1967), s.107-109 (= Ayrım bəzəmələri, s.122-124); Əliyev-Xəlilov, s.266-269, kont.923A*+926*A; AXS, s.192-194, kont.926*A; XVI c.,

s.383; XVII c., s.142-144; İsmayılov, s.430-432 (= AFA, III c., s.580-582); Qarabağ, II kitab, s.383-385, kont.926*A+926A*

**927A$_1$ Çörəkdən toxmaq.** Padşah ölümə məhkum etdiyi gəncə üç gün möhlət və üç dilək haqqı verir. Gənc birinci gün padşahın qızını, ikinci gün min altın istəyir, üçüncü gün isə çörəkdən toxmaq düzəltdirib vəzirə bir, vəkilə iki, padşaha isə üç dəyənək vuracağını deyir. Padşah onu bağışlayır.

AKD, s.329-331

**927C* Bir cümlədə üç dilək.** Allah kor və sonsuz qocaya bir dilək haqqı verir, amma arzusunu bir cümlə ilə ifadə etməlidir. Qoca oğlunun başında tac görmək istədiyini deyir.

AFA, XIII c., s.278-279

**927*A Çoxbilmiş nökər.** Ağa nökərə həm özlərinin, həm eşşəyin, həm də xoruzun yeyə biləcəyi bir şey almasını tapşırır. Nökər yemiş alır: onun qabığını eşşək, tumunu xoruz, ətini isə özləri yeyir.

Seyidov, s.158-161, kont.921F+875D; CAƏA, I c., s.352-353; AFA, I c., №106, kont.924C*

**927*B Fərasətli qız.** Beş manata at üçün xalı, bir şiş kabab almalı, pulu da qaytarıb gətirməlidir. Qız həmin pula qoyun alır, onun yunundan xalı toxuyur, qoyunu axtalayıb ondan bir şiş kabab hazırlayır, sapandı çobanlara satıb qoyunun pulunu çıxarır.

AFA, XIV c., s.163-167, kont.875D+875A+921+891+925

**927** Xan nökər olmaq istəyən şəxsləri sınayır.** Kim çarığında qum axşama qədər sürünü otarsa, onu nökər götürəcəyini elan edir. Nökərlərdən biri buna razı olur, digəri yox. Xan ikincini özünə nökər götürür, çünki canının qədrini bilməyən onun malının da qədrini bilməz.

AXS, s.195-196; AFA, XII c., s.293 (= BYBQ, s.212-213); XVII c., s.150-151

**927*** Zirək və əfəl nökər.** Ağa karvanın hara getdiyini, yükünün nə olduğunu və neçəyə satdığını öyrənmək üçün əfəl nökəri bir neçə dəfə karvanın dalınca göndərməli olur. Zirək nökər isə bunları bir dəfədə öyrənir.

AFA, I c., №110

**928* İnəyin qarnındakı buzov.** Padşah inəyin qarnındakı buzovun dişi və alnı təpəl olduğunu söyləyir. Keçəl onun səhvini düzəldir: buzovun quyruğunun ucu qatlanıb alnında durduğu üçün təpəl göründüyünü deyir. Heyvanı kəsirlər, keçəlin dediyi düz çıxır.

SMOMPK, XXIV burax., II şöbə, s.101-102; Naxçıvan şivələri, s.297-299, kont.925**** (= Şirəliyev, s.403-405); İmamquliyeva, s.275-276, kont.888A; AFA, XII c., s.288-292, kont.821** (= BYBQ, s.121-125); Qarabağ, I kitab, s.259-260

**928** Ağıl gərək başda ola.** Ata məktəbdə oxuyan oğlanlarına baş çəkir. Müəllim uşaqların biliyini nümayiş etdirmək üçün böyük qardaşın oturduğu döşəyin altına taxta, kiçiyin döşəyinin altına kağız qoyur. Kiçik fərqi hiss edir, amma böyük yox.

Babayev, s.285; Əliyev-Xəlilov, s.215-220, kont.861 (= AFA, XIV c., s.188-193)

**928*** Təsadüfi qazanılan uğur.** Kim məscidin minarəsindən asılmış üzüyün içindən ox keçirsə, padşah üzüyünü ona verəcəyini elan edir. Uşağın atdığı ox üzüyün içindən keçir, amma bunun təsadüfən baş verdiyi üçün mükafatı qəbul etmir.

Baqri, I c., s.91-95, kont.929**; Azərb. nağ., IV c., s.237-242, kont.770*+982*+929** (= Azərb. nağ. (2005), V c., s.239-244)

**929* Dilimi mehribançılığa öyrədirəm.** Uşaq yıxılan eşşəyin başını dizi üstünə alıb onu əzizləyir, yaxud eşşəyin getməsi üçün ona yalvarır. Padşah ondan bu hərəkətinin səbəbini soruşduqda dilini mehribançılığa öyrətdiyini deyir. Padşah onu mükafatlandırır. Qoca da uşağı yamsılayır, padşah ona yüz çubuq vurdurur.

AXS, s.83-84; AFA, I c., №127; Ələkbərli, s.71-72; Qarabağ, I kitab, s.282-285

**929** Pul güclə deyil, ağılla qazanılır.** Oğul atasının bu sözü ilə razılaşmır. Qolunun gücünə salıb bərədən keçmək istəyir, pulsuz su içmək istəyir, hər dəfə də döyülür. Ondan sonra atasının haqlı olduğunu başa düşür.

Baqri, I c., s.91-95, kont.928***; Azərb. nağ., IV c., s.237-242, kont.770*+982*+928*** (= Azərb. nağ. (2005), V c., s.239-244)

**929*** Evə əliboş gəlmək olmaz.** Ailəyə böyüklük edən gəlin hər kəsə evə gələndə özü ilə bir şey gətirməsini tapşırır. Böyük qayın gətirdiyi ölmüş ilanı samanlığa və yaxud həyətin bir küncünə atır. a) Quş göldə çimən şahzadə qızın zinət əşyalarını oğurlayıb həyətə atır və ilanı aparır (Bax SUS 243F*); yaxud b) böyük qayının saman çöpü bilib gətirdiyi əşya əslində qızıl olur. Onun hesabına varlanırlar.

Qonaqkənd ləhcəsi, s.254-255; Ağalı, s.103-104; AXS, s.187-188; AFA, V c., s.62-63; VI c., s.103-104; Qarabağ, III kitab, s.296-298

**929**** Kimin uşağı daha gümrah olar.** Tacirlə dəllək mərc gəlirlər ki, hansının uşağı daha gümrah olar. Dəllək öz uşağının təmizliyinə diqqət yetirir, yeməyini vaxtında verir, tacir isə əlinə keçəni uşağına yedirdir. Dəllək mərci udur.

Babayev, s.284

## 930-949. Tale

**930 Yazıya pozu yoxdur.**

I. Padşah öz qızının naxırçının (qulun və s.) oğluna yazıldığını öyrənir; uşağı özü ağırlıqda qızıla valideynlərindən satın alıb dağdan atır; uşaq sağ qalır və maralın (keçinin) himayəsində böyüyür.

II. Uzun illərdən sonra padşah yenə oğlanla qarşılaşır; onun öldürülməsi haqqında fərman yazıb Qara vəzirin yanına göndərir; oğlan yuxuda ikən padşahın qızı fərmanı dəyişdirir; səfərdən qayıdan padşah naxırçının oğlunun onun qızı ilə evləndiyini görüb başa düşür ki, Allahın yazdığını pozmaq mümkün deyil.

SMOMPK, III burax., II şöbə, s.124-126; XXIV burax., II şöbə, s.104-105; XXXIII burax., IV şöbə, s.86-87; Baqri, III c., s.74-77; Əlizadə (1937), s.399-404; Şirəliyev, s.413-414; Azərb. nağ., IV c., s.155-159 (= Azərb. nağ. (2005), V c., s.155-159); Axundov, I c., s.194-201 (= Azərb. nağ. (1982), s.173-179); Qərb şivələri; s.254-255, kont.989*; Cəfərzadə, s.311-312; İsmayılov, s.324-328; Əliyev-Xəlilov, s.206-209; AFA, IX c., s.120-125, kont.921*; XI c., s.153-154; XII c., s.270-271; XVI c., I mətn, s.339-342; II mətn, s.342-343; XVII c., s.161-163; Qarabağ, II kitab, s.372-377, kont.926; III kitab, s.244-249; s.249-254; s.254-259

**930A Təyin olunmuş arvad.**

I. Ata səfərə çıxan oğluna öz səxavətini göstərməyi, ağsaqqallarla oturub-durmağı məsləhət görür. Oğlan gəlin köçən qızın əlinə pul qoyur, evlənən şəxsin toy xərcini çəkir. Bir ağsaqqala qonaq olan gənc ondan naxırçının xəstə qızı ilə evlənəcəyini öyrənir.

II. Naxırçının evində gecələyən gənc qızı xəncərlə vurur, özü ilə götürdüyü qızılları onun döşəyinin altına qoyub evi tərk edir. Qız həmin yaradan şəfa tapır. Yastığının altına qoyulan qızılların hesabına a) şəhərdən həyət evi alır, yaxud b) iki mərtəbəli imarət tikdirir. Şahzadə eyvanda gəzən qızı görüb ona aşiq olur, onunla evlənir. Sinəsindəki yaradan onun naxırçının qızı olduğu məlum olur.

SMOMPK, VI burax., II şöbə, s.88-94 (= Baqri, III c., s.65-71); Baqri, I c., s.124-130 (= ATS, s.446-452); İsmayılov, s.323-324; AFA, IX c., s.243-246, kont.934B; XIII c., s.285; XVI c., I mətn, s.343-345; II mətn, s.345-348; Qarabağ, III kitab, s.266-269, kont.934B

**930A* Təyin olunmuş arvad.** Şah Abbas kasıb qızın onun oğluna yazıldığını öyrənir; uşağı valideynlərindən satın alıb onu qayadan atır; qız sağ qalır; başmağının bir tayı çaya düşür; Şah Abbasın oğlu başmağın köməyi ilə qızı tapıb onunla evlənir.

BYBQ, s.25

**930K* Süleyman və Zümrüd quşu.**

I. Süleyman peyğəmbər bütün quşlara onun başı üstündə qanad-qanada verib günün qabağını kəsmələrini əmr edir. Bülbül həmin saat Allahın əmri ilə qızılgülün üstündə cəh-cəh vurmalı olduğu üçün peyğəmbərin çağrışına gəlmir.

II. Gündoğanda doğulan oğlanla günbatanda doğulan qız bir-birinə yazılmış olur. Allahın qədərinə inanmayan Zümrüd quşu yazını pozmağın mümkün olduğunu iddia edir və qızı caynağına alıb kimsəsiz bir adaya aparır.

III. Oğlan böyüdükdən sonra gəmi ilə balıq ovuna çıxır. Gəmi tufana düşüb batır, oğlan taxta parçasının üstündə həmin adaya gəlir. Qız ondan uşağa qalır. Zümrüd quşu xəcalətindən dimdiyini Qaf dağının arxasında yerə dikir.

SMOMPK, XIII burax., II şöbə, s.330-331; Əliyev-Xəlilov, s.227-229 (= AFA, XIV c., s.193-195); AFA, XIII c., s.257; XVI c., I mətn, s.306-309; II mətn, 309-310

**930L* İki sünbülün söhbəti.** Sünbüllərdən biri onu məğrub padşahının oğlu, o biri isə məşruq padşahının oğlu yeyəcəyini deyir. Zəmiçi həmin sünbüllərdən aş bişirtdirir. Axşam ona iki nəfər qonaq olur, aşdan onlara da verir. Məlum olur ki, həmin şəxslərin biri məşruq padşahının, o biri isə məğrub padşahının oğludur.

AFA, XVI c., s.268-269; AFK, I c., s.237-255, kont.670; Qarabağ, II kitab, s.327-328

**931 Ailə faciəsi.** Qardaş sərxoş halda bacısı ilə yaxınlıq edir, həqiqəti biləndən sonra özünü öldürür. Qız doğulan uşağı meşəyə atır. Uşaq qarının himayəsində böyüyür və evlənir. Evləndiyi şəxsin öz anası olduğunu biləndə özünü öldürür və ya günahlarını yumaq üçün kimsəsiz adada otuz iki il zəncirlənmiş halda qalır.

SMOMPK, IX burax., II şöbə, s.184-189; Qərb şivələri, s.257-258 (= Şirəliyev, s.380-382)

**934 Bıçaqla gələn ölüm.** Padşahın yeni doğulan oğlu iyirmi beş yaşına çatanda dünyasını dəyişməlidir. Padşah onu

kimsəsiz adada mühafizə altında saxlayır, amma yazını poza bilmir. Rəfdən düşən bıçaq oğlanın boğazına sancılır.

Baqri, I c., s.83-86; Bayat, s.229-235, kont.2530*; AFA, XIII c., s.256; AFK, III c., s.87-90

**934A = AT 934A[1] Üç ölüm.** Yaşlı bir kişi Allahdan asan ölüm istəyir. Allah ona üç ölüm təklif edir: ağacdan yıxılıb ölməyi, suda boğulmağı və ilan çalmasını. Kişi bunların heç birini bəyənmir. Üzüm dərdiyi yerdə ilan onu çalır, ağacdan yıxılıb gölməçəyə düşür, orada canını tapşırır.

AFA, XVI c., s.297-298

**934B = AT 934B* Canavarla gələn əcəl.** Məmləkəti gəzməyə çıxan şah gecə düşdüyündən bir evə qonaq olur. Ev sahibinin yeni doğulan oğlunu nikah gecəsi canavar yeyəcəyini öyrənir. Toy günü evi mühafizə etdirir, bununla belə yazını poza bilmir: a) gəlin, yaxud b) ləmpədən düşən qurum canavara çevrilib oğlanı parçalayır.

AFA, IX c., s.243-246, kont.930A; XIII c., s.256; XVI c., s.348-349; Qarabağ, III kitab, s.266-269, kont.930A

**934G* İlanla gələn əcəl.** Şah Abbas çobana qonaq olur, nikah gecəsi çobanın yeni doğulan oğlunu ilanın çalacağını öyrənir. Uşağı valideynlərindən alıb saraya gətirir və onu yaxşı mühafizə olunan bir binada saxlayır. İlan tük şəklində otağa daxil olub oğlanı sancmaq üçün fürsət gözləyir. Oğlan sailə əl tutur, toy xonçasını ona verir. Bu yaxşılığının qarşılığında Allah onun ömrünü uzadır.

AFA, VI c., s.108; Qarabağ, II kitab, s.287-293, kont. 750K*

**934G** Əzrayıl ilan cildində.** Oğlan onunla yol yoldaşı olan Əzrayıldan nikah gecəsi əcəli tamam olacağını öyrənir.

Nikah gecəsi Əzrayıl ilana çevrilib balıncın altında gizlənir və oğlanı sancmaq üçün fürsət gözləyir. a) Gəlin özüylə gətirdiyi xonçanı sailə verir, bu yaxşılığın qarşılığında Allah oğlanın ömrünü uzadır; yaxud b) oğlan kəsdikləri duz-çörəyə and verir, Əzrayıl duz-çörəkdən keçə bilmir.

AFA, XVI c., I mətn, s.316-318; II mətn, s.319-320, kont.1199; Qarabağ, I kitab, s.227; s.228-229

**934G*** Yuxuya qalmış ilan.** İlan sevgilisini öldürdüyünə və ya quyruğunu qopartdığına görə nikah gecəsi oğlanın çalmalıdır, amma yatıb yuxuya qalır. Həqiqəti öyrənən peyğəmbər onu sevgilisinə qovuşdurur.

BYBQ, s.36-37; AFA, IX c., s.78-79; Əliyev-Xəlilov, s.163-166, kont.811* (= AFA, XIV c., s.179-183 ); Qarabağ, I kitab, s.229-230; 231-232

**934E = AT 931E* Rüsvay olmuş qız.** Rəmmal qızın taleyinə baxır, üç ildən sonra onun rüsvay olacağını, saçının qırxılacağını və qara eşşəyin belində bütün şəhəri gəzdiriləcəyini xəbər verir. Rəmmal dediyi müddət yaxınlaşanda qız şəhəri tərk edib başqa bir vilayətə gəlir və tacirin evində qulluqçu işləyir. Onu oğurluqda günahlandırırlar. Rəmmalın dedikləri gerçəkləşir: qızın saçını qırxıb başına qatıq tökürlər, qara eşşəyin belində bütün şəhəri gəzdirirlər. Camaat onu oğru zənn edib üzünə tüpürür.

Əliyev-Xəlilov, s.143-147

**934E*** Mələk padşahın yeni doğulmuş qızının küçələrə düşüb rüsvay olacağını xəbər verir. Qız yazını pozmaq üçün özünü öldürür, torpaq onu qəbul etmir.

Ağalı, s.55-56

**934H* = AT 934A* Əcəli suda tamam olan şəxs.** Peyğəmbər bir evə qonaq olur və ev sahibinin yeni doğulan uşağını toy günü sel aparacağını öyrənir. Yazını pozmağa çalışır, amma mümkün olmur.

AFA, XI c., s.97; Qarabağ, III kitab, s.270-271; s.271-272

**934* İskəndərin ölümü.** Abid ona dəmirin altında öləcəyini xəbər verir. İskəndərin üstünə gün düşməməsi üçün əsgərlər nizədən, qalxandan çadır düzəldirlər. İskəndər onun altında canını tapşırır.

Azərb. nağ., IV c., s.136-143, kont.857*+782+806*+831C (= Azərb. nağ. (2005), V c., s.136-143); Qərq şivələri, s.260-262, kont.782**+806*+831C+844 (= Şirəliyev, s.384-385); AFK, III c., s.91-94, kont.781*C+844

**936 = AT 936* Qızıl dağ.** Qəhrəman tacirə (gözü göy, dişi seyrək kosaya) nökər olur. Otuz doqquz gün yeyib-içir, qırxıncı gün tacir onu özü ilə dağa aparır. Heyvan cəmdəyinin içində gizlənir, quş onu caynağına alıb dağa qaldırır. Oradakı qiymətli daşları sahibinə atır. Tacir onu tərk edir. Qəhrəman a) tülkünün köməyi ilə dağdan enir, yaxud b) Simurq quşunun balalarını yemək istəyən əjdahanı öldürür, quş onu dağdan endirir. Tacirdən qisas alır.

SMOMPK, XLII burax., II şöbə, s.38-42, kont.672E*+507C; Əlizadə (1929), s.76-80, kont.400; ATS, s.355-372, kont.485A+400; Təhmasib, s.238-256, kont.400; Azərb. nağ., I c., s.130-147, kont.400 (= Azərb. nağ. (2005), II c., s.120-137); III c., s.132-139 (= Azərb. nağ. (2005), IV c., s.111-118); Kərimov, s.370-372, kont.400; İsmayılov, s.243-246, kont.400; s.290-297, kont.485 (= AFA, III c., s.277-284); AKD, s.27-34, kont.402+400; AXS, s.56-57; Borçalı folkloru, s.48-51, kont.1406A*+449; Qarabağ, III kitab, s.281-289, kont.986

**938 Ailə uzvlərinin itirilməsi.**

I. Dərviş şahla mərc kəsir ki, onun yanında Əlini mədh edən hekayələr söyləyəcək, əgər padşahı yuxu tutsa, bir saatlığa taxtı ona verəcək. Padşah mərci uduzur. Taxta çıxan dərviş cəlladlara padşahı ailə üzvləri ilə birlikdə şəhərdən kənara atmalarını əmr edir. Padşahın arvadı qaçırdılır, bir oğlu çaya düşür, o bir oğlunu canavar aparır.

II. Padşah başqa bir şəhərə gəlir. Şəhər əhli yeni padşah seçmək üçün şahlıq quşu uçurdurlar. Quş padşahın başına qonur, onu şah seçirlər. Axırda padşah təsadüf nəticəsində oğurlanmış arvadını və övladlarını tapır.

SMOMPK, XXVI burax., II şöbə, s.213-219; XXXV burax., II şöbə, s.95-99; ATS, s.211-215; Azərb. nağ., IV c., s.151-154 (= Azərb. nağ. (2005), V c., s.151-154); Vəliyev, s.11-14; Kərimov, s.348-352; Bayat, s.167-179, kont.485A; İsmayılov, s.311-313; Ağalı, s.44-45; AFA, VI c., s.167-169; XIII c., s.253-254; s.272-274; Qasımlı, s.141-143; Axısqa folkloru, s.37-40; AFK, VIII c., s.112-122; Qarabağ, I kitab, s.254-257

**938C*** Padşah taxt-tacı itirir. Zərgər yeddi ilin bac-xəracına başa gələn üzüyü ondan üç şahıya alır, onları duz-çörəyə qonaq etdiyi üçün vəzirlə vəkil onu söyür. Cinlər padşahının oğlunu qurdun ağzından xilas edir və ondan aldığı üzüyün köməyi ilə taxtı geri qaytarır. Zərgəri, vəziri və vəkili cəzalandırır.

İsmayılov, s.195-203, kont.956*B+509*+400*B (= AFA, III, s.268-276)

**938D* Hatəm cənnəti qazanır.** Hatəm Allahdan bu dünyasını istəyir. Şumdan tapdığı qızıl hesabına varlanır.

Yeddi yolayrıcında imarət tikdirib gəlib-gedəni yeməyə qonaq edir və yemək yedikləri qab-qaşığı da onlara hədiyyə edir. Həmin səxavətinə görə Allah onun o dünyasını da verir: onu cənnətlə mükafatlandırır.

Qarabağ, II kitab, s.300-302

**945 Ağılla bəxt.** Ağılla bəxt (naxış) hansının daha güclü olması üstündə mübahisə edir. Ağıl cütçünü tərk edir. Cütçü şumdan tapdığı qızılları Rum padşahına hədiyyə edir, onun qızı ilə evlənir. Nikah gecəsi evin eyvanından tullanıb qaçmaq istəyir, ağıl onun köməyinə çatır.

SMOMPK, XXIV burax., II şöbə, s.276-279; Şirəliyev, s.377; Hüseynov, s.15-16; AKD, s.189-193; AFA, XIV c., s.159-160; XVI c., I mətn, s.387-388; II mətn, 388-389

**945* Ağıl vardan üstündür.** Ana oğlunu evləndirmək üçün Allahdan borc pul alır, amma aldığı pulu geri qaytara bilmir. Allah onun ya ağlını, ya da var-dövlətini əlindən almalıdır. Ana var-dövlətinin alınmasına razı olur. Ağlı var-dövlətdən üstün tutduğu üçün Allah verdiyi borcu ona halal edir.

Əliyev-Xəlilov, s.108-109; Qarabağ, I kitab, s.260-261

**945** Bəxtin qayıtması.** Evi tərk edən bəxt ev sahibinə son dəfə ondan bir dilək istəməsinə icazə verir. Kişi arvadının məsləhəti ilə dinclik istəyir. Bəxt onları tərk etmir.

AFA, III c., s.57-59

**946* Haqq tərəzisi.** Kasıb qızla evlənən varlı gənc nikah gecəsi evi tərk edir. Yuxuda görür ki, mələklər onu tərəzinin bir gözünə, evləndiyi qızı isə o biri gözünə qoyur və tərəzinin hər iki gözü bərabər gəlir. Ondan sonra geri qayıdır.

Baqri, III c., s.72-74

## 950-973. Oğrular və quldurlar

**950 Usta və şəyirdi.**

I. İki qardaş (usta ilə şəyird, ata ilə oğul) padşahın xəzinəsinə oğurluğa gedir; böyük qardaş qətran doldurulmuş quyuya və ya bal doldurulmuş çəlləyə düşür; kişik qardaş izi itirmək üçün onun başını kəsir.

II. a) Oğrunu tutmaq üçün böyük qardaşın (ustanın və ya atanın) cəsədi yol kənarına qoyulur ki, kim onun üçün ağlasa tutsunlar. Ana cəsədin yanından keçəndə səhəngini sındırır ki, onun səhəngi sındığı üçün ağladığını zənn etsinlər. Daha sonra qəhrəman özünü səyyar satıcı görkəminə salır, keşikçilərə bihuşdarı verir və ya onları içirdib cəsədi oğurlayır. b) Oğrunu tutmaq üçün padşah qızını qızıl yüklü dəvə ilə kimsəsiz bir talaya buraxır; oğlan qızın üzündən öpdükdə qız onun bığının bir tərəfini kəsir. Qəhrəman bundan xəbər tutub nə qədər bığlı adam var, hamısının bığının bir tərəfini kəsir. c) Qarı xəstə oğlu üçün dəvə əti axtarır, bu yolla padşahın dəvəsini oğurlayanı tapmağa  çalışır, amma mümkün olmur.

III. Oğrunu tutmaqda aciz qalan padşah elan verir ki, oğru üzə çıxsa, öz qızını ona ərə verəcək. Qəhrəman ondan sonra üzə çıxır.

SMOMPK, IX burax., II şöbə, s.83-87, kont.1525G; XXVIII burax., II şöbə, s.58-67, kont.1538*+1538+1525G; ATS, s.540-547, kont.1000+1120; Məmmədov, s.181-191, kont.1538*+1525G; AKD, s.139-144, kont.1525G; Əliyev-Xəlilov, s.293-298, kont.1538+1525G; Bayat, s.83-96, kont. 1538+1525G; AFA, I c., №76, kont.1538; IX c., s.136-140, kont.1538+1525G; s.230-232, kont.1525G; XII c., s.280-288,

kont.1525G (= BYBQ, s.184-190); Qarabağ, I kitab, s.274-281, kont.1525G; II kitab, s.344-353, kont.1525G

**950A* Əyyar.** Arvadı hamilə ikən padşah evi tərk edir. Oğlu olur. Uşaq atasını axtarmağa gedir. Şəhərdəki dükanlardan oğurluq edir. Padşah oğrunu tutmaq üçün tələ qurur və onu ələ keçirir. Asmaq istəyəndə qolundakı bazubənddən oğlu olduğunu tanıyır.

Axundov, II c., s.94-105, kont.1538; Behrəngi, s.353-358

**951A = AT 951A* Şah Abbas və üç oğru.** Oğrulardan biri itin dilini bilir, o biri bağlı qıfılı açır, üçüncü isə gündüz gördüyü adamı qaranlıqda da tanıyır. Şah Abbasın xəzinəsini yarırlar. Ələ keçirlər, Şah Abbas onları azad edir.

AFA, IX c., s.155-156, kont.868*; XII c., s.271-273; XV c., s.61-62; XVI c., s.360-363, kont.783*; Qarayev, s.399-401; AFK, III c., s.95-101; Qarabağ, I kitab, s.232-233; III kitab, s.311-313

**956B Quldur adaxlı geyimində.** Qız xəzinəni yarmaq istəyən oğruları öldürür, onlardan biri xilas olur. Yoldaşlarının qisasını almaq üçün qızla evlənir və onu meşədə bir ağaca sarıyıb yandırmaq istəyir. Təsadüfən həmin gün padşahın oğlu meşəyə ova çıxmış olur, qızı xilas edir və onunla evlənir. Oğru gecə saraya daxil olub qızı öldürmək istəyir, heyvanlar onu parçalayır.

SMOMPK, XIX burax., II şöbə, s.159-167, kont.533+437; AFA, I c., №81

**956*A Şirvan qazısı.** a) Şəhərdə hər gecə bir qız oğurlanır, yaxud b) padşahın xəzinəsi oğurlanır. Qəhrəman pusur, oğurluğu təşkil edənin şəhər qazısı (abidin) olduğunu öyrənir və bunu padşaha xəbər verir. Qazı cəzalandırılır: hər şaqqası darvazanın bir tayından asılır.

ATS, s.494-500; Azərb. nağ., II c., s.348-352 (= Qaravəllilər (1974), s.10-17; = Azərb., nağ., 2005, III c., s.267-271); Qaravəlillər (1967), s.120-125, kont.1360C (= Qaravəlillər (1974), s.24-29); Ağalı, s.49-52; AFA, IX c., s.150-154, kont. 1360C

**956*B Qız və quldurlar.** Hər gecə şəhərdə bir ev yağmalanır və ya adam oğurlanır. Qız pusur, şəhəri yağmalayan quldurların (həramilərin) yerini öyrənib camaata xəbər verir. Camaat onları öldürür.

İsmayılov, s.195-203, kont.509*+938C*+400*B (= AFA, III c., s.268-276); AFA, IX c., s.246-253

**956*C Şah Abbas taxtı pinəçiyə təhvil verir.** Hər gecə şəhər talanır, amma oğruları tutan olmur. Şah Abbas sifətdən ona oxşayan pinəçini öz yerinə qoyub oğruları tutmaq üçün şəhərə çıxır. Dərvişlə bir mağazanın yanında gecələyir. Mağazanı yarmağa gələn oğrular – milis işçiləri Şah Abbasla dərvişi tutub zindana atırlar ki, səhər onları şəhəri talıyan şəxslər kimi padşaha təqdim etsinlər. Dərvişin köməyi ilə Şah Abbas zindandan xilas olur və taxta çıxıb oğruları asdırır.

Qarabağ, I kitab, s.243-245

**956*D Oğru dayə.** Dayə xanımın oğlunu oğurlayıb çarhovuzun altındakı zirzəmidə ona əzab verir. Kəniz dayəni pusur, gördüklərini xanıma xəbər verir. Oğlan xilas edilir.

Behrəngi, s.385-391, kont.425L+433B+449A*

**958 Çoban və quldurlar.** a) Quldurlar çobana son nəfəsdə tütək çalmağa icazə verirlər; yaxud b) çoban oğruları şübhələndirməmək üçün öz-özünə danışır: “Bir oğlum olacaq, adını Həsən qoyacam. Həsən böyüyəcək, mənimlə qoyun otaracaq. Onun sayıqlığını yoxlamaq üçün bir gecə çağıracam:

Ay Həsən, sürüyə canavar girib hey!” Yoldaşları (camaat) onun (tütəyin) səsini eşidib köməyə gəlirlər.

AFA, VI c., s.109; AFK, II c., s.125-129; Qarabulaq folkloru, I kitab, s.97

**960 Dağın şahidliyi.** Ovçu yoldaşının yaraq-yasağını ələ keçirmək üçün onu öldürür. Ölən şəxs dağları, daşları ölümünə şahid olmağa çağırır. Uzun illər sonra ovçu həmin hadisəni yadına salıb gülür. Gülməyinin səbəbini yanındakı yoldaşına (ölən şəxsin oğlu olur) söyləyir. Həqiqət üzə çıxır, günahkar cəzalandırılır.

Tantəkin, s.128-132; AXS, s.155-156

**960A* Haqq var, divan yox.** Tacir yoldaşının sərvətinə sahib olmaq üçün onu öldürür. Ölən şəxs doğulacaq uşağının adını "Haqq var, divan yox", yaxud "İnsaf qalmadı" qoymağı vəsiyyət edir. Həmin adın sayəsində cinayət üzə çıxır və qatil cəzalandırılır.

Tantəkin, s.132-135; AXS, s.144-145; Əliyev-Xəlilov, s.262-266; AFA, I c., №112; V c., s.57-59; XIII c., s.213-214; XVIII c., s.121-122; NFA, III c., s.180-181

**960B* Cinayət cəzasız qalmır.** Bərəçi çaydan keçirdiyi qadına onunla yaxınlıq etməyi təklif edir, razı olmadıqda onu uşaqları ilə birlikdə çaya atır. Otuz ildən sonra cinayət üzə çıxır və bərəçi cəzalandırılır.

Rüstəmov, s.214-215

**968A* Könlünü quldurlara vermiş qız.** Əmiqızı əmioğlu kiçik yaşlarından bir-birinə beşikkərtmə edilir. Həramilər qızı qaçırdır. Oğlan qızın meylini onlara saldığını görüb onu öldürür.

Muğan şivələri, s.222-227; Azərb. nağ., I c., s.236-252, kont.926C**+582* (= Azərb. nağ. 2005, II c., s.212-229)

## 974-999. Başqa novellavari nağıl süjetləri

**970 Eyni qəbirdə dəfn olunmuş gənclər.** Kişi müharibədə həlak olmuş iki aşiqi bir qəbirdə dəfn edir, qamçısını baş daşı əvəzinə qəbrin ucuna sancır. Qamçının sapı cüyərib ağaca çevrilir. Uzun illər sonra həmin əhvalatı peyğəmbərə danışır. Onun xahişi ilə qəbri açırlar, peyğəmbər əlini həmin gənclərin kürəyinə çəkməklə onları dirildir.

AFA, XII c., s.217-218

**974 Ər arvadının toyunda.**

I. a) Əyyar keşişin qızını oğurlayıb qul adıyla bazarda satır. Qızı satın alan İspin şah onunla evlənir. Qızını axtaran keşiş İspin şahın satdığı gəvənin üstündə onun adını görüb yerini müəyyənləşdir və qızı qaçırdır. Yaxud b) qəhrəman bulaq başında gördüyü qızı qaçırdır. Qızın əmisi qarının köməyi ilə onun yerini öyrənib qaçırdır. Qəhrəman əlinə dəmir əsa alıb, ayağına dəmir çarıq geyinib oğurlanmış arvadını axtarır.

II. Qız əmisi oğluna nişanlanır. Qəhrəman toy gün keşiş və ya qadın qiyafəsində gəlir, arvadının nişanlısını öldürüb onu qaçırdır.

Azərb. nağ., II c., s.255-263 (=Azərb. nağ. (2005), III c., s.190-199); Axundov, II c., s.174-180, kont.993*; Bayat, s.115-138, kont.993*

**976 Kim mərhəmətlidir.** Qız a) kiçik yaşlarından əmisi oğluna beşikkərtmə edilir, amma başqasına ərə verilir; yaxud b) gəlin köçən gecəsi onu sağaldan həkimə qonaq olacağına, və ya c) əmisi oğlu ilə vidaşalmağa gələcəyinə söz verir. Əri həqiqəti bilib ona öz deyiklisinin (həkimin, əmisi oğlunun) yanına getməyə icazə verir. Qız yolda lotubaşına, şirə (dar-

ğaya, qazıya) rast gəlir. Əmisi oğlunu görüb geri qayıdacağına söz vediyinə görə onu sərbəst buraxırlar. Sözünün üstündə durduğuna görə lotubaşı, şir onu azad edirlər, qız yenidən ərinin yanına qayıdır.

Azərb. nağ., III c., s.110-115, kont.976A+925**+925*A (= Azərb. nağ. (2005), IV c., s.102-107); Axundov, I c., s.80-90, kont.559+661*+653A; NFA, III c., s.133-137, kont.976A; s.237-242, kont.559+653+661*

**976A Verilən cavab oğrunu ələ verir.** a) Qardaşlara atalarından miras qalmış ləl (qızıl) oğurlanır; yaxud b) kasıbın xırdalamaq üçün saraya apardığı ləl oğurlanır. Qardaşlar (kasıb) oğrunun tapılması üçün padşaha müraciət edirlər. Padşahın qızı onlara sual verir, verilən cavaba görə ləli oğurlayanın kim olduğunu üzə çıxarır.

SMOMPK, XLII c., II şöbə, s.20-30, kont.925**+925*A +916+178A+178D*; Azərb. nağ., III c., s.110-115, kont. 925**+925*A+976 (= Azərb. nağ. (2005), IV c., s.102-107); İsmayılov, s.320-323, kont.925*A+925**; NFA, III c., s.133-137, kont.976

**976B* Qız kimə çatır?** Kiçik yaşlarından əmisi oğluna beşikkərtmə edilmiş qız oğurlanır və ya başqasına ərə verilir. Nikah gecəsi ərindən qaçır, yolda gəmiçi, quldurbaşı və s. ilə qarşılaşır. Onlardan da qaçır, padşah seçilir və şəklini çəkdirib divara vurdurmaqla əmisi oğlunu tapır.

SMOMPK, IX burax., II şöbə, s.91-94; XXIV burax., II şöbə, s.265-270, kont.559+661*+976*A; Baqri, I c., s.51-57; AS, s.479-489, kont.1352A; Bayat, s.52-65; AFA, I c., №98

**976*A = AT 1169 Dəyişik düşmüş baş.** Qız göyərçinlərin verdiyi lələklə başları kəsilmiş ərini və qaynını dirildir,

amma tələsdiyindən başların yerini dəyişik salır. Əri ilə qaynı onun üstündə mübahisə edirlər.

SMOMPK, XXIV burax., II şöbə, s.265-270, kont.559 +661*+976B*; AS, s.479-489; Şirəliyev, s.394-397, kont.559 +661*; Qarabağ, II kitab, s.196-202, kont.559+653A+661*; III kitab, s.182-191, kont.559+661*+653A

**976*B Tərs düşmüş sünnət:** Təhrata çıxan dəllək aftafadakı su ilə özünü yuyur, sünnəti qopur. Yerinə qoyub su ilə bir də carlayır, sünnəti bitişir, amma tələsdiyindən tərsinə qoymuş olur.

Qarabağ, II kitab, s.202-206, kont.1406A*+514*+449

**981 Qocaların öldürülməsi.**

I. a) Padşahın verdiyi fərmana görə hər kəs qocalmış, əldən düşmüş valideynini bir dağın başına tərk etməlidir; yaxud b) köhnə adətə görə insanlar qocalmış valideynlərini bir səbətə qoyub dağın başında qurd-quşa yem edirlər. Atasına düşkün bir gənc bu adətə xilaf çıxır və atasını bir mağaranın içində gizləyir.

II. a) Qocanın verdiyi ağıllı məsləhət sayəsində şəhər əhli suyun qabağını kəsmiş əjdahadan xilas olur: padşah qocanın məsləhəti ilə böyük bir güzgü düzəltdirir; öz əksini güzgüdə görən əjdaha qorxub qaçır. Yaxud b) padşah qocanın köməyi sayəsində suya düşən əksin körpünün altındakı şəklə məxsus olduğunu tapır. Bu hadisədən sonra padşah qocaların öldürülməsini ləğv edilir.

Azərb. nağ., IV c., s.160-164 (= Azərb. nağ. (2005), V c., s.160-164); Tantəkin, s.135-139; AFA, IV c., s.157; VI c., s.115; XII c., s.47; s.47-48; Axısqa folkloru, s.47-49; Qarabağ, I kitab, s.192-194, kont.806*+831C; s.252-253

**982* Nankor oğul.** Ticarət etmək məqsədi ilə atasından aldığı pulları məşuqəsinə xərcləyir. Var-dövləti əlindən çıxan gənc kor-peşman geri qayıdır.

Baqri, I c., s.81-83; Azərb. nağ., IV c., s.237-242, kont. 770*+929**+928*** (= Azərb. nağ. (2005), V c., s.239-244)

**982** Nanəcib övlad.** Cinayət işləyib aradan çıxır, onun yerinə atası həbs olunur.

Baqri, I c., s.89-90

**982*** Səndən adam olmaz.** Oğlan atasının bu sözündən inciyib evi tərk edir və padşah seçilir. Adam göndərib atasını hüzuruna gətirtdirir və onun qarşısında öyünür. Ata dediyi sözün üstündə durur. Oğlu taxtdan salınır və dəyirmançılıq edir.

Baqri, III c., s.181-182; Həmzəyev, s.467-468; Babayev, s.295-296; Əliyev-Xəlilov, s.275-276

**983 Bütün qadınlar eynidir.** Dəmirçinin arvadı ona aşiq olmuş Şah Abbasdan on iki müxtəlif rəngə boyanmış yumurtanı yeməsini tələb edir, daha sonra onların nə cür daddığını soruşur. Şah Abbas yumurtaların eyni cür daddığını deyir. Dəmirçinin arvadı bununla ona demək istəyir ki, bütün qadınlar da eynidir, onlar ancaq görünüşlərinə görə bir-birindən fərqlənirlər.

SMOMPK, XIII burax., II şöbə, s.163-166; AFA, II c., s.346-348, kont.875D+875A+875H*

**SUS 983* Quş sümüyündən ev.**

*I. Bilqeyis xanım.* Süleyman peyğəmbər a) arvadı Bilqeyisin, yaxud b) oğluna almaq istədiyi qızın arzusu ilə quş sümüyündən ev tikdirmək istəyir. Bütün quşları yığır, yalnız bayquş onun çağrışına gəlmir. Bayquşun dalınca atı, vəziri və iti göndərir, bayquş itlə gəlir.

*II. Sual-cavab.* Bayquş Süleyman peyğəmbərin suallarına cavab verir: a) dünyanın keçmişi çoxdu, yoxsa gələcəyi; b) dünyada arvad çoxdu, yoxsa kişi; c) abadlıq çoxdu, yoxsa xarabalıq.

*III. Bayquşun mükafatlandırılması.* Süleyman peyğəmbər bayquşun məsləhəti ilə quşları qırmaq fikrindən daşınır; bu yaxşılığın qarşılığında bayquşa gündəlik üç sərçə ruzu təyin edir.

SMOMPK, XXVIII burax., II şöbə, s.8-9; Tantəkin, s.124-128; İmamquliyeva, s.285-286; Ağalı, s.35-36; Qarayev, s.404-405; AFA, X c., s.95-97, kont.798*; XII c., s.215-216; XV c., s.274-277; XVI c., I mətn, s.302-303; II mətn, s.303-304; Qarabağ, I kitab, s.209-210, kont.798***; s.210-212

**984* Şah Abbas uşaq olan evə qonaq getmir.** Dəli Becan onu evinə qonaq aparmaq üçün öz uşaqlarının başını kəsir.

Bayat, s.18-21, kont.922F*

**984** Şah Abbasın sınağı.** Cavan ailə Şah Abbası evlərinə qonaq edir, amma ər-arvad olduqlarını ondan gizləyirlər. Şah Abbas çəngəl-bıçağı qapının ağzındakı çarpayının altına atmaqla onların ər-arvad olduğunu müəyyən edir.

AFA, XVI c., s.357-358

**984*** Bağban bir nardan bir stəkan şirə alır:** Şah Abbas (Yengivar padşah) ürəyindən keçirir ki, bağa vergi qoysun. Bağban neçə nar sıxırsa, bir stəkanı doldura bilmir. Şah Abbas ondan sonra fikrindən daşınır.

AFA, XVI c., s.373-376, kont.901*; Qarabağ, II kitab, s.86-87; s.87-88

**984**** Qurbağaların səsini kəsmək.** Şah Abbas (xan) camaatdan qurbağaların səsini kəsməyi tələb edir. Camaat Şah Abbasın anasının (xanın oğlunun) məsləhəti ilə mal bağırsağına hava doldurub gölə atır, qurbağalar onu ilan bilib səslərini kəsir.

AFA, VI c., s.158-159; Qarabağ, II kitab, s.88-89

**986, 923B Tənbəl ər.** Padşah kiçik qızının a) "evi arvad tikər", yaxud b) "qismət vardan deyil, Allahdandır" sözünə qəzəblənib onu kasıba (tənbələ) ərə verir. a) Qızın əri karvana bələdçilik edir. Su quyusunda yaşayan divin sualına cavab verir: dünyada ən gözəl şey nədir. Div ona qeyri-adi nar bağışlayır; yaxud b) köhnə dəyirmandan (meşədən) tapdığı qızıl hesabına varlanır. Özünə atasının imarətinə oxşar bir imarət tikdirir. Qızının bu cah-cəlalını görən padşah onun haqlı olduğunu etiraf edir.

Azərb. nağ., II c., s.361-369, kont.888A+879 (= Azərb. nağ. (2005), III c., s.280-288); IV c., 165-170, kont.1651 (= Azərb. nağ. (2005), V c., s.165-171); Axundov, I c., s.61-69; Seyidov, s.107-112; Ağalı, s.57-59; İsmayılov, s.297-303 (= Ağbaba folkloru, s.149-156); s.314-317; Əliyev-Xəlilov, s.28-42, kont.509*; Ağbaba folkloru, s.96-99; s.114-117; AFA, I c., №91; IX c., s.143-146; Azərb. nağ. (2005), I c., s.212-220, kont.509* (= ATS, s.329-339); Qarabağ, II kitab, s.332-338, kont.910B; III kitab, s.281-289, kont.936

**986*A Sehrli ot.** Qəhrəman misi qızıla döndərən ot əldə edir və onun köməyi ilə varlanır. Ana ota sahib olmaq üçün sərrafla əlbir olub oğlunu öldürməyə çalışır: onu xəncərlə yaralayırlar, ölmüş bilib bir yerə atırlar. Hambal qəhrəmanı sağaldır. Qəhrəman sərrafla anasını öldürüb onlardan qisasını alır.

Azərb. nağ., I c., s.202-217, kont.1426+896*+456*+560*B (= Azərb. nağ. (2005), II c., s.176-191)

**986*B Xain arvad.** Oğlan kasıb düşdüyündən ailəsi ilə birlikdə şəhəri tərk edir və bir evə qonaq olur. Arvadı ev yiyəsi ilə əlbir olub onu öldürmək istəyir: onu quyuya itələyirlər, daha sonra qızını və oğlunu da öldürüb quyuya atırlar. Ölüb-ölmədiklərini yoxlamaq üçün qızmar şişlə cəsədləri şişləyirlər, qəhrəman uşaqların cəsədini şişin qabağına verməklə xilas olur. Quyunun divarını oyub oradan çıxır. Arvadını və ev yiyəsini öldürüb onlardan qisas alır.

AFK, VII c., s.267-276

**987* Dəryaya tökülən ehsan.** Padşah onun üçün tutulmuş balığı dəryaya buraxdığına görə oğlunu evdən qovur. Padşah dünyasını dəyişəndən sonra oğlu onun yerinə taxta çıxır və hər gün atası üçün ehsan bişirtdirib balıqlara atır.

Bayat, s.188-200, kont.878*B+456*+400*A

**988* Zəhmətlə qazanılan pul.** Oğul anasından aldığı pulu öz qazancı kimi qələmə verir. Ata pulu oda atır, yaxud pəncərədən çölə tullayır. Oğlunun heyifsilənmədiyini görüb pulu onun qazanmadığını başa düşür. Növbəti dəfə oğlan pulu öz zəhməti hesabına qazanır, atası onu oda atanda laqeyd qala bilmir.

Seyidov, s.214-219, kont.922*+920B**; AXS, s.14-15; AFA, V c., s.64-65; Qarayev, s.414-415

**989* Bayquşların söhbəti.** a) Bir bayquş o birindən cehiz olaraq əlli xaraba istəyir. O biri bayquş da cavab verir ki, nə qədər Ənuşirəvan şah taxtdadır, ona əlli deyil, yüz xaraba verər; yaxud b) bayquşlar Şah Abbası qarğayırlar ki, indiyə kimi iki sevgilini bir-birinə qovuşdurmayıb. a) Ənuşirəvan şah bayquşların söhbətini eşidib zülmkarlığı tərgidir;

yaxud b) Şah Abbas özünü ədalətli hökmdar kimi tanıtmaq üçün yolayrıcında imarət tikdirib gəlib-gedənə yemək verir.

Axundov, II c., s.195-199, kont.836F+400*C; Qərb şivələri, s.254-255, kont.930; Seyidov, s.62-66, kont.783*+923*; İmamquliyeva, s.285; AFA, IX c., s.207-210, kont.770**; XII c., s.179-186, kont. 707B

**990 Sətəlcəm olmuş qız.** Padşahın qızını qan aparır və ya sətəlcəm olur, onu ölmüş bilib dəfn edirlər. Qıza aşiq olmuş oğlan onu sağaldır və qızla evlənir.

Axundov, II c., s.135-143, kont.770**; Qasımlı, s.137-140, kont.1651; AFK, X c., s.199-203, kont.835**+1651; Qarabağ, III kitab, s.276-281, kont.1651

**991* Tacir xəsisliyi tərgidir.** Ucuz ciyər, yaxud baş-ayaq dalınca Xələfə gedir. a) Qəssaba qonaq olur. Onun yeməkdən əvvəl bir kəlləni, və ya qəbri döydüyünü görür. Bunun sirrini öyrənəndən sonra xəsisliyi tərgidir. Yaxud b) ilanlar padşahının qızını xilas edir, əvəzində ilanlar padşahı onu xəsislik azarından qurtarır.

Babayev, s.291-294; AFA, XIII c., s.234-255; XV c., s.270-273

**993* = AT 938B Qızın saçları arasındakı ləl.**

I. Qəhrəman evləndiyi qızı götürüb atası evinə qayıdır. Yolda qız başını oğlanın dizi üstünə qoyub yatır. Oğlan a) qızın saçını oxşayarkən onun hörüklərinin arasından içi qiymətli daşla dolu bir kisə tapır. Kisəni əlində atıb-tutduğu vaxt bir ley onu caynağına alıb aparır, yaxud b) qızın boynundan asdığı ləli və ya barmağındakı üzüyü əlində oynadarkən quş onu aparır.

II. Oğlan quşu təqib edir, bir bağbanın yanında çalışır. Onun əşyasını oğurlayan quş da həmin bağda yuva qurmuş

olur. Oğlan oğurlanmış əşyasını quşun yuvasından (və ya pətənəyindən) tapıb geri qayıdır.

Azərb. nağ., III c., s.5-36, kont.567* (= Azərb. nağ. (2005), IV c., s.5-37); Axundov, II c., s.174-180, kont.974; Tantəkin, s.78-89; Bayat, s.115-138, kont.974; AFA, XVI c., s.383-385

**994* Səxavətli adam.** Kim ona qonaq olursa, gedəndə yemək yediyi boşqabları da özü ilə aparır. Şah Abbas onun səxavətindən xəbər tutub öz qızını ona ərə verir. Şah Abbasın kürəkəninin onun yerinə keçəcəyindən ehtiyat edən şəhər böyüyü onu aradan götürməyə çalışır. Bu məqsədlə yeməyinə bihuşdarı qatıb onu zindana atdırır. Vəzirin qızı onu xilas edir. Şah Abbas şəhərin başçısını öldürtdürüb kürəkənini onun yerinə təyin edir.

Azərb. nağ. (2005), I c., s.333-342 (= Azərb. nağ., II c., s.319-328)

**994** Səxavətli qız.** a) Misi qızıla döndərən kimyəvi ot əldə edir, yaxud b) daşın altından xəzinə tapır. Səksən qapılı saray tikdirib hər qapıdan girənə bir kisə qızıl paylayır. Padşah qızın səxavətindən xəbər tutub onunla evlənir.

Axundov, II c., s.301-311, kont.738+400*B+733*+449; Seyidov s.99-106, kont. 836F+733*+738; İslamov, s.213-216, kont.400*B+733*+449 (= AFA, IV c., s.199-202); Behrəngi, s.339-347, kont.400*A+1645A+449; AFA, IX c., s.133-136; IX c., 197-199, kont.738+733*+836F

**995* Ölünün qulağına söz demək.**

I. a) Oğlanın arzusu ilə padşah şahlığı qırx günlüyə ona verir; yaxud b) iki dost dolanışıq dalınca başqa şəhərə üz tutur; onlardan biri padşah seçilir, öz dostunu isə başqa bir

mahala xan təyin edir. Padşah seçilən şəxs bir müddətdən sonra dostuna baş çəkir.

II. a) Oğlan otuz doqquz gün heç bir iş görmür, qırxıncı gün ölkəni gəzməyə çıxır. Bir qarıya pul verir, ölünün qulağına nəsə pıçıldayır; yaxud b) camaat yeni xandan razılıq edir, amma bir eybi var ki, hər dəfə ölünü basdıranda onun qulağına nəsə pıçıldayır. Oğlan etdiyi hərəkətin səbəbini padşaha izah edir.

Borçalı folkloru, s.86-87; AFA, I c., №119; III c., s.372-375; XVIII c., s.125

**995** Ölüdən haqq almaq.** a) Qəhrəman gündə qazandığı iki dinarın yarısını yer puluna verir; yaxud b) satdığı qovun-qarpızın pulunu camaatdan ala bilməyən iki qardaş qəbiristanlığın ağzında durub ölü sahibindən pul tələb edir. Padşah onların bu hərəkətinin səbəbini öyrənib şəhərdəki özbaşınalığı aradan qaldırır.

Ağalı, s.79-83, kont.2505*B; AFA, I c., №87

**996* Hər keçən gün ömürdən gedir.** Ona görə də tacir nə qədər qazanc əldə edirsə, yenə də özünü ziyanda sayır.

Ağalı, s.52-55; s.97; AXS, s.8-9; AFA, IV c., s.165; Qarabağ, I kitab, s.258-259

**996** Hər dəqiqənin öz hökmü var.** Ölümə məhkum edilmiş şəxs özünün başqa ağacdan asılmasını istəyir. Cəllad onun istəyini yerinə yetirəndə kişinin azad olunması haqqında fərman gəlir.

Hüseynov, s.48-49; AFA, V c., s.223

**996*** Belə də qalmaz.** Ata oğlunu şaha nökər verir. Oğlan bir müddət cüt sürür, sonra cütçülərin üzərində rəhbər təyin edilir, ölən padşahın yerinə şah seçilir və s. Hər dəfə

atası ona baş çəkəndə «belə də qalmaz» deyir. Axırda oğlan dünyasını dəyişir, ata ondan sonra oğlunun həmin sözlə nə demək istədiyini başa düşür.

AKD, s.258-260; Bayat, s.236-240; AFA, XII c., s.222-223 (= BYBQ, s.32-33); XIII c., s.176-177, kont.470

**997* İnsan nəslinə çəkər.** Padşah evləndiyi qızın, yaxud oğluna aldığı gəlinin hərəkətlərini izləyir. Gəlin a) çörəyi tikələrə bölüb qablara qoyur, daha sonra bir-bir qablara vurub pul tələb edir; b) söyüd çubuğunu görəndə ondan yaxşı sağanaq çıxacağını deyir; c) əlinə qaşıq alıb “hay it, hay it” deyə-deyə süfrənin başına dolanır. Həmin hərəkətlərinə görə onun qaraçı qızı olduğu məlum olur.

SMOMPK, VI burax., II şöbə, s.118-124; Ağalı, s.98-99; AFA, XIII c., s.285-286; Qarabağ, I kitab, s.285-287; s.288

**997** Qurd oğlu qurd olar.** Padşah quldurları və onların ailə üzvlərini öldürür, yalnız bir uşaq sağ qalır. Uşaq böyüyüb padşahı öldürür.

Şirəliyev, s.378

**997*** Özünü lallığa vurmuş oğlan.** Padşah oğlunun nə iş tutduğunu öyrənmək üçün üstünə nəzarətçi qoyur. Nəzarətçi oğlanın ovçunun vurduğu quşa dediyi sözləri eşidir. Məlum olur ki, oğlan danışa bilirmiş, sadəcə dünyaya küskün olduğundan özünü lallığa vurub.

Qarabağ, I kitab, s.268-269

**998*A Padşah və bənna.** Bənna padşah üçün bir kərpici yaqut, bir kərpici zəbərcəddən imarət tikir. Bənnanın ondan da yaxşısını tikə biləcəyindən ehtiyat edən padşah onu

binanın üstündən atıb öldürmək istəyir. Padşahın niyyətini başa düşən bənna onun özünü yerə atır.

Axundov, II c., s.234-236

**998*B Bənnanın arvadı padşaha xalça toxutdurur.** Padşah hansı ustaya bina (qalaça) tikdirirsə, axırda onu öldürtdürür. Padşahın bu xasiyyətindən xəbərdar olan bənna onu, vəziri və vəkili açar dalınca evə göndərir. Bənnanın arvadı onları zirzəmiyə salıb iş gördürür, yalnız əri binanı tikib qurtarandan sonra onları azad edir, yaxud heç kimə zülm etməyəcəklərinə söz verdikdən sonra onları azad edir. Müqayisə et: AT 882A*.

Azərb. nağ. (2005), I c., s.313-316 (= Axundov, II c., s.242-246); Seyidov, s.140-144

**999* Bala dağı.** İki balası öldüyü üçün dəvənin ürəyinə xal düşür. Dəvə sahibi onun sayəsində həmin heyvanın ona məxsus olduğunu sübut edir.

AXS, s.143; AFA, V c., s.218-219; XIV c., s.148-149

# V. AXMAQ DİV (ŞEYTAN) HAQQINDA NAĞILLAR

## 1000-1029. Nökər ağa ilə (şeytanla) haqq-hesab çəkir

**1000 Hirslənməmək sazişi.**

I. a) Nökər hər söyüşə görə yüz manat alacağına dair qazı ilə müqavilə bağlayır; yaxud b) kim peşman olduğunu dilə gətirsə, onun başı kəsiləcək.

II. a) Öküz harada dursa, oranı şumla, it harada dursa, toxumu ora səp, qatığı yarmadan, çörəyi doğramadan ye. İt çayın ortasında durur, nökər toxumu suya səpir. Qabın altını deşib qatığı içir, çörəyin ortasını yeyir (AT 1003); b) Uşağın səsini kəs: qəhrəman onu öldürür (Bax: AT 1012); c) Camışların başına qədər ot tök: camışların başını kəsib ota basdırır (AT 1006); d) Qulpu sınıq küpü gətir. Qəhrəman təzə küpün qulpunu sındırıb aparır; e) Buzovun quyruğundan çək gətir. Buzovun quyruğunu elə dartır ki, heyvanın quyruğu qopur.

III. Qazı şərti pozur, hər şöyüşə görə yüz manat ödəməli olur və ya peşman olduğunu dilə gətirir, nökər onu öldürür.

Əlizadə (1929), s.86-91, kont.1120-1756*+1752*; Baqri, III c., s.107-119, kont.1132+1120; ATS, s.540-547, kont.1120 +950; Azərb. nağ., I c., s.303-308, kont.1032* (= Azərb. nağ. (2005), II c., s.269-274; = Qaravəllilər (1967), s.82-89; = Qaravəllilər (1974), s.38-47); Ayrım bəzəmələri, s.143-148, kont. 1132+1120+1537; AKD, s.291-295, kont.1643+1600+1132+1120; Kərimov, s.352-354, kont.1132+1120; AFA, IXc., s.140-143, kont.1029+1132+1120+1013+1537; X c., s.216-220, kont. 590B*+1013+1029+1132+1120+1537; Azərb. nağ. (2005), I c.,

s.27-33, kont.1132+1120+1013 (= ATS, s.557-565; = Qaravəllilər (1967), s.52-60); Qarabağ, II kitab, s.259-267, kont.1132 +1120+1537

**1000A* İnsan dərisindən çarıq.** Tacir nökər tutduğu şəxslə şərt kəsir: nə vaxt çarıq yırtılsa, o vaxt haqqını verib onu azad edəcək. Böyük qardaşlar uğursuz olur, tacir onların belindən iki çarıqlıq dəri kəsir. Kiçik qardaş çarığın içinə birə doldurmaqla onun yırtılmasına nail olur.

AFA, XVII c., s.165-167

**1013 Dəli qardaş anasını çimizdirir.** Qaynar suyu töküb onu öldürür.

Vəliyev, s.40-41, kont.1653; AFA, IX c., s.140-143, kont. 1000+1029+1132+1120+1537; X c., s.216-220, kont.590B* +1029+1132+1120+1537; XII c., s.296, kont.1132+1120; Azərb. nağ. (2005), I c., s.27-33, kont.1000+1132+1120 (= ATS, s.557-565; = Qaravəllilər (1967), s.52-60)

**1029 Ağanın arvadı qu-qu quşunu yamsılayır.** Nökərdən xilas olmaq üçün ağaca çıxıb quş kimi cəh-cəh vurur, nökər onu öldürür.

AFA, IX c., s.140-143, kont.1000+1132+1120+1013+1537; X c., s.216-220, kont.590B*+1013+1000+1132+1120+1537

## 1030-1059. İnsanın şeytanla şərikli işi: insan şeytanı aldadır

**1032* Şeytan qatır cildində.** Keçəl onu qatır adıyla qazıya satır. Qatır qeybə çəkilir.

Əlizadə (1937), s.319-322; Azərb. nağ., I c., s.303-308, kont.1000 (= Azərb. nağ. (2005), II c., s.269-274; = Qaravəllilər (1967), s.82-89; = Qaravəllilər (1974), s.38-47)

## 1060-1114. Divlə (şeytanla) yarış

**1060 Qorxaq Əhməd.** Divlə gücünü yoxlayır: a) Kim daşdan su çıxardar. Qəhrəman daş əvəzinə yumurtanı sıxıb suyunu çıxardır. b) Kimin qoltuğunun vəzi böyük olar? Qəhrəman yumurtanı qoltuğunun vəzi kimi qələmə verir. c) Kimin qoltuğunun tükü uzun olar? Qəhrəman sicimi qoltuğunun tükü kimi qələmə verir. d) Kimin bədəninin biti böyük olar? Qəhrəman cibində gizlətdiyi qurbağanı bit kimi qələmə verir. e) Kim güclü qaz buraxar? Divin buraxdığı qaz qəhrəmanı havaya qaldırır. Qəhrəman özünü elə göstərir ki, guya dəlmə-deşiyi tutur. i) Kim bir tuluq suyu içə bilər? Qəhrəman tuluğu hava ilə doldurub başına çəkir. Div ondan qorxur.

SMOMPK, VI burax., II şöbə, s.109-118, kont.1115 +1149A*; XX burax., II şöbə, s.19-22, kont.1149A*; Əlizadə (1937), s.427-432, kont.1115; Muğan şivələri, s.220-221 (= Şirəliyev, s.372-373); Şirəliyev, s.406; Behrəngi, s.285-287, kont.1149A*; Azərb. nağ. (2005), I c., s.299-302, kont.1115 (= ATS, s.525-530; = Azərb. nağ., III c., s.74-77); AFA, XIV c., s.111-113; XVI c., s.389-393, kont.407; AFK, IV c., s.241-244, kont.1115+1149; VIII c., s.311-313; Qarabağ, III kitab, s.305-309, kont.1149A*

**1091 Kim qeyri-adi heyvan gətirər.** Qəhrəman arvadını gətirir.

Ağbaba folkloru, s.173-174, kont.1175

**1099* Molla şeytanı çaya susuz aparıb, susuz gətirəcəyini iddia edir.** Çaya çatmağa az qalmış şahid gətirmədiklərini bəhanə edib onu geri qaytarır.

Baqri, III c., s.168-169, kont.1530

## 1115-1144. İnsanı öldürmək üçün divin (şeytanın) uğursuz cəhdi

**1115 Dəyirman daşı ilə (qaynar su ilə) öldürməyə cəhd.** Divlər qəhrəmanın üstünə dəyirman daşı salıb, yaxud qaynar su töküb öldürmək istəyirlər. Qəhrəman yatağına kötük qoymaqla xilas olur.

SMOMPK, VI burax., II şöbə, s.109-118, kont.1060 +1149A*; Əlizadə (1937), s.427-432, kont.1060; Azərb. nağ. (2005), I c., s.299-302, kont.1060 (= ATS, s.525-530; = Azərb. nağ., III c., s.74-77); AFA, XV c., s.217-223, kont.1539E*+ 1725+1380+1539D*+1530+1537A*+1594*A; AFK, IV c., s.241-244, kont.1060+1149

**1119A* Yorğana sarınmış keçəl.** Tacir keçəli yorğana sarıtdırıb döydürmək istəyir. Keçəl tacirin özünü yorğanın arasına sarıyır. Nökərlər onun əvəzinə taciri döyürlər.

Azərb. nağ., IV c., s.192-201, kont.1583*+1725+1358C +1920+1654A*+1121+1753* (= Azərb. nağ. (2005), V c., s.194-203); Azərb. nağ. (2005), I c., s.353-357, kont.1583* (= Qaravəllilər (1967), s.89-94; = Ayrım bəzəmələri, s.125-129)

**1120 Kosa (ağa) keçəli çaya atmaq istəyir.** Bundan xəbər tutan keçəl a) gecə arvadın çalmasını öz başına bağlayır, yaxud b) kosanın arvadı ilə öz yerini dəyişir. Kosa onun əvəzinə arvadını çaya atır.

ATS, s.540-547, kont.1000+950; Əlizadə (1929), s.86-91, kont.1000+1756*+1752*; Baqri, III c., s.107-119, kont.1000 +1132; Ayrım bəzəmələri, s.143-148, kont.1000+1132+1537; AKD, s.291-295, kont.1643+1600+1000+1132; Kərimov, s.352-354, kont.1000+1132; AFA, IX c., s.140-143, kont.1000 +1029+1132+1013+1537; X c., s.216-220, kont.590+1000+1013 +1029+1132+1537; XII c., s.296, kont.1013+1132; Azərb. nağ. (2005), I c., s.27-33, kont.1000+1132+1013 (= ATS, s.557-565; = Qaravəllilər (1967), s.52-60); Qarabağ, II kitab, s.259-267, kont.1000+1132+1537

**1121 Keçəl div qarısını təndirdə yandırır.** İşıq gələn tərəfə gedən keçəl div qarısının yaşadığı mağaraya rast gəlir. Onu təndirə salıb öldürür. Div qarısının oğlanlarını qapının ağzında durmağa razı salır və onların başına dəyirman daşı salır. Oğurlanmış qızı xilas edib onunla evlənir (Bax: 327A).

Azərb. nağ., IV c., s.192-201, kont.1583*+1119A*+ 1725+1358C+1920+1654A*+1753* (= Seyidov, s.93-98; = Azərb. nağ. (2005), V c., s.194-203)

**1132 Nökərdən qaçma.** Qəhrəman ərzaq səbətinin içində, yaxud paltarların arasında gizlənir. Ondan qaçıb xilas olmaq istəyən ağa onu da özü ilə götürür.

Baqri, III c., s.107-119, kont.1000+1120; Ayrım bəzəmələri, s.143-148, kont.1000+1120+1537; AKD, s.291-295, kont. 1643+1600+1000+1120; Kərimov, s.352-354, kont.1000+1120; AFA, IX c., s.140-143, kont.1000+1029+1120+1013+1537; X c., s.216-220, kont.590+1000+1013+1029+1120+1537; XII c., s.296, kont.1013+1120; Azərb. nağ. (2005), I c., s.27-33, kont. 1000+1120+1013 (= ATS, s.557-565; = Qaravəllilər (1967), s.52-60); Qarabağ, II kitab, s.259-267, kont.1000+1120+1537

**1135 Özüm.** Ovçu adının «Özüm» olduğunu deyir və o nə edirsə, heyvan da onu yamsılayır: bədənini yağlayır, ocaqdan közü götürüb bədəninə sürtür. Heyvanı od tutur. Onu yandıranın kim olduğunu soruşanda cavab verir: «Özüm».

Rüstəmov, s.24-25 (= Şirəliyev, s.355); BYBQ, s.213; Borçalı folkloru, s.170-171; AFA, XIII c., s.221-222; XVI c., s.398

**1137 Təpəgöz.** Qəhrəman yoldaşları ilə birlikdə təpəgözün əlinə düşür. Onun gözlərini kor edir, qoyun dərisində gizlənib ondan qaçır.

AKD, s.196-197, kont.485A; İsmayılov, s.290-297, kont.485+936* (= AFA, III c., s.227-284); AFA, XVI c., I mətn, s.398-399; II mətn, s.399-401; Azərb. nağ. (2005), I c., s.158-163, kont.800*B+400*B+337* (= ATS, s.227-236; = Axundov, II c., s.237-241)

**1143A Lal div.** Dəli və ağıllı qardaş evi öz aralarında bölürlər; hərəsi qapının bir tayını çiyninə alıb ağacda gecələyir; gecə divlər evi yiyəsiz görüb içəri doluşurlar; dəli qardaş divlərdən birinin dilini kəsir, o biri divlər qorxub qaçırlar.

AFA, XVI c., s.401

## 1145-1169. Hürküdülmüş div (şeytan, ilan)

**1149 Uşaqlar div əti istəyir.** İnsan divi öz uşaqları ilə qorxudur.

AFK, IV c., s.241-244, kont.1060+1115

**1149A* Tülkünün borcu.** İnsan divləri onun üstünə gətirən tülküdən xilas olmağı bacarır. Divləri inandırır ki, a) tülkü divləri ona olan borcunu qaytarmaq üçün gətirir, yaxud

b) yontaladığı çubuqla divlərin gözünü çıxardacağını deyir. Divlər ondan qorxub qaçırlar.

SMOMPK, VI burax., II şöbə, s.109-118, kont.1060 +1115; XX burax., II şöbə, s.19-22, kont.1060; Behrəngi, s.285-287, kont.1060; AFA, VI c., s.105; XII c., s.166-169, kont. 545B (= BYBQ, s.199-200); Azərb. nağ. (2005), I c., s.283-288, kont.545B; Qarabağ, III kitab, s.305-309, kont.1060

**1164 İlan deyingən arvaddan qorxur.** Kişi deyingən arvadını ilanın yaşadığı quyuya atır. Onu çıxartmaq üçün quyuya kəndir sallayır, arvadının yerinə ilanı çıxardır. İlan hansı qızın boynuna sarılırsa, onu sağaldıb haqqını alır. İlan ona xidmət etməkdən imtina edəndə arvadının gəlməsi ilə onu qorxudur.

Baqri, I c., s.41-45, kont.155 (= ATS. s.513-518; = AS, s.444-450); Əlizadə (1937), s.375-382; Şirəliyev, s.411; Ağayev, s.170-171; Ağalı, s.77-79; Budaqov, s.152-154 (= AFA, X c., s.168-169); BYBQ, s.194-195; AFA, II c., s.353-356; VI c., s.173-174; XVI c., s.397-398; XXIII c., s.165-167; Azərb. nağ. (2005), I c., s.255-260, kont.1641 (= Azərb. nağ., III c., s.241-247; = Ayrım bəzəmələri, s.115-122)

## 1170-1199. İnsan hiylə ilə şeytandan (Əzrayıldan) xilas olur

**1175 Saçın əyrisini düzəltmək.** Şeytan qəhrəmandan kəndi kənd üstə qoymasını tələb edir. Qəhrəman sinəsindən çıxartdığı tükü şeytana verib deyir ki, sən bu tükün əyrisini düzəlt, mən də kəndi kənd üstə qoyaram.

Ağbaba folkloru, s.173-174, kont.1091

**1199 Sonsuz dua.** Əzrayıl əcəli tamam olan kişiyə a) namaz qılmaq, yaxud b) kəlmeyi-şəhadətini demək üçün möhlət verir. Kişi a) namazın yarısını qılır, b) kəlmeyi-şəhadətin yarısını deyib qalanını saxlayır. Bəzi variantlarda Əzrayıl onun ömrünü artırır, digərlərində isə a) qəbrin ölçüsünü götürmək bəhanəsi ilə onu qəbrə salıb canını alır; yaxud b) uşaq cildində onun qarşısına çıxıb şəhadətini ona dedirdir, sonra canını alır.

Hüseynzadə, s.9-12, kont.332; Tantəkin, s.26-30, kont.332; Qonaqkənd ləhcəsi, s.249-251; BYBQ, s.8-9; Ağbaba folkloru, s.177; AFA, XII c., s.219-220 (= BYBQ, s.7-8); XIII c., s.212-213, kont.332B; XVI c., II mətn, s.319-320, kont. 934G**

# VI. LƏTİFƏVARİ NAĞILLAR

## 1200-1349. Axmaq və sadəlövh adamlar

**1202 Naşı biçinçi.** Taxılı kəməndlə boğazından tutub baltayla dibindən vurur.

Qarabağ, I kitab, s.289-293, kont.1618*

**1240 Molla oturduğu budağı kəsir.**

AFA, II c., s.293-294, kont.1313A; XVI c., s.401-403, kont.1313A+1539E*+1539G*

**1261** Arvad gün işığında çörək bişirir.** Xamırı kündələyib həyətin divarına yapır, guya onlar gün işığında (ay işığında) bişəcək.

Azərb. nağ., IV c., s.174-180, kont.1681A+1396*+1398* +1696+1405A*+1643+1381 (= Azərb. nağ. (2005), V c., s.175-182); Qaravəllilər (1967), s.152-156, kont.1681A; Behrəngi, s.239-245, kont.1681A

**1313A Molla ölümü haqqında deyilənlərə inanır.** Mollanın eşşəyi dağda üç dəfə gücə düşür, üçüncüdə eşşəkdən yıxılıb gözlərini yumur. Canavarlar yiyəsiz qalmış heyvanı parçalayırlar.

Baqri, III c., s.163; AFA, II c., s.293-294, kont.1240; XVI c., s.401-403, kont.1240+1539E*+1539G*; Qarabağ, II kitab, s.402-403

**31317* Fil həkimi.** Filin dalı ilə qabağını müəyyənləşdirə bilmir, padşah onu həkimlikdən qovur.

Tantəkin, s.6-7; AXS, s.36; AFA, I c., №111

**1332 Kim daha çox axmaqdır.** Üç nəfər yoldan keçən şəxsin salamı kimə verdiyi üstündə mübahisə edir. Razılaşırlar ki, hər kəs öz axmaqlığını danışsın, kim daha çox axmaqdırsa, salamı da ona verib.

a) *Molla səbir gətirir.* Uşaqlara öyrədir ki, səbir gətirəndə əllərini bir-birinə vurub «Molla, xeyir olsun» desinlər. Su qabını çıxartmaq üçün quyuya düşən molla səbir gətirir, uşaqlar kəndiri buraxıb deyir: «Molla, xeyir olsun». Molla suya düşüb islanır.

b) *Molla arvadından xəlvət qayğanaq bişirmək istəyir.* Onun gəldiyini görüb yağı cibində, yumurtaları papağının altında gizlədir. Yağ əriyir, arvadı başına qapaz vurur, yumurtalar sınıb sifətinə dağılır.

c) *Molla ovurdunda küftə gizləyir.* Ağzında küftə olduğunu etiraf etmək istəmir, dəllək onun üzünü yarıb küftəni çıxardır.

Hüseynzadə, s.52-56

**1341A = AT 1341A* Tövlədən qaçış.** İki nəfər qoyun oğurluğuna gedir. Oğrulardan biri ev yiyəsinin gəldiyini görüb aradan çıxır, o biri tövlədə qalır. Ev yiyəsi tövlənin qapısını açanda oğru onu içəri salıb özü aradan çıxır.

Qarabağ, I kitab, s.316-319

## 1350-1379. Ər-arvad

**1352A Tutuquşu.** Tacir uzaq səfərdə ikən qarı onun arvadını xana ərə getməyə razı salır və onu özü ilə aparmaq istəyir. Tutuquşu hekayə danışmaqla arvadı yubadır və tacir səfərdən qayıdır.

AS, s.479-480, kont.976B*; Bayat, s.3-18, kont.566+567

**1355A* Taxtın altında gizlənmiş keçəl.** Keçəl yad evə girib taxtın altında (unluqda) gizlənir və təsadüfən ev sahibəsinin aşnaları ilə bir yerə düşür. Keçini mələdəcəyi ilə qorxudub onlardan pul alır.

Qaravəllilər (1967), s.41-45, kont.1538** (= Ayrım bəzəmələri, s.81-84); AFA, I c., №129, kont.1537

**1355C* Qəhrəman samanlıqda.** Samanlıqda gecələyən qəhrəman qazı (kəndxuda) ilə gəlinin danışığını eşidir. a) Zurna çalır və ya minacat oxuyur, onları qorxudub qaçırır. Gəlinin gətirdiyi yeməklər ona çatır. Yaxud b) qazını sirrini açacağı ilə qorxudub ondan pul alır.

Əlizadə (1937), s.383-385, kont.1525S**+1554*; Kərimov, s.359-360; Qaravəllilər (1967), s.12-21, kont.1582* +1539D*+1542B*+1530+1594*B; Seyidov, s.186-189

**1358B Arvad aşnasını küpün içində gizlədir.** Küpü satmaq üçün bazara aparan ər başqa bir gəlinin öz aşnasını yükün altında gizlətdiyini görür. Gəlinin əri onun küpünü sındırır, o da yükü dağıdır: hər iki aşna qaçıb xilas olur.

Borçalı folkloru, s.141-143

**1358C Arvadın aşnası üçün bişirdiyi yeməklər keçələ qismət olur.** Arvad ərinin gəldiyini görüb aşnasını və onun üçün hazırladığı yeməkləri gizlədir. Keçəl onların yerini ələ verir.

Azərb. nağ., IV c., s.192-201, kont.1583*+1119A*+1725 +1920+1654A*+1121+1753* (= Azərb. nağ. (2005), V c., s.194-203); Azərb. nağ. (2005), I c., s.329-332, kont.1725 (= Qaravəllilər (1967), s.94-99; = Ayrım bəzəmələri, s.75-79); Qarabulaq folkloru, I kitab, s.98-99

**1360C Kömür alması.** a) Arvad aşnası ilə əylənmək üçün ərini kömür alması gətirməyə göndərir; yaxud b) pişiyin onun çuxasını mundarladığını bəhanə edib ərini parça dalınca Təbrizə göndərir. Kişi yolda qarşılaşdığı çobandan (dərvişdən) arvadının onu aldatdığını öyrənir. Çoban a) onu xurcunun gözündə gizlədərək, yaxud b) gözlərini bağlayaraq özüylə onu aldadan arvadının yanına gətirir. Arvad aşnası ilə ərini necə aldatdıqları haqqında mahnı oxuyur, kişi də xurcundan onlara cavab verir.

Tantəkin, s.17-19; Qaravəllilər (1967), s.120-125, kont. 956*A (= Qaravəllilər (1974), s.24-29); AFA, IX c., s.150-154, kont.956*A

**1365B Tərs arvad.** Arvad a) zəminin qayçı ilə biçildiyini, yaxud b) toyuqları tülkünün oğurladığını israr edir. Əri a) onun dilini kəsir, yaxud b) onu diri-diri torpağa gömür, amma arvad yenə fikrindən dönmür.

AFA, I c., №97; Ağalı, s.100; AFK, X c., s.330-331

**1368* Tək səbir.** Arvad ərini inandırır ki, Bağdadda yaşayan baldızı tək səbir gətirdiyindən evin bərəkəti qaçır.

AFA, III c., s.169

**1370A = AT 1370A* İşləməyən dişləməz.** Padşah tənbəl qızını keçələ ərə verir. Qız işləməsə, əri ona yemək vermir. Bu yolla onu zəhmətə alışdırır.

SMOMPK, XXVI burax., II şöbə, s.228-231; Seyidov, s.177-178; Behrəngi, s.310-311; AFA, III c., s.376-379; V c., s.59-60; XIII c., s.299-301; Qarayev, s.412-413 (= XII c., s.292-293)

**1376B = AT 1376B* Sonsuz nağıl.** Balıqçı sonu olmayan nağıl danışmağa boyun olur, amma padşah onun sözünü

kəsməməlidir. Padşah eyni sözün təkrarından bezib şərti pozur və balıqçını mükafatlandırır.

Əliyev-Xəlilov, s.290-291; Budaqov, s.159-160

## 1380-1404. Axmaq arvad və onun əri

**1380 Gom-gom piri.** Arvad pirdən keçəlin və ərinin ölməsini istəyir. Ağacın arxasında gizlənmiş keçəl dayısı arvadına kəbin inəyini kəsib ətini onlara yedirməyi məsləhət görür. Əti yedikdən sonra özlərini ölülüyə vururlar. Arvad aşnasını köməyə çağırır. Keçəllə dayısı onların hər ikisini öldürüb quyuya atırlar.

ATS, s.554-556, kont.1539E*; AFA, XII c., s.305-312, kont.1725; XIII c., s.406; XV c., s.217-223, kont.1539E*+1725 +1115+1539D*+1530+1537A*+1594*A; XVI c., s.406

**1381 Qarının toyu.** Qardaşlar oğurluq dəvəni kəsib anaları üçün toy edirlər. Arvaddan dəvəni xəbər alanda onu toyunda kəsdiklərini deyir. Dəvə sahibi bunun çoxdan baş verdiyini zənn edir.

Məcidov, s.219-220, kont.1398*; AXS, s.174-175; AFA, V c., 213-215; IX c., s.271-273; XII c., s.325-326 (= BYBQ, s.219)

**1381* Arvadın şahidliyi.** Ərinin padşahın dəvəsini oğurladığını yasavullara xəbər verir. Kişini tutub saraya aparırlar, gedərkən arvada qapı-bacadan muğayat olmağı tapşırır. Arvad qapını çiyninə alıb saraya gəlir. Padşah arvadın dəli olduğuna əmin olub onun ərini azad edir.

Azərb. nağ., III c., 248-251, kont.1643+1541+1398*(= Qaravəllilər (1967), s.77-82); IV c., s.174-180, kont.1681A +1396*+1398*+1696+1405A*+1643 (= Azərb. nağ. (2005), V c., s.175-182); Ağalı, s.82

**1381A Arvad şəri.** Kişi şumdan tapdığı balıqları bişirmək üçün arvadına verir. Arvad balıqları gizlədir və camaatı inandırır ki, əri dəli olub.

AKD, s.301-302; Ağbaba folkloru, s.171-172; Qarayev, s.415-417; AFA, XII c., s.296-299, kont.1531C* (= BYBQ, s.197-199)

**1384 Ər axmaq adam axtarır.** Kişi arvadının doğulmamış uşağın taleyi üçün ağladığını görüb evi tərk edir, ondan da axmaq adamlara rast gəlir.

AFA, XII c., s.300-301, kont.1540 (= BYBQ, s.196)

**1396* Arvad ağzında əri üçün bəhməz saxlayır.** Sonuncu qurtumu içəndə yadına düşür ki, əri üçün bəhməz saxlamayıb. Ağzındakı qurtumu ona saxlayır.

Azərb. nağ., IV c., s.174-180, kont.1696+1681A+1405A* +1643+1398*+1381* (= Azərb. nağ. (2005), V c., s.175-182); Cəfərli, s.331-333

**1397* Altı dul arvad.** Arvadlar ərlərinin nə üçün onları boşadıqlarından bəhs edirlər. a) Arvadlardan biri ərinin aldığı qoyun quyruğunu əridib onun cızdağından yastıq düzəldir; yastığı qurd basır; b) ikinci arvad ərinə şirin görünmək üçün evdəki sulara şəkər qatır; c) üçüncü arvad evin divarını xına ilə suvayır; əri həqiqəti biləndən sonra onu boşayır; d) dördüncü arvad ərinin "sənə kəniz alacağam" kəlməsini "sənə kəndir alacağam" kimi başa düşür və bütün pullarını verib kəndir alır; e) bəzzaz arvadı ərinin satmaq üçün aldığı çitləri

yuyur, onların rəngi solur; i) altıncı arvad keçiyə öz paltarını geyindirir, boynundan da qızıllarını asıb toya göndərir; keçi qaçıb aradan çıxır.

Azərb. nağ. (2005), I c., s.319-321 (= ATS, s.535-539; = Qaravəllilər (1967), s.129-133; = Ayrım bəzəmələri, s.134-137)

**1398* Arvad ərindən küsür.** Əri onu evdən qovur, yaxud oğlu onu dağın başına atır. Qarşısına çıxan heyvanları ərinin göndərdiyini zənn edir və dəvə ilə geri qayıdır.

Azərb. nağ., III c., s.248-251, kont.1541+1643+1381* (= Qaravəllilər (1967), s.77-82); IV c., s.174-180, kont. 1696+1681A+1405A*+1396*+1643+1381* (= Azərb. nağ. (2005), V c., s.175-182); Məcidov, s.219-220, kont.1381

## 1405-1429. Qəddar, tənbəl, hiyləgər arvadlar və onların ərləri

**1405 Tənbəl arvad.** Qız gündə altı para əppək yeyir, parası çatmadığından ağlayır. Anası onu tərifləyir: guya qızı gündə a) yeddi xalça toxuyur, yaxud b) yeddi qoyunun yununu əyirir, bu dəfə biri əysik gəldiyindən ağlayır və onu padşaha (tacirə) ərə verir. Qız ərini inandırır ki, xalası işləməkdən dozanqurduna (pıspısaya) dönüb. Əri onu işləməkdən azad edir.

Azərb. nağ., IV c., s.144-150, kont.1641B+909* (= Seyidov, s.200-205; = Azərb. nağ. (2005), V c., s.144-150); Vəliyev, s.16-17, kont.1641B; AFA, V c., s.318; X c., s.221-222, kont. 1641B; XIII c., s.286-287; s.287; XVI c., s.406-407; XVII c., s.153-155

**1405A*** Arvad hırı tutmadığını bəhanə edib pambığı əyirmək istəmir. Çayın ortasında hırı tutur, onda da əyirməyə pambıq olmur.

Azərb. nağ., IV c., s.174-180, kont.1696+1681A+1643 +1396*+1398*+1381* (= Azərb. nağ. (2005), V c., s.175-182); Çingizoğlu-Şənol, s.13-14; AFA, XXIII c., s.143-145, kont. 1641B

**1406 Arvadlar yoldan tapdıqları həmayil üstündə mübahisə edirlər.** Şərt kəsirlər ki, kim ərini daha yaxşı aldatsa, həmayil ona çatacaq. a) Padşahın arvadı sandığın ağzına başmaq qoyur, əri onun içində adam olduğunu zənn edir; b) vəzirin arvadı ərinin üzünü zəfəranlayır, onu yatağından götürüb köhnə qəbiristanlığa qoyur; əri öldüyünü zənn edir; c) mollanın arvadı ərinin əli ilə öz kəbinini başqasına kəsdirir (Bax: 860). Həmayil mollanın arvadına çatır.

Əliyev-Xəlilov, s.42-55, kont.559+661*+301B; Azərb. nağ., III c., s.223-228, kont.559+661*+437+860B (= Axundov, II c., s.295-300; = Azərb. nağ. (2005), IV c.. s.202-207); AFA, XI c., s.155-159, kont.559+661*; Azərb. nağ. (2005), I c., s.115-119, kont.559+661*+653A (= ATS, s.126-132)

**1406A* Təsbeh kimə çatmalıdır.** Padşahla vəzir yoldan tapdıqları təsbeh üstündə mübahisə edirlər. Razılaşırlar ki, hərə bir əhvalat söyləsin, kimin əhvalatı daha inandırıcı olsa, təsbeh ona çatsın.

Borçalı folkloru, s.48-51, kont.449+936; Qarabağ, II kitab, s.202-206, kont.514*+449+976*B

**1415** = 2008* nömrəsində verilib.

**1423 = SUS 1423* Lotular kişini inandırırlar ki, onun satdığı inək deyil, keçidir.** İnəyi keçi qiymətinə ondan alırlar.

SMOMPK, XLII burax., II şöbə, s.110-117, kont. 1539A*+1539B*+1539C*+1654B*; Seyidov, s.172-176, kont. 1539A*+1539B*; AFA, XVI c., s.404-405, kont.1539A* +1539B*+1542A*; AFK, I c., s.274-284, kont.1538

**1426 = AT 1426* Sandıqda saxlanan arvad:** Dərviş arvadının ona xəyanət etməməsi üçün onu sandıqda saxlayır, və ya almaya döndərib cibində gəzdirir. Əri yuxuya getdikdən sonra arvad cibində gizlətdiyi almanı oğlana döndərib onunla əylənir.

ATS, s.319-324, kont.895*+410*+567; Azərb. nağ., I c., s.202-217, kont.896*+986*A+456*+560*B (= Azərb. nağ. (2005), II c., s.176-191); AFA, XII c., s.293-295

## 1430-1439. Axmaq arvad və axmaq ər

**1430B Kasıb varlanmağın xəyalını qurur.** Kasıb satmaq üçün bazara yumurta aparır. Xəyal qurur ki, yumurtaları satıb eşşək alacaq, onunla yük daşıyıb at alacaq, atdan fayton düzəldəcək, faytonu satıb dükan açacaq. Yumurtalar əlindən düşüb sınır.

Ağalı, s.88-89

**1430B* Kasıb at almağın xəyalını qurur.** Kasıb at alacağını, ona minib ziyarətə gedəcəyini, arvad isə əri ziyarətdən qayıtdıqdan sonra atı minib atası evinə gedəcəyini xəyal edir. Atı tərli-tərli minmək istədiyi üçün kişi arvadına hirslənir, onlar arasında dava düşür.

CAƏA, s.351; Qarabulaq folkloru, I kitab, s.223

## 1440-1449. Qadınlar (qızlar)

**1441B = AT 1441B* Mollanın arvadına aşiq olmuş keçəl.** Mollanın arvadı ona öpüş verməsə, naxıra getməyəcəyini deyir. a) Mollanın arvadı keçələ toyuq hinində görüş təyin edir. Mollaya yaxalanan keçəl itmiş xoruzunun dalınca gəldiyini bəhanə etməklə ondan xilas olur. b) Mollanın arvadı keçələ təzə tikilmiş evlərində görüş təyin edir. Keçəl evin ölçüsünü götürməyə gəldiyini bəhanə etməklə molladan xilas olur. c) Növbəti dəfə mollanın arvadı ilə görüşə gedir və yükün arxasında gizlənir. Mollanın arvadını vurmaq üçün atdığı odun parçası buzova dəyir, heyvan murdar olmamış molla onun başını kəsir. İşin böyüdüyünü görən keçəl əlində bir tiyan un yükün arxasından çıxır, guya mollanın heyvan kəsdiyini bilib ət almağa gəlib. Mollanın arvadı fürsət tapıb keçələ öpüş verir, keçəl ondan sonra naxıra gedir.

Qarabağ, I kitab, s.293-296

**1444* Fərasətsiz bacı.** a) Kiçik bacı ərindən xəbərsiz xaşıl bişirib yeyir, qaşığı kirli qoyduğundan əri onun xaşıl yeməsindən xəbər tutur; yaxud b) evə oynaş gətirir, ərinə yaxalanır. Hər dəfə böyük bacısı onu vəziyyətdən çıxarır.

Ağbaba folkloru, s.176-177

**1444** Varlı və kasıb bacı.** Varlı kasıb bacının onlara qonaq gəldiyini görüb yeməkləri gizləyir, kasıb bacı isə əksinə, onu daha mehriban qarşılayır.

AFA, I c., №113; VI c., s.111-112

**1444*** Zəhmətkeş və tənbəl qız.** Padşahın qızı ilə kəndçinin qızı eyni gündə gəlin köçür. Kəndçi qızı öz zəhməti, çalışqanlığı hesabına varlanır, ev-eşik sahibi olur. Varlı qız

isə əlini ağdan-qaraya vurmur, ərinin ölümündən sonra olan-qalan var-dövlətini də satır, axırda dilənmək məcburiyyətində qalır.

İsmayılov, s.313-314 (= Ağbaba folkloru, s.95-96)

**1448 = AT 1448* Çörək yanığı.** Kiçik qız səfərə çıxan atasından yediyi qoğalların külünü torbaya yığıb ona gətirməsini xahiş edir. Ata onun arzusunu yerinə yetirir. Axırda məlum olur ki, qoğalların külünü yesəydi, ölə bilərdi.

AFA, VI c., s.110

## 1450-1474. Gəlin axtarışında

**1457 Pəltək bacılar.** Onlara elçi gəlir. Ana qızlara elçilərin yanında danışmamağı tapşırır. Qızlar danışıb öz pəltəkliklərini büruzə verirlər, elçilik baş tutmur.

Ağalı, s.95; AFA V c., s.295-296; Meğri şivələri, s.525 (= AFA, XII c., s.359)

## 1475-1499. Qarımış qızlar

## 1500-1524. Başqa qadınlar

**1502*A Qayınana və gəlin.** Kiçik gəlin qayınanadan xəbərsiz bişirdikləri fətiri (qayğanağı) paltarının altında gizləyir. Qayınana onları nə qədər oynadırsa, fətiri tapa bilmir (Müqayisə et: SUS 1544A****).

Naxçıvan şivələri, s.590 (= Şirəliyev, s.402-403); AXS, s.103-105; AFA, I c., № 162; VI c., s.101-102; XXIII c., s.153-154; Qarabulaq folkloru, I kitab, s.82-83

**1502*B İz eşşəyin, fel gəlinin.** Qayınana a) döşəməni şirələyib yeməyi evin ortasına qoyur, yaxud b) çörəyi saxladığı taxçanın qarşısında döşəməyə un səpir. Kiçik gəlin eşşəyi minib yeməyi (çörəyi) götürür. Qayınana fikirdən dünyasını dəyişir.

İsmayılov, s.452; AFA, V c., s.224; s.228; VI c., s.114; s.115; XV c., s.229-231, kont.1502**; s.277-278

**1502** Döyülmüş qayınana.** a) Gəlinlər qayınananı döyüb ölümcül hala salırlar, yaxud b) xaşılı isti-isti onun boğazına tökürlər. Danışa bilməyən qayınana əl hərəkətləri ilə həqiqəti oğlanlarına demək istəyir. Kiçik gəlin onun hərəkətlərini özünə sərf edən şəkildə izah edir.

Ağbaba folkloru, s.170-171; AFA, VIII c., s.227-229; XV c., s.229-231, kont.1502*B

**1502*** Gəlin qayınanasını öldürür.** İzi itirmək üçün tövlənin qapısını açıb mal-qaranı çölə buraxır, guya oğrular qayınananı öldürüb mal-qaranı aparıblar. Daha sonra qayınatasını da öldürüb günahı divanxana işçilərinin üstünə yıxır.

Ağalı, s.93-94

## 1525-1639. Hiyləgər və zirək adamlar

**1525C Mat qalmışam.** Oğrulardan biri cütcünün başını qatır, o biri bundan istifadə edib öküzü oğurlayır.

SMOMPK, VI burax, II şöbə, s.182-183; AKD, s.296; AFA VI c., s.101; XII c., s.327 (= BYBQ, s.222-224); XVI c., s.448-449

**1525D Diqqətini yayındırmaqla oğurluq.** Oğru əvvəl çəkməsinin bir tayını, sonra o biri tayını yola atır. Yoldaşı o biri çəkmənin dalınca gedəndə onun əşyalarını oğurlayır.

SMOMPK, XXIV burax., II şöbə, s.203-211, kont. 1654A*+1654+1532

**1525E Tək və cüt kosa.** Bir-birinə bənzəyirlər, bundan istifadə edib bir-birindən oğurluq edirlər.

Əlizadə (1937), s.371-374 (= Qaravəllilər (1967), s.60-64; = Ayrım bəzəmələri, s.140-143)

**1525G Oğru Əzrayıl qılığında.** Qəhrəman özünü Əzrayıl kimi qələmə verir, guya padşahı o dünyaya aparmağa gəlib. Onu tabutun içinə qoyub aparır (Müqayisə et: AT 1525A IV, 1737).

SMOMPK, IX burax., II şöbə, s.83-87, kont.950; XXVIII, II şöbə, s.58-67, kont.950+1538*+1538; Əliyev-Xəlilov, s.293-298, kont.950+1538; Məmmədov, s.181-191, kont.1538*+950; AKD, s.139-144, kont.950; Bayat, s.83-96, kont.950+1538; Əliyev-Xəlilov, s.293-298, kont.950+1538; Borçalı folkloru, s.72-75, kont.1538; AFA, IX c., s.136-140, kont.950+1538; s.230-232, kont.950; XII c., s.280-283, kont.950 (= BYBQ, s.184-190); Qarabağ, I kitab, s.274-281, kont.950; II kitab, s.344-353, kont.950

**1525N Keçəllə kosa bir-birinə hiylə gəlirlər.** Keçəllə kosa sarayda işə düzəlirlər: biri padşahın inəyini otarır, o biri isə çay paylayan işləyir. Kosa gələn qonağa çay vermək üçün hər dəfə qırx pilləkəni çıxıb-düşür, keçəl isə inəyin dalınca bütün günü gəzir. Günün sonunda bir-birinə öz işlərinin necə rahat olduğunu deyillər və razılaşırlar ki, növbəti gün işlərini

dəyişsinlər. Keçəl kosaya özüylə stol götürməyi məsləhət görür. Kosa bütün günü stol belində inəyin dalınca yüyürməli olur.

AFA, XIII c., s.289-292, kont.1525Y*+1525S*; Qarabağ, I kitab, s.296-303, kont.1525V*+1525S*

**1525S* Keçəllə kosa padşahın inəyini oğurlayırlar.** Keçəl səbətin içində gizlənib üstdən əti qoyur. Kosa onu kürəyində daşıyır, elə bilir əti aparır.

AT kataloqunda 1525N nömrəli süjetin tərkibində verilib.

AFA, XIII c., s.289-292, kont.1525Y*+1525S* (= AFA, XVIII c., s.141-145); Qarabağ, I kitab, s.296-303, kont. 1525V*+1525N

**1525S** Qəhrəman ot tayasının içində gizlənir.** Oğru tayanı çiyninə alıb aparır. Qəhrəman yolda üstünə tökülən itlərə qışqırır. Oğru qorxub qaçır, onun çatısı qəhrəmana qalır.

Əlizadə (1937), s.383-385, kont.1355C*+1554*

**1525T* Yalançı zəvvar.** Oğru özünü zəvvar kimi tanıdır. Gecələdiyi evdən oğurluq edib aradan çıxır.

Qaravəllilər (1967), s.109-113

**1525V* Fətir oğrusu.** Kosayla keçəl dalaşır, ev sahibinin başı onları ayırmağa qarışanda keçəl fətiri oğurlayır, amma fətir iri olduğundan onu gizlədə bilmir. Kosaya üstüörtülü vəziyyəti anladır, kosa deyir: “Qara-pırtıx, qarnı yırtıx kopoğlu”, yəni çörəyi qırıqlayıb gizlət. Keçəl kosanın məsləhətinə əməl edir, fətiri köynəyinin altında gizlədib aradan çıxırlar.

AFA, VI c., s.171-173; Qarabağ, I kitab, s.296-303, kont.1525N+1525S*

**1525Y* Keçəllə kosa alver edirlər.** Kosa torbanın altından əysiləri yığıb üsdən bir az pambıq qoyur, keçəl isə fındıq

qabıqlarını altdan yığıb üstdən bir az sağ fındıq qoyur. Bazarda qarşılaşan keçəllə kosa torbaları dəyişirlər.

AFA, XIII c., s.289-292, kont.1525Y*+1525S*

**1525Z* Mahnı ilə oğurluq.** Molla mahnı ilə ev sahiblərinin başını qatır, lotular bundan istifadə edib keçiləri oğurlayırlar.

AFA, XVI c., III mətn, s.441-442

**1529 Oğru eşşəyə döndüyün iddia edir.** Oğru mollanın eşşəyini oğurlayıb noxtanı öz boynuna keçirir. Mollanı inandırır ki, anasının sözünə qulaq asmadığı üçün Allah onu eşşəyə döndərib.

Təhmasib, s.262; Ağalı, s.84-85

**1530 Uçan qaya**. Keçəl çiynini qayanın altına verir və özünü elə göstərir ki, guya uçan qayanı saxlayıb. Başqa birini onu əvəz etməyə razı salır və özü onun atını minib aradan çıxır.

SMOMPK, XLII burax. II şöbə, s.56-65, kont.312D +1542B*; Baqri, I c., s.97-104, kont.516+1654 (AS, s.459-468); III c., s.168-169, kont.1099*; Qaravəllilər (1967), s.12-21, kont.1582*+1539D*+1542B*+1355C*+1594*B; AFK, III c., s.181-185, kont.1540+1541; AFA, XIV c., s.217-223, kont. 1539E*+1725+1115+1380+1539D*+1537A*+1594*A; XXIII c., s.160-164, kont.1541+1540

**1531B Arvad ərinin dəyişik düşməməsi üçün şalvarının arxasına parça tikir.** Kişi həmin yamağı başqasının şalvarında görüb özünün dəyişik düşdüyünü zənn edir.

Qaravəllilər (1967), s.141-145 (= Ayrım bəzəmələri, s.112-115)

**1531C* = AT 1284 Arvad ərini dəyişik düşdüyünə inandırır.** Kişi əyninə yanlışlıqla başqa adamın paltarını geyinir. Özünün dəyişik düşdüyünü zənn edir.

AFA, XII c., s.296-299, kont.1381A (= BYBQ, s.197-199)

**1532 Qəbirdən gələn səs.** Tacirbaşının oğlu dünyasını dəyişir. Oğrulardan biri ondan miras qalmış əşyaların ona məxsus olduğunu iddia edir. Bunu sübut etmək üçün qəbirdən xəbər alır, qəbrin içində gizlənmiş yoldaşı onun fikrini təsdiqləyir.

SMOMPK, XXIV burax., II şöbə, s.203-211, kont. 1525D+1654A*+1654

**1533 Qazın bölünməsi.** Kasıb padşaha hədiyyə apardığı qazı onun ailə üzvləri arasında bölür: qazın başını padşaha, qanadlarını qızlara, ayaqlarını oğlanlara, dümbəyini arvada verir, bədənini isə özünə götürür. Bölgüdən razı qalan padşah onu mükafatlandırır. Varlı qonşu padşaha beş qaz aparır, amma onu padşahın ailə üzvləri arasında bölə bilmir.

Ayrım bəzəmələri, s.137-139; Qasımlı, s.143-146; AFA, II c., s.388-391; X c., s.228-230; XVI c., I mətn, s.409-410; II mətn, s.411-412

**1533A* Bir dərisi, bir gerisi.** Kişi bişirdiyi toyuğu padşaha hədiyyə aparır. Padşah ondan soruşur ki, toyuğun ən yeməli yeri harasıdır? Kişi cavab verir ki, bir dərisi, bir gerisi. Cavabdan razı qalan padşah onu mükafatlandırır. Paxıl qonşu da varlanmaq istəyir, amma qazı padşahın ailə üzvləri arasında bölə bilmir. Padşah ona yüz şallaq vurdurur.

AXS, s.85-86

**1534 Bəxtsiz adam.** Tacirdən aldığı borcu qaytara bilmir. Tacir onu məhkəməyə aparır. Yolda eşşəyin quyruğunu qoparır, atın gözünü çıxardır, hamilə qadının üstünə düşür,

qadın uşaq salır. Məhkəmədə həmin əməllərinə görə də cavab verməlidir. a) Qazı onun əlindəki bağlamanı rüşvət bilib işi onun xeyrinə həll edir, yaxud b) qəhrəman qazını qadınla bir yerdə tutur. Qazı sirrini açmaması üçün işi onun xeyrinə həll edir.

Baqri, I c., s.86-89 (= ATS, s.490-493); AS, s.497-501; Hüseynzadə, s.78-80; Hüseynov, s.40-41; Qaravəllilər (1967), s.72-74; Qaravəllilər (1974), s.48-54; Borçalı folkloru, s.34-37; AFA, IX c., s.273-274; X c., s.222-223; Qarabağ, II kitab, s.389-392

**1535 Bahalı dəri**. Keçəl dana dərisini torbanın içinə qoyub satmaq üçün bazara aparır. Sövdəgərə torbanın içində qiymətli şey olduğunu söyləyir və öz torbalarını ondan aralı qoymasını tapşırır. Sövdəgər onun torbasını oğurlayıb yerinə öz torbasını qoyur. Keçəl lotuları dərini baha qiymətə bazarda satdığına inandırır. Lotular mal-qaralarını kəsib dərilərini bazara satmağa aparırlar, amma onları alan olmur. Keçəl özünü ölülüyə vurmaqla lotulardan xilas olur.

SMOMPK, XIII burax., II şöbə, s.305-308, kont.1537 +1542A*; XXVIII burax., II şöbə, s.73-80, kont.1542A*; Baqri, III c., s.187-191, kont.1542A*+1537; ATS, s.548-550, kont. 1542A*; Azərb. nağ., V c., s.139-140, kont.1542A*; Qaravəllilər (1967), s.149-152, kont.1542A* (= Ayrım bəzəmələri, s.151-153); AKD, s.177-180, kont.1539E*+1537+1542A*; Ağbaba folkloru, s.93-94, kont.1542A*; AFA, IV c., s.201-204, kont.1537+1542B*+1594*A; VI c., s.188-189, kont.1537 +1542A*; XIII c., s.287-289, kont.1537+1542A*

**1535* Ləl qiymətinə təzək.** a) Gənc satmaq üçün apardığı çörəyi (unu) dəryaya atır. Onları yemlədiyi üçün balıqlar ona qiymətli daş hədiyyə edir (Bax. 672E*). Qəhrəman həmin

daşları təzəyin (kötüyün) içində gizləyir, bir neçə təzəyi isə boş saxlayır. Yaxud b) qəhrəman züryətsiz bir kişinin öz sərvətini kötüklərin içində gizlətdiyini bilir və dünyasını dəyişdikdən sonra həmin kötükləri satın alır. Alverdən qayıdanda yolda boş təzəkləri (kötükləri) yandırmaq üçün tacir yoldaşlarına satır və pulunu ödəyəcəklərinə dair onların dilindən kağız alır. Daha sonra ləl gizlətdiyi təzəkləri tacirlərə göstərib onlardan həmin ləlin qiymətini tələb edir.

AFA, XVI c., s.334-338, kont.834**; Qarabağ, II kitab, s.363-366; III kitab, s.225-231, kont.834**

**1536B Xortlamış ölü.** Arvad qazını, darğanı və padşahı öldürür və onlardan birini basdırmaq üçün adam tutur. Ölünün xortlayıb gəldiyini bəhanə edib o biri ölüləri də ona basdırır. Çoban çayda çimən dəyirmançını həmin ölü zənn edib onu da öldürür.

Azərb. nağ., IV c., s.187-191, kont.1730 (= Seyidov, s.193-197; = Azərb. nağ. (2005), V c., s.189-193); Borçalı folkloru, s.159-161, kont.1730

**1537 Cansız bədən.** Axmaq ölmüş anasını eşşəyə mindirib özgənin əkininə buraxır və yaxud evin divarına söykəyir. Hər dəfə yeni şəxsi onu öldürməkdə günahlandırıb ondan qan pulu tələb edir.

SMOMPK, XIII burax., II şöbə, s.305-308, kont.1535 +1542A*; Baqri, III c., s.187-191, kont.1535+1542A*; Azərb. nağ., IV c., s.187-191, kont.1730 (= Seyidov, s.193-197; = Azərb. nağ., (2005), V c., s.189-193); Ayrım bəzəmələri, s.143-148, kont.1000+1132+1120; AKD, s.177-180, kont.1535+1539E* +1542A*; AFA, I c., №129, kont.1355A*; IV c., s.201-204, kont.1535+1542B*+1594*A; VI c., s.174-175, kont.1535+1542A*;

IX c., s.140-143, kont.1000+1029+1132+1120+1013; X c., s.216-220, kont.590B*+1000+1013+1029+1132+1120; XIII c., s.287-289, kont.1535+1542A*; Qarabağ, II kitab, s.259-267, kont.1000+1132+1120

**1537A* Keçəl kötüyü atın üstünə qoyur.** Özünü elə göstərir ki, guya qardaşını atın üstündə çaydan keçirir. Qadınlar yuduqları kətanı toxmaqla döyəndə at hürkür, üstündəki kötük çaya düşür, su onu aparır. Arvadlar qorxub qaçır, onların yuduğu paltar keçələ qalır.

AFA, XV c., s.217-223, kont.1539E*+1725+1115+1380 +1539D*+1530+1594*A;

**1538 Keçəl darğadan qisas alır.** Darğa (lotu, hacı, molla, vəzir) a) öküzü qaz adıyla keçəldən alır, yaxud b) aldığı qazın pulunu vermir. Keçəl əyninə qız paltarı geyinib darğa ilə evlənir və onu cəza alətinə salıb aradan çıxır. Daha sonra həkim adı ilə onun otağına daxil olub yaralarına duz səpir.

SMOMPK, XXIV burax., II şöbə, s.243-248; XXVIII burax., II şöbə, s.58-67, kont.950+1538*+1525G; Təhmasib, s.203-207, kont.531; Azərb. nağ., III c., s.235-240, kont.879A* (= Azərb. nağ. (2005), IV c., s.215-220); Axundov, II c., s.94-105, kont.950A*; Qaravəllilər (1967), s.126-129, kont.1538* (= Ayrım bəzəmələri, s.55-58); Əliyev-Xəlilov, s.293-298, kont.950+1525G; AFA, I c. №76, kont.950; III c., s.380-388; IX c., s.136-140, kont.950+1525G; IX c., s.230-232, kont. 1525G; Bayat, s.83-96, kont.950+1525G; Borçalı folkloru, s.72-75, kont.1525G; AFK, I c., s.274-284, kont.1423

**1538A* Qəhrəman qız geyimində.** Kosa ilə evlənir, evdən oğurluq edib aradan çıxır.

Qaravəllilər (1967), s.117-120, kont.1539F* (= Ayrım bəzəmələri, s.132-134); AFA, IX c., s.270-271, kont.1539F*

**1538B* Keçəl qız geyimində.** Şahzadəyə ərə gedir. Baldızını inandırır ki, qız uşağı tavandan asılmış toyuğu ayağı ilə vurub salsa, dönüb oğlan olar. Bu yolla özünün oğlana çevrildiyinə baldızını inandırır və onu qaçırdır.

AFA, XII c., s.150-161, kont.516+525*+303 (= BYBQ, s.127-134); AFK, II c., s.46-55, kont.516+525*

**1538* Keçəlin toyuğu oğurlanır.** a) Axund keçəlin gündə üç dəfə yumurtlayan toyuğunu oğurlayır, yaxud b) darğa keçəldən aldığı toyuqların pulunu vermir. Keçəl qazının arvadı ilə olan söhbətini eşidir və toyuğun yerini öyrənib onu oğurlayır.

SMOMPK, XXVIII burax., II şöbə, s.58-67, kont.950 +1538+1525G; ATS, s.551-553; Qaravəllilər (1967), s.126-129, kont.1538 (= Ayrım bəzəmələri, s.55-58); Qaravəllilər (1974), s.18-23; Məmmədov, s.181-191, kont.950+1525G

**1538** Keçəl keçini bir qarın dolusu aşa satır.** Amma nə qədər aş verirlərsə, onu doyurmaq mümkün olmur.

Qaravəllilər (1967), s.41-45, kont.1355A* (= Ayrım bəzəmələri, s.81-84)

**1539A* = AT 1539 Poçtalyon dovşan.** Molla a) aldığı ərzağı dovşanla evə göndərir, yaxud b) dovşanla evə xəbər göndərir və onu baha qiymətə lotulara satır.

1539A*, 1539B*, 1539C* nömrəli süjetlər Aarne-Tompson kataloqunda bir nömrə altında verilmişlər.

SMOMPK, XLII burax., II şöbə, s.110-117, kont.1423 +1539B*+1539C*+1654B*; Seyidov, s.172-176, kont.1423

+1539B*; İslamov, s.219, kont.1539B* (= AFA, VI c., s.156-157); AFA, XVI c., s.404-405, kont.1423+1539B*+1542A*

**1539B* = AT 1535 IV b Sehrli tütək.** Molla özünü elə göstərir ki, guya arvadının boğazını kəsir. Daha sonra tütək çalıb onu dirildir. Tütəyi baha qiymətə lotulara satır.

SMOMPK, XLII burax., II şöbə, s.110-117, kont.1423 +1539A*+1539C*+1654B*; Seyidov, s.172-176, kont.1423 +1539A*; İslamov, s.219, kont.1539B* (= AFA, VI c., s.156-157); AFA, XVI c., s.404-405, kont.1423+1539A*+1542A*

**1539C* Sehrli eşşək.** Guya qızıl peyinləyir. Molla onu baha qiymətə lotulara satır.

SMOMPK, XLII burax., II şöbə, s.110-117, kont.1423+ 1539A*+1539B*+1654B*

**1539D* Sehrli dəyənək.** a) Qəhrəman qabaqcadan yerə basdırdığı yeməkləri çıxardır; özünü elə göstərir ki, onları sehrli dəyənəyinköməyi ilə əldə edib; yaxud b) keçəl ağacın paltar gətirdiyini iddia edir və onu baha qiymətə lotulara satır.

Qaravəllilər (1967), s.12-21, kont.1582*+1542B*+1355C* +1530+1594*B; s.145-149, kont.1539G*; AFA, XV c., s.217-223, kont.1539E*+1725+1115+1380+1530+1537A*+1594*A

**1539E* Bilici quş.** Keçəl (Molla Nəsrəddin) bir evə qonaq olur və ev sahibəsinin aşnası üçün bişirdiyi yeməkləri harada gizlətdiyini görür. Keçəl qoltuğundakı qarğanı sıxır, qarğa qırıldayır. Özünü elə göstərir ki, guya yeməklərin yerini o xəbər verir və onu ev sahibinə baha qiymətə satır.

Baqri, I c., s.77-80, kont.1539G* (= ATS, s.470-473); ATS, s.554-556, kont.1380; Qaravəllilər (1967), s.145-149, kont.1539G*; AKD, s.177-180, kont.1535+1537+1542A*; AFA, XV c., s.217-223, kont.1539D*+1725+1115+1380+1530

+1537A*+1594*A; XVI c., s.401-403, kont.1240+1313A +1539G*

**1539F* Dəvə toxumu.** Keçəl dəvə qığını (çuğunduru) dəvə toxumu adı ilə satır.

Qaravəllilər (1967), s.117-120, kont.1538A* (= Ayrım bəzəmələri, s.132-134); AFA, IX c., s.270-271, kont.1538A*

**1539G* Qoşunbasan.** Qəhrəman quyruğu-qulağı kəsik eşşəyi qoşunbasan adı ilə padşaha satır. Padşah həmin eşşəyin köməyi ilə düşmən üzərində qələbə çalır.

Baqri, I c., s.77-80, kont.1539D* (= ATS, s.470-473); Qaravəllilər (1967), s.145-149, kont.1539D*; XVI c., s.401-403, kont.1240+1313A+1539E*; Qarabağ, I kitab, s.320-321

**1540 O dünyadan gələn.** Qəhrəman özünün o dünyadan gəldiyini deyir. Arvad onunla ölmüş ata-anasına pul göndərir. Arvadın əri qonşunun atını alıb onu təqib edir. Qəhrəman onu da aldadıb atını əlindən alır.

SMOMPK, XXVIII burax., II şöbə, s.151-156, kont. 1541; İsmayılov, s.440-442; AFA, V c., s.301-302; XII c., s.300-301, kont.1384 (= BYBQ, s.196); XXIII c., s.160-164, kont.1541+1530; Azərb. nağ. (2005), I c., s.317-318, kont.1541 (= ATS, s.531-534); AFK, III c., s.181-185, kont.1541+1530

**1540* O dünya adamı.** Qəhrəman əyninə axund paltarı geyinir, quyruğu yoluq at minir, onun üçün bacadan yemək, yorğan-döşək gəlir. Özünün o dünya adamı olduğuna qızı inandırır və onunla evlənir.

AFA (1968), II c., s.227-229 (= Ayrım bəzəmələri, s.59-61)

**1541 Ramazan.** Kişi Ramazan bayramı üçün (qara gün üçün, Novruz bayramı üçün) pul (buğda) ehtiyatı görür. Arvadı onları Ramazan adlı adama verir.

SMOMPK, XXVIII burax., II şöbə, s.151-156, kont.1540; Azərb. nağ., III c., s.248-251, kont.1643+1381*+1398* (= Qaravəllilər (1967), s.77-82); AFA, XII c., s.329; XXIII c., s.160-164, kont.1540+1530; Azərb. nağ. (2005), I c., s.317-318, kont.1540 (= ATS, s.531-534); AFK, III c., s.181-185, kont. 1540+1530

**1542A* Təqibdən qaçan keçəl**. Çobanı aldadır, a) guya onu koxa seçmək istəyirlər; b) padşahın qızını zorla ona almaq istəyirlər; yaxud c) həkimlər xəstə padşaha çoban beyni məsləhət görüblər və onu paltarlarını dəyişməyə razı salır. Lotular keçəlin əvəzinə çobanı çaya atırlar. Çobanın qoyun sürüsünə sahib olan keçəl lotulara sürünü çayın dibindən əldə etdiyini deyir. Onun sözünə inanan lotular özlərini çaya atırlar, boğulub ölürlər.

AT kataloqunda 1535 nömrəli süjetin tərkibində verilib.

SMOMPK, XIII burax., II şöbə, s.305-307, kont.1535 +1537; XXVIII burax., II şöbə, s.73-80, kont.1535; Baqri, III c., s.187-191, kont.1535+1537; ATS, s.548-550, kont.1535; Azərb. nağ., V c., s.139-140, kont.1535; Qaravəllilər (1967), s.109; s.149-152, kont.1535 (= Ayrım bəzəmələri, s.151-153); AKD, s.177-180, kont.1535+1539E*+1537; Ağbaba folkloru, s.93-94, kont.1535; AFA, IV c., s.201-204, kont.1537+1535+1594*A; VI c., s.174-175, kont.1535+1537; XIII c., s.287-289, kont. 1535+1537; XVI c., s.404-405, kont.1423+1539A*+1539B* +1542A*; Qarabağ, I kitab, s.319-320

**1542B* Saqqalı əyri bitib.** Keçəl çobanı aldadır ki, iki gün qoyun dərisinin içində qalsa, a) saqqalının əyrisi düzələcək, yaxud b) başına tük gələcək. Özü onun sürüsünə sahib olur.

SMOMPK, XLII burax., II şöbə, s.56-65, kont.312D+1530; Qaravəllilər (1967), s.12-21, kont.1582*+1539D*+1355C+1530 +1594*B; AFA, IV c., s.201-204, kont.1537+ 1535+1594*A

**1543 Molla Allahdan yüz qızıl istəyir.** Əgər biri əskik olsa, onu götürməyəcək. Qonşusu (oğrular) onu sınamaq üçün bacadan doxsan doqquz qızıl sallayır. Molla qızılları götürür. Mollanı qazının yanına aparmaq üçün qızıl sahibi öz paltarını və atını ona verir. Molla həmin əşyaların da ona məxsus olduğunu iddia edir.

Hüseynov, s.100-101; Təhmasib, s.119-121; AFA, II c., s.271-272

**1543* Yoxsulun arzusu.** Yoxsul kişi hər gün Allaha yalvarıb ondan papaq istəyir. Lotu zibillikdən tapdığı cırıq papağı bacadan içəri salır, yoxsul ondan imtina edir.

AFA (1968), II c., s.233 (= Ayrım bəzəmələri, s.158-159)

**1544 Keçəl dul qadının evində gecələyir:**

I. Qoyunları kəsib yeyir, atası xəbər alanda onları qırx dəvə yükü buğdaya satdığını deyir. Pulu almaq məqsədilə evi tərk edir, yolda dul arvadla qarşılaşır.

II. Arvad keçəllə mərc gəlir: onunla bir yerdə yatacaq, əgər ona toxunmasa, qırx dəvə yükü buğda verəcəyini deyir. a) Keçəl anlaşmanı pozur, öz əməlinə belə haqq qazandırır: «ağacdan qozu sirkələyirsən, sındıranda görürsən ki, onun içində çürüyü də var»; b) ikinci gecə həmin qadınla kənizin arasında yatır; yenə anlaşmanı pozur, öz əməlinə belə haqq qazandırır: «bir tərəf tarladı, bir tərəf bostan, orta xamdı, erkək atı bağlamısan xama, o açılanda ya tarlaya girəcək, ya da xama». Keçəl arvadı bağlayır və qırx dəvə yükü buğda ilə evə qayıdır.

AFA, XVI c., s.412-413

**1554* Üç adam tapdıqları gümüş kəməri, qılıncı və saatı aralarında bölə bilmir.** Qəhrəman uzağa daş atır, kim onu birinci gətirsə, kəmər ona, ikinci gələnə saat, üçüncü gələnə qılınc çatacaq. Adamlar daş dalınca gedəndə o, həmin əşyaları götürüb aradan çıxır.

Əlizadə (1937), s.383-385, kont.1355C*+1525S**

**1558 İnsana geyiminə görə hörmət edirlər.** Şah Abbas məclisə dilənçi formasında gəlir, onu döyüb qovurlar. Şah geyimində gələndə isə onu hörmətlə qarşılayırlar.

AFA, II c., s.279-280; XV c., s.224-228

**1558* İnsana geyiminə görə hörmət edirlər.** Paltarını dəyişdiyinə görə bərbər Cəmşid padşahı tanımır, onu gözlədib başqa müştərini yola salır.

AFA, XVI c., s.376-377

**1577 Yeddi kor.** Qəhrəman korun sırığının içinə yığdığı pulları ələ keçirmək istəyir. İçində arı olan küpü saxlamaq üçün ona verir. Kor küpü açanda arılar onun üstünə daraşır. Sırığı çıxarıb qaçdıqda qəhrəman onu ələ keçirir. Daha sonra koru təqib edir və yeddi korun yaşadığı mağaraya gəlir. Pullarını harada gizlədiklərini öyrənib onların da pulunu oğurlayır.

Qarabağ, I kitab, s.308-312

**1582* Oğul atanı zərərə salır.** Anasını inandırır ki, atası qara öküzlə boz öküzü kəsib onların ətindən biçinçilərə xörək bişirməyi tapşırıb. Daha sonra biçinçiləri aldadıb zəmini yandırır, guya atası zəmiyə od vurmalarını tapşırıb. Axırda da bibisini atasının öldüyünə inandırır. Müqayisə et: AT 1573*

Qaravəllilər (1967), s.12-21, kont.1539D*+1542B*+1355C* + 1530+1594*B

**1583* Keçəl və tacir.** Tacir oğlunun başını yardığı üçün keçələ şillə vurur. Keçəl dişlərini sındırdığını bəhanə edib ondan qanpulu tələb edir.

Azərb. nağ., IV c., s.192-201, kont.1119A*+1725 +1358C+1920+1654A*+1121+1753* (= Azərb. nağ. (2005), V c., s.194-203); Azərb. nağ. (2005), I c., s.353-357, kont. 1119A* (= Qaravəllilər (1967), s.89-94; = Ayrım bəzəmələri, s.125-129)

**1592 Siçanlar padşahı.** Qazı ona əmanət edilmiş qızılları (dəmiri) siçanların yediyini deyir. Əmanət sahibi Bəhlul Danəndəyə şikayət edir. Bəhlulun istəyi ilə padşah onu siçanlar padşahı təyin edir və siçanlardan vergi toplamağı ona tapşırır. Bəhlul qazının evinin ətrafını qazır, guya vergi verməyən siçanları cəzalandırmaq istəyir. Qazı məcbur olub əmanəti qaytarır.

Tantəkin, s.7-9; AFA, X c., s.224-226

**1592A Əmanətə xəyanət.** Qazı ona əmanət edilmiş qızılları götürüb yerinə a) saxsı qoyur, yaxud b) küpün içinə bal doldurur və qızılların saxsıya və ya bala döndüyünü iddia edir. Əmanət sahibi ondan şikayətçi olur. Bəhlul qazının uşaqlarını oğurlayır və onların tülküyə (ayıya) döndüyünü deyir. Bu yolla qazını əmanəti qaytarmağa məcbur edir.

Hüseynzadə, s.46-48; Hüseynov, s.62-63; AFA, X c., s.226-228

**1592C* = AT 1790 Felinə düşmüşəm.** Qəhrəman qazıya verdiyi əmanəti geri ala bilmir. Qonşu qadın (Bəhlul Danəndə) ona köməklik edir. Qazının yanına gedib ona saxlamaq üçün əmanət vermək istədiyini deyir. Bu vaxt kişi içəri girib öz əmanətini istəyir. Qazı qadının (Bəhlul Danəndənin) verəcəyi əmanəti əldən çıxartmamaq üçün onun pullarını geri

qaytarır. Qadın daha sonra ərinin gəldiyini bəhanə edib qazıya pul vermir.

Hüseynzadə, s.61-63; Qaravəllilər (1967), s.134-136 (= Ayrım bəzəmələri, s.102-103)

**1592D* Yuxuda hər gördüyün şeyə inanma.** Dul arvad tikançının yuxuda onunla yatdığı iddia edib ondan yüz tümən pul tələb edir. Bəhlul dul arvadın evinin ətrafını qazır, guya yuxuda atasının həmin evin bünövrəsinə iki küp qızıl basdırdığını görüb. Bu yolla onun yalanını üzə çıxarır.

AFA, XIV c., s.149-151

**1594*A «Kim yerini batırsa, öldürüləcək».** Keçəl qoyunun içalatını adamların yatdığı döşəyə tökür, altlarını batırdıqlarını zənn edib qaçırlar.

AFA, IV c., s.201-204, kont.1535+1537+1542B*; XV c., kont.1539E*+1725+1115+1380+1539D*+1530+1537A*

**1594*B «Gecə kim tərləsə, padşah onun boynunu vuracaq».** Keçəl adamların üstünü qalın ədyalla örtür, tərlədiklərini görüb qaçırlar.

Qaravəllilər (1967), s.12-21, kont.1582*+1539D*+1542B*+1355C*+1530

**1600 Axmaq qatil.** Qardaşlar darğanı öldürüb onun cəsədini quyuda gizləyirlər. Ağıllı qardaş dəli qardaşdan xəbərsiz cəsədi quyudan çıxarıb yerinə keçi cəmdəyi qoyur. Bu yolla qardaşını xilas edir.

Təhmasib, s.142-148, kont.1653+1643; AKD, s.148-149, kont.1643; s.291-295, kont.1643+1000+1132+1120; Abdulla, s.132; AFA, I c., №94, kont.1712*+1712**+1653+1712***

**1600A* Keçəl şumdan qızıl tapır.** Onları padşaha vermək istəyir. Atası (arvadı) qızılları küpdən götürüb yerinə torpaq (daş) qoyur.

Təhmasib, s.55-56; Qaravəllilər (1967), s.21-26 (= Ayrım bəzəmələri, s.70-75); AKD, s.295-296; AFK, III c., s.115-119

**1618* Kim uzağa tullanar.** Ev sahibi üzlü qonaqdan xilas olmaq üçün ölçü təyin edir. Evin ortasından xətt çəkir ki, qonaq qapıya tərəf tullananda onu itələyib qapıdan çıxartsın. Qonaq əks tərəfə tullanır.

Qarabağ, I kitab, s.289-293, kont.1202

**1620 Padşahın yeni tacı.** Kasıb padşaha qeyri-adi tac düzəldəcəyinə boyun olub ondan yüz qızıl alır. Ona a) otdan tac hörür, yaxud b) padşahın başına təzəkdən tac qoyur. Kim taca baxıb gülsə, onun padşahın düşməni olduğunu deyir. Qorxudan hamı tacı tərifləyir.

Hüseynov, s.150-152; Tantəkin, s.96-101; Seyidov, s.181-185; AFA, XVI c., s.407-409

**1625* Vəzir zurna çalmağı öyrənir.** Kasıb vəziri inandırır ki, padşaha zurna (qaval) çalmağı öyrədir. Vəzir də həmin sənəti öyrənmək istəyir. Padşah həqiqəti biləndən sonra vəziri saraydan qovur, onun yerinə kasıbı təyin edir.

Tantəkin, s.10-12, kont.922A*; AFA, V c., s.251-252; XI c., s.160-161

**1626 = AA 2100 Yemək kimə çatır?** Molla, seyid və dilənçi şərikli yemək hazırlayırlar. Razılaşırlar ki, gördükləri yuxunu söyləsinlər, kimin yuxusu yaxşı olsa, yeməyi o yesin. Onlar yuxuda ikən dilənçi yeməyi yeyir.

AFA, V c.. s.297-298

## 1640-1674. Təsadüfi xoşbəxtlik

**1640 Yalançı pəhləvan.**

I. a) Bir yumruğa qırx milçəyi öldürür, özünü güclü pəhləvan elan edir, yaxud b) tacir qəhrəmanın həddən artıq güclü olduğunu görüb onu saraya pəhləvan verir.

II. *Təsadüfən çalınan qələbə böyük igidlik kimi qələmə verilir.* Qəhrəman a) suyun qabağını kəsmiş əjdahanın üstünə göndərilir, yaxud b) firəng qoşununun üstünə göndərilir. Onlar üzərində qələbə çalır və padşahın qızı ilə evlənir.

Azərb. nağ., II c., s.70-77 (= Azərb. nağ. (2005), III c., s.72-79); V c, s.125-130

**1641 Hər şeyi bilən falçı.** Kasıb bir kişi arvadının təhriki ilə rəmmallıq sənətini öyrənir. a) Padşah xəzinəni yarmış oğruları tapmaq üçün ona qırx gün möhlət verir. Kasıb hər gün bir qarpız kəsib deyir: Arvad, qırxların biri gəldi. Bacadan pusan oğru rəmmalın onu nəzərdə tutduğunu zənn edir və xəzinəni oğurladıqlarını etiraf edir. Yaxud b) padşahın üzüyünün qaşını tapır; padşah qəhrəmanın məsləhəti ilə arxası qatda uzanıb yemək yeyəndə dirəyə yapışmış qaşı görür. c) Padşah onun gücünü yoxlamaq üçün əlində gizlətdiyinin nə olduğunu soruşur. Təsadüfən deyilmiş söz həmin əşyanın adı olur.

SMOMPK, XIII burax., II şöbə, s.295-297 (= AFA, VI c., s.191-193); ATS, s.481-489; AKD, s.100-102; Seyidov, s.151-154; BYBQ, s.190-192; AFA, VI c., s.177-178; XII c., s.301-303; s.303-305; s.352-353 (= BYBQ, s.211-212); Azərb. nağ. (2005), I c., s.255-260, kont.1164 (= Azərb. nağ., III c., s.241-247; = Ayrım bəzəmələri, s.115-122); AFK, II c., s.130-135

**1641A* = AT 1646** Bu variantda kasıb yatan bəxtini oyadır, onun məsləhəti ilə falçılıq edir. a) Şahzadə qızın itmiş üzüyünü tapır; b) padşahın papağını başından vurub salır; padşah papağın içində gizlənmiş ilanı görüb onu ilandan xilas etdiyini düşünür; c) ağacın başında qurulmuş tələyə qızıl balıq, və ya suya atılmış tora sığırçın balası düşəcəyini deyir. Ağılsız istəkləri üzündən bəxti onu tərk edir.

AFA, XVI c., I mətn, s.413-415; II mətn, s.415-416;

**1641B Gülmək adamı sağaldır.** Arvad a) hər çiynində bir kündə evin damına çıxıb qışqırır, yaxud b) bişirdiyi yeməkdən bir çömçə bu çiyninə, bir çömçə o çiyninə töküb oxuyur. Padşahın oğlu onun hərəkətinə güləndə boğazında qalmış sümük düşür.

Azərb. nağ., IV c., s.144-150, kont.1405+909* (= Seyidov, s.200-205; = Azərb. nağ. (2005), V c., s.144-150); Vəliyev, s.16-17, kont.1405; AFA, X c., s.221-222, kont.1405; XXIII c., s.143-145, kont.1405A*

**1643 Dəli və kəsəyən.** a) Dəli kəsəyənə ət satır, yaxud arvad b) qurbağalara əyirmək üçün pambıq verir, və ya yuduğu paltarı qurbağalara tapşırıb evə gəlir. Pulunu ödəmədiyinə və ya verdiyi əşyaları geri qaytarmadığına görə kəsəyənin (qurbağaların) yuvasını dağıdır və qızıl tapır.

Azərb. nağ., III c., s.248-251, kont.1541+1398*+1381* (= Qaravəllilər (1967), s.77-82); IV c., s.174-180, kont. 1696+1681A+1405A*+1396*+1398*+1381* (Azərb. nağ. (2005), V c., s.175-182); Təhmasib, s.142-148, kont.1653-1600; AKD, s.148-149, kont.1600; s.291-295, kont.1600+1000+1132+1120; İslamov, s.212-213, kont.1653 (= AFA, VI c., s.156); AFA, XIII c., s.338-339

**1645A Yuxuda görülən xəzinə.** Yatan insanın ruhu milçək formasında onun bədənini tərk edir və ləl-cəvahirat dolu qalaya gəlir. Qəhrəman oyandıqdan sonra ruhun getdiyi yolu təqib edib xəzinəni tapır.

Behrəngi, s.339-347, kont.994**+400*A+449

**1645B = AT 1645B* Allah, sən mənə yetir.** Qoca Şah Abbasdan dilək diləmək üçün saraya gedir. Görür ki, Şah Abbas səhər namazından sonra üzünü Allaha tutub deyir: «Ay Allah, sən mənə yetir, mən də millətimə verim». Geri qayıdıb o da Allaha yalvarır, tapdığı qızıl küpü hesabına varlanır.

AFA, IX c., s.132-133; XII c., s.273-275; Qarabağ, I kitab, s.251-252

**1651 Bahalı pişik.** Qəhrəman siçanların çox olduğu ölkədə pişiyi baha qiymətə satır.

SMOMPK, XIX burax., II şöbə, s.167-180, kont.835** +881; Azərb. nağ., IV c., s.165-170, kont.986 (= Azərb. nağ. (2005), V c., s.165-171); Qasımlı, s.137-140, kont.835**+990; Borçalı folkloru, s.54-58, kont.910B; AFK, X c., s.199-203, kont.990; Qarabağ, III kitab, s.276-281, kont.990

**1653 = AT 1653A, B, C Dəli və ağıllı qardaş.** Qardaşlar ağac başında gecələyirlər. Dəli qardaş çiynindəki qapını ağacın altında gecələyən karvan sahibinin üstünə salır. Karvan sahibi malını qoyub qaçır, onlar qardaşlara qalır.

Təhmasib, s.142-148, kont.1643+1600; İslamov, s.212-213, kont.1643 (= AFA, VI c., s.156); Vəliyev, s.40-41, kont. 1013; AFA, I c., №94, kont.1600+1712*+1712**+1712***; №96

**1654 Keçəllə kosa qəbiristanlıqda.** Özlərini ölülüyə vururlar, quldurları qorxudub onların qənimətlərinə sahib olurlar.

SMOMPK, XXIV burax., II şöbə, s.203-211, kont. 1532+1525D+1654A*; Baqri, I c., s.97-104, kont.516+1530 (= AS, s.459-468); Azərb. nağ., IV c., s.243-254, kont.516 (= Azərb. nağ. (2005), V c., s.245-256); Qaravəllilər (1967), s.102-107, kont.1654A*; Qarabağ, I kitab, s.303-308, kont.1920 +1892+1960D; III kitab, s.314-317, kont.1920+1960D+1892

**1654A* Xəsis keçəl.** Kosadan aldığı borcu geri qaytarmaq istəmir. Özünü ölülüyə vurur. Kosa onun üstünə qaynar su töküb borcu geri qaytarmağa məcbur edir.

SMOMPK, XXIV burax., II şöbə, s.203-211, kont.1532 +1525D+1654; Azərb. nağ., IV c., s.192-201, kont.1583* +1119A*+1725+1358C+1920A*+1121+1753* (= Seyidov, s.93-98; = Azərb. nağ. (2005), V c., s.194-203); Qaravəllilər (1967), s.102-107, kont.1654

**1654B* Qəhrəman özünü ölülüyə vurur.** Lotular qisas almaq üçün onun qəbrini mundarlayırlar.

SMOMPK, XLII burax., II şöbə, s.110-117, kont. 1539B*+1539C*+1539A*

**1667* Cəsarətli bostançı.** Bostanın məhsulundan Şah Abbasa nübar aparan bostançı yolda onun özü ilə qarşılaşır, amma onu tanımır. Şah qarpızı götürməsə, eşşəyi yük qarışıq onun gözünə soxacağını deyir. Həmin sözləri şahın hüzurunda da təkrarlayır, cəsarətinə görə şah onu mükafatlandırır. (Müqayisə et: AT 1689).

Azərb. nağ., V c., s.205-208, kont.922A* (= Azərb. nağ. (2005), IV c., s.274-277); Qarabağ, I kitab, s.236-242, kont. 922A*

**1668* Kasıb saraya armud aparır.** Kim xəstə arvadı üçün armud gətirsə, padşah onu mükafatlandıracağını elan

edir. Kasıb saraya armud aparır, onu tutub zindana salırlar. Bir ildən sonra padşah məhbusları yoxlayanda kasıbın haqsız yerə zindana salındığını öyrənib onu azad edir və xəzinədən istədiyi qədər pul götürməyə icazə verir. Kasıb yalnız balta, mişar və lapatka götürür. Səbəbini soruşduqda mişarla bağdakı armud ağaclarını mişarlıyacağını, laptka ilə köklərini qazacağını, balta ilə də köklərini torpaqdan qopardacağını deyir.

Bakı dialekti, s.217-218

## 1675-1724. Axmaqlar

**1681A Hillilim və Güllülüm.** Ər-arvad qızı evinə qonaq gedir. Arvad qızı üçün götürdüyü bəhməzi yerə tökür, çarığı qarğaya atır, ipliyi ağaca sarıyır. Qızı onları evdən qovur.

Azərb. nağ., IV c., s.174-180, kont.1696+1405A*+1396*+1643+1398*+1381* (= Azərb. nağ. (2005), V c., s.175-182); Qaravəllilər (1967), s.152-156, kont.1261**; Behrəngi, s.239-245, kont.1261**; İsmayılov, s.483-484, (= AFA, III c., s.703-704)

**1681C* Qarı və qızları.** Qarı qızlarını kəlləpaça satana, kababçıya və bal satana ərə verir, daha sonra onlara baş çəkir. Kəlləpaça qazanından oğurluq edir, səsə ev yiyələri oyanır; kuzədən bal götürmək istəyir, əli ilişib orada qalır. Qızları onu evdən qovur.

Behrəngi, s.275-277

**1687 Kişi yeni öyrəndiyi yeməyin adını unudur.** Təsadüfən deyilmiş söz nəticəsində onu xatırlayır.

Qasımlı, s.101-102; AFA, XVI c., s.407, kont.1713*

**1692 Axmaq oğru.** Quldurlar kasıbı məşhur oğru zənn edib özləri ilə oğurluğa aparırlar. Kasıb həvəngdəstədə duz döyür, ölünün başı üstündə Quran oxuyur. Səsə ev yiyəsi oyanıb quldurları yaxalayır.

Azərb. nağ., I c., s.309-314 (= Azərb. nağ. (2005), II c., s.275-280)

**1696 Döyülən axmaq.** Düzgün ifadələr işlətmir. Yasda deyir: «Biri min olsun», toyda: «ölən bu olsun» və s. Hər dəfə də onu döyürlər.

Baqri, III c., s.169-170; Əlizadə (1937), s.414-417, kont. 1713*; Azərb. nağ., IV c., 174-180, kont.1681A+1396*+1398*+1405A*+1643+1381* (= Azərb. nağ. (2005), V c., s.175-182); AFA, V c., s.51-52; XXIII c., s.139-140, kont.1713*; AFK, IV c., s.245-248; Qarabağ, I kitab, s.312-314; II kitab, s.387-389

**1712* Dəli qardaş və keçilər.** Dəli qardaş keçilərdən kolun üstündə bitən meyvələrdən ona gətirmələrini tələb edir. Təsadüfən həmin meyvələrdən biri keçilərdən birinin buynuzuna ilişir. Dəli qardaş sözünə əməl etmədiyi üçün o biri keçiləri vurub öldürür.

AFA, I c., №94, kont.1600+1712**+1653+1712***

**1712** Dəli qardaş palçıqdan çölmə düzəldir.** Çölməyini dağıtdığı üçün qarını öldürür.

SMOMPK, XXVIII burax., II şöbə, s.145-150; AFA, I c., №94, kont.1600+1712*+1653+1712***

**1712*** Ağıllı və dəli qardaş çayı keçirlər.** Dəli qardaş ağıllı qardaşa çörək vermir. Çayı keçməyə taqəti qalmadığından su ağıllı qardaşı aparır. Dəli qardaş onun arxasınca deyir: «A qardaş, axma, gəl bu çörəyi ye».

AFA, I c., №94, kont.1600+1712*+1712**+1653

**1713* Az tökərsən bir ovuc, çox tökərsən iki ovuc.** Qəhrəman misgərdən təzə qazan alır. Qazana az bişirəndə bir ovuc, çox bişirəndə iki ovuc duz tökdüklərini öyrənir. Hər ikisini sınaqdan keçirir, yemək duzlu alınır.

Əlizadə (1937), s.414-417, kont.1696; AFA, XVI c., s.407, kont.1687; XXIII c., s.139-140, kont.1696

**1716 = AT 1716* Uç qardaşın ov macərası.** Üç qardaş ova çıxır. Lüləsiz tüfənglə ceyran (dovşan) vururlar, ağzıyox bıçaqla onu kəsirlər, altıyox qazanda bişirirlər.

Qaravəllilər (1967), s.136-137; s.137-141; Ayrım bəzəmələri, s.139-140; AXS, s.172-173; s.173-174; AFA, V c., s.380-381; VIII c., s.207-208; VIII c., s.209-210

**1721* Fərmanlı pişik.** Onları təngə gətirdiyi üçün kişi pişiyi azdırır. Bir müddətdən sonra pişik boynunda şahın fərmanı evə qayıdır. Kişi evi pişiyə təhvil verib oradan köçür.

Ağalı, s.83-84; Qaravəllilər (1967), s.133-134 (= Ayrım bəzəmələri, s.58-59); Hüseynzadə, s.14-15; AXS, s.199-200

## 1725-1849. Mollalar (darğalar, qazılar)

**1725 Keçəl və darğa.** Darğa (mollanın oğlu) keçəlin dayısı arvadına xırmanda görüş təyin edir, yolu tanıması üçün xırmana gedən yola alma qabığı və ya qoz tökür. Keçəl alma qabıqlarını (qozları) yığıb öz sahələrinə gedən yola tökür. Dayısı arvadının darğa üçün bişirdiyi yeməklər onlara qismət olur. Daha sonra darğaya dayısının işdən xəbərdar olduğunu və onu öldürəcəyini söyləyir. Keçəlin dayısı darğanı yeməyə çağırmağa gedəndə kişinin onu öldürməyə gəldiyini zənn edib qaçır.

Azərb. nağ., IV c., s.192-201, kont.1583*+1119A* +1358C+1920A*+1654A*+1121+1753* (= Seyidov, s.93-98; = Azərb. nağ. (2005), V c., s.194-203); AFA, XII c., s.305-312, kont.1380; Azərb. nağ. (2005), I c., s.329-332, kont.1358C (= Qaravəllilər (1967), s.94-99; = Ayrım bəzəmələri, s.75-79); Axısqa folkloru, s.41-43

**1730 Padşah, qazı və darğa.** Arvad onların üçünə də eyni gündə görüş təyin edir. Ərinin gəldiyini bəhanə edib a) onları evin ortasındakı quyuya salır və üstlərinə qaynar su töküb öldürür; yaxud b) onları sandıqda gizlədir. Əri sandığı satmaq üçün bazara aparır. Camaat onun içindən çıxan adamı xortlamış ölü bilib daşa basırlar.

SMOMPK, XXIV burax., II şöbə, s.127-130; Baqri, I c., s.105-108 (= ATS, s.453-456); Azərb. nağ., IV c., s.187-191, kont.1536B (= Seyidov, s.193-197; = Azərb. nağ. (2005), V c., s.189-193); Qaravəllilər (1967), s.64-72, kont.1754* (= Ayrım bəzəmələri, s.103-110); Borçalı folkloru, s.159-161, kont.1536B; AFA, XII c., s.312-313; XVI c., s.416-422

**1730A Tövlədə gizlənmiş aşna.** Gəlin mollaya öz evində görüş təyin edir. Ərinin gəldiyini görüb onu a) tövlədə gizlədir və üstünə qatıq tökür ki, əri onu inəyin yeni doğulmuş balası zənn etsin. Yaxud b) qazını dama çıxardır; gecə soyuqdan donan qazı qarğıdalıları dənələyib qızınmağa çalışır.

AFA, III c., s.570-572; Qarabulaq folkloru, I kitab, s.96

**1735 Hər kim mənə bir heyvan versə, Allah onun heyvanını dörd edər.** Kasıb mollanın bu sözündən çıxış edərək ona bir inək verir, həmin inək mollanın üç inəyini özüylə əvvəlki sahibinin qapısına gətirir. Molla nə qədər çalışsa da,

inəklərini geri ala bilmir və kasıbdan qazıya şikayət edir. Qazı işi kasıbın xeyrinə həll edir.

Ayrım bəzəmələri, s.110-111

**1736A Taxtaya dönmüş xəncər.** Padşah hər gün yemək-içmək məclisi düzəldən pinəçini saraya cəllad təyin edir. Pinəçi xəncərin tiyəsini satıb yerinə taxtadan tiyə düzəltdirir. Ona oğrunun boynunu vurmaq tapşırılanda deyir ki, əgər oğru günahsızsa onun xəncərinin tiyəsi taxtaya dönsün. Bunun sayəsində vəziyyətdən çıxmağı bacarır.

SMOMPK, XIII burax., II şöbə, s.167-172; Hüseynov, s.113-114; Axundov, I c., s.268-273; Seyidov, s.167-171

**1736B* Allah verəni bəndə ala bilməz.** Padşah hər gün kef məclisi düzəldən pinəçinin var-dövlətini əlindən alır. Pinəçi meşədən tapdığı qızıl hesabına öz adətini yenə davam etdirir. Padşah ondan sonra başa düşür ki, Allah verən qisməti bəndə ala bilməz.

BYBQ, s.25-26

**1739 Qazının uşaq doğması.** Qazı yuxuda ikən arvad yeni doğulmuş uşağı onun yatağına qoyur və ərini uşaq doğduğuna inandırır. Qazı biabır olacağını görüb kəndi tərk edir. Bir müddətdən sonra yenidən geri qayıtmaq istəyir, amma həmin hadisənin unudulmadığını görüb həmişəlik oranı tərk edir.

Tantəkin, s.19-22; Ağalı, s.83

**1751* Çobanla molla.** Əmanət etdiyi qoyunları yediyi üçün çoban qatıq kasasını mollanın başına çırpır. Molla sağ qaldığına şükür edir.

Hüseynov, s.204-205; AFA (1968), II c., s.232-233 (= Ayrım bəzəmələri, s.84-86); XIII c., s.164-165

**1752* Molla camaatı inandırır ki, onlara namazı öyrətmək üçün mollaça gətirib.** Camaat səbəti açanda içindəki arılar onları sancır.

Əlizadə (1929), s.86-91, kont.1000+1120+1756*

**1753* Molla və keçəl.** Molla qoyunu baha qiymətə keçələ (lotuya) satır, boynuna da qonaqlıq qoyur. Arvadına kişi paltarı geyindirib özü ilə qonaqlığa aparır. İşi anlayan keçəl mollanın arvadını gecə öz yanında saxlayır, yaxud onun üzündən öpür.

Azərb. nağ., IV c., s.192-201, kont.1583*+1119A*+1725 +1358C+1920A*+1654A*+1121 (= Seyidov, s.93-98; = Azərb. nağ. (2005), V c., s.194-203); Qaravəllilər (1974), s.61-65; İsmayılov, s.432-434 (= AFA, III c, s.576-578)

**1754* Qabaqcadan ödənilmiş haqq.** Çoban öləndə üstündə Quran oxuması üçün mollaya qoyun verir. Yeddi illik səfərə çıxan çoban molladan tələb edir ki, ya onunla səfərə çıxsın, ya da qoyunu balaları ilə birlikdə ona qaytarsın. Molla məcbur olub qoyunları geri qaytarır.

Qaravəllilər (1967), s.64-72, kont.1730 (= Ayrım bəzəmələri, s.103-110)

**1755* Yalançı molla.** İftar vaxtı olmadığı halda azan verir, camaat iftarını açır.

Qaravəllilər (1964), s.109

**1756* Molla nə desə, camaat onu təkrar etməlidir.** Səcdəyə gedəndə mollanın burnu döşəmənin arasında qalır, qışqırır: «Ay aman, burnum taxtanın arasında qaldı». Camaat da bir ağızdan onun sözlərini təkrarlayır.

Əlizadə (1929), s.86-91, kont.1000+1120+1752*

**1759* Elm və helm.** Elmi olub helmi olmayan gənc duanı yanlış oxuduğu üçün əfəndiyə irad tutur, onu məclisdən qovurlar. Gənc helmi öyrəndikdən sonra camaata məsləhət görür ki, hər kim əfəndinin saqqalından bir tük qoparsa, cənnətə düşər. Camaat əfəndinin saqqalını yolur.

AFA, IV c., s.161-162

**1760* Dəli şeytan deyir.** Molla onu vurmaq istəyən çobana məsləhət görür ki, şeytanın sözünə qulaq asmasın. Eşidəndə ki, şeytan ona bir toğlu bağışlamağı məsləhət görür, deyir: «Arada şeytanın sözünə də qulaq as».

Hüseynzadə, s.18-19; Ayrım bəzəmləri, s.86-87

**1842 Köpəyə ehsan.** Kəndli a) ölən itinin üstündə Quran oxutmaq istəyir, yaxud b) ona ehsan vermək istəyir. Molla əvvəl buna qarşı çıxır, biləndə ki, it ona qoyun vəsiyyət edib, razılıq verir.

SMOMPK, VI burax., II şöbə, s.155-156 (= AS, s.439-441)

## 1850-1874. Digər zümrələr

**1862 Loğman və xəstə**

**1862C Loğman xəstəyə diaqnoz qoyur.** Pişiyin ayağına bağlanmış ipin bir ucunu loğmana verirlər ki, xəstənin dərmanını desin. Loğman xəstənin dərmanının siçan olduğunu deyir.

Azərb. nağ., IV c., s.118-123, kont.1862D*+1862F* +1863*B +1862G*+1863*A (= Azərb. nağ. (2005), V c., s.118-123)

**1862D* Xərçəng udmuş xəstə.** Padşahın sağalması üçün onun gözü qarşısında oğlunun başı kəsilməlidir. Loğman evin

ortasına pərdə çəkib onun arxasında qoyunun başını kəsir. Qanını padşahın sifətinə çiləyəndə öyüb qarnındakı xərçəngi salır.

Azərb. nağ., IV c., s.118-123, kont.1862F*+1863*B +1862G*+1862C+1863*A (= Azərb. nağ., 2005, V c., s.118-123); Axundov, II c., s.287-289

**1862E* Ürəyə sarınmış tük.** Loğman xəstəyə süddü aş yedizdirir, daha sonra onu şortağ ata mindirib çapdırır. Xəstə yediyini sifraq edir, ürəyinə sarınmış tük çıxır.

AFA, XVI c., s.369-371; Qarabağ, I kitab, s.268

**1862F* Qəribə xəstəlik.** Xəstə başında qurbağanın olmasından şikayətlənir. Loğman ona bihuşdarı verir, ayıldıqdan sonra ölü qurbağanı ona göstərir.

Azərb. nağ., IV c., s.118-123, kont.1862D*+1863*B +1862G*+1862C+1863*A (= Azərb. nağ. (2005), V c., s.118-123)

**1862G* Yeddi il su içməmiş ilanın zəhəri, qısır buludun yağışı və beş il qısır qalmış keçinin südü.** Bu üç şey xəstəyə dərman deyilir. Xəstə təsadüfən bu şeylərin üçünü də bir arada tapır və onu içib sağalır.

Baqri, III c., s.4-5; Azərb. nağ., IV c., s.118-123, kont. 1862D*+1862F*+1863*B+1862C+1863*A (=Azərb. nağ. (2005), V c., s.118-123); AFA, I c., №20; XVII c., s.140-141; AFK, IX c., s.258-260; Qarabağ, I kitab, s.265-266; II kitab, s.392-394

**1862*H Hər insana dərman onun qidasıdır.** Loğman nə qədər dəva-dərman edirsə, oğlunu sağalda bilmir və biabır olacağını görüb evi tərk edir. Şəyird uşağın çobandan olduğunu öyrənib onu süd-qatıqla müalicə edir.

AFA, XVI c., s.369, kont.1863*D; Qarabağ, I kitab, s.266-268

**1862*İ Qarpız suyu hər dərdin dərmanıdır:** Yediyi un xəstənin bağırsağında sümükləşib onun ölümünə səbəb olur. Loğman həmin sümükdən bıçaq düzəldir, qarpızı kəsəndə bıçağı onun üstündə unudur. Qarpızın suyu bıçağın tiyəsini əritdiyini görən Loğman başa düşür ki, xəstəni qarpız suyu ilə müalicə etsəydi, onu sağalda bilərdi.

AFA, XIII c., s.185-186

**1863* Loğman və şəyirdi**

**1863*A Kim daha güclü zəhər hazırlayar?** Şəyird loğmanın verdiyi zəhəri içdikdən sonra süddə çimir, zəhər ona təsir etmir. Bu dəfə şəyird zəhər hazırlayır: həvəngdəstənin içinə keçə qırığı atıb səhərə qədər döyür. Loğman şəyirdin daha güclü zəhər hazırladığını zənn edir və qorxudan ürəyi partlayır.

Azərb. nağ., IV c., s.118-123, kont.1862D*+1862F* +1863*B+1862G*+1862C (= Seyidov, s.117-122; = Azərb. nağ. (2005), V c., s.118-123); Axundov, II c., s.290-291, kont. 1863*B; AFA, XVII c., s.141-142; Qarabağ, I kitab, s.261-263; s.264-265, kont.1863**

**1863*B Xəstənin beyin pərdəsinə yapışmış gənə.** Loğman gənəni soyuq nəqqaşla qopartmaq istəyir. Qapının arxasından (bacadan) onu pusan şəyirdinin xəbərdarlığından sonra nəqqaşı qızdırıb gənəni qopardır.

Azərb. nağ., II c., s.23-59, kont.337*+550 (= Azərb. nağ. (2005), II c., s.24-61); Azərb. nağ., IV c., s.118-123, kont.1862D* +1862F*+1862G*+1862C+1863*A (= Azərb. nağ. (2005), V c., s.118-123); Axundov, II c., s.290-291, kont.1863*A

**1863*C Qarpız olan yerdə xəstəlik olmaz.** Buna görə şəyird gəldikləri şəhəri tərk etmək istəyir, amma Loğman qal-

mağı məsləhət görür. Çünki insanlar qarpızın tumunu yeyib xəstəliyə tutulacaqlar.

AFA, I c., №156

**1863*D Əl aman.** Xəstə Loğmanın ağzından çıxan ilk sözə əməl edib şəfa tapır.

AFA, I c., №124; XII c., s.333; XVI c., s.369, kont.1862*H; Qarabağ, II kitab, s.394

**1863** Loğmanın vaxtsız sevinci.** Loğman qovduğu şəxsin su içdiyini görüb sevinir ki, artıq onu tuta biləcək. Həmin şəxs su içdikdən sonra kürəyini qaynar quma sürtür, qum onun bədənindəki suyu çəkib çıxardır. Ona görə də onu tutmaq mümkün olmur.

Qarabağ, I kitab, s.264-265, kont.1863*A

## 1875-1999. Uydurmalar

**1883* Tısbağa ilə qarışqa yarışır.** Qarışqa guya o qədər sürətlə gedir ki, onun yeli tısbağanı da aparır.

Qasımlı, s.97-98, kont.1960D

**1884*** Guya bir gecəyə dağı yarıb onun daşları ilə dəyirman tikir, sonra başqa dağı yarıb onun daşları ilə əvvəlki dağı bərpa edir.

Qaravəllilər (1967), s.157-159, kont.1920+1892 (= Ayrım bəzəmələri, s.79-81)

**1889R* Tarlaya dadanmış donuz.** Taxıl yiyəsinin atdığı oraq taxıl sahəsinə girmiş donuzun (tülkünün) ayağına batır, donuz qaçdıqca oraq taxılı biçir. Taxıl sahibi bu səfər daş atır. Daş donuzun dişinə dəyir, çıxan qığılcımdan taxıl alışıb yanır.

Əliyev-Xəlilov, s.288-290, kont.1920H**+1892

**1885* Axsaq fərə.** O qədər yumurtlayır ki, yumurtasını yığıb-yığışdırmaq olmur.

Bakı dialekti, s.225, kont.1960D (= Şirəliyev, s.363)

**1892 Xoruzun belində qoz ağacı bitir.**

Qaravəllilər (1967), s.157-159, kont.1920+1884* (= Ayrım bəzəmələri, s.79-81); Əliyev-Xəlilov, s.288-290, kont.1920H**; AFA, XI c., s.151-153, kont.1920H**; Qarabağ, III kitab, s.314-317, kont.1920+1960D+1654

**1920 Yalan yarışı.** Kosa ilə keçəl şərikli kökə bişirirlər. Şərt kəsirlər ki, hərə bir yalan desin, kimin yalanı böyük olsa, kökəni o yesin. Keçəl mərci udur.

Əliyev-Xəlilov, s.284-288; Qaravəllilər (1967), s.157-159, kont.1892+1884* (= Ayrım bəzəmələri, s.79-81); AFA, XVI c., s.412, kont.1920D+1960D; Qarabağ, I kitab, s.303-308, kont.1654+1892+1960D; III kitab, s.314-317, kont. 1960D+1892+1654

**1920A İki yalançı.** Yalançılardan biri nəhəng kələm yetişdirdiyini, o biri isə nəhəng qazan düzəltdiyini deyir. Birinci yalançı onun sözünə inanmadıqda deyir: “O boyda kələmin bu boyda qazanı olar”.

Qasımlı, s.105-106, kont.1960D+1960F

**1920A*** Yalançılardan biri babasının uzun yabısının (uzun şüvülünün) olduğunu, o biri yalançı isə babasının uzun bir tövləsi olduğunu deyir. Guya birinci yalançının babası öz yabısını (şüvülünü) onun babasının tövləsində saxlayırmış.

Azərb. nağ., IV c., s.192-201, kont.1119A*+1725+1654A* +1121+1753*+1358C (= Azərb. nağ. (2005), V c., s.194-203); Bakı dialekti, s.219, kont.1920D+1960E+1960N* (= Şirəliyev, s.359)

**1920D Yalançı yalan danışmayanın yalanını təsdiqləyir.** Yalan danışmayan deyir "göydə küçük zingildəyir", heç kim ona inanmır. Amma yalan danışan onun sözünü təsdiqləyir: Guya quzğun itin balasını qaldırar göyə, o da orada zingildəyər.

Bakı dialekti, s.219, kont.1920A*+1960E+1960N* (= Şirəliyev, s.359); AFA, XVI c., s.412, kont.1920+1960D

**1920H Yalan qarşılığında verilən od.** Üç qardaş od əldə etmək üçün yalan danışmalıdırlar. Böyük qardaşlar bunu bacarmır, qoca onların əl-ayağını bağlayır. Kiçik qardaş yalan danışıb onları xilas edir.

Qaravəllilər, s.136-137; s.137-141

**AT 1920H* Sən balığın dişini azalt, mən də tağın uzunluğunu.** İki yalançı söhbət edir. Biri balığın ağzında dörd yüz qırx dörd diş saydığını deyir. O biri yalançı da kədi tumu əkdiyini və hər dəfə su verdikdə onun tağının bir qədər də uzandığını, üç günə kədi tağının Binə bağlarına çatdığını deyir. Birinci yalançı ona inanmadıqda deyir: "Balığın dişin azaldırsan, azalt, azaldmason gedib bir vedrə də su verəcegəm".

Bakı dialekti, s.219-220

**1920H** Yalan qarşılığında verilən çörək.** a) Gopçu təzə bişirilən çörəkdən əldə etmək üçün yalan danışmalıdır; yaxud b) bir evə qonaq olan gopçu ev sahibinin istəyi ilə yalan danışır. Guya biçim haqqı olaraq ona çatan buğdanı birə dərisinə yığır, xoruza yükləyib evə gətirir. Xoruzun yarasını qarpız qabığı ilə bağlayır, onun belində nəhəng qarpız bitir. İtmiş bıçağını axtarmaq üçün qarpızın içərisinə girir, onu qarpız şəhərinə padşah seçirlər. Aldığı qatığın haqqını verməmdiyi üçün qatıqsatan ona şillə vurur, oradan qaçıb evə gəlir.

Əliyev-Xəlilov, s.288-290, kont.1892; AFA, XI c., s.151-153, kont.1892

**1960D Nəhəng meyvə (kələm, qarpız).** a) Kələm o qədər iri olur ki, həyətə sığmır və ya adamlar yağışdan qorunmaq üçün onun yarpağının altında gizlənirlər; b) qarpız o qədər böyük olur ki, içində yeddi qatar dəvə itir; c) nəhəng göbələk: yağışdan qorunmaq üçün onun altına sığınırlar.

Baqri, III c., s.184, kont.1960N*; Bakı dialekti, s.225, kont.1885* (= Şirəliyev, s.363); Şirəliyev, s.358-359; Qasımlı, s.97-98, kont.1883*; s.105-106, kont.1920A+1960F (= AFA, XIV c., s.301-302); AFA, XVI c., s.412, kont.1920+1920D; Qarabağ, I kitab, s.303-308, kont.1920+1892+1654; III kitab, s.314-317, kont.1920+1892+1654

**1960E Nəhəng tikililər.** Tövlənin bu başından uşaq ikən girən o başından qocalanda çıxır; yaxud atı tövlənin bu başında cütləşdirəndə o başından çıxınca bala doğur.

Hüseynov, s.161-162; Bakı dialekti, s.219, kont.1920D +1920A* (= Şirəliyev, s.359)

**1960F Nəhəng qazan.** a) Qazanın bir başında çəkiclə döyəndə o biri başında səsi eşidilmir.

Qasımlı, s.105-106, kont.1920A+1960D (= AFA, XIV c., s.301-302)

**1960N* Uzun dəyənək.** Onunla guya buludları qovur.

Baqri, III c., s.184, kont.1960D; Bakı dialekti, s.219, kont.1920D+1920A*+1960E (= Şirəliyev, s.359)

# VII. ZƏNCİRVARİ NAĞILLAR

## 2000-2199. Formulvari zəncirləmələr

### 2000-2013. Saylara və obyektlərə əsaslanan zəncirləmələr

**2008* = AT 1415 Uğursuz dəyişmə.** Kişi satmağa apardığı inəyi keçiyə, keçini xoruza, xoruzu arpaya və s. dəyişir. Axırda evə bir torba turşu ilə qayıdır.

Ağalı, s.92-93

### 2021-2024. Qəza ilə nəticələnən zəncirləmələr

**2021C* Milçəyin qarnı qaratikan koluna ilişib cırılır.** Koldan camışa, camışdan qurda, qurddan ovçuya, ovçudan siçana, siçandan pişiyə, pişikdən qarıya şikayət edir. Qarının onun xahişini yerinə yetirməsi ilə kontaminasiya əks istiqamətdə davam edir. Qarı pişiyin, pişik siçanın, siçan ovçunun, ovçu qurdun, qurd camışın üstünə gəlir. Süjet qaratikanın milçəyin qarnını tikməsi ilə tamamlanır.

Orucov-Xəlilov, s.298-301

**2021D* Quş yovşandan ayağının qanını silməsini xahiş edir.** Ondan dəvəyə, dəvədən qurda, qurddan itə, itdən atıcıya, atıcıdan pişiyə, pişikdən siçana şikayət edir. Siçanın quşun istəyini yerinə yetirməsi ilə kontaminasiya əks istiqamətdə inkişaf edir və nağıl yovşanın quşun qanını silməsi ilə tamamlanır.

Azərb. nağ., V c., s.48-49; Bakı dialekti, s.222-223 (= Şirəliyev, s.361)

**2021* = AT 1655 Cik-cik xanım.** Sərçənin ayağına tikan batır. Tikanı qarıya verib ondan çörək alır, çörəyi çobana verib qoyun alır, qoyunu toy yiyəsinə verib gəlin alır, gəlini aşığa verib saz alır. Qoz ağacının (fındıq ağacının) altında oturub saz çaldığı vaxt başına qoz düşür, sərçə canını tapşırır.

SMOMPK, XXXII burax., II şöbə, s.135-137; Azərb. nağ. (2005), I c., s.289-291(= ATS, s.466-469; = Azərb. nağ., V c., s.43-45); AFA, II c., s.383-384

**2022B Bit və birə.** Birə damdan yıxılıb ölür və ya kürəyin altında qalıb ölür. Bit başına kül ələyir, qarğa qanadını yolur, ağac yarpağını tökür, qoç buynuzunu qırır, bulaq suyunu qurudur və s.

Köçərli, s.24-27; AFK, IX c., s.293-294

**2022* Qız doğulmamış uşağının taleyi üçün ağlayır.** Ərə gedəcək, qızı olacaq, ağacdan tut yeyəndə yıxılıb öləcək. Bacı da, ana da ona qoşulub ağlayır, ata dananı kəsib doğulmamış nəvəsi üçün ehsan verir.

Qarabağ, III kitab, s.327-328

**2023 Tıq-tıq xanım.** Dozanqurdu özünə ər axtarır. Odunçu, kürəkçi ona evlənməyi təklif edir. Soruşur ki, əgər onları hirsləndirsə, onu nəylə döyərlər. Odunçunun, kürəkçinin verdiyi cavab onu razı salmır, siçanla evlənir. Dəvə ləpirinə düşüb boğulur.

Azərb. nağ., V c., s.39-42; AFA, II c., s.386-388

## 2025-2028. Yeyilmə ilə müşahidə olunan zəncirləmələr

**2028 Ac siçan.** Əlində su vedrəsi evə gedən qocanı, tovlama tovlayan gəlini, gülnaxışı tikən qızları, oyun oynayan uşaqları yeyir. Qarını da yemək istəyir. Qarı siçanı onun əvəzinə evdə hazırladığı yağlı doğramacı yeməyə razı salır. Doğramacın yerinə pişiyi ətəyinə qoyub gətirir. Pişik siçanı yeyir.

Behrəngi, s.283-285

**2030B = AT 2030B* Havacarın arasına düşmüş noxud.** Keçəl bazardan aldığı noxudu havacarın arasına salır və nəccardan havacarı söküb onun noxudunu verməsini tələb edir. Ondan xatuna, xatundan siçana, siçandan pişiyə, pişikdən itə, itdən oda, oddan yağışa şikayət edir. Yağış yağıb odu söndürür, od iti yandırır, it pişiyi dişləyir, pişik siçanı, siçan xatunu. Xatun nəccarı döyür, nəccar havacarı söküb keçəlin noxudunu verir.

AFA, II c., s.385-386

**2032 Burnu qanamış şəxs.** Siçana atdığı daş öz burnuna dəyir və burnu qanayır. Torpağa qan verir, torpaq ona ot verir; otu quzuya verir, quzu ona quyruq verir; quyruğu qarıya verir, qarı ona qoğal verir, qoğalı mollaya verir, molla ona kitab verir, kitabı Allaha verir, Allah ona əmr bağışlayır.

Qonaqkənd ləhcəsi, s.240

**2031 Buz və qarı.** Onu yıxdığı üçün qarı buzu güclü sayır. Buz günəşi, günəş buludu, bulud yağışı, yağış otu, ot qoyunu, qoyun iti, it qarını, qarı siçanı, siçan pişiyi özündən güclü hesab edir.

SMOMPK, IX burax., II şöbə, s.28-29; Köçərli, s.8-11; Behrəngi, s.391-392; CAƏA, I c., s.378-379 (= Abdullayev, s.107-108)

**2050* = AT 715A Xoruz və padşah.** Padşah xoruzun tapdığı bir şahını onun əlindən alır. Xoruz qışqırır ki, padşah ondan kasıbdır. Padşah pulu geri qaytarır. Xoruz qışqırır ki, padşah ondan qorxur. Padşah xoruzu bişirtdirir, xoruz iti bıçaq altında, qaynar qazanda, padşahın qarnında da qışqırır. Axırda padşahın qarnı partlayır, xoruz xilas olur.

SMOMPK, IX burax., II şöbə, s.30-31; Azərb. nağ., V c., s.56-57; Köçərli, s.6-7; Hüseynzadə, s.6-7; CAƏA, IV c. s.337; AFA, II c., s.380-382

**2060* = AT 1534A Padşah asdırmaq üçün başı balaca boynu yoğun adam axtarır.** Loğmanla şəyirdi hər şeyin eyni qiymətə satıldığı şəhərə gəlir. Oğru hasardan yıxılıb ayağını sındırır, hasarı hündür tikdirdiyinə görə bağ sahibini tutub dara çəkmək istəyirlər. Bağ sahibi bənnanı, bənna şəyirdi, şəyird yoldan keçən qadını, qadın zərgəri günahlandırır. Zərgərin başı balaca, boynu yoğun olduğundan kəndirə gəlmir. Onun yerinə şəyirdi dara çəkmək istəyirlər. Loğman onu xilas edir.

Azərb. nağ., V c., s.135-138 (= Azərb. nağ. (2005), IV c., s.256-259); AXS, s.6-7; AFA, XIII c., s.281-283; XVIII c., s.138-140; AFK, III c., s.161-166; VIII c., s.308-310

## 2200-2249. Epik zəncirləmələr

## 2300-2399. Başqa zəncirvari nağıllar.

## VIII. BAHADIRLIQ NAĞILLARI

**2501** Oğurlanmış şəxsin xilas edilməsi.

**2501*A Oğurlanmış qızın xilas edilməsi.**

I. a) Odunçunun arvadı dərvişin tüpürcəyindən uşağa qalır, qaşlarından başqa bədəninin heç bir hissəsi görünməyən bir uşaq dünyaya gətirir; yaxud b) bağbanın arvadı yediyi ceyran ətindən uşağa qalır, yarı insan, yarı ceyran şəklində bir övlad dunyaya gətirir. Dərvişin və ya şahzadə qızın köməyi ilə qəhrəman assimmetrik vəziyyətdən çıxarılır.

II. Dərviş padşahın qızını oğrulayıb günbatan tərəfdə iki dağın arasındakı quyuya atır. Qızı xilas etməyə gedən qəhrəman meşədə qarşısında manqal kitab oxuyan qocaya rast gəlir. Ondan aldığı qılıncın köməyi ilə dərvişi öldürüb qızı xilas edir.

III. a) Dərviş qızı tilsimə saldığından onun zahiri görkəmi dəyişmiş olur. Qəhrəman ilanlar padşahının qızının ətini əldə edir, əti qızın sifətinə çəkməklə onu tilsimdən çıxarır. Yaxud b) qız başqa bir şəhərin padşahı tərəfindən qaçırılır. Qəhrəman padşahı öldürüb qızı xilas edir və onunla evlənir

Azərb. nağ., I c., s.17-31 (= Azərb. nağ. (2005), II c., s.5-20); I c., s.218-235 (= Azərb. nağ. (2005), II c., s.192-211)

**2501*B Kəl Həsən.** Odunçunun arvadı odun şələsinin üstündə yumurtlayan quşun yumurtasını içib uşağa qalır, alt çənəsi quş ürəyinə oxşayan bir övlad dünyaya gətirir. İki yaşında ikən artıq uşağın ayağı yer tutur, bir yaşında böyük adamlar kimi yeriyir. Kaşkaş pəhləvanın oğurladığı şahzadə qızı xilas etməyə gedir. Kaşkaş pəhləvanı, onun qardaşı Bəlğ pəhləvanı öldürüb qızı xilas edir. Padşah onu zəhərləyib yeddi

dağın arxasına atdırır. Simurq quşu öz südündən içirdib onu sağaldır. Kəl Həsən padşahı öldürüb onun qızı ilə evlənir.

Azərb. nağ., I c., s.189-201 (= Azərb. nağ. (2005), II c., s.162-175)

**2501*C Soltan İbrahim.** Yeddibaşlı div padşahın qızını oğurlayır. Qızı xilas etməyə gedən qəhrəman göyərçinlərin verdiyi yarpağı əzib onun suyunu Simurq quşunun qanadına çəkməklə onu sağaldır, əvəzində quş onu yeddibaşlı divin məkanına gətirir. Divi, onun qardaşlarını öldürüb qızı xilas edir və onunla evlənir.

Azərb. nağ., II c., s.329-341 (= Azərb. nağ. (2005), III c., s.248-262)

**2501*D Qara Kəkil.** Yeddiqardaş div padşahın xəzinəsini və hərəmxanadakı qızları oğurlayıb aparır. Üç qardaş onları axtarır. Üç yolayrıcına çıxırlar, bıçaqlarını bir daşın altına qoyub hərəsi bir yolla gedir. Kiçik qardaş divi öldürüb qızları xilas edir. Qardaşları onun ayağını kəsir, özünü isə quyuya atırlar. Göyərçinlərin verdiyi lələklə ayaqlarını sağaldıb qardaşlarından qisas alır.

Əliyev-Xəlilov, s.77-85

**2501E* Təpəgöz oğlan.** Qəhrəman təpəgöz şəklində dünyaya gəlir. Aravadı qara div tərəfindən oğurlanır. Atasından miras qalmış paslı qılıncla divi öldürüb arvadını xilas edir.

Əliyev-Xəlilov, s.261-262

**2502*A Qardaş oğurlanmış bacısını axtarır.**

I. Günün Tufan divdən bir oğlu olur, qızı Şəms onların izdivasına qarşı çıxdığı üçün uşağı Süleyman tacirin yolu üstünə atır; tacir həmin uşağı övladlığa götürür.

II. Tufan div Süleyman tacirin qızını oğurlayıb Qaf dağında tilsimə salır. Qəhrəman bacısını axtarmağa gedir. Ağ divi öldürüb cinlər padşahının qızını xilas edir. Onun köməyilə Qaf dağına gəlir və bacısını xilas edir.

Azərb. nağ., III c., s.37-68 (= Azərb. nağ. (2005), IV, s.38-70)

**2502*B Ayğır Həsən.** Əş-Əş div şəhərdən kənarda pencər yığan qızı qaçırdıb Qülzəmi-Qafa aparır və onunla evlənmək istəyir. Qız iyirmi səkkiz yaşı dolana qədər ondan möhlət alır. Ana gölməçədən su içib uşağa qalır və doğulan uşaqda bəzi at nişanələri olur. Bacısının oğurlandığını öyrənib onu xilas etməyə gedir. Zümrüd quşu Əş-əş divin məkanını ona nişan verir. Divi öldürüb bacısını xilas edir.

Əlizadə (1929), s.113-130, kont.301+300; Azərb. nağ., III c., s.149-160, kont.301+300 (= Azərb. nağ. (2005), IV c., s.128-140)

**2505*A Padşahın əcəli yeni doğulacaq oğlan uşağındandır.**

I. Padşah rəml atdırır və a) rəiyyət içindən, b) padşah nəslindən doğulacaq oğlan uşağının onu taxtdan salacağını öyrənir. Yazını pozmaq üçün yeni doğulan oğlan uşaqlarının öldürülməsini əmr edir. Bağbanın oğlu sağ qalır və Simurq quşunun himayəsində böyüyür.

II. Qəhrəman şəkildə gördüyü Xan-xani-çinin qızı Pəridux xanıma aşiq olur və onun dalınca gedir. Qızını qəhrəmana vermək istəməyən Xan-xani-çin onu öldürməyə çalışır: a) yeməyinə zəhər qatır, b) Ocıbınıx padşahın üstünə göndərir. Qəhrəman bu sınaqlardan uğurla çıxır, Xan-xani-çini öldürüb onun qızı ilə evlənir. Öz məmləkətinə qayıdan qəhrəman Dəşgüvar şahı öldürüb onun yerinə taxta çıxır.

Azərb. nağ., I c., s.32-59 (= Azərb. nağ. (2005), II c., s.21-48); V c., s.217-226, kont.301; Axundov, I c., s.101-130; s.172-186

**2505*B Musa və Firon.**

I. a) Firon yuxuda yeni doğulacaq oğlan uşağının onu öldürəcəyini görür; yaxud b) falçılar Nuşirəvan şaha yeni doğulacaq oğla uşağının onu öldürəcəyini xəbər verirlər. Firon (Nuşirəvan şah) yeni doğulan oğlan uşaqlarının öldürülməsini əmr edir.

II. a) Bir qadın yeni doğulan oğlunu Fironun adamlarının əlinə keçməməsi üçün çaya atır. Firon uşağı oğulluğa götürür, saqqalını yolduğuna görə onu öldürmək istəyir. Arvadı ona sübut edir ki, uşaq bunu şüurlu şəkildə etməyib (Müqayisə et: SUS 920E* ). Yaxud b) ana oğlunu kahaya atır. Uşağın baş barmağından iki göz açılır, birindən su, o birindən süd gəlir. Uşaq onunla qidalanır.

III. Qəhrəman məbədə qarovulçu düzəlir. Gecə taxtadan düzəldilmiş allahları qırır, baltanı da baş allahın çiyninə qoyur ki, elə təsəvvür eləsinlər allahları o qırıb. Daha sonra Fironu öldürüb onun yerinə taxta çıxır.

Ağalı, s.79-83, kont.995**; AFA, IX c., s.74-78; Qarabağ, I kitab, s.245-247

**2505C* Padşahın əcəli yeni doğulacaq qız uşağındandır.** Münnəcim Qoquz padşahın yuxusunu yozur və yeni doğulacaq qız uşağının onu öldürəcəyini xəbər verir. Padşah təzə anadan olan qız uşaqlarını öldürtdürür. Vəzir satın aldığı sandığın içindən çıxan qızı övladlığa götürür. Qıza aşiq olan padşah onunla evlənmək istəyir. Qoquz padşahdan qaçan qız pəhləvan qiyafəsində başqa ölkəyə gəlir, bağbanın oğluna aşiq olur. Onunla birlikdə Qoquz padşahı öldürüb onun yerinə taxta çıxır.

Azərb. nağ. II c., s.174-188 (= Azərb. nağ. (2005), II c., s.146-161)

**2518* Qız atası və ya əmisi ilə nikahdan qaçır.** a) Qız atası ilə nikahdan qaçır və pəhləvan qiyafəsində başqa şəhərə gəlir. Hər gecə gizlin evi tərk edib atası ilə döyüşə gedir. Bağbanın oğlu üzünü niqabla gizləyib onu təqib edir. Onunla güləşir, kürəyini yerə vuranda başındakı dəbilqə düşür və qız olduğu üzə çıxır. Yaxud b) qız əmisi ilə nikahdan qaçıb bağbanın evinə sığınır. Hər iki variantda süjet qızın atasını öldürməsi və bağbanın oğlu ilə evlənməsi ilə tamamlanır.

Azərb. nağ., I c., s.253-268 (= Azərb. nağ. (2005), II c., s.230-245); II c., s.353-360 (= Azərb. nağ. (2005), III c., s.272-279)

**2519*A Nişanlısı əlindən alınmış gənc.** Dəryadan tutulan sandığın içindən bir qız, bir oğlan çıxır, balıqçı onları övladlığa götürür. Padşah oğlanı zindana atdırır, qızı isə özü ilə evlənməyə razı salmaq istəyir, amma müsbət cavab ala bilmədiyi üçün qarının əli ilə onu və oğlanı itə döndərir. Padşahın qızı pəhləvan qiyafəsində başqa şəhərə gəlir və aşbaz yanında şəyird işləyir. Atasını öldürür, qarının qanını küçüklərin üstünə tökməklə onları əvvəlki şəklinə qaytarır.

Azərb. nağ., II c., s.5-22 (= Azərb. nağ. (2005), III c., s.5-23)

**2523*B Nişanlısı əlindən alınmış qul.** Balığın qarnındakı küçüyün qanı xəstə padşaha dərman deyilir. Qul küçüyü və onun sahibi dünya gözəlini gətirir. Dünya gözəlinə aşiq olan padşah onunla evlənmək istəyir, qız razılıq vermədikdə onu bir mağaraya həbsə atır. Qulu isə yeməyinə bihuşdarı qatıb zindan salır. Qul zindandan çıxır, dünya gözəlini xilas etmək üçün hər gün padşahla müharibə edir. Başqa bir qadın-

dan bir oğlu olur, onun köməyi ilə Yəmən padşahını öldürüb dünya gözəlini xilas edir.

Axundov, II c., s.52-72

**2525* Döşü tüklü nökər:** Xanın nikah tapşırıqlarını yerinə yetirir: a) dəyirman daşını üç dəfə göyə atıb tutur, b) Nil çayından qızıl balıq gətirir. Xan, qızının qaçırıldığını bəhanə edib qəhrəmanı divlərin üstünə göndərir. Yolda nişanlısı əlindən alınmış gənclə qarşılaşır və ondan aldadıldığını öyrənir. Gənci öz nişanlısına qovuşdurur, daha sonra xanı öldürüb onun qızı ilə evlənir.

Azərb. nağ., II c., s.290-298 (= Azərb. nağ. (2005), III c., s.227-235)

**2527* Şah İsmayıl.**

I. a) Ova çıxmış qəhrəman dağın döşündə yaşayan qırx qardaşın qalaçasına rast gəlir; yaxud b) qəhrəman yeddi qardaşın bacısına aşiq olur və onun dalınca gedir. Divlərlə (düşmən padşahla) döyüşən qardaşlara kömək edir, onun sayəsində qardaşlar divləri məğlub edir və öz bacılarını ona ərə verirlər.

II. Ata oğlunu öldürüb gəlinini ələ keçirmək istəyir, bu məqsədlə onun gözlərini çıxartdırır, özünü isə quyuya atdırır. Qəhrəman qarğanın gətirdiyi dirilik suyu ilə, yaxud göyərçinlərin verdiyi lələklə gözlərini sağaldır və atasını öldürərək onun yerinə taxta çıxır.

SMOMPK, III burax., II şöbə, s.112-118, kont.301B+300; s.131-134; VII burax., II şöbə, s.109-120, kont.590+302 (= ATS, s.110-124); AKD, s.131-139; İsmayılov, s.167-169; NFA, III c., s.118-126, kont.301B+302

**2528* Qolunda qırx kəlin gücü olan kişi.** Allah qəhrəmanın istəyi ilə onun qolundakı gücü alır. Səfərə çıxan qəhrəman dağın döşündə çadırda yaşayan qıza rast gəlir. Qızın qardaşının başqa bir padşahla müharibə etdiyini öyrənib ona kömək edir: özünü qoca görkəminə salır, nəzarətçilərə bihuşdarı qatılmış halva verib oğlanın sevdiyi qızı qaçırdır. Qızın atası onları təqib edir, qızını və onu istəyən oğlanın başını kəsib onları bir qəbirdə dəfn edir (Bax: 970). Sonradan bu hadisəni peyğəmbərə danışır və həmin gənclərin yenidən dirilməsinə nail olur: Peyğəmbər ağzının tüpürcəyindən gənclərin boynuna çəkməklə onları dirildir.

Qarabağ, I kitab, s.179-181

**2530* Şirzad.** Padşahı öldürüb taxtı ələ keçirən vəzir onun arvadını və yeni doğulmuş oğlunu da öldürmək istəyir. Uşaq xilas olur və şirin himayəsində böyüyür. Axırda vəzirdən atasının qisasını alır.

Azərb. nağ., I c., s.112-120, kont.551+525* (= Azərb. nağ. (2005), II c., s.102-110); s.269-290, kont.412 (= Azərb. nağ. (2005), II c., s.246-268); Seyidov, s.80-83; AFA, IX c. s.232-236, kont.551+525*; AFK, X c., s.259-261

**2540* Oğul atanı əsirlikdən xilas edir.** Böyük qardaş kiçiyi quyuya salıb taxt-tacı ələ keçirir. Quyudan xilas olan qəhrəman dərviş qiyafəsində başqa ölkəyə gəlir. Müəyyən sınaqlara məruz qalır: içki məclisinə aparılır, pəhləvanlarla güləşdirilir və əsilzadə olduğu üzə çıxır. Düşmən qoşununa qarşı vuruşur, əsir düşür. Oğlu onu əsirlikdən qurtarır.

Azərb. nağ., II c., s.135-156, kont.301B+303 (= Azərb. nağ. (2005), III c., s.110-131)

**2541* Əsir düşmüş padşah.** Vəzir padşahın yuxusunu yozur, onun əsir düşəcəyini və rəiyyətin içindən doğulan üç uşağın onu əsirlikdən qurtaracağını xəbər verir. Uşaqlar qeyri-adi əlamətlərlə doğulur. Padşah onları valideynlərindən satın alıb saraya gətirdir. Axırda onun yuxusu gerçəkləşir.

Axundov, II c., s.39-51; s.247-251

**2543* Uşaq pəhləvan.** Firəng qoşununa qarşı vuruşur. Əsir düşür, qolundakı zəncirləri qırıb əsirlikdən xilas olur.

Azərb. nağ., IV c., s.130-135 (= Azərb. nağ. (2005), V c., s.130-135)

**2550* Demonik varlıqların qaçırdığı şəxs.** Qardaşlar növbə ilə alma ağacının keşiyini çəkirlər. Div kiçik qardaşı oğurlayır. Divlərin arasında böyüyən qəhrəman onları o qədər incidir ki, axırda onu dərya kənarına (cəzirəyə) atırlar. Gərgədanı (dördayaqlı, altı gözlü canavarı) at əvəzinə minir. Nağıl qəhrəmanın qardaşını tapması ilə tamamlanır.

Axundov, II c., s.214-219; Bayat, s.229-235

**2551* Divbeçə.** Ayın on beş günü div, on beş günü insan şəklində olur. Padşahın qızını qaçırdır, ondan bir oğlu olur. Uşaq on beş gününü dolduranda qız ona torpaq yedirdir, sonra döşündən süd verir, uşaq həmişəlik insan şəklini alır. Atasını öldürür, anasını da götürüb insanların arasına qayıdır. Babasının yerinə taxta çıxır.

Qasımlı, s.133-136

**2556* Təpəgöz.** Padşah palazın arasında alnının ortasında bir gözü olan uşaq tapır və onu övladlığa götürür. Gündə ona iki adam qurban verilir. Qəhrəman şirin köməyi ilə Təpəgözü öldürüb camaatı onun zülmündən xilas edir.

Azərb. nağ., V c., s.227-231; Axundov I c., s.216-225; AFA, IX c., s.158-161

**2560*A Kürd Hüseyn.** Bir sahibkarın qoyunlarını otarır. Dərviş onun həddən artıq böyük cüssəsini görüb deyir: “Mənim belə əzələlərim olsaydı, Şah İsmayıla pəhləvan olardım”. Qəhrəman ona çatan qoyunları satıb Şah İsmayıla xidmət etməyə gedir. Onun tələbi ilə bütpərəstlər ölkəsinə gedir. Yolda suyun qabağını kəsmiş əjdahanı öldürür və bütpərəst qoşununu məğlub edib onları islam dininə gətirir.

SMOMPK, XLII burax, II şöbə, s.157-165

**2560*B Kürd Hüseyn.** Şah Abbasın yeddi ilin bac-xəracını almaq üçün Təbriz hökmdarının üstünə göndərdiyi pəhləvanı öldürür. Daha sonra Şah Abbasa qulaqburması vermək üçün İsfahana yola düşür.

Axundov, I c., s.5-21 (= Azərb. nağ., 1982 s.14-28)

**2560*C Kürd Hüseyn və Əyyar Mirzə.** Şah Abbasın tələbi ilə bütpərəst padşahı Buxtunasın bacısını gətirməyə gedirlər. Qarşılarına çıxarılan pəhləvanları məğlub edirlər. Buxtunasa bacısını oda atıb yandırmağa imkan vermirlər: onu öldürüb qızı xilas edirlər. Şah Abbas bütpərəst ölkəsinə rəhbərliyi onlara tapşırır.

SMOMPK, XXI burax, II şöbə, s.60-68

**2563* Bilici gəlmiş qəhrəman.** Anasının bətnində ikən danışmağa başlayır, dünya gəldikdən sonra mamaçadan çay istəyir, ona atasının yediyi yeməkdən bişirmələrini tələb edir. İlxıdakı atın ayağı səkil erkək balası olacağını xəbər verir. Düşmən padşahın sualına cavab verir: daşdan köynək tik. Kürdəmir padşahına nəvəsi olacağını xəbər verir və adını Şöhrət qoymalarını tapşırır. Həmin uşaq dünyaya gəldikdən sonra dünyasını dəyişir.

AFA, XVI c., s.211-224, kont.679*

# IX. COĞRAFİ GÖSTƏRİCİ

**Ağbaba:** 307H, 318, 400*A, 408, 411*, 451B*, 525*, 558*, 884B, 911, 945**, 1091, 1199, 1368*, 1444***

**Ağcabədi:** 212, 280B*, 451B*, 460A, 460*, 460C*, 465C, 750K*, 751, 750İ*, 760**A, 760**B, 776**A, 777**, 807*B, 821***, 827*, 845A*, 875, 875İ*, 881, 882, 921, 922E*, 934G*, 934G**, 956*C, 1000, 1120, 1132, 1370A*, 1537

**Ağdam:** 207A, 294*, 311A*, 400, 400*A, 559, 566, 661*, 670, 750J*, 751, 757, 763, 771**, 776*, 798*, 798***, 834**, 841A*, 846*, 847*, 893*A, 921F, 929*, 929***, 930, 934G***, 950, 976B*, 976*A, 983*, 1202, 1341A, 1441B, 1525G, 1525N, 1525S*, 1525V*, 1535*, 1539G*, 1542A*, 1577, 1618*, 1654, 1696, 1920, 1960D, 2505*

**Ağdaş:** 21, 33, 35B, 54, 62, 112***, 117, 155, 156B, 157*, 214A, 214B, 215*, 275, 280C*, 280D*, 280E*, 285B**, 292*, 300, 315A, 318, 400*A, 400*C, 407, 412, 449, 450, 451B*, 460A, 465C, 480, 510A, 516, 545B, 590, 670, 670*, 670**, 670****, 679*, 731*, 733*, 750B, 750B*, 750J*, 751C*, 755A, 756*, 757*, 759A*, 759*, 760, 760A*, 760B*, 760C*, 770**, 771*, 771**, 771***, 772*, 772**, 774D*, 774D**, 774D***, 777*, 777***, 776*, 780D*, 782, 783*, 795, 798*, 798**, 807**, 810*, 821A, 827, 827*, 828, 830*, 834**, 838*, 838**, 839, 839C*, 839D*, 841, 841A*, 846*, 847*, 848*, 854A*, 901*, 910B, 912*A, 921C**, 921F, 921H*, 922F*, 925*A, 925*B, 925**, 930, 930A, 930K*, 930L*, 934A, 934B, 934G**, 945,

951A, 983*, 984**, 984***, 993*, 1060, 1135, 1137, 1143A, 1164, 1199, 1240, 1313A, 1380, 1405, 1423, 1525Z*, 1533, 1539A*, 1539B*, 1539E*, 1539G*, 1542A*, 1590A, 1620, 1641A*, 1687, 1696, 1713*, 1730, 1920

**Ağstafa:** 782**, 831C, 844, 934*

**Artsevanik:** 327D*, 451B*, 485A*, 516D*, 532, 882, 900*

**Astara:** 408, 950, 1525G, 1538*

**Axaltsıx:** 400, 480, 936, 1641

**Babək:** 15, 883C, 901*

**Bakı:** 1B*, 2, 38A*, 38B*, 113B*, 302B, 408, 509*, 516, 516E*, 525*, 532, 545B, 550, 560, 566, 610A*, 879, 880, 888A, 510B, 900*, 925*A, 925**, 936, 976, 976A, 983, 986, 1000, 1060, 1380, 1381*, 1398*, 1539E*, 1541, 1643, 1933*, 1960D, 1960O*, 2501*A, 2501*C, 2502*B, 2505*A, 2518*, 2525*

**Beyləqan:** 997*

**Bərdə:** 155, 178C*, 279, 300, 301, 301B, 315A, 432, 437, 449, 514*, 517, 550, 558*, 559, 653A, 661*, 679*, 750*, 751, 769*, 770*, 770**, 807*B, 810*, 828*, 834B*, 840*B, 868*, 878*B, 895*, 910B, 922, 922A*, 922**, 926, 926A*, 926*A, 926*B, 930, 930L*, 938D*, 950, 976*A, 976*B, 986, 1406A*, 1534, 1535*, 1525G, 1696, 1862G*, 1863*D

**Borçalı:** 51*, 410*, 449, 460A, 460B, 465A, 465C, 507C, 513A, 514, 546*, 550, 558*, 559, 590, 653A, 661*, 706C, 707B, 779E*, 783*, 798*, 834A, 841, 844, 875*, 893*A, 895*, 895**, 910B, 910D, 923, 936, 945**, 950, 995*, 1135, 1358B, 1406A*, 1525G, 1534, 1536, 1538, 1651, 1730

**Cəbrayıl:** 35B, 122A, 122J, 212, 437, 449, 450, 509*, 513A, 517, 531, 559, 653A, 661*, 670, 671C**, 740, 750D, 750K*, 760B*, 776*, 780D*, 798*, 806*, 807*A, 827*, 831C, 834**, 836F,

839*B, 844, 910B*, 915B*, 922A*, 922F*, 926, 938, 930, 930A, 934B, 934G***, 936, 951, 951A, 976*A, 981, 983*, 986, 997***, 1013, 1120, 1132, 1641, 1654, 1667*, 1892, 1920, 1960D, 1862D*, 1862E*, 1862*H, 2527*

**Cəlilabad:** 411, 507C, 561, 661*, 770**, 798*, 834*, 865*, 893B*, 920B*, 926C***, 926*B, 927**, 930, 1000A*, 1164, 1405, 1862C, 1863*A,

**Cənubi Azərbaycan:** 1B*, 2, 38B*, 38C*, 44, 122A, 126, 126A, 219E**, 300, 304, 311, 325, 325A*, 400*A, 400*B, 400*C, 425L, 433B, 449, 449A*, 450, 460, 465C, 465E*, 467, 480, 510A, 513A, 546*, 566, 590B*, 613, 706C, 709, 715, 770**, 869*, 883A, 879, 921*, 925*B, 956*D, 994**, 1060, 1149A*, 1370A, 1430B*, 2031, 2050*,

**Culfa:** 706C, 873, 875D, 875H*, 986, 925*B, 929*

**Daşkəsən:** 509*, 931

**Dərbənd:** 301*, 312D, 807**

**Dilican:** 303, 327A

**Şirvan:** 301, 302, 412, 437, 456, 525*, 531A*, 551, 560*B, 582*, 864*, 895**, 896*, 926C**, 986*, 1426, 2530*

**Əsgəran:** 437

**İmişli:** 911, 930

**İrəvan:** 525*, 561, 755A, 807**, 945, 976*A, 976*B

**İsmayıllı:** 513A

**Xankəndi:** 879

**Xızı:** 327B, 531

**Gəncə:** 178C*, 302, 325, 400, 402, 410*, 411, 425, 425D, 460A, 465C, 467, 470B, 480, 510A, 513A, 514, 516, 525*, 530, 546*, 550, 560, 566, 612, 670, 679*, 750D, 770*, 782, 806*, 831C, 857*, 881, 883A, 887*, 893, 893*A, 898*, 909*, 910C, 928***, 929**, 930, 934*, 938, 960A*, 976B*, 981, 982*, 990, 1381*, 1396*, 1398*, 1405, 1405A*, 1536B, 1537, 1641, 1643, 1654, 1681A, 1696, 1725, 1730, 1753*, 1862C, 1862D, 1862F*, 1862G*, 1863A*, 1863*B, 2541*, 2543*

**Gorus:** 178A, 178D*, 300, 301B, 312D, 507C, 509*, 545B, 566, 821*B, 834C, 916, 921*, 925*A, 925**, 976A, 936, 1000, 1137, 1355C*, 1530, 1542B*, 1753

**Göyçay:** 316*, 400, 408B*, 449, 450, 465C, 502, 507C, 509*, 516E*, 517, 533, 554, 559, 653A, 670, 770**, 828*, 881, 936, 938, 945, 950, 976B*, 1370A, 1405, 1525G, 1641B

**Goranboy:** 560*A, 863*, 1526C

**Göyçə:** 433B, 451B*, 514, 550, 560, 566, 821*B, 859*, 921*, 1000, 1137

**Füzuli:** 1B*, 2, 20, 37, 38A*, 38B*, 60, 80A, 122A, 122J, 126, 126A, 181, 210, 214A, 225, 300, 301, 301C*, 302B, 303, 305, 326, 337*, 400*A, 400*B, 400*C, 412, 428, 465C, 514, 516D*, 516E*, 517, 530, 532, 545B, 550, 557*, 561, 575, 706C, 707A, 776**B, 785A, 836F, 846*, 862, 878*B, 881, 883A, 989*, 900*, 910D, 920*, 956*A, 974, 993*, 1000, 1013, 1060, 1120, 1132, 1137, 1405, 1457, 1149A*, 1625*, 1626, 2021*, 2022*, 2550*

**Göyçə:** 130, 178A, 178C*, 178D*, 300, 301, 304, 305, 311, 317*, 325A*, 332, 400, 400*A, 400*B, 410, 412, 449, 450, 451B*, 465C, 480, 480D*, 507C, 509*, 510A, 513A, 531, 533, 545B, 560D*, 670, 679*, 707A, 782**, 807*A, 821*B, 834B*, 859G*, 881, 895*, 910C, 911A*, 923A, 925*A, 926*B, 926*B, 930, 930A*, 936, 938, 938C*, 956*B, 960, 960A*, 976, 981, 983, 993*, 1199, 1355C*, 1444**, 1502*B, 1540, 1620, 1681A, 1753

**Kəlbəcər:** 750K*, 780D*, 945*, 1863*A

**Kərkük:** 55A*, 122A, 123, 178C**, 551, 560, 678, 835*, 875, 875A, 875D, 875H*, 983, 1164, 1240, 1313A, 1533, 2021*, 2028, 2030B, 2050*,

**Laçın:** 51, 61, 157, 203, 212, 278, 301, 315A, 327C, 332,

400*A, 451B*, 465C, 516, 532, 571B, 707A, 707B, 715, 751A, 841, 862, 881, 883A, 895*, 895**, 910D, 910E, 922, 922G*, 928*, 930, 1119A*, 1426, 1541, 1667*

**Lənkəran:** 301, 303, 507C, 507*, 782, 828, 834C*, 841, 873, 875D, 878*B, 888A, 895*, 895**, 911, 983*, 1398*, 1060, 1644A*

**Masallı:** 159B, 437, 844*, 895**, 901*, 929***, 1164, 1381*, 1430B, 1529

**Masis:** 103C, 782, 989*, 928**, 929****, 982***

**Naxçıvan:** 300, 300B, 301, 301B, 303, 304, 311, 318, 325A*, 327A, 327B, 316*, 400, 408, 410*, 428, 437, 449, 507C, 510A, 516D*, 525*, 530, 531, 532, 533, 538*, 545B, 550, 566, 567, 582, 590, 613, 706C, 707A, 707B, 821*A, 821*B, 852, 861, 869*, 880, 883A, 895*, 921F, 921*, 925*A, 926*A, 936, 938, 950A*, 995*, 1060, 1115, 1180, 1355A*, 1397*, 1426, 1538, 1538*, 1540, 1541, 1640, 1653, 1692

**Oğuz:** 215*, 281*, 426M, 437, 670, 755A, 756C, 707A, 828*, 831C, 915B*, 926C***, 930A, 934G*, 938, 960A*, 983*, 1164, 1862*İ

**Ordubad:** 409, 960A*, 982***, 1060, 2540*

**Qafan:** 300, 301, 400, 402, 449, 507C, 516D*, 525*, 545B, 560, 707B, 770**, 879A*, 974, 976, 986, 1368*, 1380, 1641

**Qars:** 76**, 117, 155, 301, 303, 305, 316*, 400, 402, 408, 412, 451B*, 485, 531, 560, 566, 613A*, 651*B, 653A, 675, 706C, 707A, 707B*, 852, 873, 875D, 891, 895*, 923, 925***B, 930, 936, 945, 950, 1000, 1120, 1132, 1180, 1181, 1381*, 1535, 1539E*, 1537, 1542A*, 1600, 1600A*, 1641, 1643

**Qazax:** 2, 20, 21, 35B, 38B*, 75, 76, 117, 123, 157, 178C*, 300, 301, 302, 302C*, 305, 315A, 327A, 400B, 400*B, 400*D, 408, 410*, 428, 433*,

449, 450, 451B*, 465C, 480, 507C, 510A*, 514, 516D*, 530, 531, 532, 538*, 555, 559, 560, 566, 571, 653A, 661*, 670, 679*, 707A, 730*, 751C, 770*, 781*A, 781*B, 782**, 806*, 831C, 844, 852, 861, 878*B, 883A, 895*, 910B, 930, 931, 934*, 936, 950, 976B*, 989*, 1000, 1060, 1115, 1120, 1164, 1352A, 1355C*, 1396*, 1525S**, 1538, 1752*, 1756*

**Qax:** 56A, 157, 122A, 122J, 123, 480E*, 2021*

**Qəbələ**: 300, 301, 315A, 326, 531, 550, 707B, 798***, 930, 938

**Quba:** 47A, 437, 559, 675*, 661*, 678, 831C, 911, 929***, 998*A, 1135, 1199,

**Qəmərli:** 895**

**Quba:** 559, 661*, 678, 998*A

**Qubadlı:** 15, 20, 21, 33, 60, 92, 123, 126, 126A, 155, 181, 183*, 225, 285D, 300, 301, 315A, 400*B, 337*, 410*, 412, 437, 449, 451B*, 465C, 480, 513A, 514, 531A*, 531B*, 545B, 546*, 559, 562, 566, 567, 613, 661*, 670, 733*, 738, 839*A, 841, 860B, 878*A, 879A*, 910K, 928*, 938, 993*, 994*, 994**, 998*B, 1000, 1032*, 1137, 1164, 1384, 1406, 1538, 1540, 1641, 1863*A, 1863*B, 2021D*, 2021*, 2050*, 2502*A, 2502*B

**Sabirabad:** 300, 590, 678, 968A*, 1060

**Sisiyan:** 679*

**Şahbuz:** 302, 408, 411, 425N, 465C, 554, 754, 807**, 925****, 926C***, 928*, 976B*, 1060, 1365B

**Şamaxı:** 61, 155, 301, 302, 302B*, 302C*, 325, 400*C, 402, 437, 450, 451B*, 456*, 460A, 465C, 480E*, 531, 545B, 546*, 559, 561, 590, 613A*, 615*, 661*, 670, 671*, 672D, 707B, 807*A, 828, 835**, 852, 875, 875E, 883A*, 893, 910B*, 926*A, 926*B, 930, 930A, 945*, 982***, 983*, 984*, 997*, 1000, 1060, 1099*, 1115, 1120, 1132, 1149A*, 1313A, 1525S**, 1530, 1535, 1537, 1540, 1541,

1542A*, 1696, 1751*, 1752*, 1842, 1960D, 1960N*

**Şəki:** 55A*, 62, 117, 155, 209*, 285E, 295, 300, 301, 302, 305, 402, 411, 400*B, 426M, 437, 449, 460A, 930, 465C, 507**, 525*, 532, 538*, 545B, 546*, 554, 559, 566, 613, 707A, 750J*, 759*, 759**, 772*, 774D*, 783*, 807**, 830C*, 839, 839**, 841, 844* 868*, 883A*, 875*, 925*A, 930, 938, 981, 1164, 1535, 1538, 1539A*, 1539B*, 1641, 1643, 1653

**Şəmkir:** 178A, 178C*, 178D*, 325, 450, 451B*, 575, 740, 916, 1534

**Şərur:** 155, 311, 465C, 485, 516E*, 530, 533, 550, 560, 672*A, 750D, 875, 893, 921**, 926*A, 926*B, 928*, 930A, 956B, 982***, 995**, 997**, 989*, 1000, 1029, 1060, 1132, 1376B, 1530, 1538, 1538*, 1696,

**Şuşa:** 302, 312D, 465E*, 480, 510A, 530, 590, 751C*, 770*, 873, 882, 910B, 910C, 910D, 912A*, 929**, 930A, 934, 950, 982*, 982**, 1000, 1115, 1120, 1353, 1526D, 1526S*, 1530, 1534, 1539D*, 1654, 1730

**Tərtər:** 750D*, 750İ*, 756C, 760**A, 798**, 830*, 839*B, 934H*

**Tovuz:** 301, 304, 449, 513A, 879**, 911, 922A*, 1032*, 1360C, 1625*

**Ucar:** 1013, 1653

**Vedi:** 560, 798*, 893A*, 910B, 983, 1000, 1013, 1029, 1120, 1132, 1405, 1533, 1534, 1537, 1592, 1592A, 1641

**Zaqatala-Qax:** 56A, 157, 285D, 301, 332, 332B, 760B**, 861, 1199, 1535, 1537, 1542A*

**Zəngilan:** 75, 178C*, 178D*, 302, 316*, 400*A, 460A, 516E*, 545B, 554, 670*, 679*, 707A, 807*A, 846*, 868*, 881, 910K, 926, 930, 934H*, 950, 990, 1049, 1381, 1381*, 1525G, 1641, 1651, 2022*

**Zərdab:** 35B, 571B, 893***

# X. KONTAMİNASİYALARIN SİYAHISI

Burada iki və daha artıq nağılda rast gəlinən süjet birləşmələri verilib. Daha geniş yayılmış kontaminasiyalar digərlərindən fərqləndirilmək üçün qara şriflə göstərilib. Kontaminasiyalar verilərkən süjetlərin nağıllardakı ardıcıllığı gözlənilməyə çalışılıb.

1B*+2+38A*+38B*+20
20+21+33
60+225+37+154
122A+122J
122A+122C+122K+122J
**126+126A**
155+1164
207A+670
**300+303**
**301+300**
304+449
304+316*+302
305+412
305+303
311+533
312D+530
316*+554+302
318+300
318+301+300
**327A+538*+532**
327B+531
332+1199
337*+663*+554
337*+400*B+400*C+449
**400+936**
400*C+910B+561
400*B+1137+337*
**402+400+449**
402+936+400
411+425
411+561
425L+956*D+433B+449A*
449+400*B+839*A
**465C+513A**
**465C+554**
**465C+807*A**
**465E*+513A**
470B+612+881
**480+510A**
**485+936**
502+554
507C+327B

**514+410***
**516+525***
516+525*+893+893*A
516+1654
**530+302**
**530+302B**
538*+532
545B+1049
545+1149A*
550+326
550+449
550+326
552C*+807**
**559+653A+661***
**559+661*+653A+976*A**
**560+566**
560*A+864*
**567+566**
582*+926C**
590B*+304
590B*+300+303
615*+672D
670+670*
670****+751C+332
679*+178C*
707A+883A*
751+750İ*
766+835***+839*B+779*
**770**+828***
781*A+781*B
783*+923*
798*+763
798*+983
806*+844
806*+831C+844A*
807*A+760B*
821**+928*
828+807**
834**+1535*
841A*+400*B+400*D
875D+873
875D+798*
875İ*+882
878*B+425M
883A*+707A
895**+895*
912*A+934G**
**916+178C*+178D*+178A**
922A*+1667*
**976A+925**+925*A**
926C**+582*+968A*
929**+928***
930A+934B
**950+1525G**
950+1538+1525G
956*B+509*+938C*+400*B
974+993*
976A+925**+925*A+976A
981+806*+831C
986+936
986+910B
986+509*

986+1651
988*+922*+920B**
989*+770**
990+770**
990+1651
993*+724
994**+400*B+733*+449
1000+1032*
1000+1129+1132+1120+1013
+1537
1013+1653
**1060+1115**
**1060+1149A***
**1261**+1681A**
1355A*+1537
1355C*+1525S**+1554*
1360C+956*A
1368*+1380+1726
1384+1540
1405+1641B
1406A*+449+936
1406A*+514*+449+976*B
1423+1539A*+1539A*
1423+1539A*+1538A*
1426+895*
1525V*+1525N+1525S*
1535+1542A*
1535+1537+1542A*
1537+1535+1542A*
1539D*+1539G*
1539F*+1538A*
1641+1164
**1643+1653**
1643+1600
1730+1536B
1730+1754*
1920+1892+1960D+1654
2502*B+301+300
2540*+301B+303

# XI. AZƏRBAYCAN VƏ TÜRKİYƏ NAĞIL SÜJETLƏRİNİN MÜQAYİSƏLİ CƏDVƏLİ

Aşağıda Eberhard-Boratav göstəricisi ilə bizim tərtib etdiyimiz göstəricidəki süjetlərin qarşılaşdırmalı siyahısı verilib. Boz sütunda süjetlərin EB göstəricisindəki, ağ sütunda isə bizim göstəricidəki nömrəsi verilib. Məsələn, EB göstəricisindəki 2 nömrəli süjet bizim göstəricidə 227, 13 nömrəli süjet isə 157 nömrəli süjetə uyğun gəlir. Qarşılığı olmayan süjetlər cədvəldə – (tre) işarəsi ilə göstərilib. EB göstəricisində nağıllardan əlavə lətifələrə və qeyri-nağıl örnəklərinə də təsadüf edilir. Onların bir çoxunun Azərbaycanda qarşılığı olduğundan həmin süjetlər cədvəldə + (üstəgəl) işarəsi ilə göstərilib.

| Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə |
|---|---|---|---|---|---|
| 1 | – | 16 | – | 31 | – |
| 2 | 227 | 17 | – | 32 | – |
| 3 | 35B+0 | 18 | 70 | 33 | 2050* |
| 4 | 275 | 19 | 2021* | 34 | 545B |
| 5 | 1B*+2+0 | 20 | 20C | 35 | – |
| 6 | 15+0 | 21 | 2023 | 36 | 546* |
| 7 | – | 22 | – | 37 | – |
| 8 | 123 | 23 | – | 38 | – |
| 9 | 56A | 24 | 2021 | 39 | – |
| 10 | – | 25 | – | 40 | 154 |
| 11 | 126+126A | 26 | – | 41 | – |
| 12 | – | 27 | 2030B | 42 | – |
| 13 | 157 | 28 | 2031 | 43 | – |
| 14 | – | 29 | – | 44 | + |
| 15 | 103 | 30 | 2022B | 45 | – |

| Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə |
|---|---|---|---|---|---|
| 46 | – | 75 | – | 104 | 425L |
| 47 | – | 76 | 551 | 105 | – |
| 48 | 155 | 77 | 513A | 106 | 433B |
| 49 | 285D | 78 | – | 107 | – |
| 50 | – | 79 | – | 108 | 590 |
| 51 | + | 80 | – | 109 | – |
| 52 | 1352A | 81 | 531 | 110 | 750D |
| 53 | – | 82 | – | 111 | 783* |
| 54 | 715 | 83 | 400 | 112 | 332 |
| 55 | 150 | 84 | – | 113 | 899 |
| 56 | 670 | 85 | 409A | 114 | 759 |
| 57 | 672*A | 86 | 402 | 115 | – |
| 58 | 560 | 87 | 402 | 116 | – |
| 59 | – | 88 | – | 117 | 470* |
| 60 | 510A | 89 | 408 | 118 | – |
| 61 | 554 | 90 | 432 | 119 | 800*A |
| 62 | 507C | 91 | – | 120 | 400*B+612 |
| 63 | 559 | 92 | 425D | 121 | – |
| 64 | – | 93 | – | 122 | – |
| 65 | 160 | 94 | – | 123 | 834A |
| 66 | – | 95 | 425Q* | 124 | 930A |
| 67 | 509* | 96 | 425D | 125 | 461 |
| 68 | – | 97 | 514 | 126 | 460B |
| 69 | 675 | 98 | 428 | 127 | 460A |
| 70 | 555 | 99 | 552C* | 128 | – |
| 71 | – | 100 | 679* | 129 | – |
| 72 | 301+300 | 101 | – | 130 | – |
| 73 | 530 | 102 | – | 131 | 842 |
| 74 | – | 103 | – | 132 | – |

| Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə |
|---|---|---|---|---|---|
| 133 | – | 161 | 327C | 189 | – |
| 134 | – | 162 | 1060+ 1115 | 190 | – |
| 135 | 841 | 163 | – | 191 | 879* |
| 136 | 938 | 164 | – | 192 | 879+891 |
| 137 | 883C | 165 | – | 193 | – |
| 138 | – | 166 | 451B* | 194 | – |
| 139 | 460C | 167 | 709 | 195 | 881 |
| 140 | 930K* | 168 | 450 | 196 | 934E |
| 141 | 960 | 169 | 325 | 197 | 921* |
| 142 | 931 | 170 | – | 198 | 936 |
| 143 | – | 171 | 678 | 199 | 854A* |
| 144 | – | 172 | – | 200 | – |
| 145 | – | 173 | – | 201 | 516 |
| 146 | 1137 | 174 | 567 | 202 | – |
| 147 | 315A | 175 | 566 | 203 | – |
| 148 | 315A | 176 | – | 204 | 449 |
| 149 | – | 177 | – | 205 | 400*C+ 456*+ 400*B |
| 150 | – | 178 | 555 | 206 | 550 |
| 151 | – | 179 | 676 | 207 | 465E* |
| 152 | – | 180 | 561 | 208 | – |
| 153 | 956B | 181 | – | 209 | – |
| 154 | 706C | 182 | 862 | 210 | 974 |
| 155 | – | 183 | – | 211 | – |
| 156 | 887* | 184 | – | 212 | – |
| 157 | 311 | 185 | 437 | 213 | 304+302 |
| 158 | – | 186 | – | 214 | 516+525* |
| 159 | – | 187 | 891A | 215 | – |
| 160 | 327B | 188 | – | 216 | 302 |

| Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə |
|---|---|---|---|---|---|
| 217 | 465C | 248 | – | 279 | 895* |
| 218 | 552A | 249 | – | 280 | – |
| 219 | 562 | 250 | – | 281 | – |
| 220 | 305 | 251 | – | 282 | – |
| 221 | – | 252 | – | 283 | – |
| 222 | 861 | 253 | 613 | 284 | 326 |
| 223 | 878*A | 254 | – | 285 | – |
| 224 | 976 | 255 | – | 286 | – |
| 225 | – | 256 | 986 | 287 | – |
| 226 | – | 257 | 538* | 288 | 700 |
| 227 | – | 258 | 532 | 289 | 976*A |
| 228 | – | 259 | – | 290 | 661* |
| 229 | – | 260 | 896* | 291 | 653A |
| 230 | – | 261 | – | 292 | – |
| 231 | 888A | 262 | – | 293 | 1592A |
| 232 | – | 263 | 1380 | 294 | 920* |
| 233 | – | 264 | 1536B | 295 | + |
| 234 | – | 265 | – | 296 | 1534 |
| 235 | 875D | 266 | – | 297 | 1534 |
| 236 | – | 267 | 860B | 298 | 927$A_1$ |
| 237 | – | 268 | 1730 | 299 | – |
| 238 | – | 269 | – | 300 | – |
| 239 | 707B | 270 | 1441B | 301 | 920** |
| 240 | 533 | 271 | 1406 | 302 | – |
| 241 | – | 272 | 882 | 303 | – |
| 242 | 782 | 273 | 1360C | 304 | 1370A |
| 243 | – | 274 | 1539E* | 305 | 878** |
| 244 | 510B | 275 | 1426 | 306 | – |
| 245 | 883A | 276 | – | 307 | 990 |
| 246 | 706 | 277 | – | 308 | 910 |
| 247 | 531B* | 278 | – | 309 | 1736A |

| Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə | Eberhard Boratav | İlkin Rüstəm zadə |
|---|---|---|---|---|---|
| 310 | – | 334 | + | 358 | 1920 |
| 311 | 1641 | 335 | – | 359 | 1725 |
| 312 | – | 336 | + | 360 | 1538*+ 1515G |
| 313 | 910C | 337 | – | 361 | – |
| 314 | 769* | 338 | + | 362 | 1600A* |
| 315 | 910D | 339 | 1540+ 1542A* | 363 | 852 |
| 316 | – | 340 | – | 364 | 1538B* |
| 317 | 1640 | 341 | 1525C | 365 | 1640 |
| 318 | 1355C* | 342 | 950+1525G | 366 | 869* |
| 319 | – | 343 | 1525E | 367 | – |
| 320 | – | 344 | 951A | 368 | + |
| 321 | + | 345 | 1577 | 369 | 956B |
| 322 | + | 346 | 1525G | 370 | 1502** |
| 323 | 1013+1643 | 347 | 925***A | 371 | 1405 |
| 324 | 1653A | 348 | 925**+ 925*A | 372 | 1381A |
| 325 | 1000 | 349 | 1654 | 373 | 1600A* |
| 326 | 1692 | 350 | 868* | 374 | 884B |
| 327 | 1681A | 351 | 1539C*+ 1539A*+ 1539B*+ 1542*A | 375 | 1544 |
| 328 | 1696 | 352 | 1530+ 1542B* | 376 | – |
| 329 | + | 353 | 1654 | 377 | 1164 |
| 330 | 1712* | 354 | – | 378 | – |
| 331 | 1384 | 355 | – | | |
| 332 | – | 356 | – | | |
| 333 | 1398*+ 1381* | 357 | 1000+ 1132 | | |

**İlkin Rüstəmzadə.**
Azərbaycan nağıllarının süjet göstəricisi
(Aarne-Tompson sistemi əsasında).
Bakı: «Elm və təhsil», 2013.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru
**Nigar Həsənova**

Kompyuterdə yığdı:
**Tünzalə Məmmədova**

Korrektor:
**Ülkər Ələkbərova**

Kompyuter tərtibatçısı:
**Ramin Abdullayev**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı N1
Həcmi: 368 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.